Xalqın qəzeti!

# Xalq qəzeti

№ 261 (30955) 11 dekabr 2025-ci il, cümə axşamı

Gündəlik ictimai-siyasi qəzet

1919-cu ildən çıxır

Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsi

# Azərbaycan dövlətinin aqrar siyasəti kəndi tərəqqiyə qovuşdurur

## Prezident İlham Əliyev “John Deere” şirkətinin Mərkəzi Asiya və MDB ölkələri üzrə prezidentini qəbul edib



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev dekabrın 10-da “John Deere” şirkətinin Mərkəzi Asiya və MDB ölkələri üzrə prezidenti, “John Deere Walldorf International” MMC-nin Baş icraçı direktoru Ksaba Leykonu qəbul edib.**

Söhbət zamanı Azərbaycanda kənd təsərrüfatının geniş potensialının olduğu vurğulanaraq, bu sahənin inkişafı ilə bağlı dövlət səviyyəsində həyata keçirilən işlər qeyd olundu.

“John Deere” şirkətinin ölkəmizdə uğurla fəaliyyət göstərdiyini deyən qonaq əməkdaşlığı genişləndirməkdə maraqlı olduqlarını bildirdi, Azərbaycanda pambıqçılıq sənayesi ilə bağlı irəli sürdükləri layihə barədə məlumat verdi.

Ksaba Leykon Bakıda şahidi olduğu inkişafın onda dərin təəssürat hissi yaratdığını dedi.

Görüşdə Azərbaycanla şirkət arasında əməkdaşlığın perspektivləri müzakirə olundu, təhsil və təlim mərkəzinin yaradılması, qarşılıqlı təcrübə, suvarma, logistika, pambıq və taxıl istehsalı dəyər zəncirinin rəqəmsallaşdırılması məsələləri ətrafında fikir mübadiləsi aparıldı.

Qeyd edək ki, 1837-ci ildə ABŞ-da qurulmuş “John Deere” kənd təsərrüfatı, tikinti və meşəçilik avadanlıqlarının istehsalı ilə məşğul olan qlobal miqyasda aparıcı şirkətlərdən biridir. Şirkətin əsas fəaliyyət sahələrinə traktor, kombayn, pambıqyığan maşınların istehsalı daxildir. Ötən il ümumi gəliri 52 milyard ABŞ dollarına yaxın olan “John Deere”in 30-dan çox ölkədə zavodları və ofisləri fəaliyyət göstərir.

## Rumıniya–Azərbaycan strateji münasibətləri yeni mərhələdə



**Azərbaycanın xarici siyasətində Avropa ölkələri ilə münasibətlər xüsusi çəkiyə malikdir. Bu bir həqiqətdir ki, Avropanın ən böyük bazarlarından biri olan Rumıniya ilə Azərbaycan arasında münasibətlər möhkəm təməllər üzərində qurulub və qarşılıqlı etimada əsaslanır. Onların arasında müsbət məcrada siyasi dialoq inkişaf edərək strateji tərəfdaşlıq səviyyəsinə yüksəlmişdir. Rumıniya Azərbaycan üçün Cənub–Şərqi və Mərkəzi Avropaya açılan qapı olduğu kimi, Buxarest üçün də Bakı Cənubi Qafqaza, Xəzər dənizi hövzəsinə və Mərkəzi Asiya regionuna açılan qapıdır. Hər iki ölkəni və xalqı təkcə onların bu günü deyil, eyni zamanda, keçmişi və gələcəyi də birləşdirir.**

*(ardı 17-ci səhifədə)*

## Əməkdaşlıq yaxşıdır, amma...

*Brüssel–İrəvan yaxınlaşmasının Cənubi Qafqazda sülh prosesinə təsiri*



**Aİ-nin Cənubi Qafqazdakı hərəkət trayektoriyasını anlamaq üçün Brüsseldə keçirilmiş 6-cı Ermənistan–Aİ Tərəfdaşlıq Şurasına texniki diplomatik protokol kimi baxmaq kifayət deyil. Çünki görüşdə qəbul edilən “Strateji tərəfdaşlıq gündəliyi” regionun mövcud güc balansına gözəgörünən şəkildə yeni xətt çəkdi. İlk baxışdan, Aİ ilə Ermənistan arasında imzalanmış sənəd Bakı ilə heç bir formada bağlı deyil, iki dövlətin ikitərəfli münasibətlərinə dair adi siyasi çərçivədir. Lakin Cənubi Qafqazda heç bir ikitərəfli addım, əslində, iki tərəfin öz münasibətlərinin hüdudunda qalmır. Hər addım regionun üç əsas aktoru üzərində birbaşa təsir yaradır.**

*(ardı 14-cü səhifədə)*

## Aİ-Ermənistan: tərəfdaşlıq, yoxsa təxribat gündəliyi?

*Rəsmi İrəvan nəticə çıxarmalıdır*

**Əlbəttə, Aİ-nin Ermənistanı anti-Rusiya cəbhəsinin səngərinə çevirmək niyyətindən xəbərdarıq. Dekabrın 2-də bu niyyətin “Avropa İttifaqı-Ermənistan tərəfdaşlığı üçün strateji gündəlik” adlı təzahürünü gördük. Əvvəl elə sandıq ki, sənəd yalnız İrəvanı müxtəlif səviyyələrdə dəstəkləmək və Paşinyan iqtidarını 2026-cı ilin parlament seçkilərinin qalibinə çevirmək məqsədi güdür. Yəni mövcud hay hakimiyyəti qalib gəlməlidir ki, Ermənistan yenidən Rusiyanın peykinə çevrilməsin. Anlaşılandır.**

*(ardı 13-cü səhifədə)*



## Amerika Birləşmiş Ştatlarının Prezidenti Zati-aliləri cənab Donald Trampa

**Hörmətli cənab Prezident!**

Səmimi məktubunuza görə Sizə dərin təşəkkürümü bildirirəm. Xoş sözlərinizi, sülh və sabitlik naminə səylərimizə dair fikirlərinizi yüksək qiymətləndirirəm.

Münaqişələrin həllinə davamlı sadiqliyiniz, dialoqun irəlilədilməsində şəxsi iştirakınız və dünyanın müxtəlif bölgələrində gərginliyin azalmasına verdiyiniz töhfələr qəti inamıma görə, Nobel Sülh Mükafatı da daxil olmaqla, ən yüksək beynəlxalq tanınmaya tam layiqdir. Sizin qətiyyəti və məsuliyyəti rəhbər tutan liderliyiniz qlobal sülhün təşviqi uğrunda əsl xidmətin nümunəsidir.

Əminəm ki, davamlı dialoq və əməkdaşlıq vasitəsilə tərəfdaşlığımız ölkələrimizdə və onun hüdudlarından kənarda da sülhün, təhlükəsizliyin və rifahın möhkəmlənməsinə xidmət edəcəkdir.

Məktubunuzda ifadə olunan qarşılıqlı hörmət ruhuna və diqqətinizə görə səmimi minnətdarlığımı qəbul etməyinizi xahiş edirəm.

**Dərin hörmətlə,**

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 10 dekabr 2025-ci il**

## Keniya Respublikasının Prezidenti Zati-aliləri cənab Uillyam Samoei Rutoya

**Hörmətli cənab Prezident!**

Keniya Respublikasının milli bayramı – Müstəqillik Günü münasibətilə Sizi və Sizin simanızda bütün xalqınızı öz adımdan və Azərbaycan xalqı adından ürəkdən təbrik edir, ən xoş arzularımı çatdırıram.

Azərbaycan-Keniya münasibətlərinin hazırkı inkişaf səviyyəsi məmnunluq doğurur. Biz böyük potensiala malik dövlətlərarası əlaqələrimizin inkişafına, müxtəlif sahələrdə, xüsusilə də energetika, kənd təsərrüfatı, sənaye və digər sahələrdə əməkdaşlığımızın genişlənməsinə böyük önəm veririk.

Sentyabr ayında Nyu-Yorkda Sizinlə səmimiyyət və qarşılıqlı etimad şəraitində keçən görüşümüzü ən xoş təəssüratlarla xatırlayıram. İnanıram ki, xalqlarımızın maraqlarına uyğun olaraq və mövcud imkanlardan istifadə edərək birgə səylərimizlə dostluq əlaqələrimizin möhkəmlənməsinə, həm ikitərəfli, həm də çoxtərəfli əsasda qarşılıqlı səmərəli əməkdaşlığımızın dərinləşməsinə nail olacağıq.

Bu bayram günündə Sizə möhkəm cansağlığı, xoşbəxtlik, işlərinizdə uğurlar, dost xalqınıza daim əmin-amanlıq və rifah diləyirəm.

Hörmətlə,

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 9 dekabr 2025-ci il**

## Britaniya ilə ticarət 2 dəfə çoxalıb



Səhifə ⇨ 16

## Gürcüstanın Azərbaycan dizelinə tələbatı artır




Səhifə ⇨ 15

## “Odlar yurdu”nun cənnət məkanları dünyaya gəl-gəl deyir



Səhifə ⇨ 23

## Prezident İlham Əliyev Birləşmiş Krallığın elçisini qəbul edib



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev dekabrın 10-da Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığının Azərbaycan Respublikası üzrə ticarət elçisi Lord Olderdaysı qəbul edib.**

Lord Olderdays Azərbaycanla Ermənistan arasında sülh gündəliyinin irəli aparılması ilə bağlı Vaşinqtonda əldə olunmuş nəticələr münasibətilə dövlətimizin başçısını təbrik etdi.

Təbriklərə görə təşəkkürünü bildirən Prezident İlham Əliyev Azərbaycanla Ermənistan arasında razılaşmaların əldə olunmasının tarixi əhəmiyyətinə toxunaraq, bu məsələdə Prezident Donald Trampın rolunu xüsusi vurğuladı. Dövlətimizin başçısı Azərbaycanın sülh gündəliyinin təşəbbüskarı kimi onun irəli aparılması üçün bundan sonra da səylərini davam etdirəcəyini bildirdi və sülh şəraitinin regionun iqtisadi potensialının inkişafına töhfəsinə toxundu.

Prezident İlham Əliyev Azərbaycanla bp şirkəti arasında 30 ildən artıq davam edən uğurlu əməkdaşlığı qeyd etdi.

Söhbət zamanı Azərbaycanla Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığı arasında strateji tərəfdaşlıq, dostluq və etimada əsaslanan münasibətlərin uğurla inkişaf etdiyi vurğulandı, siyasi, iqtisadi, ticarət, investisiya, enerji, o cümlədən bərpaolunan enerji, müdafiə sənayesi, təhsil və digər sahələrdə əməkdaşlığın genişləndirilməsi üçün böyük potensialın olduğu qeyd edildi. İkitərəfli əlaqələrimizin dərinləşdirilməsində müxtəlif səviyyəli qarşılıqlı səfərlərin əhəmiyyətinə toxunuldu.

Böyük Britaniya şirkətlərinin Azərbaycanın işğaldan azad olunmuş ərazilərində aparılan bərpa və quruculuq işlərində iştirak etməklə bu məsələyə töhfəsi məmnunluqla qeyd olundu.

***AZƏRTAC***

## “Azərbaycan Biznesinin İnkişafı Fondu” publik hüquqi şəxsin yenidən təşkili və bununla əlaqədar Azərbaycan Respublikası Prezidentinin bəzi fərmanlarında dəyişiklik edilməsi haqqında

### *Azərbaycan Respublikasının Prezidentinin Fərmanı*

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, ölkə iqtisadiyyatının davamlı inkişafına və rəqabət qabiliyyətinin artırılmasına yönəlmiş uzunmüddətli və irimiqyaslı layihələrin həyata keçirilməsi üçün dayanıqlı və çevik biznes yönümlü maliyyələşdirmə sisteminin formalaşdırılması məqsədilə **qərara alıram:**

**1.** Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyinin tabeliyindəki “Azərbaycan Biznesinin İnkişafı Fondu” publik hüquqi şəxs Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyinin (bundan sonra – Nazirlik) tabeliyində “Azərbaycan Biznesinin İnkişafı Fondu” Açıq Səhmdar Cəmiyyətinə çevrilmə yolu ilə yenidən təşkil edilsin.

**2.** “Azərbaycan Biznesinin İnkişafı Fondu” Açıq Səhmdar Cəmiyyətinin Nizamnaməsi” təsdiq edilsin *(əlavə olunur)*.

**3.** Müəyyən edilsin ki:

3.1. “Azərbaycan Biznesinin İnkişafı Fondu” Açıq Səhmdar Cəmiyyəti (bundan sonra – Cəmiyyət) “Azərbaycan Biznesinin İnkişafı Fondu” publik hüquqi şəxsin hüquqi varisidir və onun hüquq və öhdəlikləri, habelə əmlakı Cəmiyyətə keçir;

3.2. Cəmiyyət iqtisadiyyatın qeyri-neft/qaz sektorunun inkişafını dəstəkləyən, sahibkarlığın maliyyə təminatını gücləndirən, investisiyaların təşviqi və sahibkarlığa dəstək mexanizmlərinin inkişafını təmin edən və vəsaitini müəyyən olunmuş qaydada yerləşdirməklə dövlətin iqtisadi inkişaf prioritetlərinə xidmət edən dövlətə məxsus kommersiya hüquqi şəxsidir;

3.3. Cəmiyyətin fəaliyyətinə ümumi rəhbərliyi və nəzarəti həyata keçirmək üçün sədr də daxil olmaqla 5 (beş) üzvdən ibarət Müşahidə Şurası yaradılır;

3.4. Cəmiyyətin fəaliyyətinə cari rəhbərliyi 5 (beş) üzvdən – Müşahidə Şurası tərəfindən vəzifəyə təyin və vəzifədən azad edilən sədr və onun 4 (dörd) müavinindən ibarət İdarə Heyəti həyata keçirir.

**4.** Cəmiyyətin ümumi yığıncağının səlahiyyətlərinin həyata keçirilməsi aşağıdakılara həvalə edilsin:

4.1. Azərbaycan Respublikasının Prezidentinə:

4.1.1. Cəmiyyətin yenidən təşkili və ləğvi;

4.1.2. Cəmiyyətin nizamnaməsinin təsdiqi və nizamnamə kapitalının miqdarının müəyyən edilməsi, onlarda dəyişiklik edilməsi;

4.1.3. Cəmiyyətin icra orqanının yaradılması;

4.1.4. Cəmiyyətin Müşahidə Şurasının sədrinin və digər üzvlərinin vəzifəyə təyin və vəzifədən azad edilməsi;

4.2. Nazirliyə:

4.2.1. Cəmiyyətin xalis aktivlərinin dəyərinin 25 (iyirmi beş) faizindən artıq məbləğdə olan əqdin (xüsusi əhəmiyyətli əqdin), eləcə də müstəqil auditorun rəyi ilə aidiyyəti şəxslə dəyəri Cəmiyyətin aktivlərinin 5 (beş) faizini və daha çox hissəsini təşkil edən əqdin bağlanılması haqqında qərar qəbul edilməsi;

4.3. Müşahidə Şurasına:

4.3.1. bu Fərmanın 4.1-ci və 4.2-ci bəndlərində qeyd edilənlər istisna olmaqla, Azərbaycan Respublikasının Mülki Məcəlləsi ilə səhmdarların ümumi yığıncağının səlahiyyətlərinə aid edilmiş digər məsələlərin həlli.

**5.** Cəmiyyət “Hüquqi şəxslərin dövlət qeydiyyatı və dövlət reyestri haqqında” Azərbaycan Respublikasının Qanunu ilə müəyyən edilmiş qaydada dövlət qeydiyyatına alındığı günədək “Azərbaycan Biznesinin İnkişafı Fondu” publik hüquqi şəxs fəaliyyətini davam etdirsin.

**6.** Azərbaycan Respublikasının Nazirlər Kabineti:

6.1. bu Fərmanın 1-ci və 2-ci hissələri nəzərə alınmaqla, normativ hüquqi aktların təkmilləşdirilməsi ilə bağlı təkliflərini üç ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

6.2. bu Fərmandan irəli gələn digər məsələləri həll etsin.

**7.** Nazirlik:

7.1. Cəmiyyətin dövlət qeydiyyatına alınması üçün 3 (üç) gün müddətində “Hüquqi şəxslərin dövlət qeydiyyatı və dövlət reyestri haqqında” Azərbaycan Respublikasının Qanunu ilə müəyyən edilmiş qaydada tədbirlər görsün;

7.2. Cəmiyyət “Hüquqi şəxslərin dövlət qeydiyyatı və dövlət reyestri haqqında” Azərbaycan Respublikasının Qanunu ilə müəyyən edilmiş qaydada dövlət qeydiyyatına alındığı gündən 1 (bir) ay müddətində “Azərbaycan Biznesinin İnkişafı Fondu” publik hüquqi şəxsin balansında olan dövlət əmlakının Cəmiyyətin balansına verilməsi ilə bağlı tədbirlər görsün;

7.3. iqtisadiyyatın tələbləri nəzərə alınmaqla, Azərbaycan Respublikası Prezidentinin 2024-cü il 23 dekabr tarixli 258 nömrəli Fərmanı ilə təsdiq edilmiş “Azərbaycan Biznesinin İnkişafı Fondunun vəsaitindən istifadə Qaydası”nın 1.3.1-ci yarımbəndində göstərilən güzəştli şərtlərlə digər maliyyələşmə mexanizmlərinin tətbiqi imkanlarını öyrənsin və nəticəsindən asılı olaraq təkliflərini Azərbaycan Respublikasının Nazirlər Kabinetinə təqdim etsin;

7.4. bu Fərmandan irəli gələn digər məsələlərin həlli üçün zəruri tədbirlər görsün.

**8.** “Dövlət əmlakının qorunub saxlanılması və səmərəli istifadə edilməsinin təkmilləşdirilməsi haqqında” Azərbaycan Respublikası Prezidentinin 2007-ci il 6 iyun tarixli 586 nömrəli Fərmanına (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2007, № 6, maddə 599 (Cild I); 2024, № 5 (I kitab), maddə 529; 2025, № 1, maddə 26, № 4 (I kitab), maddə 333) aşağıdakı məzmunda 8-3-cü hissə əlavə edilsin:

“8-3. Bu Fərmanın müddəaları “Azərbaycan Biznesinin İnkişafı Fondu” Açıq Səhmdar Cəmiyyətinin öz əmlakına və onun tərəfindən hüquqi şəxslərin yaradılması və yenidən təşkili, hüquqi şəxslərdə iştirak paylarının (səhmlərin) əldə edilməsi vasitəsilə investisiya qoyuluşu etdiyi təsərrüfat cəmiyyətlərinə və digər hüquqi şəxslərə münasibətdə tətbiq edilmir.”.

**9.** “Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyinin maddi-texniki bazasının yaxşılaşdırılması, Aparatının və regional bölmələrinin işçilərinin sosial müdafiəsinin gücləndirilməsi ilə bağlı əlavə tədbirlər haqqında” Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 27 dekabr tarixli 446 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018, № 12 (I kitab), maddə 2603 (Cild I); 2024, № 12 (II kitab), maddə 1364) 2.1-ci bəndində “10” rəqəmləri “vergilər ödənildikdən sonra 5” sözləri ilə, “90” rəqəmləri “95” rəqəmləri ilə əvəz edilsin.

**10.** “Sahibkarlığın inkişafına dövlət dəstəyi sahəsində idarəetmənin təkmilləşdirilməsi haqqında” Azərbaycan Respublikası Prezidentinin 2021-ci il 11 oktyabr tarixli 1461 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2021, № 10, maddə 1105 (Cild I); 2024, № 12 (II kitab), maddə 1364) 3-cü və 4-cü hissələri ləğv edilsin.

**11.** “Azərbaycan Biznesinin İnkişafı Fondunun fəaliyyətinin təmin edilməsi və bununla əlaqədar Azərbaycan Respublikası Prezidentinin bəzi fərmanlarında və sərəncamlarında dəyişiklik edilməsi haqqında” Azərbaycan Respublikası Prezidentinin 2024-cü il 23 dekabr tarixli 258 nömrəli Fərmanında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2024, № 12 (II kitab), maddə 1364) aşağıdakı dəyişikliklər edilsin:

11.1. 1-ci hissə ləğv edilsin;

11.2. həmin Fərmanla təsdiq edilmiş “Azərbaycan Biznesinin İnkişafı Fondunun vəsaitindən istifadə Qaydası”nın 1-ci hissəsində aşağıdakı dəyişikliklər edilsin:

11.2.1. 1.2-ci bənddə “qeyri-neft” sözləri “qeyri-neft/qaz” sözləri ilə əvəz edilsin;

11.2.2. 1.3.3-cü yarımbənddə “8.1.5-ci” sözləri “8.1.5−8.1.7-ci” sözləri ilə əvəz edilsin;

11.2.3. 1.4-cü bənd üzrə:

11.2.3.1. birinci abzasda “Aşağıdakıları əhatə etməklə, bu” sözləri “Bu” sözü ilə və həmin abzasın sonunda iki nöqtə işarəsi nöqtə işarəsi ilə əvəz olunsun, həmin abzasa “tələbləri” sözündən əvvəl “və Fondun Nizamnaməsinin” sözləri əlavə edilsin;

11.2.3.2. 1.4.1–1.4.3-cü yarımbəndlər ləğv edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 10 dekabr 2025-ci il**

## R.R.İsmayılovun Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin Ədliyyə Akademiyasının rektoru təyin edilməsi haqqında

### *Azərbaycan Respublikası Prezidentinin Sərəncamı*

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

**1.** Rövşən Rəhim oğlu İsmayılov Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin Ədliyyə Akademiyasının rektoru təyin edilsin.

**2.** Bu Sərəncam imzalandığı gündən qüvvəyə minir.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 10 dekabr 2025-ci il**

## Ş.M.Əliyevin Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin Ədliyyə Akademiyasının rektoru vəzifəsindən azad edilməsi haqqında

### *Azərbaycan Respublikası Prezidentinin Sərəncamı*

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

**1.** Şahin Məhərrəm oğlu Əliyev Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin Ədliyyə Akademiyasının rektoru vəzifəsindən azad edilsin.

**2.** Bu Sərəncam imzalandığı gündən qüvvəyə minir.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 10 dekabr 2025-ci il**

## 2026-cı ildə növbəti “Yüksəliş” müsabiqəsinin keçirilməsi ilə bağlı tədbirlər və “Yüksəliş” müsabiqəsinin təsis edilməsi haqqında” Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 26 iyul tarixli 1354 nömrəli Sərəncamında dəyişiklik edilməsi barədə

### *Azərbaycan Respublikası Prezidentinin Sərəncamı*

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

**1.** 2026-cı ildə növbəti “Yüksəliş” müsabiqəsinin keçirilməsi ilə bağlı cari işlərin görülməsi üçün Azərbaycan Respublikasının 2025-ci il dövlət büdcəsində nəzərdə tutulmuş Azərbaycan Respublikası Prezidentinin ehtiyat fondundan Azərbaycan Respublikasının Gənclər və İdman Nazirliyinə 1 000 000 (bir milyon) manat ayrılsın.

**2.** Azərbaycan Respublikasının Maliyyə Nazirliyi bu Sərəncamın 1-ci hissəsində nəzərdə tutulan maliyyələşməni təmin etsin.

**3.** “Yüksəliş” müsabiqəsinin təsis edilməsi haqqında” Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 26 iyul tarixli 1354 nömrəli Sərəncamı ilə yaradılmış Təşkilat Komitəsi bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

**4.** “Yüksəliş” müsabiqəsinin təsis edilməsi haqqında” Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 26 iyul tarixli 1354 nömrəli Sərəncamının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019, № 7, maddə 1293 (Cild I) 2-ci hissəsində “əmək və əhalinin sosial müdafiəsi” sözləri “maliyyə” sözü ilə və “Direktorlar Şurasının” sözləri “İdarə Heyətinin” sözləri ilə əvəz edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 10 dekabr 2025-ci il**

*Azərbaycan Respublikası Prezidentinin*
*2025-ci il 10 dekabr tarixli Fərmanı ilə təsdiq edilmişdir*

## “Azərbaycan Biznesinin İnkişafı Fondu” Açıq Səhmdar Cəmiyyətinin Nizamnaməsi

**1. Ümumi müddəalar**

1.1. Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyinin tabeliyindəki “Azərbaycan Biznesinin İnkişafı Fondu” Açıq Səhmdar Cəmiyyəti (bundan sonra – Cəmiyyət) “Azərbaycan Biznesinin İnkişafı Fondu” publik hüquqi şəxsin yenidən təşkili və bununla əlaqədar Azərbaycan Respublikası Prezidentinin bəzi fərmanlarında dəyişiklik edilməsi haqqında” Azərbaycan Respublikası Prezidentinin 2025-ci il 10 dekabr tarixli Fərmanına əsasən Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyinin tabeliyindəki “Azərbaycan Biznesinin İnkişafı Fondu” publik hüquqi şəxsin çevrilmə formasında yenidən təşkili yolu ilə yaradılmışdır. Cəmiyyət Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyinin tabeliyindəki “Azərbaycan Biznesinin İnkişafı Fondu” publik hüquqi şəxsin hüquqi varisidir.

1.2. Cəmiyyət iqtisadiyyatın qeyri-neft/qaz sektorunun inkişafını dəstəkləyən, sahibkarlığın maliyyə təminatını gücləndirən, investisiyaların təşviqi və sahibkarlığa dəstək mexanizmlərinin inkişafını təmin edən və vəsaitini müəyyən olunmuş qaydada yerləşdirməklə dövlətin iqtisadi inkişaf prioritetlərinə xidmət edən (bundan sonra – müvafiq sahə) dövlətə məxsus kommersiya hüquqi şəxsidir.

1.3. Cəmiyyət öz fəaliyyətində Azərbaycan Respublikasının Konstitusiyasını, Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələri, Azərbaycan Respublikasının qanunlarını, Azərbaycan Respublikası Prezidentinin digər fərmanlarını, həmçinin sərəncamlarını, Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərar və sərəncamlarını, Azərbaycan Respublikasının digər normativ hüquqi aktlarını və bu Nizamnaməni rəhbər tutur.

1.4. Cəmiyyətin strukturunu Cəmiyyətin aparatı, idarə, filial və nümayəndəlikləri, törəmə təsərrüfat cəmiyyətləri təşkil edir.

1.5. Cəmiyyətin müstəqil balansı, əmlakı, xəzinə və bank hesabları, öz adı həkk olunmuş möhürü, habelə müvafiq ştampları, blankları və loqotipi (emblemi) vardır.

1.6. Qanuna uyğun olaraq Cəmiyyətin əqdlər bağlamaq, öz adından əmlak və qeyri-əmlak hüquqları əldə etmək və həyata keçirmək hüququ, həmçinin vəzifələri vardır. Cəmiyyət məhkəmədə, həmçinin arbitrajlarda iddiaçı və ya cavabdeh qismində çıxış etmək hüququna malikdir.

1.7. Cəmiyyət öz vəzifələrini yerinə yetirərkən və hüquqlarını həyata keçirərkən dövlət orqanları (qurumları) ilə, yerli özünüidarəetmə orqanları ilə, beynəlxalq və qeyri-hökumət təşkilatları ilə, habelə digər hüquqi və fiziki şəxslərlə qarşılıqlı əlaqədə fəaliyyət göstərir.

1.8. Təsisçi Cəmiyyətin öhdəlikləri üçün cavabdeh deyildir və Cəmiyyətin fəaliyyəti ilə bağlı zərər üçün ona mənsub səhmlərin dəyəri həddində risk daşıyır.

1.9. Cəmiyyət təsisçinin üzərinə götürdüyü hər hansı öhdəliklərinə görə cavabdeh deyildir.

1.10. Cəmiyyətin rəsmi adı aşağıdakı kimidir:

1.10.1. tam halda − “Azərbaycan Biznesinin İnkişafı Fondu” Açıq Səhmdar Cəmiyyəti;

1.10.2. qısaldılmış halda – “ABİF” ASC;

1.10.3. ingilis dilində tam adı – “Azerbaijan Business Development Fund” Open Joint Stock Company;

1.10.4. ingilis dilində qısaldılmış adı – “ABDF” OJSC.

1.11. Cəmiyyət Bakı şəhərində yerləşir.

**2. Cəmiyyətin fəaliyyət istiqamətləri**

2.1. Cəmiyyətin fəaliyyət istiqamətləri aşağıdakılardır:

2.1.1. müvafiq sahədə dövlət siyasətinin formalaşdırılmasında və həyata keçirilməsində iştirak etmək;

2.1.2. müvəkkil təşkilatlar vasitəsilə və investisiya qoyuluşu formasında Azərbaycan Respublikasında sahibkarlığın inkişafına maliyyə dəstəyi göstərmək;

2.1.3. investisiyaların təşviqi üzrə investorlar üçün davamlı əlverişli mühitin yaradılması proseslərində iştirak etmək;

2.1.4. Azərbaycan Respublikası Prezidentinin müəyyən etdiyi hallarda və qaydada sahibkarlıq subyektlərinin manatla aldıqları kreditlərə zəmanət və faiz subsidiyası vermək;

2.1.5. müvafiq sahədə aidiyyəti dövlət orqanları (qurumları) ilə əməkdaşlıq etmək, təkliflərin hazırlanmasında iştirak etmək;

2.1.6. bu Nizamnamə ilə müəyyən edilmiş digər istiqamətlərdə fəaliyyət göstərmək.

**3. Cəmiyyətin vəzifələri və hüquqları**

3.1. Bu Nizamnamə ilə müəyyən edilmiş fəaliyyət istiqamətlərinə uyğun olaraq, Cəmiyyətin vəzifələri aşağıdakılardır:

3.1.1. müvafiq sahənin inkişafı ilə bağlı normativ hüquqi aktların, eləcə də inkişaf konsepsiyalarının və məqsədli proqramların hazırlanmasında və həyata keçirilməsində iştirak etmək;

3.1.2. Azərbaycan Respublikasının müvafiq sahədə tərəfdar çıxdığı beynəlxalq müqavilələrdən irəli gələn öhdəliklərin yerinə yetirilməsi ilə əlaqədar tədbirlərin görülməsində iştirak etmək;

3.1.3. Cəmiyyətin vəsaiti hesabına Azərbaycan Respublikasının sosial-iqtisadi inkişafının prioritet istiqamətləri çərçivəsində Cəmiyyətin Müşahidə Şurasının müəyyən etdiyi prioritet sahələrdə, o cümlədən qeyri-neft/qaz sektorunda innovativ texnologiyaların tətbiqi və ixrac əməliyyatları üzrə maliyyələşdirmə və ya təminat mexanizmləri vasitəsilə sahibkarlara dəstək göstərmək;

3.1.4. qeyri-neft/qaz sektorunda investisiya imkanlarının genişləndirilməsi və dövlət əmlakının özəlləşdirilməsi prosesində investorların iştirakının stimullaşdırılması məqsədilə müvafiq tədbirlər görmək;

3.1.5. Azərbaycan Respublikası Prezidentinin müəyyən etdiyi hallarda və qaydada sahibkarlıq subyektlərinin manatla aldıqları kreditlərə zəmanət və faiz subsidiyası vermək;

3.1.6. “İnvestisiya fəaliyyəti haqqında” Azərbaycan Respublikası Qanununun 8.1.1-ci, 8.1.2-ci və 8.1.5−8.1.7-ci maddələrində nəzərdə tutulmuş formalarda ölkə daxilində, eləcə də ölkə xaricində layihələrə investisiya qoyuluşunu həyata keçirmək;

3.1.7. Cəmiyyətə təqdim olunan investisiya layihələrinin ekspertizasını həyata keçirmək;

3.1.8. Cəmiyyətin maliyyə dayanıqlığının təmin edilməsi məqsədilə tədbirlər görmək;

3.1.9. Cəmiyyətin fəaliyyət istiqamətləri üzrə riskləri müəyyənləşdirmək, qiymətləndirmək və idarə etmək, habelə bu sahədə həyata keçirilən siyasətin optimallaşdırılması istiqamətində müvafiq tədbirlər görmək;

*(ardı 3-cü səhifədə)*

(əvvəli 2-ci səhifədə)

# "Azərbaycan Biznesinin İnkişafı Fondu" Açıq Səhmdar Cəmiyyətinin Nizamnaməsi

3.1.10. fəaliyyət istiqamətləri üzrə ayrılmış vəsaitdən təyinatına uyğun istifadə olunmasına nəzarət etmək üçün müvəkkil təşkilatlar vasitəsilə və ya müstəqil surətdə monitorinqlər aparmaq, bu vəsaitdən təyinatı üzrə istifadə edilmədikdə müvafiq tədbirlər görmək;

3.1.11. müvafiq sahədə elektron xidmətləri "Dövlət informasiya ehtiyatları və sistemlərinin formalaşdırılması, aparılması, inteqrasiyası və arxivləşdirilməsi Qaydaları"nın təsdiq edilməsi və elektron hökumətlə bağlı bəzi tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 12 sentyabr tarixli 263 nömrəli Fərmanına uyğun olaraq təşkil etmək;

3.1.12. Cəmiyyətin fəaliyyəti ilə bağlı daxil olan müraciətlərə "Vətəndaşların müraciətləri haqqında" və "İnformasiya əldə etmək haqqında" Azərbaycan Respublikasının qanunlarına uyğun olaraq baxmaq və qanunla müəyyən edilmiş qaydada tədbirlər görmək;

3.1.13. müvafiq sahədə təşviqat işləri təşkil etmək;

3.1.14. kargüzarlığı və vətəndaşların qəbulunu müvafiq normativ hüquqi aktların tələblərinə uyğun təşkil etmək;

3.1.15. Cəmiyyətin əməkdaşlarının əlavə təhsili və peşəkarlığının yüksəldilməsi üçün tədbirlər görmək;

3.1.16. öz fəaliyyəti haqqında əhalinin məlumatlandırılmasını, rəsmi internet səhifəsinin yaradılmasını, malik olduğu və siyahısı "İnformasiya əldə etmək haqqında" Azərbaycan Respublikasının Qanunu ilə müəyyən edilmiş açıqlanmalı olan ictimai informasiyanın həmin səhifədə yerləşdirilməsini və bu informasiyanın daim yenilənməsini təmin etmək;

3.1.17. Cəmiyyətə ayrılan büdcə vəsaitindən, kredit, qrant və digər maliyyə vəsaitindən təyinatı üzrə istifadə olunmasını təmin etmək;

3.1.18. dövlət və kommersiya sirrinin, habelə məxfilik rejiminin qorunması üçün tədbirlər görmək;

3.1.19. Cəmiyyətin informasiya təminatını təşkil etmək və onun təhlükəsizliyini təmin etmək;

3.1.20. Cəmiyyətin strukturunun və fəaliyyətinin təkmilləşdirilməsi üçün tədbirlər görmək;

3.1.21. qabaqcıl beynəlxalq təcrübəni nəzərə almaqla, müvafiq sahədə elmi-texniki nailiyyətlərin tətbiqini təmin etmək;

3.1.22. bu Nizamnamə ilə müəyyən edilmiş digər vəzifələri həyata keçirmək.

3.2. Öz vəzifələrini yerinə yetirmək üçün Cəmiyyətin aşağıdakı hüquqları vardır:

3.2.1. müvafiq sahədə normativ hüquqi aktın layihəsinin qəbul olunması, aktda dəyişiklik edilməsi, aktın şərh edilməsi, qüvvəsinin dayandırılması və ya ləğv edilməsi haqqında aidiyyəti üzrə təklif vermək;

3.2.2. müvafiq sahədə beynəlxalq müqavilələrə Azərbaycan Respublikasının tərəfdar çıxması barədə təkliflər vermək;

3.2.3. Cəmiyyətə maliyyə vəsaitinin cəlb olunması üçün tədbirlər görmək, o cümlədən maliyyə bazarlarından resursların cəlb olunması barədə danışıqlar aparmaq və təkliflər hazırlamaq;

3.2.4. investisiya mühitinin əlverişliliyinin artırılması və yeni maliyyə resurslarının cəlb olunması məqsədilə potensial investorlar üçün məlumatlandırıcı və dəstəkləyici tədbirlər görmək, bu prosesdə diaspor təşkilatları ilə və ölkədə yaşayan əcnəbilərlə investisiya təşviqi üzrə müvafiq işlər aparmaq;

3.2.5. qiymətli kağızlar (istiqraz, investisiya fond payı və s.) almaq;

3.2.6. beynəlxalq təcrübənin tətbiqi imkanlarının araşdırılması məqsədilə beynəlxalq təşkilatlarla, xarici dövlətlərin aidiyyəti dövlət orqanları (qurumları) ilə əməkdaşlıq etmək, xarici dövlətlərin müvafiq təcrübəsini öyrənmək;

3.2.7. fəaliyyət istiqamətləri üzrə rəy və təkliflər vermək, təhlillər və ümumiləşdirmələr aparmaq, analitik materiallar hazırlamaq, xüsusi bülletenlər və digər nəşrlər buraxmaq;

3.2.8. fəaliyyət istiqamətlərinə aid məsələlərlə bağlı araşdırmalar aparmaq, işçi qruplar və komissiyalar yaratmaq;

3.2.9. dövlət orqanlarına (qurumlarına), yerli özünüidarəetmə orqanlarına, fiziki və hüquqi şəxslərə zəruri məlumatlar (sənədlər) barədə sorğu vermək və onlardan belə məlumatları (sənədləri) almaq;

3.2.10. müqavilə əsasında müstəqil ekspertləri və mütəxəssisləri öz fəaliyyətinə cəlb etmək;

3.2.11. fəaliyyət istiqamətlərinə uyğun olaraq konfranslar, müşavirələr, seminarlar keçirmək və digər tədbirlər təşkil etmək, bu cür tədbirlərdə iştirak etmək;

3.2.12. əməkdaşlarını dövlət təltiflərinə və digər mükafatlara təqdim etmək, onların həvəsləndirilməsi üçün tədbirlər görmək;

3.2.13. bu Nizamnamə ilə müəyyən edilmiş digər hüquqları həyata keçirmək.

### 4. Cəmiyyətin nizamnamə kapitalı, əmlakı və maliyyə fəaliyyətinin əsasları

4.1. Cəmiyyətin nizamnamə kapitalı 1.180.929.648,0 (bir milyard bir yüz səksən milyon doqquz yüz iyirmi doqquz min altı yüz qırx səkkiz) manatdır və onun səhmlərinin nominal dəyərindən təşkil olunur. Nizamnamə kapitalı nominal dəyəri 1 (bir) manat olan 1.180.929.648,0 (bir milyard bir yüz səksən milyon doqquz yüz iyirmi doqquz min altı yüz qırx səkkiz) ədəd adi səhmdən ibarətdir.

4.2. Cəmiyyətin bütün səhmləri dövlətə məxsusdur. Cəmiyyətin dövlətə məxsus səhmlərinin saxlanılması və idarə olunması Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi tərəfindən həyata keçirilir.

4.3. Cəmiyyətin nizamnamə kapitalı bu Nizamnaməyə uyğun olaraq Cəmiyyətin mülkiyyətinə verilmiş və qanunla müəyyən edilmiş qaydada qiymətləndirilmiş aktivlərin dəyərindən təşkil olunur. Cəmiyyətin nizamnamə kapitalı puldan, qiymətli kağızlardan, başqa əmlakdan, əmlak hüquqlarından və ya pul dəyəri olan digər hüquqlardan ibarət ola bilər.

4.4. Cəmiyyətin əmlakı nizamnamə kapitalından, təsisçinin verdiyi digər əmlakdan, puldan, qiymətli kağızlardan, əmlak və qeyri-əmlak hüquqlarından və ya pul dəyəri olan digər hüquqlardan, habelə fəaliyyətindən əldə olunmuş gəlirdən, ianələrdən, qrantlardan, cəlb edilən investisiyalardan və qanunla qadağan olunmayan digər vəsaitdən formalaşır.

4.5. Cəmiyyətin əmlakının dəyəri onun balansında göstərilir.

4.6. Cəmiyyət müstəqil büdcəyə malikdir. Cəmiyyətin büdcəsi maliyyə ilinin başlamasından əvvəl Müşahidə Şurası tərəfindən təsdiq edilir.

4.7. Cəmiyyət ona verilmiş əmlakdan yalnız bu Nizamnamə ilə müəyyən olunmuş fəaliyyət istiqamətlərinə uyğun istifadə edir.

4.8. Cəmiyyətin nizamnamə kapitalının artırılması və ya azaldılması Azərbaycan Respublikasının Mülki Məcəlləsində və bu Nizamnamədə nəzərdə tutulmuş qaydada həyata keçirilir.

4.9. Cəmiyyət qanunla müəyyən edilən vergiləri və digər məcburi ödənişləri ödədikdən sonra Cəmiyyətin, onun idarə, filial və nümayəndəliklərinin, habelə törəmə cəmiyyətlərinin fəaliyyətindən əldə edilmiş vəsait üzərində müstəqil sərəncam vermək, fəaliyyət istiqamətləri üzrə yerləşdirilmiş vəsaitdən əlavə, Cəmiyyətin hesablarında qalan sərbəst vəsaiti depozit, digər maliyyə aktivlərinə və qiymətli kağızlar alınmasına yönəltmək hüququna malikdir.

### 5. Cəmiyyətin idarə olunması

5.1. Cəmiyyət öz fəaliyyətində və idarəetmədə mütərəqqi korporativ idarəetmə standartlarını tətbiq edir. Müşahidə Şurası Cəmiyyətin korporativ idarəetmə standartlarını təsdiq edir və onun fəaliyyətinin həmin standartlara uyğun təşkilinə nəzarət edir.

5.2. Cəmiyyətin ali idarəetmə orqanı onun ümumi yığıncağıdır. Cəmiyyətin digər idarəetmə orqanları Müşahidə Şurası və kollegial icra orqanı olan İdarə Heyətidir.

### 6. Cəmiyyətin ali idarəetmə orqanı

6.1. Cəmiyyətin ümumi yığıncağının səlahiyyətlərinə aşağıdakı məsələlər aid edilir:

6.1.1. Azərbaycan Respublikasının Prezidentinə:

6.1.1.1. Cəmiyyətin yenidən təşkili və ləğvi;

6.1.1.2. Cəmiyyətin nizamnaməsinin təsdiqi və nizamnamə kapitalının miqdarının müəyyən edilməsi, onlarda dəyişiklik edilməsi;

6.1.1.3. Cəmiyyətin icra orqanının yaradılması;

6.1.1.4. Cəmiyyətin Müşahidə Şurasının sədrinin və digər üzvlərinin vəzifəyə təyin və vəzifədən azad edilməsi;

6.1.2. Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyinə:

6.1.2.1. Cəmiyyətin xalis aktivlərinin dəyərinin 25 (iyirmi beş) faizindən artıq məbləğdə olan əqdin (xüsusi əhəmiyyətli əqdin), eləcə də müstəqil auditorun rəyi ilə aidiyyəti şəxslə dəyəri Cəmiyyətin aktivlərinin 5 (beş) faizini və daha çox hissəsini təşkil edən əqdin bağlanılması haqqında qərar qəbul edilməsi;

6.1.3. Cəmiyyətin Müşahidə Şurasına:

6.1.3.1. bu Nizamnamənin 6.1.1-ci və 6.1.2-ci yarımbəndlərində qeyd edilənlər istisna olmaqla, Azərbaycan Respublikasının Mülki Məcəlləsi ilə səhmdarların ümumi yığıncağının səlahiyyətlərinə aid edilmiş digər məsələlərin həlli.

6.2. Ümumi yığıncaq növbəti və növbədənkənar ola bilər. Növbəti ümumi yığıncaq ildə bir dəfə çağırılır. Növbədənkənar ümumi yığıncaq icra orqanının və Müşahidə Şurasının təşəbbüsü, habelə İqtisadiyyat Nazirliyinin tələbi ilə çağırılır.

6.3. Ümumi yığıncağın qərarları açıq səsvermə yolu ilə iştirakçıların sadə səs çoxluğu ilə qəbul edilir və yazılı surətdə rəsmiləşdirilir.

### 7. Cəmiyyətin Müşahidə Şurası

7.1. Cəmiyyətin fəaliyyətinə ümumi rəhbərliyi və nəzarəti kollegial idarəetmə orqanı olan Cəmiyyətin Müşahidə Şurası (bundan sonra – Şura) həyata keçirir. Şuranın tərkibi Şuranın sədri də daxil olmaqla 5 (beş) üzvdən ibarətdir. Şuranın sədri və üzvləri Azərbaycan Respublikasının Prezidenti tərəfindən vəzifəyə təyin və vəzifədən azad edilir. Cəmiyyətin İdarə Heyətinin (bundan sonra – İdarə Heyəti) sədri və üzvləri Şuraya üzv təyin edilə bilməzlər.

7.2. Şura üzvlərinin səlahiyyət müddəti 3 (üç) ildir və onlar növbəti müddətlərə yenidən təyin edilə bilərlər.

7.3. Şura ictimai (ödənişsiz) əsaslarla fəaliyyət göstərir.

7.4. Şura öz fəaliyyətinin nəticələrinə görə ümumi yığıncaq qarşısında cavabdehdir.

7.5. Şuranın səlahiyyətləri aşağıdakılardır:

7.5.1. İdarə Heyəti üzvlərini, o cümlədən sədrini vəzifəyə təyin və vəzifədən azad etmək;

7.5.2. Cəmiyyətin ümumi yığıncağının qərarlarının icrasına və Cəmiyyətin fəaliyyətinin normativ hüquqi aktların tələblərinə uyğun təşkilinə nəzarət etmək;

7.5.3. Cəmiyyətin illik hesabatlarını və maliyyə hesabatlarını təsdiq etmək, mənfəətini və zərərini bölüşdürmək;

7.5.4. İdarə Heyəti üzvlərinin fəaliyyətinə nəzarət etmək, onların fəaliyyətini yoxlamaq, habelə ümumi yığıncaqla razılaşdırmaqla, müəyyən etdiyi əsas fəaliyyət göstəriciləri əsasında qiymətləndirmək;

7.5.5. İdarə Heyəti üzvünün şəxsi marağı ilə Cəmiyyətin mənafeyi arasında ziddiyyətə səbəb ola bilən əqdlərin bağlanılması barədə müraciətə baxaraq qərar qəbul etmək;

7.5.6. Şura üzvlərinin və İdarə Heyətinin müraciətlərinə baxmaq və qərar qəbul etmək;

7.5.7. Cəmiyyətin təsərrüfat cəmiyyətlərinin yaradılması və ya onlarda iştirak barədə, həmçinin Cəmiyyətin idarə, filial və nümayəndəliklərinin yaradılması barədə qərar qəbul etmək;

7.5.8. Cəmiyyətin fəaliyyətinə dair daxili qaydaları (o cümlədən maraqlar münaqişəsinin istisna olunması qaydasını) təsdiq etmək;

7.5.9. Şuranın yardımçı komitələrini yaratmaq və onların əsasnamələrini təsdiq etmək;

7.5.10. Audit Komitəsini yaratmaq, onun əsasnaməsini təsdiq etmək, rəhbərini və üzvlərini vəzifəyə təyin və vəzifədən azad etmək;

7.5.11. daxili audit xidməti əməkdaşlarının fəaliyyətinə nəzarət etmək və fəaliyyətinə dair hesabatlar almaq, habelə onun üzvlərini vəzifəyə təyin və vəzifədən azad etmək;

7.5.12. Cəmiyyətin audit hesabatını qəbul etmək;

7.5.13. Azərbaycan Respublikası Nazirlər Kabinetinin müəyyən etdiyi sahibkarlıq subyektlərinin güzəştli kreditlərlə maliyyələşdirilməsi, həmçinin investisiya qoyuluşunun həyata keçirilməsi qaydaları ilə tənzimlənməyən təfərrüatlı şərtlərə (maliyyələşdirilən layihələr üzrə kredit və digər maliyyələşdirmə növləri, faiz dərəcələri, müddətlər və tətbiq olunan güzəştlər, investisiya layihələrinin tərtibi və qiymətləndirilməsi, bu sahədə risklərin idarə olunması, monitorinq həyata keçirilməsi və sair) dair qaydaları təsdiq etmək;

7.5.14. müvəkkil təşkilatların seçilməsi və onlara limitlərin müəyyən edilməsi qaydasını təsdiq etmək;

7.5.15. Cəmiyyət ilə müvəkkil təşkilatlar arasında bağlanılan əməkdaşlıq müqavilələrinin nümunəvi formasını təsdiq etmək;

7.5.16. Cəmiyyətin maliyyə planlaşdırmasını təsdiq etmək;

7.5.17. Cəmiyyətin vəsaitinin səmərəli yerləşdirilməsi məqsədilə Azərbaycan Respublikasının sosial-iqtisadi inkişafının prioritet istiqamətləri çərçivəsində prioritet sahələri müəyyənləşdirmək;

7.5.18. Cəmiyyətin təsərrüfat cəmiyyətlərinin nizamnamə kapitalına investisiya qoyuluşunun müddətini müəyyən etmək;

7.5.19. Cəmiyyətin strukturunu, əməyin ödənişi fondunu, işçilərin say həddini, onların əməkhaqlarının (vəzifə maaşının, vəzifə maaşına əlavələrin, mükafatların və digər ödənişlərin) məbləğini, o cümlədən Cəmiyyətin əldə etdiyi vəsait (dövlət büdcəsindən və dövlətə məxsus digər fondlardan ayrılan vəsait istisna olmaqla) hesabına işçilərə əlavə ödənilən həvəsləndirmə forması və sistemini müəyyənləşdirmək;

7.5.20. Cəmiyyətin maliyyə-təsərrüfat fəaliyyətinin təftişinin keçirilməsi barədə qərar qəbul etmək;

7.5.21. kənar auditorun yoxlamalarının, habelə digər yoxlamaların nəticələrinə dair tədbirlər görmək;

7.5.22. Cəmiyyətin fəaliyyətinin təkmilləşdirilməsi istiqamətində zəruri tədbirlər görmək.

7.6. Şura bu Nizamnamənin 7.5.1–7.5.18-ci yarımbəndlərindəki müstəsna səlahiyyətlərinə aid edilmiş məsələlərin həllini Cəmiyyətin icra orqanına həvalə edə bilməz.

7.7. Şuranın sədri:

7.7.1. Şuranın işini təşkil edir və onun fəaliyyətinə rəhbərlik edir, habelə özünün və İdarə Heyətinin normativ hüquqi aktların tələblərinə zidd olan qərarlarını ləğv edir;

7.7.2. Şuranın iclaslarının gündəliyini müəyyənləşdirir, iclasları çağırır və iclaslara sədrlik edir;

7.7.3. öz təşəbbüsü ilə, habelə Şuranın hər hansı digər üzvünün və ya İdarə Heyəti sədrinin xahişi əsasında digər şəxsləri Şuranın iclasında iştirak etməyə dəvət edir;

7.7.4. Şuranın üzvü olmayan Cəmiyyətin əməkdaşları sırasından Şuranın katibini təyin edir;

7.7.5. Şuranın fəaliyyətinin təşkili ilə bağlı digər tədbirlər görür.

7.8. Şuranın üzvləri:

7.8.1. Şuranın səlahiyyətlərinə aid olan məsələlərin həllində iştirak edirlər;

7.8.2. Şuranın iclasının gündəliyi ilə və baxılması nəzərdə tutulmuş materiallarla əvvəlcədən tanış olurlar;

7.8.3. Şurada qəbul ediləcək qərarlara dair fikir bildirirlər və qərarların qəbul edilməsində səs verirlər;

7.8.4. Şuranın səlahiyyətlərinə aid məsələlərə onun iclaslarında baxmaq barədə təkliflər verirlər;

7.8.5. Şuranın qərarları ilə, iclas protokolları ilə və digər sənədlərlə tanış olurlar.

7.9. Şuranın katibi:

7.9.1. Şuranın iclaslarını təşkil edir;

7.9.2. bu Nizamnamənin 7.17-ci bəndində nəzərdə tutulan vəzifəni yerinə yetirir;

7.9.3. Şuranın iclaslarının protokollarını tərtib edir və imzalanmaq üçün Şuranın üzvlərinə təqdim edir;

7.9.4. Şuranın qərarlarının layihələrini hazırlayır, baxılmaq və imzalanmaq üçün Şuranın üzvlərinə təqdim edir;

7.9.5. Şuranın sədrinə hesabat verir;

7.9.6. Şuranın qəbul etdiyi qərarların aidiyyəti üzrə göndərilməsini təmin edir.

7.10. Şura üzvlərinin səlahiyyətləri onlar arasında aparılmış vəzifə bölgüsü və Şura sədrinin verdiyi tapşırıqlar əsasında müəyyən edilir.

7.11. Şuranın üzvləri adlarına xələl gətirə biləcək hərəkətlərə və çıxışlara yol verməməli, həmçinin Azərbaycan Respublikası Mülki Məcəlləsinin 49-cu və 49-1-ci maddələri ilə müəyyən edilmiş tələbləri yerinə yetirməlidirlər.

7.12. Şuranın sədri 3 (üç) ayda bir dəfədən az olmayaraq Şuranın iclaslarını çağırır və iclaslara sədrlik edir. Şuranın iclaslarının keçirilməsi təşəbbüsü ilə ümumi yığıncaq, Şuranın üzvü və ya İdarə Heyətinin sədri çıxış edir.

7.13. Şuranın iclasları onun üzvlərinin əyani (bilavasitə) iştirakı ilə, informasiya texnologiyalarından istifadə etməklə distant, habelə qarışıq formada və ya qiyabi (iclas keçirilmədən müvafiq olaraq qərar vermə (qərarı imzalama) keçirilə bilər.

7.14. Şuranın növbədənkənar iclasları Şura sədrinin və üzvlərinin, İdarə Heyəti üzvlərinin təklifi ilə çağırıla bilər. Bu cür təkliflər daxil olduqdan sonra 15 (on beş) gün müddətində Şuranın sədri növbədənkənar iclası çağırmağa borcludur.

7.15. Şuranın sədri müvəqqəti olmadıqda onun səlahiyyətlərini müvafiq əmrlə Şuranın üzvləri sırasından sədrin müəyyən etdiyi şəxs icra edir.

7.16. Gündəliyə daxil edilməmiş və ya tələb olunan aidiyyəti sənədləri iclasdan əvvəl təqdim edilməmiş məsələlər barədə, bütün iştirakçı üzvlərin razılıq verdiyi hallar istisna olmaqla, qərar qəbul edilə bilməz.

7.17. Şuranın katibi tərəfindən Şura üzvlərinə, habelə İdarə Heyətinin sədrinə və Şuranın iclaslarına dəvət olunan şəxslərə iclasın başlanmasına azı 3 (üç) iş günü qalmış bildiriş göndərilir. Bildirişdə iclasın vaxtı, yeri, gündəliyi və digər məlumatlar göstərilir. İclasın gündəliyindəki məsələlərlə bağlı materiallar bildirişə əlavə edilir.

7.18. İclasda iştirak edə bilməyən üzvlər gündəlikdəki məsələlərlə bağlı öz mövqelərini yazılı formada təqdim edə bilərlər. Səsvermə zamanı bu nəzərə alınır.

7.19. Şuranın iclasları Şura üzvlərinin azı beşdə üçü iştirak etdikdə səlahiyyətlidir. Yetərsay olmadıqda, 15 (on beş) gündən sonra yeni iclas çağırılır.

7.20. Şura üzvlərinin hər biri bir səsə malikdir.

7.21. İclasın gündəliyinə Şuranın hər hansı üzvünün maraqlarına toxunan məsələ çıxarıldıqda, həmin üzv bununla bağlı maraqları haqqında ətraflı məlumat verməli, bu məsələnin müzakirəsində və həmin məsələyə dair səsvermədə iştirak etməməlidir.

7.22. Şuranın qərarları iclasda iştirak edən üzvlərin açıq səsvermə yolu ilə sadə səs çoxluğu ilə qəbul edilir. Səslər bərabər olduqda, iclasa sədrlik edənin səsi həlledicidir.

7.23. Şuranın iclasları protokollaşdırılır. Protokolların dəqiq aparılması üçün Şuranın katibi məsuliyyət daşıyır. İclasın protokolu Şuranın sədri tərəfindən imzalanır. Şuranın üzvləri protokolun məzmunu ilə bağlı 10 (on) gün ərzində öz irad və təkliflərini təqdim edə bilərlər.

### 8. Cəmiyyətin icra orqanı

8.1. Cəmiyyətin fəaliyyətinə cari rəhbərliyi onun kollegial icra orqanı olan İdarə Heyəti həyata keçirir. İdarə Heyətinin tərkibi 5 (beş) üzvdən – Şura tərəfindən vəzifəyə təyin olunan və vəzifədən azad edilən sədrdən və onun 4 (dörd) müavinindən ibarətdir. İdarə Heyətinin fəaliyyətinə İdarə Heyətinin sədri rəhbərlik edir.

8.2. İdarə Heyətinin vəzifələri aşağıdakılardır:

8.2.1. Cəmiyyətin fəaliyyətini təşkil etmək;

8.2.2. Ümumi yığıncağın və Şuranın qərarlarının vaxtında və lazımi qaydada icrasını təmin etmək;

8.2.3. aidiyyəti şəxslə dəyəri Cəmiyyətin aktivlərinin 5 (beş) faizədək hissəsini təşkil edən əqdin bağlanılması haqqında qərar qəbul etmək;

8.2.4. Cəmiyyətin strateji məqsəd və planlarının, habelə büdcəsinin icrasına nəzarət etmək;

8.2.5. Cəmiyyətin struktur bölmələrinin əsasnamələrini təsdiq etmək;

8.2.6. Cəmiyyətin illik hesabatlarını və maliyyə hesabatlarını təsdiq etmək, mənfəəti və zərərin bölüşdürülməsi üçün Şuraya təkliflər vermək;

8.2.7. Cəmiyyətin inkişaf və biznes planlarının formalaşdırılması barədə Şuraya təkliflər vermək;

8.2.8. Cəmiyyətin xalis aktivlərinin dəyərinin 25 (iyirmi beş) faizindən artıq məbləğdə olan əqdin (xüsusi əhəmiyyətli əqdin), eləcə də müstəqil auditorun rəyi ilə aidiyyəti şəxslə dəyəri Cəmiyyətin aktivlərinin 5 (beş) faizini və daha çox hissəsini təşkil edən əqdin bağlanılması haqqında İqtisadiyyat Nazirliyinə təkliflər vermək;

8.2.9. Şuranın və İdarə Heyəti sədrinin səlahiyyətlərinə aid edilməyən bütün digər məsələlər barədə qərar vermək.

8.3. İdarə Heyətinin sədri rübdə bir dəfədən az olmayaraq, İdarə Heyətinin iclaslarını çağırır və iclaslara sədrlik edir. İdarə Heyəti iclaslarının keçirilməsi təşəbbüsü ilə İdarə Heyətinin üzvləri və ya Şura çıxış edir. İdarə Heyətinin iclasları əyani (onun üzvlərinin bilavasitə iştirakı ilə), distant (informasiya texnologiyalarından istifadə etməklə), habelə qarışıq və ya qiyabi (iclas keçirilmədən müvafiq olaraq qərar vermə (qərarı imzalama) formada keçirilə bilər. İdarə Heyətinin iclasları İdarə Heyəti üzvlərinin beşdə üçü iştirak etdikdə səlahiyyətlidir. İdarə Heyətinin iclasında hər üzvün bir səsi olmaqla, qərarlar açıq səsvermə yolu ilə sadə səs çoxluğu əsasında qəbul edilir. İdarə Heyətində səsvermə zamanı üzvlərin bitərəf qalmasına icazə verilmir. Səslərin sayı bərabər olduqda, iclasa sədrlik edənin səsi həlledicidir.

8.4. İdarə Heyətinin iclasına münasibətdə bu Nizamnamənin 7.17-ci, 7.18-ci və 7.21-ci bəndlərində nəzərdə tutulmuş müddəalar tətbiq edilir.

8.5. İdarə Heyətinin sədri:

8.5.1. Cəmiyyətin cari fəaliyyətinə rəhbərlik edir və onu təmsil edir;

8.5.2. İdarə Heyətinin fəaliyyətini təşkil edir, iclaslarının gündəliyini müəyyənləşdirir və iclaslarına sədrlik edir;

8.5.3. öz təşəbbüsü ilə, İdarə Heyətinin digər üzvünün və ya Şuranın təşəbbüsü ilə İdarə Heyətinin iclaslarını çağırır;

8.5.4. öz təşəbbüsü ilə, habelə İdarə Heyətinin hər hansı bir üzvünün xahişi əsasında digər şəxsləri İdarə Heyətinin iclasında iştirak etməyə dəvət edir;

8.5.5. Cəmiyyətin fəaliyyətinin təşkili ilə əlaqədar icrası məcburi olan daxili sərəncam və əmrlər verir;

8.5.6. Cəmiyyətin fəaliyyət istiqamətlərinə dair qəbul olunmuş aktların icrasını təşkil edir, yoxlayır və buna nəzarəti həyata keçirir;

8.5.7. normativ hüquqi aktlara və bu Nizamnaməyə uyğun olaraq, Cəmiyyətin üzərinə düşən vəzifələrin yerinə yetirilməsi və onun hüquqlarının həyata keçirilməsi, habelə səmərəli fəaliyyət göstərməsi üçün zəruri tədbirlər görür;

8.5.8. özünün və Cəmiyyətin struktur bölmələrinin vəzifəli şəxslərinin normativ hüquqi aktların tələblərinə zidd olan qərarlarını ləğv edir;

8.5.9. Şura tərəfindən müəyyən edilmiş struktur, əməyin ödənişi fondu və işçilərin say həddi daxilində Cəmiyyətin Aparatının və digər struktur bölmələrinin strukturunu, ştat cədvəlini və xərclər smetasını təsdiq edir;

8.5.10. Cəmiyyət işçilərinin vəzifə maaşlarının, vəzifə maaşlarına əlavələrin, mükafatların və digər ödənişlərin verilməsini əməyin ödənişi fondu çərçivəsində təşkil edir;

8.5.11. bu Nizamnamə ilə müəyyən edilmiş hallar istisna olmaqla, Cəmiyyət işçilərinin vəzifəyə təyin və vəzifədən azad edilməsi, onlar barəsində həvəsləndirmə və intizam tənbehi tədbirlərinin tətbiq edilməsi barədə qərarlar qəbul edir;

8.5.12. Cəmiyyətin əmlakından onun Nizamnaməsində nəzərdə tutulmuş fəaliyyət istiqamətlərinə uyğun istifadə olunmasına nəzarət edir;

8.5.13. bu Nizamnamə ilə müəyyən edilmiş səlahiyyətlər çərçivəsində Cəmiyyətin adından əməliyyatlar aparır, müqavilələr bağlayır və onların yerinə yetirilməsini təmin edir;

8.5.14. Cəmiyyətin fəaliyyət istiqamətləri ilə bağlı işçi qruplar yaradır;

8.5.15. Cəmiyyətdə dövlət və kommersiya sirrinin, habelə məxfilik rejiminin qorunması üçün tədbirlər görür;

8.5.16. kargüzarlıq və arxiv işinin aparılmasını təmin edir;

8.5.17. Cəmiyyətdə müraciətlərə baxılmanı və vətəndaşların qəbulunu təmin edir.

8.6. İdarə Heyətinin sədri müvəqqəti olmadıqda, onun səlahiyyətlərini İdarə Heyəti sədrinin müavinləri arasından sədrin müəyyən etdiyi şəxs icra edir.

8.7. İdarə Heyətinin üzvləri:

8.7.1. İdarə Heyətinin səlahiyyətlərinə aid olan məsələlərin həllində iştirak edirlər;

8.7.2. İdarə Heyətinin iclasının gündəliyi ilə və baxılması nəzərdə tutulmuş materiallarla əvvəlcədən tanış olurlar;

8.7.3. İdarə Heyətinin qəbul ediləcək qərarlarına dair fikir bildirirlər;

8.7.4. İdarə Heyətinin səlahiyyətlərinə aid məsələlərə İdarə Heyətinin iclaslarında baxmaq barədə təkliflər verirlər;

8.7.5. İdarə Heyətinin qərarları ilə, iclas protokolları ilə və digər sənədlərlə tanış olurlar.

8.8. İdarə Heyətinin üzvləri İdarə Heyətinin iclaslarında baxılan məsələlərə qərəzsiz yanaşmalı, İdarə Heyəti üzvünün adına xələl gətirə biləcək hərəkətlərə və çıxışlara yol verməməli, həmçinin Azərbaycan Respublikası Mülki Məcəlləsinin 49-cu və 49-1-ci maddələri ilə müəyyən edilmiş digər tələbləri yerinə yetirməlidirlər.

### 9. Cəmiyyətin işinin planlaşdırılması, mühasibat uçotu, maliyyə və statistik hesabatların aparılması

9.1. Cəmiyyət mühasibat uçotunu "Mühasibat uçotu haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq aparır. Cəmiyyət maliyyə hesabatlarını Maliyyə Hesabatlarının Beynəlxalq Standartlarına uyğun olaraq tərtib, təqdim və dərc edir.

9.2. Cəmiyyət "Rəsmi statistika haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq statistik uçot aparır, statistik hesabatları tərtib və təqdim edir.

9.3. Cəmiyyətin maliyyə ili yanvarın 1-dən başlayır və dekabrın 31-də başa çatır (birinci maliyyə ili qeydiyyata alındığı vaxtdan başlayır və dekabrın 31-də başa çatır).

9.4. Cəmiyyət xalis aktivlərinin dəyərinin 25 (iyirmi beş) faizindən artıq məbləğdə olan əqdin (xüsusi əhəmiyyətli əqdin) bağlanılması barədə məlumatı mətbu orqanda dərc etdirməyə və ya Cəmiyyətin internet informasiya ehtiyatında yerləşdirməyə borcludur.

### 10. Audit və maliyyə nəzarəti

10.1. Cəmiyyətin, o cümlədən onun struktur bölmələrinin fəaliyyətinə nəzarətin təmin edilməsi məqsədilə daxili və kənar audit həyata keçirilir.

10.2. Daxili və kənar audit normativ hüquqi aktların və bu Nizamnamə ilə müəyyən olunmuş qaydada növbəli (plana əsasən) və ya növbədənkənar qaydada keçirilə bilər.

10.3. Cəmiyyət daxili audit xidmətini təsis edir. Daxili audit xidməti "Daxili audit haqqında" Azərbaycan Respublikasının Qanunu ilə müəyyən edilmiş vəzifələri yerinə yetirir.

10.4. Cəmiyyətin maliyyə-təsərrüfat fəaliyyətinin müstəqil (kənar) auditi "Auditor xidməti haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq həyata keçirilir.

10.5. Cəmiyyətin bütün əməkdaşları daxili auditi həyata keçirən əməkdaşların tələbi ilə zəruri olan sənədləri təqdim etməyə, onlara öz vəzifələrinin icrası üçün lazımi şərait yaratmağa borcludurlar.

10.6. Cəmiyyətdə daxili audit siyasətinin və strategiyasının hazırlanması, həyata keçirilməsi və auditor nəzarətinin təşkili üçün Şura tərəfindən Audit Komitəsi yaradılır. Cəmiyyətin fəaliyyətinin daxili auditi Audit Komitəsinin təşəbbüsü əsasında Şuranın və ya İdarə Heyətinin qərarı ilə həyata keçirilir. Audit Komitəsinin üzvləri öz fəaliyyətində müstəqildir və öz funksiyalarını icra edərkən onların müstəqil qiymət vermək, nəticələr çıxarmaq hüquqları vardır. İdarə Heyətinin üzvləri və ya Cəmiyyətin iştirakçıları Audit Komitəsinin üzvü ola bilməzlər. Audit Komitəsinin üzvlərinin səlahiyyət müddəti 2 (iki) ildir.

10.7. Cəmiyyətin Audit Komitəsinin üzvləri "Daxili audit haqqında" Azərbaycan Respublikasının Qanununda nəzərdə tutulmuş tələblərə cavab verməlidirlər.

10.8. Audit Komitəsi aşağıdakı vəzifələri yerinə yetirir:

10.8.1. Cəmiyyətdə daxili audit siyasətini və strategiyasını müəyyən edir, daxili audit planlarını təsdiq edir və daxili audit fəaliyyətinə nəzarət edir;

10.8.2. daxili audit xidmətinin rəhbəri və əməkdaşlarının vəzifə təlimatlarını, proqramlarını, daxili auditin hesabatlarını, nəzarət sisteminin təkmilləşdirilməsinə dair tövsiyələri təsdiq edir;

10.8.3. daxili nəzarət sisteminin yaradılmasına və tətbiqinə, daxili nəzarətin və risklərin idarə edilməsi sisteminin təkmilləşdirilməsinə dair İdarə Heyətinə təkliflər verir;

10.8.4. kənar auditin təyin edilməsi ilə əlaqədar İdarə Heyətinə təkliflər verir;

10.8.5. İdarə Heyətindən kənar və daxili auditorların daxili nəzarət sisteminə dair verdikləri tövsiyələrin yerinə yetirilməsinin vəziyyəti barədə məlumat əldə edir;

10.8.6. maliyyə risklərinin yüksək olduğu sahələri müəyyənləşdirir və İdarə Heyəti tərəfindən onların səmərəli idarə edilməsinə əminlik əldə edir;

10.8.7. kənar və daxili audit və ya digər yoxlamaların gedişində aşkar olunan saxtakarlıq hallarını, nöqsan və çatışmazlıqları müzakirə edir və onların aradan qaldırılması üçün İdarə Heyətinə təkliflər verir;

10.8.8. maliyyə hesabatlarına əhəmiyyətli dərəcədə təsir edə biləcək hüquqi məsələləri nəzərdən keçirir və öz tövsiyələrini verir;

10.8.9. müəssisənin illik və cari maliyyə hesabatlarının hazırlanması prosesinə və nəticələrinə nəzarət edir;

10.8.10. daxili auditorların audit nəticəsində təqdim etdiyi tövsiyələrin müzakirəsini təmin edir;

10.8.11. İdarə Heyətini daxili auditorlar tərəfindən təqdim olunmuş tövsiyələrin icrasına cəlb edir.

### 11. Cəmiyyətin yenidən təşkili və ləğvi

Cəmiyyətin yenidən təşkili və ləğvi Azərbaycan Respublikasının Prezidenti tərəfindən həyata keçirilir.

# “Azərbaycan Respublikasında rəqəmsal iqtisadiyyatın inkişafına dair 2026–2029-cu illər üçün Strategiya”nın təsdiq edilməsi haqqında

## *Azərbaycan Respublikası Prezidentinin Sərəncamı*

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 3-cü və 32-ci bəndlərini rəhbər tutaraq, “Azərbaycan Respublikasının 2022–2026-cı illərdə sosial-iqtisadi inkişaf Strategiyası”nın təsdiq edilməsi haqqında” Azərbaycan Respublikası Prezidentinin 2022-ci il 22 iyul tarixli 3378 nömrəli Sərəncamının icrası ilə əlaqədar **qərara alıram:**

**1.** “Azərbaycan Respublikasında rəqəmsal iqtisadiyyatın inkişafına dair 2026–2029-cu illər üçün Strategiya” (bundan sonra – Strategiya) təsdiq edilsin ***(əlavə olunur).***

**2.** Azərbaycan Respublikasının Nazirlər Kabineti:

2.1. Strategiyada nəzərdə tutulmuş tədbirlərin əlaqələndirilməsini və icrasına nəzarəti həyata keçirsin;

2.2. Strategiyada nəzərdə tutulmuş tədbirlərin icrası barədə ildə bir dəfə Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

2.3. icrası davam etməkdə olan konsepsiya, strategiya, dövlət proqramı, milli fəaliyyət planı və bu kimi digər sənədlərin Strategiya ilə əlaqələndirilməsi istiqamətində zəruri tədbirlər görsün;

2.4. bu Sərəncamdan irəli gələn digər məsələləri həll etsin.

**3.** Strategiyada nəzərdə tutulmuş tədbirlərin icrasının monitorinqi və qiymətləndirilməsi Azərbaycan Respublikası Nazirlər Kabinetinin sifarişi əsasında İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzi tərəfindən həyata keçirilsin.

**4.** Azərbaycan Respublikasının Maliyyə Nazirliyi və Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi Strategiyada nəzərdə tutulmuş tədbirlərin maliyyələşdirilməsi məqsədilə hər il Azərbaycan Respublikasının dövlət büdcəsi layihəsinin tərtibi prosesində zəruri maliyyə vəsaitinin nəzərdə tutulması üçün müvafiq tədbirlər görsünlər.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 10 dekabr 2025-ci il**

*Azərbaycan Respublikası Prezidentinin 2025-ci il 10 dekabr tarixli Sərəncamı ilə təsdiq edilmişdir*

# Azərbaycan Respublikasında rəqəmsal iqtisadiyyatın inkişafına dair 2026–2029-cu illər üçün STRATEGİYA

### 1. Qısa xülasə

“Azərbaycan Respublikasında rəqəmsal iqtisadiyyatın inkişafına dair 2026–2029-cu illər üçün Strategiya” (bundan sonra – Strategiya) Azərbaycan Respublikası Prezidentinin 2022-ci il 22 iyul tarixli 3378 nömrəli Sərəncamı ilə təsdiq edilmiş “Azərbaycan Respublikasının 2022–2026-cı illərdə sosial-iqtisadi inkişaf Strategiyası”nın “7. Tədbirlər planı” hissəsinin 1.1.8-ci yarımbəndinin 1-ci abzasının icrası məqsədilə hazırlanmışdır.

Strategiyanın əsas hədəfləri ölkədə sahibkarlıq sahəsində rəqəmsal infrastrukturun genişləndirilməsi və transformasiyanın sürətləndirilməsi, iqtisadiyyatın rəqabətliliyinin yaxşılaşdırılması, innovasiya əsaslı inkişafın təşviqi, rəqəmsal bacarıqların gücləndirilməsi, eləcə də rəqəmsal iqtisadi fəaliyyətlərin dayanıqlığının artırılmasıdır.

Strategiya informasiya texnologiyalarının və 4-cü Sənaye İnqilabının əsas texnologiyalarının (süni intellekt, böyük verilənlər, blokçeyn, bulud texnologiyaları, “ağıllı şəhər” həlləri və s.) sürətli inkişafı şəraitində rəqəmsal iqtisadiyyat ekosisteminin formalaşdırılması, onun dayanıqlığının təmin edilməsi və bütün iqtisadi sahələrdə rəqəmsal transformasiyanın geniş tətbiqi prinsiplərinə əsaslanır.

Strategiya çərçivəsində iqtisadiyyatın inkişafı üçün rəqəmsal infrastrukturun müasirləşdirilməsi, yeni rəqəmsal bizneslərin inkişafının təşviqi, startap və innovasiya yönümlü ekosistemin dəstəklənməsi, iqtisadi qərarvermədə data əsaslı analitikanın tətbiqi, beynəlxalq rəqəmsal inteqrasiya və standartlaşdırmanın tətbiqi, həmçinin yaşıl və dayanıqlı rəqəmsal iqtisadiyyatın inkişafı prioritet istiqamətlər kimi müəyyən edilmişdir.

Strategiyanın icrası nəticəsində iqtisadiyyatın rəqəmsal sektorunun ÜDM-də payının artırılması, rəqəmsal xidmətlərin keyfiyyətinin və əlçatanlığının yüksəldilməsi, iqtisadi sahələrdə rəqəmsal texnologiyaların tətbiq səviyyəsinin genişləndirilməsi, rəqəmsal bacarıqlara malik ixtisaslı kadrların sayının artırılması, eləcə də Azərbaycan Respublikasının regional rəqəmsal mərkəzə çevrilməsi hədəflənir.

### 2. Qlobal trendlər

Dünya artıq 4-cü Sənaye İnqilabı mərhələsinə daxil olmuş, son illərdə isə bu transformasiya daha da dərinləşmişdir. Rəqəmsallaşma iqtisadi artımın, idarəetmə mexanizmlərinin və sosial münasibətlərin əsas müəyyənedici amilinə çevrilmişdir.

Beynəlxalq təşkilatların son hesabatları bu reallığı təsdiq edir. BMT-nin “Rəqəmsal İqtisadiyyat Hesabatı 2024”ə görə, rəqəmsal texnologiyalar qlobal iqtisadi inkişafda həlledici rol oynayır, lakin ekoloji və sosial aspektlər nəzərə alınmadıqda yeni risklər yaradır. İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatının (OECD) “Rəqəmsal İqtisadiyyat İcmalı 2024” hesabatına əsasən, üzv ölkələrdə İKT sektoru 2013–2023-cü illərdə orta hesabla illik 7,6 faiz böyümüş və bu göstərici ümumi iqtisadi artımı üç dəfədən çox üstələmişdir. Dünya İqtisadi Forumu isə göstərmişdir ki, 2027-ci ilə qədər mövcud bacarıqların 44 faizi yenilənməlidir. Stanford Universitetinin “AI Index Report 2025” sənədinə görə, 2024-cü ildə respondent təşkilatların 78 faizi süni intellekt (AI) texnologiyalarından istifadə etmiş, yaradıcı AI sahəsinə qoyulan şəxsi investisiyalar isə 33,9 milyard ABŞ dolları olmuşdur.

Rəqəmsal iqtisadiyyatın inkişafında insan kapitalının rolu həlledicidir. Dünya İqtisadi Forumunun hesabatı təsdiq edir ki, yaradıcı düşüncə, analitik yanaşma və texnoloji savadlılıq gələcək illərdə ən çox tələb olunan bacarıqlardır. Ayrı-ayrı ölkələrin təcrübələri də bunu sübut edir. Böyük Britaniya rəqəmsal bacarıqları dövlət strategiyasının əsas prioritetinə çevirmiş, Sinqapur isə işçi qüvvəsinin bacarığını artırmaq üçün “sənaye transformasiya xəritələri” tətbiq etmişdir.

Bununla yanaşı, innovasiya və sahibkarlıq ekosisteminin inkişafı qlobal səviyyədə aparıcı tendensiya olaraq qalır. OECD-nin məlumatına əsasən, inkişaf etmiş ölkələrdə şirkətlər illik gəlirlərinin orta hesabla 5 faizini yeni bizneslərin qurulmasına yönəldir. ABŞ güclü startap ekosistemi və innovasiya mühiti ilə, Almaniya isə koordinasiya olunmuş rəqəmsal siyasəti və elmi tədqiqat infrastrukturu ilə seçilir.

Texnoloji infrastruktur və qabaqcıl texnologiyalara sərmayələr də rəqəmsal transformasiyanın həlledici şərtlərindəndir. 2021-ci ildə bu sahəyə qlobal sərmayələrin həcmi 650 milyard ABŞ dolları təşkil etmişdir, 2035-ci ilədək isə onun 1 trilyon ABŞ dollarını üstələyəcəyi proqnoz edilir. Sinqapur dövlət–özəl tərəfdaşlığı və kibertəhlükəsizlik siyasəti hesabına Asiyanın rəqəmsal mərkəzinə çevrilməyi hədəfləyir, Böyük Britaniya isə rəqəmsal infrastrukturun möhkəmləndirilməsini prioritet kimi müəyyən etmişdir.

İstehlakçı davranışları da köklü dəyişikliklərə məruz qalır. DataReportalın “Digital 2025” hesabatına görə, e-ticarət illik 15–25 faiz artım tempi ilə inkişaf etmiş, fərdiləşdirilmiş xidmətlər, mobil ödənişlər və elektron pul kisələrinə tələbat əhəmiyyətli dərəcədə yüksəlmişdir.

Bununla yanaşı, qlobal investisiya riskləri də diqqət mərkəzində qalır. BMT-nin Ticarət və İnkişaf Konfransının (UNCTAD) “Dünya İnvestisiya Hesabatı 2025” sənədinə əsasən, 2024-cü ildə dünya üzrə birbaşa xarici investisiya axınları 11 faiz azalmışdır. Bu fakt rəqəmsal infrastruktur layihələrinin maliyyələşməsində dövlət–özəl tərəfdaşlıqlarının rolunu artırmağı və investisiya təşviqi mexanizmlərinin təkmilləşdirilməsini zəruri edir.

Beynəlxalq təcrübə göstərir ki, uğurlu rəqəmsal iqtisadiyyat strategiyası dövlət, biznes və cəmiyyətin birgə fəaliyyətini nəzərdə tutan vahid yanaşmaya əsaslanmalıdır. Azərbaycan Respublikasında iqtisadiyyatın xüsusiyyətləri fonunda aşağıdakı istiqamətlər ön plana çıxır:

1. İqtisadiyyatın rəqəmsal transformasiyasında özəl sektorun liderliyi gücləndirilməli, institusional islahatlar aparılmaqla dövlətin koordinasiyaedici rolu artırılmalıdır.

2. Mühüm istiqamət insan kapitalının inkişafıdır. Ölkədə gənc əhalinin üstün paya malik olması nəzərə alınaraq, rəqəmsal bacarıqları inkişaf etdirməklə, rəqəmsal iqtisadiyyatda yüksəkixtisaslı işçi qüvvəsinin xüsusi çəkisinin artırılması və innovasiyaya əsaslanan iqtisadi aktivliyin genişləndirilməsi hədəflənir.

3. İnnovasiya və sahibkarlıq ekosisteminin inkişafı. Startapların, texnoparkların və innovasiya mərkəzlərinin dəstəklənməsi, beynəlxalq tərəfdaşlıqlar vasitəsilə bilik və texnologiya transferinin stimullaşdırılması vacibdir.

4. İnfrastruktur xüsusi əhəmiyyət kəsb edir. Yüksəksürətli şəbəkələrin, məlumat mərkəzlərinin və rəqəmsal platformaların inkişafı, habelə təhlükəsizliyi Azərbaycan Respublikasının rəqəmsal iqtisadiyyat strategiyasının əsasını təşkil etməlidir.

Eyni zamanda, xarici sərmayə axınlarının azalması fonunda maliyyələşmə və investisiya siyasəti də gücləndirilməlidir. Bu istiqamətdə dövlət–özəl tərəfdaşlığı genişləndirilməli, daxili maliyyələşmə mexanizmləri və investisiya təşviqi alətləri formalaşdırılmalıdır.

### 3. Mövcud vəziyyətin təhlili

Azərbaycan Respublikasında rəqəmsal iqtisadiyyatın formalaşdırılması istiqamətində son illərdə mühüm institusional və praktiki addımlar atılır. Dövlətin həyata keçirdiyi siyasət, qəbul olunmuş strateji sənədlər və icra olunan proqramlar rəqəmsal transformasiya üçün dayanıqlı bazanın yaradılmasına imkan vermişdir.

Azərbaycan Respublikası Prezidentinin 2022-ci il 22 iyul tarixli 3378 nömrəli Sərəncamı ilə təsdiq edilmiş “Azərbaycan Respublikasının 2022–2026-cı illərdə sosial-iqtisadi inkişaf Strategiyası” rəqəmsal inkişafı prioritet istiqamətlərdən biri kimi müəyyən etmişdir. Bu çərçivədə kiçik və orta sahibkarlıq subyektlərinin rəqəmsal transformasiyasının dəstəklənməsi, onlara maliyyə dəstəyi mexanizmlərinin təqdim olunması və xidmətlərin mərkəzləşdirilməsi məqsədilə “KOB evləri” genişləndirilmişdir. İnsan kapitalının inkişafı istiqamətində beynəlxalq təlim platformaları ilə əməkdaşlıq qurulmuş, rəqəmsal bacarıqların artırılmasına yönəlmiş layihələr icra olunmuşdur.

Dövlət idarəçiliyində rəqəmsallaşmanın genişləndirilməsi məqsədilə “Hökumət buludu” yaradılmış, dövlət informasiya sistemlərinin və elektron xidmətlərin vahid platforma üzərindən inteqrasiyası təmin edilmişdir. Bu yanaşma dövlət idarəçiliyində xərclərin azaldılmasına, xidmətlərin optimallaşdırılmasına və dövlət qurumları arasında koordinasiyanın gücləndirilməsinə şərait yaratmışdır. Hazırda “ASAN xidmət” mərkəzlərində vətəndaşlara, biznes subyektlərinə və əcnəbilərə təxminən 400-ə yaxın xidmət göstərilir.

Xidmətlərin sistemləşdirilməsi və təkrarlığın qarşısını almaq məqsədilə yaradılmış “Dövlət Xidmətlərinin Elektron Reyestri” portalında 945 dövlət xidməti rəqəmsal olaraq təsdiq edilmiş və istifadəyə verilmişdir.

Sektorlar üzrə rəqəmsallaşma istiqamətində də mühüm nəticələr əldə edilmişdir. Maliyyə sektorunda 30-dan çox “FinTech” subyekti fəaliyyət göstərməkdədir və bu, ölkədə nağdsız ödənişlərin payının sürətlə artmasına təkan vermişdir. Kənd təsərrüfatında “Elektron Kənd Təsərrüfatı” İnformasiya Sistemi üzərindən 600 mindən çox fermer subsidiyalardan və digər xidmətlərdən rəqəmsal qaydada yararlanır. Səhiyyə sahəsində rəqəmsal həllərin tətbiqi ilə xidmətlərin keyfiyyəti və əlçatanlığı artırılır. Təhsil sistemində rəqəmsal təhsil modelləri formalaşdırılmış, ali təhsil müəssisələri nəzdində rəqəmsal iqtisadiyyat, innovasiya və tədqiqat mərkəzləri yaradılmışdır. Mülkiyyət sahəsində isə patent və əmtəə nişanlarının rəqəmsal qeydiyyatı üçün “Patentlərə, Əmtəə Nişanlarına Açıq Hədəf” sistemi istifadəyə verilmişdir.

İnformasiya təhlükəsizliyinin təmin olunması dövlət siyasətinin mühüm istiqamətidir. Dövlət qurumlarına qorunan telekommunikasiya kanalları, təhlükəsiz internet bağlantısı və mərkəzləşdirilmiş elektron poçt xidməti təqdim olunmuşdur. Bu addımlar kibertəhdidlərin artdığı müasir şəraitdə dövlətin informasiya təhlükəsizliyinə peşəkar və kompleks yanaşmasını təmin edir.

Rəqəmsal iqtisadiyyatla bağlı statistik göstəricilər Azərbaycan Respublikasının bu sahədə mövcud potensialını və inkişaf imkanlarını nümayiş etdirir. 2024-cü ildə qeyri-neft ÜDM-in 2.8 faizi İKT sektorunun payına düşmüşdür. Xidmət sahəsində işləyənlərin isə 2 faizə qədəri informasiya və rabitə sahəsində çalışır. Qeyri-neft xidmət ixracında isə telekommunikasiya və rabitə xidmətlərinin payı 1.7 faiz təşkil etmişdir. Bu göstəricilər sektorun genişlənməsi üçün böyük imkanların mövcud olduğunu göstərir.

Əhalinin 88 faizdən çoxunun internet istifadəçisi olması isə rəqəmsal xidmətlərin sürətli inkişafı, elektron hökumət təşəbbüslərinin səmərəli tətbiqi və rəqəmsal bazarın genişlənməsi üçün əlverişli sosial baza yaratmışdır.

**Azərbaycan üzrə GZİT (Güclü və Zəif tərəflər, İmkanlar və Təhlükələr) təhlili**

| Güclü tərəflər | Zəif tərəflər |
| --- | --- |
| ▪ **“Hökumət Buludu” və milli bulud infrastrukturu:** Elektron dövlət xidmətlərinin təhlükəsizliyini, etibarlılığını və dayanıqlığını təmin etmək məqsədilə beynəlxalq standartlara uyğun hökumət buludu və milli məlumat mərkəzləri şəbəkəsi strateji üstünlük kimi formalaşmışdır.<br>▪ **Sürətli genişzolaqlı şəbəkə və GPON/FTTH texnologiyaları:** “Online Azerbaijan” və əlaqəli dövlət proqramları çərçivəsində internet sürətinin artırılması və ev təsərrüfatlarının əhatə dairəsinin genişləndirilməsi nəticəsində rəqəmsal xidmətlərə çıxış imkanları yüksəlmiş, rəqəmsal iqtisadiyyat üçün dayanıqlı infrastruktur yaradılmışdır.<br>▪ **Rəqabətli İKT qiymətləri:** Mobil və sabit genişzolaqlı internet xidmətlərinin milli gəlirə nisbətdə əlçatan qiymət göstəriciləri rəqəmsal cəmiyyətin formalaşmasına töhfə verən mühüm üstünlükdür.<br>▪ **Coğrafi-tranzit mövqe və Ələt Limanı:** Azərbaycanın Orta Dəhliz üzərində yerləşməsi və Bakı Limanının genişləndirilməsi rəqəmsal logistika inteqrasiyasında və beynəlxalq rəqəmsal ticarət axınlarında ölkənin strateji mövqeyini gücləndirən üstünlükdür.<br>▪ **Rəqəmsal transformasiyanın milli prioritet olması:** “Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər” sənədində innovasiya və rəqəmsal transformasiyanın prioritet istiqamət kimi müəyyən edilməsi institusional uyğunluq və uzunmüddətli inkişaf baxımından mühüm üstünlükdür. | ▪ **Rəqəmsal savadlılıq və kadr çatışmazlığı:** İKT və kibertəhlükəsizlik sahələrində ixtisaslı kadrların çatışmazlığı, habelə rəqəmsal bacarıqlar üzrə qeyri-bərabərlik rəqəmsallaşma prosesini ləngidən mühüm risklərdəndir.<br>▪ **Məlumat idarəçiliyi və DPI standartlaşdırması boşluqları:** Dövlət və özəl sektor arasında məlumat mübadiləsinin, məlumatın strukturlaşdırılması və təsvirinin, həmçinin rəqəmsal ictimai infrastrukturun (DPI) komponentlərinin uyğunlaşdırılmasındakı boşluqlar inteqrasiya və idarəetməni çətinləşdirir, ümumi səmərəliliyə risklər yaradır. |

| İmkanlar | Təhlükələr |
| --- | --- |
| ▪ **Dövlət müəssisələrində transformasiya:** Bir sıra dövlət müəssisələrində rəqəmsal transformasiya proqramlarının tətbiqi yeni idarəetmə modellərinin formalaşmasına və fəaliyyətin səmərəliliyinin artırılmasına imkan yaradır.<br>▪ **İşğaldan azad edilmiş ərazilərin inkişafı:** Qarabağ və Şərqi Zəngəzurda rəqəmsal transformasiya layihələrinin həyata keçirilməsi regional inteqrasiyanın güclənməsinə və innovativ həllərin tətbiqinə şərait yaradır.<br>▪ **Tranzit və logistika potensialı:** Transxəzər Beynəlxalq Nəqliyyat Marşrutunda yerləşmə e-ticarət və rəqəmsal logistika imkanlarının inkişafına mühüm şərait yaradır.<br>▪ **Data mərkəzlərinə artan tələbat:** Regionda data mərkəzlərinə və infrastruktur əsaslı xidmətlərə artan ehtiyac yeni biznes imkanlarını stimullaşdırır və rəqəmsal bazarın genişlənməsinə şərait yaradır.<br>▪ **Texnologiya şirkətlərinin yerdəyişməsi:** Qlobal iqtisadi və geosiyasi dəyişikliklər nəticəsində texnologiya şirkətlərinin regiona yönəlməsi rəqəmsal ekosistemin genişlənməsinə və yeni əməkdaşlıq imkanlarının yaranmasına təkan verir.<br>▪ **İdarəetmədə koordinasiya:** İnformasiya təhlükəsizliyi və rəqəmsal inkişaf (elektron hökumət) sahələrində qurumdaxili və qurumlararası koordinasiyanın güclənməsi, ekosistem daxilində əməkdaşlıq meyillərinin artması daha effektiv idarəetməni təmin edir.<br>▪ **Süni intellekt imkanları:** Qərarvermədə, risklərin idarə olunmasında və insidentlərin aşkarlanmasında süni intellekt əsaslı həllərin tətbiqi innovativ xidmətlərin inkişafına və idarəetmənin səmərəliliyinin artırılmasına imkan yaradır.<br>▪ **Bulud texnologiyaları:** Paylanmış bulud texnologiyalarının inkişafı çevik, təhlükəsiz və dayanıqlı rəqəmsal xidmətlərin tətbiqini təmin edir.<br>▪ **Rəqəmsal xidmət ixracı:** Proqram təminatı, platformaların və rəqəmsal xidmətlərin region ölkələrinə ixracı Azərbaycanın yeni bazarlara çıxışını təmin edir və rəqəmsal iqtisadiyyatın şaxələndirilməsinə xidmət edir.<br>▪ **Orta Dəhliz üzrə e-logistika:** Gömrük və tranzit əməliyyatlarının rəqəmsallaşdırılması və “bir pəncərə” prinsipi əsasında rəqəmsal xidmətlərin göstərilməsi beynəlxalq yükdaşımada səmərəliliyin artırılmasına və rəqəmsal logistika imkanlarının genişlənməsinə şərait yaradır.<br>▪ **FinTech və elektron ödənişlər:** Regional maliyyə mərkəzinə çevrilmək üçün rəqəmsal ödəniş sistemlərinin və FinTech həllərinin inkişafı yeni investisiya axınlarını stimullaşdırır və maliyyə ekosisteminin genişlənməsinə imkan yaradır.<br>▪ **Yaşıl rəqəmsal texnologiyalar:** Enerji səmərəli data mərkəzlərinin yaradılması və karbon azaldan rəqəmsal həllərin tətbiqi beynəlxalq tərəfdaşlıqlar və dayanıqlı inkişaf məqsədlərinə uyğunluq baxımından mühüm üstünlükdür.<br>▪ **Rəqəmsal bacarıqların inkişafı:** Regional “digital skills hub”ların yaradılması gənclərin məşğulluğunun artırılmasına, rəqəmsal kadr potensialının güclənməsinə və beynəlxalq şirkətlərin ölkəyə cəlbinə imkan yaradır.<br>▪ **Startap ekosisteminin qloballaşması:** Texnoparklar və innovasiya mərkəzləri vasitəsilə startapların dəstəklənməsi və onların qlobal bazarlara çıxışının təmin olunması innovasiyaların sürətlənməsinə və rəqabət qabiliyyətinin artırılmasına şərait yaradır. | ▪ **Regional rəqabət:** Rəqəmsallaşma sahəsində digər ölkələrin sürətli irəliləyişi fonunda Azərbaycan Respublikasının bu sahədə mövqeyinin zəifləməsi riski mövcuddur.<br>▪ **Texnoloji asılılıq:** Əsas rəqəmsal texnologiya və avadanlıqlar üzrə xarici təchizatçılardan yüksək asılılığın davam etməsi milli təhlükəsizlik və rəqabət qabiliyyətinə mənfi təsir göstərən risklərdəndir.<br>▪ **Kadr axını:** İT və mühəndislik sahəsində ixtisaslı kadrların xaricə miqrasiyasının artması rəqəmsal inkişafın sürətini ləngidən əsas çağırışlardan biridir.<br>▪ **Qlobal texnoloji dəyişikliklər:** Blokçeyn, kvant texnologiyaları və digər qabaqcıl texnologiyaların sürətli yayılması fonunda adaptasiya proseslərinin ləngiməsi rəqəmsal inkişafda geriqalma riskini artırır.<br>▪ **Kritik infrastruktur riskləri:** Enerji, nəqliyyat və maliyyə sistemlərinin rəqəmsal hücumlara qarşı zəifliyi kibertəhlükəsizlik və milli təhlükəsizlik üçün ciddi risk yaradır.<br>▪ **Beynəlxalq sanksiyalar və ticarət məhdudiyyətləri:** Qlobal geosiyasi dəyişikliklərin İT avadanlıqları və proqram təminatı idxalına mənfi təsir göstərməsi iri layihələrin icrasında ləngimə riskini artırır.<br>▪ **Etimad böhranı:** Şəxsi məlumatların qorunması ilə bağlı insidentlərin artması ictimai etimadı zəiflədərək, rəqəmsal xidmətlərin qəbul səviyyəsini azalda bilər. |

### 4. Strategiyanın hədəf göstəriciləri

4.1. Strategiyanın icrası nəticəsində aşağıdakı hədəflərə nail olunması gözlənilir:

| Sıra №-si | Hədəf indikatoru | Ölçü vahidi | 2026 | 2027 | 2028 | 2029 |
| --- | --- | --- | --- | --- | --- | --- |
| 4.1.1. | Rəqəmsal transformasiya proqramlarında iştirak edən müəssisələrin sayı | ədəd | 50 | 100 | 180 | 300 |
| 4.1.2. | Rəqəmsal transformasiyadan keçmiş müəssisələrdə EBİTDA artımı | mln AZN | 7 | 17 | 33 | 58 |
| 4.1.3. | Yeni startapların sayı | ədəd | 30 | 80 | 155 | 250 |
| 4.1.4. | Rəqəmsal bazarlara çıxış əldə etmiş KOB-ların payı | ədəd | 20 | 50 | 100 | 200 |
| 4.1.5. | Təlim keçmiş vətəndaşların sayı | nəfər | 3.000 | 8.000 | 20.000 | 40.000 |
| 4.1.6. | Ümumi məşğulluqda yüksəkixtisaslı İKT mütəxəssislərinin payı | % | 1.66 | 1.71 | 1.76 | 1.87 |
| 4.1.7. | GenAİ-dən istifadə halları vasitəsilə yaradılan iqtisadi təsir | mln AZN | 10 | 30 | 50 | 70 |

### 5. Strategiyanın məqsədləri

5.1. Strategiyanın əsas məqsədləri aşağıdakılardır:

5.1.1. iqtisadiyyatın sahələrində rəqəmsal transformasiyanı sürətləndirməklə dayanıqlı iqtisadi artımı dəstəkləmək;

5.1.2. iqtisadiyyatın rəqəmsallaşması prosesində əmək bazarının texnoloji tələblərinə uyğun kadr potensialını formalaşdırmaq;

5.1.3. iqtisadiyyatın sahələrində səmərəliliyə əsaslanan data yönümlü idarəetməni inkişaf etdirmək.

### 6. Strategiyanın prioritet istiqamətləri

6.1. Strategiya çərçivəsində aşağıdakı prioritet istiqamətlər üzrə tədbirlər həyata keçiriləcəkdir:

**6.1.1. iqtisadiyyatın rəqəmsal infrastrukturla təmini və müəssisələrin transformasiyası:**

**6.1.1.1. əsaslandırma:**

İqtisadiyyatda rəqəmsal infrastrukturun gücləndirilməsi və müəssisələrin transformasiyası milli iqtisadiyyatın rəqabət qabiliyyətinin artırılması, ixrac imkanlarının genişləndirilməsi və idarəetmədə səmərəliliyin təmini baxımından strateji əhəmiyyət kəsb edir. Belə rəqəmsal transformasiya istehsal və xidmət sahələrində innovativ yanaşmaların tətbiqini, resurslardan istifadənin optimallaşdırılmasını, yeni biznes modellərinin formalaşdırılmasını və iqtisadi fəaliyyətin şəffaflığının yüksəldilməsini təmin edəcəkdir. Bu proses eyni zamanda məhsul və xidmətlərin beynəlxalq standartlara uyğunlaşdırılmasına, qlobal bazarlara inteqrasiyanın dərinləşdirilməsinə və ixracın şaxələndirilməsinə şərait yaradacaqdır;

**6.1.1.2. görüləcək tədbirlər:**

6.1.1.2.1. müəssisələrin rəqəmsal həllərə tələbatını ödəmək üçün vahid “Rəqəmsal həllər və xidmətlər platforması”nın yaradılması və bu platformada rəqəmsal həll təchizatçılarının qeydiyyatının stimullaşdırılması;

6.1.1.2.2. yerli və beynəlxalq texnologiya təminatçılarının müəyyənləşdirilməsi və xüsusi sahələr (İT menecmenti, kibertəhlükəsizlik və s.) üzrə müəssisələrin texnologiyalara əlçatanlığını təmin edən tərəfdaşlar bazasının yaradılması və reyestrinin aparılması;

6.1.1.2.3. yeni nəsil texnologiyaların (süni intellekt, robot texnologiyalarının və s.) iqtisadiyyatda tətbiqi imkanlarının müəyyən edilməsi, habelə elektronlaşdırma və adaptasiya üzrə yol xəritəsinin hazırlanması;

6.1.1.2.4. dövlət–özəl tərəfdaşlığı əsasında özəl data mərkəzlərinin yaradılması sahəsində təşviqedici mexanizmlərin formalaşdırılması;

6.1.1.2.5. “Rəqəmsal İqtisadiyyatın İnkişafına Dəstək Proqramı”nın hazırlanması və tətbiqi, özəl sektorun iqtisadi fəaliyyətinin rəqəmsal transformasiyasına dair dəstək mexanizmlərinin təqdim edilməsi;

6.1.1.2.6. “Yeni Nəsil Texnologiyalar Mərkəzi”nin yaradılması və idarə edilməsi, həmçinin təlim və texnologiya tətbiqinə dair dəstək mexanizmlərinin formalaşdırılması;

6.1.1.2.7. KOB-ların korporativ idarəetmə sistemlərinə və proqram təminatlarına (o cümlədən anbar idarəetməsi, satış və ixrac modulları) əlçatanlığının dəstəklənməsi, bu məqsədlə xüsusi dəstək mexanizmlərinin yaradılması;

6.1.1.2.8. yerli İKT məhsullarının istehsalının təşviqi məqsədilə əlverişli sahələrin müəyyən edilməsi və zəruri dəstək mexanizmlərinin formalaşdırılması;

6.1.1.2.9. İKT və digər rəqəmsal məhsulların tətbiqinin genişləndirilməsi məqsədilə böyük müəssisələrlə KOB-lar arasında təchizat zənciri klasterlərinin yaradılması və bu əməkdaşlığın stimullaşdırılması;

**6.1.1.3. gözlənilən nəticə və nəticə indikatorları:**

6.1.1.3.1. müəssisələr rəqəmsal dəstək proqramlarından faydalanacaqlar;

6.1.1.3.2. KOB-ların rəqəmsal sistemlərdən istifadəsi və ixrac imkanları davamlı artacaqdır;

6.1.1.3.3. yerli texnologiya təminatçılarının bazar payı davamlı artacaq, İKT ixracı əhəmiyyətli dərəcədə genişlənəcəkdir;

6.1.1.3.4. yeni texnologiyaların tətbiqi nəticəsində əməliyyat səmərəliliyi azı 5–10 faiz yüksələcəkdir;

6.1.1.3.5. Azərbaycanda beynəlxalq standartlara uyğun 2-dən çox data mərkəzi fəaliyyət göstərəcəkdir;

6.1.1.3.6. ümumi nəticə olaraq, rəqəmsal iqtisadiyyatın qeyri-neft ÜDM-də payı, həmçinin İKT sektorunun payı davamlı artacaqdır;

**6.1.1.4. gözlənilən risklər və onları neytrallaşdırma tədbirləri:**

Əsas risklər kimi müəssisələrin rəqəmsal transformasiyaya marağının aşağı olması, texnoloji infrastruktur və maliyyələşmə imkanlarının məhdudluğu, ixtisaslı kadr çatışmazlığı və qurumlararası koordinasiya zəifliyi müəyyən edilir. Bu risklərin neytrallaşdırılması üçün vergi güzəştlərinin və subsidiyaların tətbiqi, texnologiya transferinin dəstəklənməsi, genişmiqyaslı təlim proqramlarının təşkili, dövlət–özəl tərəfdaşlığı mexanizmlərinin gücləndirilməsi və vahid koordinasiya platformasının yaradılması nəzərdə tutulur;

**6.1.2. startapların inkişafı və maliyyələşmə mexanizmlərinin gücləndirilməsi:**

**6.1.2.1. əsaslandırma:**

Yeni bizneslərin yaranması və inkişafı iqtisadiyyatın rəqabət qabiliyyətinin güclənməsi, məşğulluğun artırılması və innovasiya mühitinin genişlənməsi üçün zəruridir. Bu istiqamətdə mentorluq və təlim proqramlarının genişləndirilməsi, maliyyə dəstəyi mexanizmlərinin tətbiqi, spin-off modellərinin təşviqi, vençur fondlarının yaradılması, rəqəmsal kraudfandinq platformalarının işə salınması və sandbox mühitlərinin tətbiqi startapların sürətli inkişafına imkan yaradacaqdır. Real iş mühitinə bənzər texnoloji sınaq mərkəzlərinin təşkili isə qabaqcıl texnologiyaların bazara çıxışını sürətləndirəcək və KOB sektorunun iqtisadi artıma töhfəsini yüksəldəcəkdir;

**6.1.2.2. görüləcək tədbirlər:**

6.1.2.2.1. “Yeni Bizneslərin Yaradılması və Gücləndirilməsi” proqramı çərçivəsində bizneslərin mentorluq, təlim və əməkdaşlıq vasitəsilə dəstəklənməsi, habelə seçilmiş yeni bizneslərə maliyyə dəstəyi göstərilməsi;

6.1.2.2.2. yeni müəssisədaxili biznes modellərinin (spin-off) formalaşmasını təşviq etmək üçün qrant proqramları və tənzimləmə dəstəyi kimi mexanizmlərin yaradılması, habelə investisiya yönümlü əməkdaşlıq təşəbbüslərinin həyata keçirilməsi;

***(ardı 5-ci səhifədə)***

# Azərbaycan Respublikasında rəqəmsal iqtisadiyyatın inkişafına dair 2026–2029-cu illər üçün STRATEGİYA

*(əvvəli 4-cü səhifədə)*

6.1.2.2.3. yeni texnoloji bizneslərin sayını artırmaq məqsədilə texnologiya yönümlü vençur fondlarının (xüsusilə startap və yeni bizneslərə sərmayə qoyanların) fəaliyyətinin dəstəklənməsi (vergi və s. güzəştlər);

6.1.2.2.4. rəqəmsal kraudfandinq platformasının yaradılması və yeni rəqəmsal bizneslərin maliyyə resurslarına çıxışının artırılması;

6.1.2.2.5. qabaqcıl texnologiyanın və digər məhsulların, habelə xidmətlərin iqtisadi fəaliyyət sahələrində sınaqdan keçirilməsi üçün xüsusi tənzimləyici mexanizmlərin (sandbox) yaradılması və tətbiqi;

6.1.2.2.6. yeni rəqəmsal məhsul və xidmət istehsalı texnologiyalarının iqtisadiyyatın müxtəlif sahələrində tətbiqi üçün real iş mühitinə bənzər texnoloji sınaq mərkəzlərinin yaradılması;

**6.1.2.3. gözlənilən nəticə və nəticə indikatorları:**

6.1.2.3.1. dəstək almış bizneslərin 30 faizi fəaliyyətə başlayacaq, onların illik dövriyyəsi 20 faiz artacaq, yeni yaradılmış bizneslərin 30 faizi dayanıqlı fəaliyyət göstərəcək və azı 50 daimi iş yeri açılacaqdır;

6.1.2.3.2. spin-off layihələrinin 20 faizi kommersiyalaşacaq, azı 5 layihə qrant dəstəyi alacaqdır;

6.1.2.3.3. potensial vençurlar müəyyən ediləcək və yeni bizneslər üçün maliyyə imkanlarına çıxış yaxşılaşdırılacaqdır;

6.1.2.3.4. 1 pilot rəqəmsal kraudfandinq platforması yaradılacaq, ilkin mərhələdə 10 biznes layihəsi maliyyələşəcək, platforma vasitəsilə ümumilikdə 50 biznes dəstək alacaq və maliyyələşmə həcmi 2 dəfə artacaqdır;

6.1.2.3.5. sandbox mühitində 20 layihə sınaqdan keçiriləcək, onların 40 faizi kommersiyalaşmaya hazır olacaqdır;

6.1.2.3.6. texnoloji sınaq mərkəzləri vasitəsilə 10 yeni rəqəmsal məhsul və xidmət texnologiyası sınaqdan keçiriləcək, onların azı 35 faizi kommersiyalaşacaqdır;

**6.1.2.4. gözlənilən risklər və onları neytrallaşdırma tədbirləri:**

Əsas risklər kimi startapların ilkin kapitala çıxış imkanlarının məhdudluğu, kommersiyalaşma bacarıqlarının zəifliyi, vençur investorlarının passivliyi və normativ hüquqi boşluqlar müəyyən edilir. Bu risklərin neytrallaşdırılması məqsədilə vergi güzəştləri və stimullar tətbiq olunacaq, qrant və subsidiya mexanizmləri gücləndiriləcək, beynəlxalq investisiya şəbəkələri ilə əməkdaşlıq genişləndiriləcək, hüquqi baza isə müasir tələblərə uyğun təkmilləşdiriləcəkdir;

**6.1.3. investisiya mühitinin yaxşılaşdırılması və qlobal bazarlara inteqrasiya:**

**6.1.3.1. əsaslandırma:**

İnvestisiya mühitinin yaxşılaşdırılması və xarici sərmayələrin cəlbi ölkənin iqtisadi dayanıqlığının güclənməsi, rəqabət qabiliyyətinin artırılması və innovasiya potensialının yüksəldilməsi üçün strateji əhəmiyyət kəsb edir. Eyni zamanda, rəqəmsal ticarətin inkişafı, yerli müəssisələrin beynəlxalq platformalara inteqrasiyası, ali təhsil müəssisələri nəzdində innovasiya klasterlərinin yaradılması və əqli mülkiyyətin qorunması Azərbaycanın qlobal iqtisadiyyata daha sürətli inteqrasiyasını təmin edəcəkdir;

**6.1.3.2. görüləcək tədbirlər:**

6.1.3.2.1. xarici investisiyaların cəlbi və innovasiya mühitinin yaxşılaşdırılması məqsədilə biznesin yaradılması prosesinin sadələşdirilməsi, əlverişli investisiya sahələrinin müəyyənləşdirilməsi və sahibkarlıq üçün təşviqlərə dair təkliflər hazırlanması;

6.1.3.2.2. rəqəmsal ticarətin inkişafı və yerli müəssisələrin xarici bazarlara çıxışı üçün beynəlxalq e-ticarət platformaları (Amazon, AliExpress və s.) ilə əməkdaşlığın genişləndirilməsi;

6.1.3.2.3. yerli müəssisələrin beynəlxalq e-ticarət platformalarında fəaliyyətini asanlaşdırmaq məqsədilə müvafiq sahədə normativ hüquqi bazanın və tənzimləyici mexanizmlərin təkmilləşdirilməsi;

6.1.3.2.4. ali təhsil müəssisələrinin nəzdində texnologiya və innovasiya ekosistemini əhatə edən innovasiya klasterlərinin yaradılması;

6.1.3.2.5. patentlər və əmtəə nişanları üzrə "Açıq reyestrlər" informasiya resurslarının yaradılması, hüquqi və infrastruktur (proqram təminatı və platformaların) təminatının yaxşılaşdırılması;

6.1.3.2.6. İKT mütəxəssislərinə layihələrini icra etmək üçün açıq mənbə proqram platformalarına (məsələn, GitHub) ödənişsiz giriş imkanının yaradılması;

**6.1.3.3. gözlənilən nəticə və nəticə indikatorları:**

6.1.3.3.1. xarici investisiyaya ehtiyacı olan 5 prioritet investisiya sahəsi müəyyən olunacaq və ÜDM-də özəl maliyyələşdirmənin payı davamlı artacaqdır;

6.1.3.3.2. beynəlxalq e-ticarət platformaları ilə əməkdaşlıq nəticəsində 50 müəssisə onlayn satış fəaliyyətinə başlayacaq, uzunmüddətli dövrdə isə azı 200 müəssisə platformalarda aktiv fəaliyyət göstərəcək və rəqəmsal ixrac davamlı artacaqdır;

6.1.3.3.3. rəqəmsal ticarət subyektlərinin sayı davamlı artacaq və bu sahənin ÜDM-də payı yüksələcəkdir;

6.1.3.3.4. ali təhsil müəssisələri nəzdində innovasiya klasterləri formalaşdırılacaq, nəticədə 200 aktiv innovasiya subyekti fəaliyyət göstərəcəkdir;

6.1.3.3.5. patent və əmtəə nişanlarının 70 faizi açıq reyestrdə əhatə olunacaq, istifadənin illik həcmi 30 000 sorğunu ötəcəkdir;

6.1.3.3.6. 400-dən çox İKT mütəxəssisi beynəlxalq açıq mənbəli icmalara qoşulacaqdır;

**6.1.3.4. gözlənilən risklər və onları neytrallaşdırma tədbirləri:**

Əsas risklər kimi xarici investorların marağının dəyişkənliyi, yerli müəssisələrin beynəlxalq rəqabət qabiliyyətinin məhdudluğu, e-ticarət üzrə hüquqi boşluqlar və əqli mülkiyyətin qeyri-kafi qorunması qeyd olunur. Bu risklərin neytrallaşdırılması üçün əlavə investisiya təşviqləri tətbiq ediləcək, yerli müəssisələrə sertifikat və ixrac dəstəyi gücləndiriləcək, e-ticarət sahəsində normativ hüquqi baza beynəlxalq standartlara uyğunlaşdırılacaq, patent sistemində şəffaflıq artırılacaq və innovasiya sahəsində beynəlxalq əməkdaşlıq genişləndiriləcəkdir;

**6.1.4. rəqəmsal innovasiya ekosisteminin inkişafı və şəbəkələşmə:**

**6.1.4.1. əsaslandırma:**

Rəqəmsal innovasiya ekosisteminin inkişafı bilik mübadiləsini, startap–investor əlaqələrini və sektorlararası əməkdaşlığı gücləndirərək, iqtisadiyyatın rəqabət qabiliyyətini yüksəldəcəkdir. Bu prosesin tərkib hissəsi olaraq sammitlərin təşkili, 4-cü Sənaye İnqilabı texnologiyalarının təqdimatı, startapların sənaye ilə əlaqələndirilməsi, vahid rəqəmsal resursların yaradılması və müəssisələrarası əməkdaşlıq platformalarının formalaşdırılması startapların bazara çıxışını asanlaşdıracaq, yeni texnologiyaların tətbiqini sürətləndirəcək və rəqəmsal transformasiyanı genişləndirəcəkdir;

**6.1.4.2. görüləcək tədbirlər:**

6.1.4.2.1. innovasiyaların tətbiqini sürətləndirmək məqsədilə sektorlararası əməkdaşlığı, startapların təqdimatını və investorlarla əlaqəni təmin edən rəqəmsal sammitlərin təşkili;

6.1.4.2.2. 4-cü Sənaye İnqilabı texnologiyalarının (blokçeyn, artırılmış reallıq, süni intellekt və s.) təqdimatı və bu sahədə məlumatlılığın artırılması;

6.1.4.2.3. startapların və tədqiqat mərkəzlərinin sənaye ilə əlaqələndirilməsi, onların real bazar təcrübəsinə, resurslara və mütəxəssis dəstəyinə əlçatanlığını təmin edən mexanizmlərin yaradılması;

6.1.4.2.4. rəqəmsal iqtisadiyyat ekosisteminin formalaşmasına dəstək göstərmək məqsədilə vahid internet resursunun yaradılması;

6.1.4.2.5. müəssisələrin rəqəmsal təşəbbüslərini paylaşa və digər təşkilatların təcrübəsini izləyə biləcəyi əməkdaşlıq platformasının yaradılması;

**6.1.4.3. gözlənilən nəticə və nəticə indikatorları:**

6.1.4.3.1. 3 rəqəmsal sammit keçiriləcək, azı 180 startapın təqdimatı baş tutacaqdır;

6.1.4.3.2. 4-cü Sənaye İnqilabı texnologiyaları üzrə 3 təqdimat tədbiri keçiriləcək, tədbirlərdə 300-dən çox mütəxəssis iştirak edəcək, nəticədə müxtəlif sahələrdə ən azı 30 yeni texnologiya layihəsi tətbiq olunacaqdır;

6.1.4.3.3. startaplar və tədqiqat mərkəzləri ilə sənaye arasında 15 birgə layihə həyata keçiriləcək, nəticədə 10 yeni məhsul və xidmət bazara çıxacaq və 25 davamlı startap formalaşacaqdır;

6.1.4.3.4. rəqəmsal iqtisadiyyatla bağlı vahid internet resursu yaradılacaq, ümumilikdə isə 10 000 nəfər məlumat əldə edəcək, 200 müəssisə platformaya inteqrasiya olunacaqdır;

6.1.4.3.5. müəssisələrin rəqəmsal təşəbbüslərini paylaşdığı əməkdaşlıq platformasında azı 100 aktiv istifadəçi müəssisə olacaqdır;

6.1.4.3.6. müəssisələrin rəqəmsal transformasiya təcrübələrinin toplanılması, vahid internet resursunda yerləşdirilməsi və davamlı yenilənməsi, rəqəmsallaşma ilə bağlı məlumatlılıq səviyyəsinin davamlı artması;

**6.1.4.4. gözlənilən risklər və onları neytrallaşdırma tədbirləri:**

Əsas risklər startapların maliyyə və resurs çatışmazlığı, texnologiyaların tətbiqi üçün yerli bazarda məhdud tələbat və qurumlararası koordinasiya zəifliyi ola bilər. Bu risklərin neytrallaşdırılması üçün dövlət–özəl tərəfdaşlığı gücləndiriləcək, investorlar üçün stimullar hazırlanacaq, startaplara təlim və mentorluq dəstəyi veriləcək, həmçinin vahid rəqəmsal platformalar vasitəsilə koordinasiya artırılacaqdır;

**6.1.5. rəqəmsal bacarıqların əmək bazarının tələblərinə uyğunluğunun artırılması:**

**6.1.5.1. əsaslandırma:**

Rəqəmsal bacarıqların gücləndirilməsi əmək bazarının ehtiyaclarına cavab verən kadrların hazırlanması, gənclərin məşğulluq imkanlarının artırılması və İKT sahəsinin rəqabət qabiliyyətinin yüksəldilməsi baxımından əhəmiyyət kəsb edir. Bu istiqamətdə vahid platformaların yaradılması, işəgötürənlərin tələblərinə uyğun təlimlərin təşkili, qlobal İKT müəssisələri ilə əməkdaşlıq, KOB işçiləri üçün e-təlim imkanlarının təmin edilməsi, sərbəst mütəxəssislərin fəaliyyətinin rəsmiləşdirilməsi, yeni peşə və ixtisasların müəyyənləşdirilməsi və beynəlxalq sertifikatların tanınması rəqəmsal bacarıqların bazar tələblərinə uyğunlaşdırılmasına imkan yaradacaqdır;

**6.1.5.2. görüləcək tədbirlər:**

6.1.5.2.1. rəqəmsal bacarıqlar (proqram təminatının inkişafı, məlumat və analitika, maşın öyrənməsi və s.) üzrə və bacarıq ehtiyaclarına dair vahid platformanın yaradılması;

6.1.5.2.2. işəgötürənlərin tələblərinə uyğun rəqəmsal bacarıqların təkmilləşdirilməsi proqramlarının həyata keçirilməsi;

6.1.5.2.3. qlobal İKT sənayesinin liderləri (Cisco, Oracle, Microsoft və s.) ilə təlim düşərgələrinin təşkili;

6.1.5.2.4. KOB işçilərinin sahəvi ehtiyaclarına uyğun rəqəmsal təlimlərin keçirilməsi və e-təlim sessiyaları üçün ortaq platformanın yaradılması;

6.1.5.2.5. rəqəmsal bacarıqlar tələb olunan işlər üzrə sərbəst mütəxəssislərin əmək fəaliyyətinin rəsmiləşdirilməsi və işəgötürənlərin bu sahədə təşviqi üzrə təkliflər hazırlanması;

6.1.5.2.6. rəqəmsal iqtisadiyyatın inkişafı üçün tələb olunan yeni peşə və ixtisasların müəyyən edilməsi, onların təşviqi üzrə təkliflər hazırlanması;

6.1.5.2.7. beynəlxalq İKT və rəqəmsal sertifikatların maliyyələşdirilməsi və tanınması;

**6.1.5.3. gözlənilən nəticə və nəticə indikatorları:**

6.1.5.3.1. vahid rəqəmsal bacarıqlar platforması yaradılacaq, azı 3,000 aktiv istifadəçi qoşulacaq, 10 əsas rəqəmsal bacarıq profili müəyyən ediləcəkdir;

6.1.5.3.2. işəgötürənlərin tələblərinə uyğun təlim proqramları həyata keçiriləcək, 400 gənc mütəxəssis məzun olacaq, onların 80 faizə qədəri işlə təmin olunacaqdır;

6.1.5.3.3. Qlobal İKT müəssisələri ilə birlikdə butkamplar təşkil ediləcək, 500 yüksəkixtisaslı mütəxəssis hazırlanacaqdır;

6.1.5.3.4. KOB işçiləri üçün yaradılmış e-təlim platforması vasitəsilə 1000 işçi sertifikat alacaq və davamlı olaraq platformanın istifadəçi kütləsi genişləndiriləcəkdir;

6.1.5.3.5. sərbəst mütəxəssislərin fəaliyyətini rəsmiləşdirmək üçün hüquqi təkmilləşdirmələr ediləcək, onların rəsmi qeydiyyata alınması təmin ediləcək, qeyri-formal məşğulluq davamlı azalacaqdır;

6.1.5.3.6. əmək bazarında azı 10 yeni peşə və ixtisas müəyyən ediləcək, yeni sahəvi mütəxəssislər hazırlanacaq, bacarıq uyğunsuzluğu davamlı azalacaqdır;

6.1.5.3.7. 5 beynəlxalq sertifikat proqramı maliyyələşdiriləcək, nəticədə beynəlxalq sertifikatlı 500–1000 mütəxəssis hazırlanacaqdır;

**6.1.5.4. gözlənilən risklər və onları neytrallaşdırma tədbirləri:**

Əsas risklər kimi rəqəmsal bacarıqlar üzrə təlimlərə marağın aşağı olması, beynəlxalq sertifikatların yüksək maliyyə yükü və işəgötürənlərin yeni peşələrə adaptasiya tempinin zəifliyi müəyyən edilir. Bu risklərin neytrallaşdırılması məqsədilə təlimlər üçün subsidiyaların artırılması, dövlət–özəl tərəfdaşlığı çərçivəsində maarifləndirmə tədbirlərinin təşkili, beynəlxalq proqramlara maliyyə dəstəyi gücləndirilməsi və işəgötürənlərin stimullaşdırılması planlaşdırılır;

**6.1.6. təhsil, karyera və rəqəmsal savadlılıq imkanlarının genişləndirilməsi:**

**6.1.6.1. əsaslandırma:**

Təhsil və karyera imkanlarının rəqəmsal bacarıqlara uyğunlaşdırılması rəqəmsal iqtisadiyyatın davamlı inkişafı və rəqabət qabiliyyətinin artırılması üçün mühüm şərtdir. Peşə təhsilindən doktoranturaya qədər bütün pillələrdə rəqəmsal ixtisasların inkişafı, beynəlxalq sertifikatlarla uyğunlaşdırılması, xaricdə təhsil imkanlarının dəstəklənməsi və bütün yaş qrupları üçün rəqəmsal savadlılığın artırılması yeni nəsil kadr potensialının yaradılmasına imkan yaradacaqdır;

**6.1.6.2. görüləcək tədbirlər:**

6.1.6.2.1. peşə təhsili müəssisələri tələbələrinin müasir texnoloji bacarıqlar (kibertəhlükəsizlik, Data Science, proqramlaşdırma və s.) üzrə proqramlara qoşulmasının və müvafiq peşələrə yiyələnməsinin təşviqi;

6.1.6.2.2. yüksək göstəricilərə malik şəxslərin xaricdə qısamüddətli təhsil (proqram və kompüter mühəndisliyi, kompüter elmləri, informasiya təhlükəsizliyi, kibertəhlükəsizlik və s. ixtisaslar) imkanlarının dəstəklənməsi;

6.1.6.2.3. İKT üzrə karyera quran kadrları həvəsləndirmək üçün tam və ya qismən maliyyələşdirilən illik İKT təqaüd proqramlarının təsis edilməsi;

6.1.6.2.4. ali təhsil müəssisələrində rəqəmsal bacarıqlara və qlobal səviyyədə tanınan rəqəmsal yönümlü sertifikatlaşdırma standartlarına əsaslanan təhsil proqramlarının hazırlanması;

6.1.6.2.5. rəqəmsallaşma istiqaməti üzrə elmi tədqiqat işlərinin doktorantura səviyyəsində dəstəklənməsi;

6.1.6.2.6. bütün yaş qrupları üçün rəqəmsal bacarıqların artırılması məqsədilə öyrənmə platformalarının təkmilləşdirilməsi və təlim proqramlarının həyata keçirilməsi;

6.1.6.2.7. bütün maraqlı tərəfləri əhatə edən rəqəmsallaşma istiqamətində karyera transformasiyası proqramlarının hazırlanması;

6.1.6.2.8. gənclərin İKT sahəsində karyera inkişafını dəstəkləmək üçün mərkəzləşdirilmiş elektron karyera məsləhəti xidmətlərinin yaradılması və istifadəsinin təşviqi;

**6.1.6.3. gözlənilən nəticə və nəticə indikatorları:**

6.1.6.3.1. peşə təhsili sahəsində 5 yeni texnoloji proqram hazırlanacaq, nəticədə texnoloji bacarıqlara malik 500 məzun yetişəcək və əmək bazarına daxil olan tələbələrin sayı davamlı artacaqdır;

6.1.6.3.2. xaricdə təhsil üzrə illik 200 təqaüd ayrılacaq, həmin tələbələr öhdəlik müqaviləsi ilə ölkəyə qayıdacaq, nəticədə rəqəmsal ixtisaslı kadr potensialı davamlı yaxşılaşacaqdır;

6.1.6.3.3. illik 50 yerlik İKT təqaüd proqramı təsis olunacaq, nəticədə kadr potensialı davamlı artacaqdır;

6.1.6.3.4. ali təhsil sahəsində 1 yeni rəqəmsal ixtisas tədrisinə başlanılacaq, 2 proqram beynəlxalq sertifikat standartlarına uyğunlaşdırılacaq, nəticədə rəqəmsal bacarıqlara yiyələnmiş 1000 məzun hazırlanacaq və beynəlxalq sertifikata malik 100 mütəxəssis əmək bazarına inteqrasiya olunacaqdır;

6.1.6.3.5. doktorantura səviyyəsində 1 yeni proqram təsdiqlənəcək, sahəvi fəlsəfə doktoru dissertasiyaları müdafiə olunacaq, onların sənayedə fəaliyyətə başlaması təmin ediləcəkdir;

6.1.6.3.6. azı 1 rəqəmsal öyrənmə platforması təkmilləşdiriləcək, 10 000 nəfər bütün yaş qrupları üzrə rəqəmsal bacarıqlar əldə edəcəkdir;

6.1.6.3.7. 2 karyera və mentorluq proqramı icra olunacaq, nəticədə 2 000 nəfər karyerasını rəqəmsallaşma üzrə inkişaf etdirəcəkdir;

6.1.6.3.8. 1 mərkəzləşdirilmiş elektron karyera platforması yaradılacaq, nəticədə 2,000 gənc məsləhət alacaq, İKT sahəsində işlə təminolunma davamlı artacaqdır;

**6.1.6.4. gözlənilən risklər və onları neytrallaşdırma tədbirləri:**

Əsas risklər kimi tələbələrin rəqəmsal təhsil proqramlarına marağının aşağı olması, xaricdə təhsil alanların ölkəyə qayıtmama ehtimalı və bizneslərin yeni kadrları işə qəbul etməkdə tərəddüdü göstərilir. Bu risklərin neytrallaşdırılması üçün dövlət–özəl tərəfdaşlığı çərçivəsində təşviqlər hazırlanacaq, tələbələr və gənclər üçün motivasiya mexanizmləri gücləndiriləcəkdir;

**6.1.7. strategiyanın effektiv icrasının təmini üçün monitorinq mexanizminin gücləndirilməsi:**

**6.1.7.1. əsaslandırma:**

Strategiyanın effektiv icrası yalnız məqsəd və tədbirlərin müəyyən olunması ilə məhdudlaşmır, həm də onların icra vəziyyətinin mütəmadi izlənilməsini, nəticələrin qiymətləndirilməsini və ictimaiyyətə hesabatlılığın təmin olunmasını zəruri edir. Bu məqsədlə monitorinq mexanizmlərinin gücləndirilməsi, vahid məlumat bazasının yaradılması və beynəlxalq standartlara əsaslanan metodoloji çərçivənin formalaşdırılması xüsusi əhəmiyyət kəsb edir;

**6.1.7.2. görüləcək tədbirlər:**

**6.1.7.2.1.** Strategiyanın icrasının səmərəliliyinin izlənilməsi mexanizmlərinin yaradılması;

**6.1.7.2.2.** Strategiya üzrə əsas təşəbbüs və tədbirlərin icra statusu, habelə rəqəmsal iqtisadiyyat barədə ictimai məlumatlılıq səviyyəsinin artırılması;

6.1.7.2.3. Strategiyanın qeyri-neft sektorunda iqtisadi artıma potensial təsirinin qiymətləndirilməsi üçün beynəlxalq təcrübəyə və standartlara əsaslanan metodologiyanın hazırlanması;

**6.1.7.3. gözlənilən nəticə və nəticə indikatorları:**

6.1.7.3.1. yarımillik və illik əsasda azı 6 monitorinq hesabatı hazırlanacaq, dövlət qurumları və maraqlı tərəflər arasında məlumat mübadiləsi səviyyəsi davamlı artırılacaqdır;

6.1.7.3.2. vahid internet portalı istifadəyə veriləcək, məlumatlar ildə azı 4 dəfə yenilənəcək, portaldan istifadəçilərin sayı davamlı artacaq, ictimaiyyətin rəy və təklifləri nəzərə alınacaqdır;

6.1.7.3.3. Strategiyanın nəticələrinin gözlənilən hədəflərlə müqayisəsi aparılacaq, təkmilləşdirilmə sahələri müəyyən ediləcək və ictimai məlumatlılıq təmin ediləcəkdir;

6.1.7.3.4. azı 1 metodoloji çərçivə sənədi hazırlanacaq, 2 pilot qiymətləndirmə ssenarisi və 2 aralıq hesabat təqdim ediləcək, nəticədə hər il Strategiyanın iqtisadi artıma təsiri barədə hesabat hazırlanaraq, bu sahədə siyasət tövsiyələrinin qəbuluna dəstək veriləcəkdir;

**6.1.7.4. gözlənilən risklər və onları neytrallaşdırma tədbirləri:**

Əsas risklər kimi qurumların hesabatlılıq mexanizmlərinə zəif inteqrasiyası, məlumatların gecikməsi və keyfiyyət problemləri, ictimaiyyətin iştirak səviyyəsinin aşağı olması göstərilə bilər. Bu risklərin neytrallaşdırılması üçün vahid hesabat standartları tətbiq ediləcək, məlumatların vaxtında yenilənməsi üçün məsul qurumların öhdəlikləri gücləndiriləcək, ictimai iştirakçılıq üçün rəqəmsal platformalarda interaktiv mexanizmlər yaradılacaqdır;

6.1.8. iqtisadi fəaliyyət sahələri üzrə data əsaslı qərarvermə potensialının artırılması:

**6.1.8.1. əsaslandırma:**

Müasir iqtisadi idarəetmə dəqiq məlumatların təhlilinə və proqnozlaşdırma modellərinə əsaslanmalıdır. Dövlət qurumlarında mövcud məlumat bazalarının inteqrasiyası və vahid analitika sistemlərinin yaradılması qərarların səmərəliliyini artıracaq, şəffaflığı gücləndirəcək və iqtisadi siyasətin daha effektiv həyata keçirilməsinə imkan verəcəkdir. Rəqəmsallaşma ehtiyaclarının təhlili və sahələr üzrə yol xəritələrinin hazırlanması isə prioritet sahələrin məqsədyönlü inkişafını təmin edəcəkdir;

**6.1.8.2. görüləcək tədbirlər:**

6.1.8.2.1. "İqtisadi məlumatların analitikası sistemi"nin yaradılması və məlumat bazalarının inteqrasiyası;

6.1.8.2.2. iqtisadi fəaliyyət sahələrinin rəqəmsallaşma ehtiyaclarının müəyyənləşdirilməsi;

6.1.8.2.3. iqtisadi sahələr üzrə data əsaslı qərarvermə proseslərinin təkmilləşdirilməsi;

**6.1.8.3. gözlənilən nəticə və nəticə indikatorları:**

6.1.8.3.1. "İqtisadi məlumatların analitikası sistemi" hazırlanacaq, ilkin mərhələdə 5 məlumat bazası həmin sistemə inteqrasiya olunacaqdır;

6.1.8.3.2. azı 10 sosial-iqtisadi məlumat dəsti formalaşdırılacaq, 5 yeni analitik alət istifadəyə veriləcək və nəticədə ildə 6 data əsaslı analitik hesabat hazırlanacaqdır;

6.1.8.3.3. təhlil nəticəsində iqtisadiyyatın 10 prioritet istiqaməti müəyyən ediləcək, onların rəqəmsal yol xəritələri hazırlanacaqdır;

6.1.8.3.4. iqtisadi qərarlarının data əsaslı qəbul edilməsinin payı davamlı artacaqdır;

**6.1.8.4. gözlənilən risklər və onları neytrallaşdırma tədbirləri:**

Əsas risklər kimi məlumat keyfiyyətinin aşağı olması, yüksək analitik bacarıqlara malik kadrların çatışmazlığı qeyd olunur. Bu risklərin neytrallaşdırılması üçün məlumat keyfiyyəti üzrə vahid standartların tətbiqi, kadrların davamlı təlim proqramlarına cəlb edilməsi, dövlət–özəl tərəfdaşlığı çərçivəsində texnoloji həllərin tətbiqi və müntəzəm monitorinq mexanizmlərinin yaradılması nəzərdə tutulur;

**6.1.9. idarəetmədə rəqəmsal infrastruktur və texnoloji modellərin tətbiqi:**

**6.1.9.1. əsaslandırma:**

İdarəetmədə rəqəmsal texnologiyaların tətbiqi dövlət xidmətlərinin keyfiyyətini yüksəltmək, qərarvermə proseslərini sürətləndirmək və idarəçilik xərclərini azaltmaq baxımından zəruridir. "Rəqəmsal Əkiz" modellərinin tətbiqi iqtisadi və sosial sahələrdə ssenari modelləşdirməsini, risklərin proqnozlaşdırılmasını və resursların optimal istifadəsini təmin edəcəkdir. Azərbaycan dili bazasında yaradıcı süni intellekt modelinin hazırlanması dövlət idarəçiliyində milli dil resurslarının istifadəsini genişləndirəcək və beynəlxalq səviyyədə tanınmasına şərait yaradacaqdır. İşğaldan azad edilmiş ərazilər və Naxçıvan Muxtar Respublikası üçün xüsusi rəqəmsal və yaşıl inkişaf çərçivələrinin tətbiqi isə bu bölgələrin sosial-iqtisadi inkişafını sürətləndirəcək, dayanıqlı inkişaf meyarlarının təmininə töhfə verəcəkdir;

**6.1.9.2. görüləcək tədbirlər:**

6.1.9.2.1. pilot bölgələrdə və əsas iqtisadi əməliyyatlarda "Rəqəmsal Əkiz" modellərinin tətbiqi;

6.1.9.2.2. İqtisadiyyat Nazirliyinin ekosistem sahələrində istifadə məqsədilə Azərbaycan dili bazasında sahəyə məxsus yaradıcı (generativ) dil modelinin hazırlanması və tətbiqi;

6.1.9.2.3. işğaldan azad edilmiş ərazilərdə və Naxçıvan Muxtar Respublikasında rəqəmsallaşmanın genişləndirilməsi məqsədilə müəssisələr üçün rəqəmsal çərçivələrin müəyyənləşdirilməsi;

**6.1.9.3. gözlənilən nəticə və nəticə indikatorları:**

**6.1.9.3.1.** azı 1 iqtisadi sahə və əməliyyat müəyyən ediləcək, 2 pilot "Rəqəmsal Əkiz" modeli tətbiq olunacaq, nəticədə milli səviyyədə 4 "Rəqəmsal Əkiz" modelinin istifadəsi təmin ediləcək və idarəetmədə səmərəlilik göstəriciləri yaxşılaşacaqdır;

**6.1.9.3.2.** İqtisadiyyat Nazirliyinin ekosistem sahələrində istifadə məqsədilə Azərbaycan dili üzrə korpus hazırlanacaq, 1 yaradıcı dil modeli işlək vəziyyətə gətiriləcək və pilot çərçivədə tətbiq ediləcək, digər dövlət qurumlarında da bu modeldən istifadə artacaqdır;

**6.1.9.3.3.** işğaldan azad edilmiş ərazilər və Naxçıvan Muxtar Respublikası üçün 2 xüsusi rəqəmsal çərçivə hazırlanacaq, azı 20 müəssisə fəaliyyətini bu çərçivələr əsasında icra edəcək, uzunmüddətli perspektivdə isə ümumilikdə 50 müəssisə rəqəmsal transformasiyadan faydalanacaqdır;

**6.1.9.4. gözlənilən risklər və onları neytrallaşdırma tədbirləri:**

Əsas risklər kimi texnoloji infrastrukturun çatışmazlığı, regionlarda rəqəmsal savadlılıq səviyyəsinin aşağı olması, maliyyələşmə resurslarının məhdudluğu və yeni modellərin tətbiqinə marağın zəifliyi qeyd edilə bilər. Bu risklərin neytrallaşdırılması üçün dövlət–özəl tərəfdaşlığının gücləndirilməsi, regional təlim və maarifləndirmə proqramlarının keçirilməsi, güzəştli maliyyələşmə mexanizmlərinin tətbiqi və pilot layihələrin mərhələli şəkildə icrası nəzərdə tutulur.

6.2. Prioritet istiqamətlər üzrə əsas təşəbbüslər

Strategiyanın prioritet istiqamətləri üzrə ümumilikdə 52 təşəbbüs, onlardan 8-i isə yüksək təsir potensialı, çoxsektorlu tətbiq imkanları və maraqlı tərəflərin ehtiyacları əsasında "Əsas təşəbbüslər" olaraq müəyyən edilmişdir. Əsas icraçısı Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi müəyyən olunan aşağıdakı "Əsas təşəbbüslər"in təfərrüatlı layihələndirilməsi və həyata keçirilməsi üçün xüsusi işçi qrupun (qrupların) yaradılması planlaşdırılır:

**6.2.1. Rəqəmsal iqtisadiyyatın inkişafına dəstək proqramı**

6.2.1.1. Proqramın məqsədi kiçik və orta biznes subyektlərinin (KOB) və iri müəssisələrin rəqəmsal transformasiya prosesini dəstəkləmək, qrantlar və güzəştli kreditlər vasitəsilə maliyyə imkanlarını genişləndirməkdir. Beynəlxalq təcrübədə Sinqapurun "Go Digital" proqramı nümunə kimi götürülür, bu proqram çərçivəsində 18 min KOB-un rəqəmsallaşması təmin edilmiş, məhsuldarlıq göstəricilərində 3 faiz artım qeydə alınmışdır. Oxşar modelin tətbiqi nəticəsində Azərbaycanda müəssisələrin rəqəmsal transformasiyası sürətlənəcək, məhsuldarlıq və əlavə dəyər artacaqdır;

**6.2.2. Yeni Nəsil Texnologiyalar Mərkəzi**

6.2.2.1. Mərkəzin məqsədi müasir texnologiyaların tətbiqi ilə biznes proseslərinin optimallaşdırılmasına dəstək göstərmək, "öyrən və transformasiya et" modeli əsasında təlim və məsləhət xidmətləri təqdim etməkdir. Türkiyənin MEXT Rəqəmsal Bacarıqlar Mərkəzinin və Sinqapurun Digital Capability Center-nin təcrübələrinə əsaslanaraq, işçi məhsuldarlığında 15–30 faiz, sektor üzrə isə 10–30 faiz artım əldə edilməsi gözlənilir;

**6.2.3. Yeni bizneslərin yaradılması və gücləndirilməsi**

6.2.3.1. Startapların və yeni bizneslərin formalaşması, mentorluq və maliyyə dəstəyi mexanizmlərinin yaradılması nəzərdə tutulur. Beynəlxalq səviyyədə Çilinin "Start-Up Chile" proqramı uğurlu model kimi qəbul olunur (2000-dən çox startap, 1,2 milyard ABŞ dolları investisiya). Oxşar təşəbbüs nəticəsində yerli startapların uğurlu böyüməsi, innovasiya fəallığının artması və xarici sərmayələrin cəlbi təmin ediləcəkdir;

**6.2.4. Rəqəmsal iqtisadiyyatda məşğulluq üçün kadrların təkmilləşdirilməsi proqramı**

6.2.4.1. İKT və rəqəmsal bacarıqlara malik ixtisaslı kadrların hazırlanması məqsədilə təlim və sertifikasiya proqramları təşkil olunacaq. Sinqapurun "Tech Skills Accelerator" təşəbbüsü nümunəsində olduğu kimi, bu proqram məşğulluğun artırılmasına və rəqəmsal bacarıqlara malik kadrların çatışmazlığının azaldılmasına xidmət edəcəkdir;

**6.2.5. İqtisadiyyat Nazirliyinin ekosistem sahələrində istifadə olunması üçün Azərbaycan dili bazasında süni intellekt modelinin hazırlanması**

6.2.5.1. Təşəbbüsün məqsədi Azərbaycan dilində iqtisadi fəaliyyətlər üçün süni intellekt alətləri yaratmaq və tətbiq etməkdir. Qətər və Sinqapurun dövlət xidmətlərində AI texnologiyalarından istifadə təcrübəsinə əsasən, bu addım məlumat suverenliyini gücləndirəcək, yeni texnologiya əsaslı xidmətlərin və iş yerlərinin yaranmasına imkan verəcəkdir;

**6.2.6. İqtisadi Məlumatların Analitikası Platforması**

6.2.6.1. İqtisadi fəaliyyət sahələrində data əsaslı qərarverməni gücləndirmək və məlumatların idarə edilməsini optimallaşdırmaq məqsədilə vahid analitika platforması yaradılacaq. Almaniyanın milli məlumat bazası modelinə uyğun şəkildə bu platforma qərarvermədə səmərəliliyi artıracaq və investisiya sahələrinin daha dəqiq müəyyənləşdirilməsinə imkan verəcəkdir;

**6.2.7. "Rəqəmsal Əkiz" Təşəbbüsü**

6.2.7.1. İqtisadi fəaliyyət sahələrində planlaşdırma, monitorinq və idarəetməni rəqəmsal əkiz texnologiyaları ilə təkmilləşdirmək nəzərdə tutulur. Sinqapur, Belçika və BƏƏ-nin bu sahədəki təcrübəsi əməliyyat xərclərinin azalmasına, resurslara qənaətə və idarəetmə səmərəliliyinin artmasına səbəb olmuşdur;

**6.2.8. Rəqəmsal Həllər və Xidmətlər Platforması**

6.2.8.1. Rəqəmsal məhsul və xidmətlərə çıxış üçün mərkəzləşdirilmiş platformanın yaradılması planlaşdırılır. Böyük Britaniyanın "Digital Marketplace" modelinə əsaslanan bu sistem dövlət və biznes sektorları üçün rəqabətin və innovasiyanın artmasına, dövlət satınalmalarında xərclərin azaldılmasına və daha səmərəli rəqəmsal həllərin əldə edilməsinə şərait yaradacaqdır.

**7. Maliyyələşdirilmə mexanizmləri**

Strategiyada nəzərdə tutulan tədbirlərin maliyyələşmə mənbələrinə dövlət büdcəsi və büdcədənkənar fondlar, Azərbaycan Biznesinin İnkişafı Fondunun vəsaiti, mülkiyyət formasından asılı olmayaraq yerli idarə, müəssisə və təşkilatların resursları, birbaşa xarici investisiyalar, kreditlər, qrantlar, həmçinin qanunvericiliklə qadağan olunmayan digər mənbələr aid edilir.

*(ardı 6-cı səhifədə)*

# Azərbaycan Respublikasında rəqəmsal iqtisadiyyatın inkişafına dair 2026–2029-cu illər üçün STRATEGİYA

*(əvvəli 5-ci səhifədə)*

**8. Tədbirlər Planı**

| Sıra №-si | Tədbirin adı | Əsas icraçı orqan | Digər icraçılar | İcra müddəti | Nəticə indikatorları | | |
|---|---|---|---|---|---|---|---|
| | | | | | ilkin nəticələr | aralıq nəticələr | yekun nəticələr |
| **Məqsəd 8.1. Rəqəmsal transformasiyanı sürətləndirməklə dayanıqlı iqtisadi artımın təmini** | | | | | | | |
| **Prioritet istiqamət 8.1.1. İqtisadiyyatın rəqəmsal infrastrukturla təmini və müəssisələrin transformasiyası** | | | | | | | |
| 8.1.1.1. | Müəssisələrin rəqəmsal həllərə olan tələbatını ödəmək üçün vahid "Rəqəmsal həllər və xidmətlər platforması"nın yaradılması və bu platformada rəqəmsal həll təchizatçılarının qeydiyyatının stimullaşdırılması | İN | AİH, RİNN, XRİTDX | 2026–2029 | Müəssisələrin və fərdlərin qeydiyyatının stimullaşdırılması mexanizminə dair tədqiqat aparılması | Rəqəmsal həllər və xidmətlər platformasının yaradılması və istifadəyə verilməsi, müəssisələrin və fərdlərin yaradılmış platformada qeydiyyatının stimullaşdırılması və platformada azı 20 təchizatçının qeydiyyatının olması | Platforma vasitəsilə rəqəmsal transformasiya etmiş müəssisələrin payının 20 faizə çatması |
| 8.1.1.2. | Yerli və beynəlxalq texnologiya təminatçılarının müəyyənləşdirilməsi və xüsusi sahələr (İT menecmenti, kibertəhlükəsizlik və s.) üzrə müəssisələrin texnologiyalara əlçatanlığını təmin edən tərəfdaşlar bazasının yaradılması və reyestrinin aparılması | İN | RİNN | 2027–2029 | Texnologiya tərəfdaşları bazasının formalaşdırılması və fəaliyyətə başlaması | Hədəf müəssisələr üçün xidmət təklif edən texnoloji müəssisələr, xidmət və məhsullar barədə məlumatların yaradılacaq bazaya inteqrasiya edilməsi, həmin bazada tərəfdaş müəssisələrin sayının davamlı artması və yenilənməsi | 100-dən çox müəssisənin reyestr vasitəsilə texnologiyalara çıxışına nail olunması |
| 8.1.1.3. | Yeni nəsil texnologiyaların (süni intellekt, robot texnologiyaları və s.) iqtisadiyyatda tətbiqi imkanlarının müəyyən edilməsi, habelə elektronlaşdırma və adaptasiya üzrə yol xəritəsinin hazırlanması | İN | RİNN, AİH, DİM | 2026–2029 | İqtisadiyyatın 2 sahəsində yeni nəsil texnologiyaların tətbiqi imkanlarının araşdırılması və müvafiq yol xəritəsinin hazırlanması | Hazırlanmış yol xəritəsi əsasında 4 pilot layihənin həyata keçirilməsi | İqtisadiyyatın yeni nəsil texnologiyalar tətbiq edildiyi sahələrində əməliyyat səmərəliliyinin azı 5−10 faiz artması |
| 8.1.1.4. | Dövlət−özəl tərəfdaşlığı əsasında özəl data mərkəzlərinin yaradılması sahəsində təşviqedici mexanizmlərin formalaşdırılması | İN | RİNN, XRİTDX, MN | 2026–2028 | Özəl data mərkəzinin yaradılması üçün tədqiqatların aparılması | Özəl data mərkəzinin yaradılması üçün 3 təşviq mexanizminin hazırlanması | Azı 2 data mərkəzinin istismara verilməsi və müvafiq sahəyə cəlb edilən investisiyaların davamlı artırılması |
| 8.1.1.5. | "Rəqəmsal İqtisadiyyatın İnkişafına Dəstək Proqramı"nın hazırlanması və tətbiqi, özəl sektorun iqtisadi fəaliyyətinin rəqəmsal transformasiyasına dair dəstək mexanizmlərinin təqdim edilməsi | İN | RİNN, AİH | 2026–2029 | Rəqəmsal iqtisadiyyatın inkişafına dəstək mexanizminin müəyyən edilməsi;<br>Azı 10 müəssisənin dəstək mexanizmindən faydalanması | Azı 12 müəssisənin rəqəmsal transformasiya üzrə dəstək alması və resurslara çıxış imkanlarının genişlənməsi | Qeyri-neft iqtisadiyyatı üzrə göstəricilərdə rəqəmsal iqtisadiyyatın payının davamlı yüksəlməsi |
| 8.1.1.6. | "Yeni Nəsil Texnologiyalar Mərkəzi"nin yaradılması və idarə edilməsi, həmçinin təlim və texnologiya tətbiqinə dair dəstək mexanizmlərinin formalaşdırılması | İN | RİNN, AİH | 2026–2029 | Müvafiq Mərkəzin yaradılması üzrə təkliflər hazırlanması və azı 25 müəssisənin müvafiq sahədə təlimlərə cəlb edilməsi | Mərkəz vasitəsilə təqdim olunan rəqəmsal transformasiya xidmətlərindən faydalanan müəssisələrin sayının hər il artması | Rəqəmsal transformasiyadan keçmiş müəssisələrin sayının və fəaliyyət sahəsi üzrə rəqabət qabiliyyətinin davamlı yaxşılaşması |
| 8.1.1.7. | KOB-ların korporativ idarəetmə sistemlərinə və proqram təminatlarına (o cümlədən anbar idarəetməsi, satış və ixrac modulları) əlçatanlığının dəstəklənməsi, bu məqsədlə xüsusi dəstək mexanizmlərinin yaradılması | İN | RİNN | 2026–2029 | KOB-lar üçün "İdarəetmə və proqram təminatına dəstək mexanizmi"nin yaradılması üzrə tədqiqatların aparılması | Müvafiq sahədə 1 dəstək mexanizminin hazırlanması<br>və tətbiqinin genişləndirilməsi | 50 KOB-un idarəetmə sistemlərinə və proqram təminatlarına (o cümlədən anbar idarəetməsi, satış və ixrac modulları) çıxış əldə etməsi |
| 8.1.1.8. | Yerli İKT məhsullarının istehsalının təşviqi məqsədilə əlverişli sahələrin müəyyən edilməsi və zəruri dəstək mexanizminin formalaşdırılması | İN | RİNN, MN | 2026–2029 | İKT məhsullarının istehsalı sahələrinin təhlili;<br>Müvafiq sahədə 1 dəstək mexanizminin hazırlanması və ilkin dəstək üçün azı 5 istehsalçının seçilməsi | Dəstəkdən faydalanan İKT istehsalçılarının sayının hər il 20 faiz artması | Ümumi İKT məhsulları istehsalında yerli məhsulların payının davamlı artması |
| 8.1.1.9. | İKT və digər rəqəmsal məhsulların tətbiqinin genişləndirilməsi məqsədilə böyük müəssisələrlə KOB-lar arasında təchizat zənciri klasterlərinin yaradılması və bu əməkdaşlığın stimullaşdırılması | İN | Aidiyyəti qurumlar | 2026–2029 | Klaster mexanizminin yaradılması üçün əməliyyat modelinin müəyyən edilməsi | 1 təchizat zənciri klasterinin formalaşdırılması və azı 5 iri müəssisə və 10 KOB-un klasterə qoşulması;<br>Klasterlər vasitəsilə KOB-lardan alınan rəqəmsal məhsulların həcminin artması | Təchizat zənciri klasterlərinin ümumi sayının 5-ə çatdırılması;<br>KOB-ların ixrac etdiyi İKT və rəqəmsal məhsulların həcminin davamlı artması |
| **Prioritet istiqamət 8.1.2. Startapların inkişafı və maliyyələşmə mexanizmlərinin gücləndirilməsi** | | | | | | | |
| 8.1.2.1. | "Yeni Bizneslərin Yaradılması və Gücləndirilməsi" proqramı çərçivəsində bizneslərin mentorluq, təlim və əməkdaşlıq vasitəsilə dəstəklənməsi, habelə seçilmiş yeni bizneslərə maliyyə dəstəyi göstərilməsi | İN | RİNN, ETN, VXSİDA | 2026–2029 | Müvafiq sahədə 1 mentorluq və təlim proqramının hazırlanması və yeni biznes potensialı olan müəssisələrin maliyyə dəstəyi üçün müəyyən olunması | Müvafiq Proqram çərçivəsində dəstək (maliyyə dəstəyi daxil) almış bizneslərin 30 faizinin fəaliyyətə başlaması və dəstək almış müəssisələrin dövriyyəsinin illik 20 faiz artması | Yeni yaradılmış bizneslərin 30 faizinin dayanıqlı fəaliyyət göstərməsi və azı 50 daimi iş yerinin yaradılması |
| 8.1.2.2. | Yeni müəssisədaxili biznes modellərinin (spin-off) formalaşmasını təşviq etmək üçün qrant proqramları və tənzimləmə dəstəyi kimi mexanizmlərin yaradılması, habelə investisiya yönümlü əməkdaşlıq təşəbbüslərinin həyata keçirilməsi | İN | AİH, RİNN, VXSİDA | 2027–2029 | Spin-off biznes modellərinin formalaşmasını dəstəkləyən mexanizmlər üzrə tədqiqatlar aparılması | Müvafiq sahədə azı 1 qrant və tənzimləmə dəstək mexanizminin hazırlanması | Spin-off layihələrinin 20 faizinin kommersiyalaşması və 5 layihənin qrant dəstəyi alması |
| 8.1.2.3. | Yeni texnoloji bizneslərin sayını artırmaq məqsədilə texnologiya yönümlü vençur fondlarının (xüsusilə startap və yeni bizneslərə sərmayə qoyanların) fəaliyyətinin dəstəklənməsi (vergi və s. güzəştlər) | İN | RİNN, MN | 2027–2029 | Potensial vençurların identifikasiya olunması və dəstək çərçivəsinin müəyyən edilməsi | Ölkədə yeni texnoloji müəssisələrə vençur investisiyalarının artırılması | Yeni texnoloji bizneslər üçün maliyyə imkanlarına çıxışın yaxşılaşdırılması |
| 8.1.2.4. | Rəqəmsal kraudfandinq platformasının yaradılması və yeni rəqəmsal bizneslərin maliyyə resurslarına çıxışının artırılması | İN | RİNN, VXSİDA | 2026–2029 | 1 pilot rəqəmsal kraudfandinq platformasının yaradılması ilə bağlı təkliflər hazırlanması | 10 yeni biznesin platforma vasitəsilə maliyyələşdirilməsi | 50 biznesin kraudfandinq yolu ilə dəstəklənməsi və maliyyələşdirilmə həcminin 2 dəfə artması |
| 8.1.2.5. | Qabaqcıl texnologiyanın və digər məhsulların, habelə xidmətlərin iqtisadi fəaliyyət sahələrində sınaqdan keçirilməsi üçün xüsusi tənzimləyici mexanizmlərin (sandbox) yaradılması və tətbiqi | İN | RİNN, MB, VXSİDA | 2026–2029 | Tənzimləyici mexanizm (sandbox) modelinin və onun tətbiqi sahələrinin müəyyənləşdirilməsi | Tənzimləyici mexanizm (sandbox) çərçivəsində 2 pilot layihənin sınaqdan keçirilməsi | İnnovasiya ekosisteminin maraqlı tərəfləri arasında yeni əməkdaşlığın qurulması, yeni biznes imkanlarının müəyyən edilməsi və onların 40 faizinin kommersiyalaşmaya hazır olması |
| 8.1.2.6. | Yeni rəqəmsal məhsul və xidmət istehsalı texnologiyalarının iqtisadiyyatın müxtəlif sahələrində tətbiqi üçün real iş mühitinə bənzər texnoloji sınaq mərkəzlərinin yaradılması | İN | RİNN | 2027–2029 | Texnoloji sınaq mərkəzinin yaradılması üçün tədqiqatlar aparılması | 1 texnoloji sınaq mərkəzinin yaradılması və laboratoriya avadanlığı ilə təchiz edilməsi | 10 yeni rəqəmsal məhsul və xidmət istehsalı texnologiyasının sınaqdan keçirilməsi və onların azı 35 faizinin kommersiyalaşmaya hazır olması |
| **Prioritet istiqamət 8.1.3. İnvestisiya mühitinin yaxşılaşdırılması və qlobal bazarlara inteqrasiya** | | | | | | | |
| 8.1.3.1. | Xarici investisiyaların cəlbi və innovasiya mühitinin yaxşılaşdırılması məqsədilə biznesin yaradılması prosesinin sadələşdirilməsi, əlverişli investisiya sahələrinin müəyyənləşdirilməsi və sahibkarlıq üçün təşviqlərə dair təkliflər hazırlanması | İN | RİNN, VXSİDA, DMX, aidiyyəti qurumlar | 2027–2029 | Xarici investisiyaya ehtiyac olan 5 prioritet investisiya sahəsinin müəyyən olunması | İnnovasiya sahəsində investisiya mühitinin yaxşılaşdırılması üçün təkliflər hazırlanması | ÜDM-də özəl xarici maliyyələşmənin payının davamlı artması |
| 8.1.3.2. | Rəqəmsal ticarətin inkişafı və yerli müəssisələrin xarici bazarlara çıxışı üçün beynəlxalq e-ticarət platformaları (Amazon, AliExpress və s.) ilə əməkdaşlığın genişləndirilməsi | İN | RİNN, ƏN, MB, DGK, AİH | 2026–2029 | 2 beynəlxalq platforma ilə əməkdaşlıq sazişinin imzalanması və azı 20 yerli müəssisənin bu platformaya inteqrasiyası | 50 müəssisənin e-ticarət platformaları üzərindən satış fəaliyyətinə başlaması;<br>İxrac olunan məhsulların həcminin 10 faiz artması | E-ticarət platformasında azı 200 müəssisənin aktiv fəaliyyət göstərməsi |
| 8.1.3.3. | Yerli müəssisələrin beynəlxalq e-ticarət platformalarında fəaliyyətini asanlaşdırmaq məqsədilə müvafiq sahədə normativ hüquqi bazanın və tənzimləyici mexanizmlərin təkmilləşdirilməsi | İN | ƏN, RİNN, AMB | 2026-2029 | E-ticarət sahəsində beynəlxalq əməkdaşlığa mane olan hüquqi və institusional boşluqların müəyyən olunması;<br>1 normativ hüquqi akt layihəsinin hazırlanması və aidiyyəti üzrə təqdim edilməsi | Beynəlxalq e-ticarət platformaları ilə əməkdaşlıq üçün tənzimləmə prosedurlarının sadələşdirilməsi;<br>Yerli müəssisələrin beynəlxalq e-ticarət əməliyyatlarına çıxışının asanlaşması | Ölkədə rəqəmsal ticarət mühitinin beynəlxalq uyğunluq səviyyəsinin artması |
| 8.1.3.4. | Ali təhsil müəssisələrinin nəzdində texnologiya və innovasiya ekosistemini əhatə edən innovasiya klasterlərinin yaradılması | ETN | RİNN, VXSİDA | 2026–2029 | Klaster modelinin və ali təhsil müəssisələrinin müəyyən edilməsi | Müvafiq sahədə ali təhsil müəssisələri və onlarla əməkdaşlıq edən maraqlı tərəflərin (o cümlədən iri bizneslər, startaplar, inkubatorlar) sayının davamlı artması | Ali təhsil müəssisələri nəzdində fəaliyyət göstərən innovasiya klasterləri hesabına 200 aktiv subyektin formalaşması |
| 8.1.3.5. | Patentlər və əmtəə nişanları üzrə "Açıq reyestrlər" informasiya resurslarının yaradılması, hüquqi və infrastruktur (proqram təminatı və platformaların) təminatının yaxşılaşdırılması | ƏMA | İN, RİNN | 2026–2029 | "Açıq reyestrlər" informasiya platformasının yaradılaraq istifadəyə verilməsi | İxtira və patent fəallığının, habelə ekspertlərin rəqəmsal biliklərinin davamlı artırılması | Mövcud patent və əmtəə nişanlarının 70 faizinin reyestrdə əhatəsi və istifadənin 30000 sorğu/il səviyyəsinə çatması |
| 8.1.3.6. | İKT mütəxəssislərinə layihələrini icra etmək üçün açıq mənbə proqram platformalarına (GitHub və s.) ödənişsiz giriş imkanının yaradılması | RİNN | İN | 2026–2029 | Azı 1 açıq mənbə platformasına (GitHub və s.) ödənişsiz giriş proqramının yaradılması və 100 icazə sənədinin təqdim edilməsi | Aktiv istifadəçi olan İKT mütəxəssislərinin sayının 200-ə çatması və onların iştirakı ilə 20 açıq mənbə layihəsinin icrası | Müvafiq sahədə 400-dən çox mütəxəssisin beynəlxalq açıq mənbə icmalarında iştirak etməsi |
| **Prioritet istiqamət 8.1.4. Rəqəmsal innovasiya ekosisteminin inkişafı və şəbəkələşmə** | | | | | | | |
| 8.1.4.1. | İnnovasiyaların tətbiqini sürətləndirmək məqsədilə sektorlararası əməkdaşlığı, startapların təqdimatını və investorlarla əlaqəni təmin edən rəqəmsal sammitlərin təşkili | İN | RİNN<br>AMB, VXSİDA | 2026–2029 | 1 rəqəmsal sammitin təşkil olunması;<br>30 startapın təqdimatının keçirilməsi | 1 rəqəmsal sammitin keçirilməsi və 50 startapın təqdimatının keçirilməsi | 1 rəqəmsal sammitin və 100 startapın təqdimatının keçirilməsi,<br>20 startapın investisiya alması və azı 10 sektorlararası innovasiya layihəsinin həyata keçirilməsi |
| 8.1.4.2. | 4-cü Sənaye İnqilabı texnologiyalarının (blokçeyn, artırılmış reallıq, süni intellekt və s.) təqdimatı və bu sahədə məlumatlılığın artırılması | İN | RİNN | 2026–2029 | Müvafiq sahədə 3 tədbirin təşkil edilməsi və 300-dən çox mütəxəssisin tədbirə cəlb olunması | Müvafiq tədbirlər çərçivəsində azı 5 əməkdaşlıq təşəbbüsünün formalaşması | İqtisadiyyatın müxtəlif sahələrində azı 30 yeni texnologiya layihəsinin tətbiqi |
| 8.1.4.3. | Startapların və tədqiqat mərkəzlərinin sənaye ilə əlaqələndirilməsi, onların real bazar təcrübəsinə, resurslara və mütəxəssis dəstəyinə əlçatanlığını təmin edən mexanizmlərin yaradılması | İN | RİNN, VXSİDA | 2026–2029 | 1 dəstək mexanizminin yaradılması və 10 startap/tədqiqat mərkəzinin sənaye ilə əlaqələndirilməsi | Startaplar və tədqiqat mərkəzləri ilə sənaye arasında əməkdaşlıq əsasında 15 birgə layihənin icrasına başlanılması | 10 yeni məhsul və xidmətin yaradılaraq bazara çıxarılması və 25 davamlı startapın formalaşması |
| 8.1.4.4. | Rəqəmsal iqtisadiyyat ekosisteminin formalaşmasına dəstək məqsədilə vahid internet resursunun yaradılması | İN | RİNN | 2027–2029 | 1 vahid internet resursunun yaradılması və 2 məlumat kateqoriyasının yerləşdirilməsi;<br>Strategiyanın tədbirlərinin icrasına cəlb edilən müəssisələrin müvafiq internet resursunda qeydiyyatının təmini | | Müvafiq internet resursundan istifadəçilərin sayının 10000 nəfəri üstələməsi;<br>Platformadan aktiv istifadə edən müəssisələrin sayının 200-ə çatması |
| 8.1.4.5. | Müəssisələrin rəqəmsal təşəbbüslərini paylaşa və digər təşkilatların təcrübəsini izləyə biləcəyi əməkdaşlıq platformasının yaradılması | İN | RİNN, AİH, aidiyyəti qurumlar | 2026-2028 | Strategiya çərçivəsində tədbirlərə dair məlumatlandırma məqsədilə vahid internet resursunun yaradılması | Müəssisələrin rəqəmsal transformasiya təcrübələrinin toplanılması, vahid internet resursunda yerləşdirilməsi və davamlı yenilənməsi | Rəqəmsallaşma ilə bağlı məlumatlılıq səviyyəsinin davamlı artması |
| **Məqsəd 8.2. İqtisadiyyatda işçi qüvvəsinin rəqəmsal bacarıqlarını artırmaq** | | | | | | | |
| **Prioritet istiqamət 8.2.1. Rəqəmsal bacarıqların əmək bazarının tələblərinə uyğunluğunun artırılması** | | | | | | | |
| 8.2.1.1. | Rəqəmsal bacarıqlar (proqram təminatının inkişafı, məlumat və analitika, maşın öyrənməsi və s.) üzrə və bacarıq ehtiyaclarına dair vahid platformanın yaradılması | ƏƏSMN | İN, ETN, RİNN | 2026–2029 | "Peşələr atlası" platformasının hazırlanması, tələb olunan məlumatların müəyyənləşdirilməsi | Mövcud məlumatlar bazasının inteqrasiyası;<br>10 əsas rəqəmsal bacarıq profilinin müəyyən edilməsi | Müvafiq platformadan aktiv istifadə edənlərin sayının azı 3000 nəfərə çatdırılması |

*(ardı 7-ci səhifədə)*

# Azərbaycan Respublikasında rəqəmsal iqtisadiyyatın inkişafına dair 2026–2029-cu illər üçün STRATEGİYA

(əvvəli 6-cı səhifədə)

| | | | | | | | |
|---|---|---|---|---|---|---|---|
| 8.2.1.2. | İşəgötürənlərin tələblərinə uyğun rəqəmsal bacarıqların təkmilləşdirilməsi proqramlarının həyata keçirilməsi | İN | ETN, ƏƏSMN, RİNN, AİH | 2026–2029 | “Rəqəmsal iqtisadiyyatda məşğulluq üçün kadrların təkmilləşdirilməsi proqramı”nın yaradılması | Proqramda 150 nəfərin iştirak etməsi, məzun olanlar arasında məşğulluğun 50 faizə çatdırılması | Proqramda 250 nəfərin iştirak etməsi, məzun olanların məşğulluq səviyyəsinin 80 faizə çatdırılması; rəqəmsal bilik və bacarıqlara malik kadrların sayının artması və işəgötürənlərin ehtiyacının ödənilməsi |
| 8.2.1.3. | Qlobal İKT sənayesinin liderləri (Cisco, Oracle, Microsoft və s.) ilə təlim düşərgələrinin təşkili | İN | RİNN, AİH, VXSİDA, aidiyyəti qurumlar | 2026–2029 | Təlim tərəfdaşlarının müəyyən edilməsi | 2 təlim düşərgəsinin təşkili və 250 nəfərin təlimlərə cəlb edilməsi | 500 yüksəkixtisaslı mütəxəssisin yetişməsi |
| 8.2.1.4. | KOB işçilərinin sahəvi ehtiyaclarına uyğun rəqəmsal təlimlərin keçirilməsi və e-təlim sessiyaları üçün ortaq platformanın yaradılması | İN | RİNN | 2027–2029 | E-təlim platformasının istifadəyə verilməsi üzrə tədqiqatlar aparılması | 1 e-təlim platformasının istifadəyə verilməsi və 300 KOB işçisinin təlimlərə cəlb olunması | 1000 iştirakçının təlimi uğurla başa vuraraq sertifikat alması |
| 8.2.1.5. | Rəqəmsal bacarıqlar tələb olunan işlər üzrə sərbəst mütəxəssislərin əmək fəaliyyətinin rəsmiləşdirilməsi və işəgötürənlərin bu sahədə təşviqi üzrə təkliflərin hazırlanması | İN | RİNN, ƏƏSMN, AİH | 2026–2029 | Müvafiq sahədə təkliflərin hazırlanması və təqdim olunması | Təkliflər üzrə hüquqi təkmilləşdirmələrin aparılması; Sərbəst mütəxəssislərin rəsmi qeydiyyata alınmasının təmin edilməsi və qeyri-formal məşğulluğun davamlı azalması | |
| 8.2.1.6. | Rəqəmsal iqtisadiyyatın inkişafı üçün tələb olunan yeni peşə və ixtisasların müəyyən edilməsi, onların təşviqi üzrə təkliflərin hazırlanması | İN | RİNN, aidiyyəti qurumlar | 2026–2029 | Əmək bazarına dair azı 3 təhlil aparılması və azı 10 yeni peşənin/ixtisasın müəyyən edilməsi | Müəyyən edilmiş peşə və ixtisaslar üzrə təkliflər paketinin hazırlanması; Stimullaşdırma üzrə tədbirlər görülməsi, kadr hazırlanması proqramlarının həyata keçirilməsi | Yeni peşə və ixtisaslar üzrə azı 100 mütəxəssisin hazırlanması |
| 8.2.1.7. | Beynəlxalq İKT və rəqəmsal sertifikatların maliyyələşdirilməsi və tanınması | İN | ETN, RİNN | 2026–2029 | Prioritet sahələr üzrə beynəlxalq İKT və rəqəmsal sertifikat seçimlərinin müəyyən edilməsi | 5 beynəlxalq sertifikat proqramının maliyyələşdirilməsi və sertifikat imtahanlarını keçən iştirakçıların azı 80 faizinin əmək bazarına çıxışı və işlə təmin olunması | Ümumilikdə, beynəlxalq sertifikatlı 500–1000 mütəxəssisin hazırlanması |
| **Prioritet istiqamət 8.2.2. Təhsil, karyera və rəqəmsal savadlılıq imkanlarının genişləndirilməsi** | | | | | | | |
| 8.2.2.1. | Peşə təhsili müəssisələri tələbələrinin müasir texnoloji bacarıqlar (kibertəhlükəsizlik, Data Science, proqramlaşdırma və s.) üzrə proqramlara qoşulmasının və müvafiq peşələrə yiyələnməsinin təşviqi | ETN | İN | 2026–2029 | 5 yeni texnoloji bacarıq üzrə peşə təhsili proqramının hazırlanması və azı 200 tələbənin cəlb olunması | Müvafiq proqram üzrə azı 100 tələbənin uğurla məzun olması və 100 nəfərin yeni texnoloji ixtisas qazanması | Texnoloji bacarıqlara malik 500 ixtisaslı məzunun hazırlanması |
| 8.2.2.2. | Yüksək göstəricilərə malik şəxslərin xaricdə qısamüddətli təhsil (proqram və kompüter mühəndisliyi, kompüter elmləri, informasiya təhlükəsizliyi, kibertəhlükəsizlik və s. ixtisaslar üzrə) imkanlarının dəstəklənməsi | ETN | RİNN, AİH, İN | 2026–2029 | Xaricdə təhsil üçün azı 5 prioritet qısamüddətli rəqəmsal ixtisasın müəyyən edilməsi və illik 200 təqaüd/ sponsorluq dəstəyi göstərilməsi | Xarici ölkələrdə təhsilini uğurla davam etdirən 200 tələbə ilə öhdəlik müqavilələrinin bağlanılması | Rəqəmsal ixtisaslı kadr potensialının yaxşılaşması |
| 8.2.2.3. | İKT üzrə karyera quran kadrları həvəsləndirmək üçün tam və ya qismən maliyyələşdirilən illik İKT təqaüd proqramlarının təsis edilməsi | ETN | RİNN | 2026–2029 | İllik azı 1 İKT təqaüd proqramının təsis edilməsi və bu sahə üzrə 50 yer ayrılması | Təqaüd qazanmış tələbələrin təhsil göstəricilərinin azı 20 faiz yaxşılaşması | İKT sahəsində kadr potensialının davamlı artması |
| 8.2.2.4. | Ali təhsil müəssisələrində rəqəmsal bacarıqlara və qlobal səviyyədə tanınan rəqəmsal yönümlü sertifikatlaşdırma standartlarına əsaslanan təhsil proqramlarının hazırlanması | ETN | RİNN, İN | 2026–2029 | Ali təhsil proqramlarının təsnifatına yeni texnologiya və sahibkarlıq bacarıqları ilə bağlı 1 yeni ixtisasın (təhsil proqramının) əlavə edilməsi; Rəqəmsal sahədə ali təhsil proqramlarının beynəlxalq səviyyədə qəbul edilmiş sertifikatlara (ACCA, CISSP və s.) uyğunlaşdırılması | 1 yeni rəqəmsal ixtisasın tədrisinə başlanması; 2 proqramın beynəlxalq sertifikat standartlarına uyğunlaşdırılması | Rəqəmsal bacarıqlara yiyələnmiş 1000 məzunun və beynəlxalq sertifikata malik 100 mütəxəssisin əmək bazarına inteqrasiyası |
| 8.2.2.5. | Rəqəmsallaşma istiqaməti üzrə elmi tədqiqat işlərinin doktorantura səviyyəsində dəstəklənməsi | ETN | AİH, İN | 2026–2029 | Rəqəmsallaşma üzrə 1 doktorantura proqramının təsdiqlənməsi və qəbul olunan doktorantların sayının davamlı artması | Elmi tədqiqat mövzularının sənaye ehtiyaclarına uyğunlaşdırılması; Azı 5 universitet –sənaye birgə layihəsinin həyata keçirilməsi | Rəqəmsallaşma istiqamətində azı 3 fəlsəfə doktoru dissertasiyasının müdafiəyə hazırlanması; Müvafiq istiqamətdə fəlsəfə doktoru elmi dərəcəsi olanların sənaye müəssisələrinin fəaliyyətinə davamlı cəlb olunması |
| 8.2.2.6. | Bütün yaş qrupları üçün rəqəmsal bacarıqların artırılması məqsədilə öyrənmə platformalarının təkmilləşdirilməsi və təlim proqramlarının həyata keçirilməsi | ETN | RİNN, VXSİDA | 2026–2029 | Mövcud öyrənmə platformalarının təkmilləşdirilməsi və ya ehtiyaclar üzrə yeni platformaların yaradılması | Bütün yaş qrupları üzrə rəqəmsal bacarıqlara yiyələnmiş şəxslərin sayının davamlı artması | |
| 8.2.2.7. | Bütün maraqlı tərəfləri əhatə edən rəqəmsallaşma istiqamətində karyera transformasiyası proqramlarının hazırlanması | ETN | İN, RİNN | 2026–2029 | Ali təhsil müəssisələri və dövlət qurumlarının rəqəmsallaşma istiqamətli mentorluq ehtiyaclarının müəyyən olunması və ehtiyaclara uyğun təkliflərin hazırlanması | Mentorluq proqramını uğurla başa vuran iştirakçı sayının davamlı artması | Mentorluq proqramında iştirak edən 2000 nəfərin rəqəmsallaşma üzrə karyerasını inkişaf etdirməsi |
| 8.2.2.8. | Gənclərin İKT sahəsində karyera inkişafını dəstəkləmək üçün mərkəzləşmiş elektron karyera məsləhəti xidmətlərinin yaradılması və istifadəsinin təşviqi | ƏƏSMN | İN, RİNN | 2026–2029 | 1 mərkəzləşmiş elektron karyera platformasının istifadəyə verilməsi | 2000 gəncin müvafiq platforma vasitəsilə fərdi karyera məsləhəti alması | Platforma dəstəyi alan gənclərin İKT sahəsində işlə təmini göstəricisinin artması |
| **Məqsəd 8.3. Səmərəliliyə və effektivliyə əsaslanan data yönümlü idarəetmənin formalaşdırılması** | | | | | | | |
| **Prioritet istiqamət 8.3.1. Strategiyanın səmərəli icrasının təmini üçün monitorinq mexanizminin gücləndirilməsi** | | | | | | | |
| 8.3.1.1. | Strategiyanın icrasının səmərəliliyinin izlənilməsi mexanizmlərinin yaradılması | İN | DSK, AİH, aidiyyəti qurumlar | 2026– 2029 | Azı 20 əsas effektivlik göstəricisinin müəyyən edilməsi; Mərkəzləşmiş məlumat bazasının yaradılması və izləmə üçün 5 hesabat alətinin hazırlanması | Yarımillik və illik əsasda azı 6 monitorinq hesabatının hazırlanması | Strategiyanın nəticələrinin gözlənilən nəticələrlə müqayisəsi və təkmilləşdirilməli sahələrin müəyyən edilməsi |
| 8.3.1.2. | Strategiya üzrə əsas təşəbbüs və tədbirlərin icra statusu, habelə rəqəmsal iqtisadiyyat barədə ictimai məlumatlılıq səviyyəsinin artırılması | İN | RİNN | 2026–2029 | Müvafiq sahədə vahid internet portalının istifadəyə verilməsi, portalda təşəbbüs və tədbir barədə ilkin məlumatların yerləşdirilməsi | Portalda məlumatların ildə azı 4 dəfə yenilənməsi; Portaldan aktiv istifadəçilərin sayının 50000 nəfəri üstələməsi; İctimaiyyətin və maraqlı tərəflərin rəy və təkliflərə baxması | Rəqəmsal iqtisadiyyat barədə ictimai məlumatlılıq səviyyəsinin davamlı artırılması |
| 8.3.1.3. | Strategiyanın qeyri-neft sektorunda iqtisadi artıma potensial təsirinin qiymətləndirilməsi üçün beynəlxalq təcrübəyə və standartlara əsaslanan metodologiyanın hazırlanması | İN | DSK, RİNN | 2026– 2029 | Müvafiq sahədə azı 1 metodoloji çərçivə sənədinin hazırlanması, azı 5 ekspert və maraqlı tərəflərlə görüşlər keçirilməsi | 2 pilot qiymətləndirmə ssenarisinin və 2 aralıq hesabatın hazırlanması | Strategiyanın icrasının hər il iqtisadi artıma təsiri ilə bağlı qiymətləndirmə hesabatının hazırlanaraq, bu sahədə siyasət tövsiyələrinin qəbul olunması üçün təqdim edilməsi |
| **Prioritet istiqamət 8.3.2. İqtisadi fəaliyyət sahələri üzrə data əsaslı qərarvermə potensialının artırılması** | | | | | | | |
| 8.3.2.1. | “İqtisadi məlumatların analitikası sistemi”nin yaradılması və məlumat bazalarının inteqrasiyası | İN | RİNN, ETN | 2026–2029 | “İqtisadi məlumatların analitikası sistemi”nin yaradılması üçün təkliflər hazırlanması | Sistemin hazırlanması, 5 mövcud məlumat bazasının vahid sistemə inteqrasiya edilməsi | Dövlətin iqtisadi qərarlarının qəbulunda data əsaslı qərarvermənin payının artması |
| 8.3.2.2. | İqtisadi fəaliyyət sahələrinin rəqəmsallaşma ehtiyaclarının müəyyənləşdirilməsi | İN | RİNN, AİH, aidiyyəti qurumlar | 2026–2029 | Azı 10 iqtisadi fəaliyyət sahəsi üzrə rəqəmsallaşma ehtiyaclarının müəyyənləşdirilməsi | Müəyyənləşdirilmiş iqtisadi fəaliyyət sahələri üzrə rəqəmsallaşmasına dair yol xəritələrinin hazırlanması | Sahəvi rəqəmsallaşma tədbirlərinin icra olunması |
| 8.3.2.3. | İqtisadi sahələr üzrə data əsaslı qərarvermə proseslərinin təkmilləşdirilməsi | İN | Aidiyyəti qurumlar | 2026–2029 | 10 sosial-iqtisadi məlumat dəstinin yaradılması | 5 yeni analitika alətinin istifadəyə verilməsi | İqtisadi qərarların data əsaslı qəbulunun davamlı artması və ildə 6 data əsaslı analitik hesabatın hazırlanması |
| **Prioritet istiqamət 8.3.3. İdarəetmədə rəqəmsal infrastruktur və texnoloji modellərin tətbiqi** | | | | | | | |
| 8.3.3.1. | Pilot bölgələrdə və əsas iqtisadi əməliyyatlarda “Rəqəmsal Əkiz” modellərinin tətbiqi | İN | RİNN, ETSN, DŞAK, FHN | 2026–2029 | Rəqəmsallaşma potensialı yüksək olan iqtisadi sahələr üzrə ilkin təhlillər aparılması; 1 iqtisadi əməliyyat sahəsinin müəyyən edilməsi | Müəyyən edilmiş 1 iqtisadi sahə üzrə 2 pilot “Rəqəmsal Əkiz” modelinin tətbiq olunması | Milli səviyyədə 4 “Rəqəmsal Əkiz” modelinin tətbiq olunması və idarəetmədə səmərəlilik göstəricilərinin yaxşılaşması |
| 8.3.3.2. | İqtisadiyyat Nazirliyinin ekosistem sahələrində istifadə məqsədilə Azərbaycan dili bazasında sahəyə məxsus yaradıcı (generativ) dil modelinin hazırlanması və tətbiqi | İN | RİNN, ETN, AİH | 2026–2029 | İqtisadiyyat Nazirliyinin ekosistem sahələrində istifadə olunacaq modelin öyrədilməsi məqsədilə yerli məzmun üçün sahəvi məlumatların toplanılması; Yerli məzmunlu Azərbaycan dili əsaslı yaradıcı (generativ) dil korpusunun yaradılması | Yaradılmış dil korpusu əsasında 1 modelin işlək vəziyyətə gətirilməsi və müəyyən edilmiş sahələr üzrə azı 1 pilot dövlət qurumunda (orqanında) tətbiq olunması | Dil modelindən dövlət müəssisələrində istifadə sayının davamlı artması |
| 8.3.3.3. | İşğaldan azad edilmiş ərazilərdə və Naxçıvan Muxtar Respublikasında rəqəmsallaşmanın genişləndirilməsi məqsədilə müəssisələr üçün rəqəmsal çərçivələrin müəyyənləşdirilməsi | İN | RİNN, VXSİDA | 2026–2029 | Müəssisələr üçün rəqəmsal çərçivələrin meyarlarının hazırlanması | Azı 20 müəssisənin öz fəaliyyətini müvafiq çərçivəyə uyğun icra etməsi | Azı 50 müəssisənin rəqəmsal çərçivə əsasında fəaliyyət göstərməsi; İşğaldan azad edilmiş ərazilərdə və Naxçıvan Muxtar Respublikasında rəqəmsal fəaliyyətin payının azı 20 faiz artması |

## 9. Akronimlər

AİH – Azərbaycan İnvestisiya Holdinqi
AMB – Azərbaycan Respublikasının Mərkəzi Bankı
DGK – Azərbaycan Respublikasının Dövlət Gömrük Komitəsi
DİM – Azərbaycan Respublikasının Dövlət İmtahan Mərkəzi
DMX – Azərbaycan Respublikasının Dövlət Miqrasiya Xidməti
DSK – Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi
DŞAK – Azərbaycan Respublikasının Dövlət Şəhərsalma və Arxitektura Komitəsi
ETN – Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyi
ETSN – Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyi
ƏƏSMN – Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi
ƏMA – Azərbaycan Respublikasının Əqli Mülkiyyət Agentliyi
ƏN – Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi
FHN – Azərbaycan Respublikasının Fövqəladə Hallar Nazirliyi
XRİTDX – Azərbaycan Respublikasının Xüsusi Rabitə və İnformasiya Təhlükəsizliyi Dövlət Xidməti
İN – Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi
MB – Azərbaycan Respublikasının Mərkəzi Bankı
MN – Azərbaycan Respublikasının Maliyyə Nazirliyi
RİNN – Azərbaycan Respublikasının Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi
VXSİDA – Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyi

# İqtisadi Şuranın və İnvestisiya Holdinqi Müşahidə Şurasının birgə iclası



**Dekabrın 10-da İqtisadi Şuranın və Azərbaycan İnvestisiya Holdinqi Müşahidə Şurasının birgə iclası keçirilib.**

Baş nazir, İqtisadi Şuranın və İnvestisiya Holdinqinin Müşahidə Şurasının sədri Əli Əsədovun rəhbərliyi ilə keçirilən iclasın gündəliyində Dövlət Neft Şirkətinin dayanıqlı fəaliyyəti barədə təqdimat, o cümlədən qurumun həyata keçirdiyi layihələr və onların inkişaf perspektivləri, maliyyələşmə mənbələri, borc portfeli və digər cari məsələlər ətraflı müzakirə olunub.

Gündəlikdə olan məsələlərlə bağlı Dövlət Neft Şirkətinin prezidenti Rövşən Nəcəf təqdimatla çıxış edib. İclasda eləcə də iqtisadiyyat naziri Mikayıl Cabbarov, Dövlət Neft Fondunun icraçı direktoru İsrafil Məmmədov və AİH-in baş icraçı direktoru Ruslan Əlixanov çıxış ediblər.

Təqdim olunan məsələlərə dair İqtisadi Şuranın və AİH-in Müşahidə Şurasının üzvləri müzakirələr aparıblar. İclasın yekununda şura üzvlərinin rəy və təklifləri nəzərə alınmaqla ARDNŞ və ARDNF-ə müvafiq tapşırıqlar verilib.

*XQ*

# Britaniyanın ticarət elçisi Milli Məclisdə



**Milli Məclisin sədri Sahibə Qafarova dekabrın 10-da ölkəmizdə səfərdə olan Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığının Azərbaycan Respublikası üzrə ticarət elçisi Lord Olderdaysla görüşüb.**

Söhbət zamanı qeyd olunub ki, bu gün iki ölkə arasındakı ikitərəfli əməkdaşlıq iqtisadiyyat, ticarət, enerji, o cümlədən bərpaolunan enerji, təhsil, müdafiə sənayesi və digər sahələri əhatə edir.

Sahibə Qafarova iki ölkənin parlamentləri arasında əlaqələrin inkişafından məmnunluğunu bildirib. O əlavə edib ki, Milli Məclisin Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığı ilə parlamentlərarası əlaqələr üzrə işçi qrupu ən böyük qruplardan biridir.

Ticarət elçisi Lord Olderdays iki ölkə arasında müxtəlif sahələrdə əməkdaşlığın inkişafından danışıb, parlamentlərarası əlaqələrin daha da inkişaf etdirilməsinin vacibliyini qeyd edib.

*XQ*

# Xarici xüsusi xidmət orqanlarının tapşırığı ilə ağır cinayətlər törətmiş Azərbaycan vətəndaşları saxlanılmışlar

**Azərbaycan Respublikasının vətəndaşlarından ibarət qanunsuz silahlı birləşmələrin yaradılması, xarici xüsusi xidmət orqanları tərəfindən onlardan kəşfiyyat-pozuculuq, terror-təxribat məqsədləri üçün istifadə olunması barədə daxil olan məlumatlar əsasında kompleks araşdırma tədbirləri həyata keçirilmişdir.**

Görülmüş müvafiq tədbirlərlə Azərbaycan Respublikasının hüdudlarından kənarda qanunsuz silahlı birləşmənin fəaliyyətinin təşkili, həmin birləşmənin tərkibində xarici dövlətin rəsmi şəxslərinin güdülməsi və digər cinayət əməllərinin törədilməsinə cəlb edilmiş, özlərini "kriminal aləm"in nümayəndələri hesab edən Azərbaycan Respublikasının vətəndaşları müəyyənləşdirilərək ifşa olunmuşlar.

Qeyd olunan cinayət əməllərinin törədilməsində şübhəli bilinən 1995-ci il təvəllüdlü Məmmədov Amid Saməddin oğlunun xarici ölkə ərazisində gizləndiyi yer müəyyən edildikdən sonra o, keçirilmiş əməliyyat-axtarış tədbirləri nəticəsində saxlanılmış, Azərbaycan Respublikasına gətirilərək istintaqa cəlb edilmişdir.

Eləcə də, bu cinayətlərin törədilməsində şübhəli bilinən 1997-ci il təvəllüdlü Səfərov Nurlan İlham oğlu və 1983-cü il təvəllüdlü İsrafilov Edik Nəbi oğlu saxlanılaraq cinayət məsuliyyətinə cəlb olunmuşlar.

Adları çəkilən şəxslər Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 12.1, 279.1-ci (Azərbaycan Respublikasının hüdudlarından kənarda Azərbaycan Respublikasının qanunvericiliyi ilə nəzərdə tutulmayan silahlı birləşmələrin fəaliyyətində iştirak etmə) maddələri ilə ittiham olunaraq, barələrində məhkəmənin qərarı ilə həbs qətimkan tədbiri seçilmişdir.

Davam edən tədbirlər və cinayət məsuliyyətinə cəlb edilmiş digər şəxslər barədə ictimaiyyətə əlavə məlumat təqdim ediləcəkdir.

*XQ*

# "Mədəniyyət və hüquq: müasir çağırışlar"






**"Konstitusiya və Suverenlik İli" – 2025 çərçivəsində Mədəniyyət Nazirliyinin təşkilatçılığı ilə Heydər Əliyev Mərkəzində "Mədəniyyət və hüquq: müasir çağırışlar" adlı elmi-praktik forum keçirilib.**




Açılış mərasimində Prezident Administrasiyasının Humanitar siyasət, diaspor, multikulturalizm və dini məsələlər şöbəsinin müdiri Fərəh Əliyeva, mədəniyyət naziri Adil Kərimli, Milli Məclisin Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin sədri Əli Hüseynli, AMEA-nın prezidenti akademik İsa Həbibbəyli, Milli Məclisin deputatları, tanınmış mədəniyyət və elm xadimləri, ictimaiyyət nümayəndələri iştirak ediblər.

Əvvəlcə ümummilli lider Heydər Əliyevin Azərbaycan Respublikası Konstitusiyasının ərsəyə gəlməsində müstəsna xidmətlərini əks etdirən videoçarx nümayiş olunub.

Mədəniyyət naziri Adil Kərimli bildirib ki, müstəqil Azərbaycan dövlətinin banisi, ümummilli lider Heydər Əliyev mədəniyyətimizin bütün sahələrinin inkişafına, ana dilimizə davamlı diqqət və qayğı göstərib. Son 22 ildə Prezident İlham Əliyevin liderliyi ilə həyata keçirilən dövlət siyasətində də mədəni sahənin fəal himayəsi önəmli yer tutur.

Milli Məclis sədrinin müavini Ziyafət Əsgərov mədəniyyət və hüquq sahəsindəki qarşılıqlı əlaqələrin vacibliyini vurğulayıb. Parlament sədrinin müavini, akademik Rafael Hüseynov mədəniyyətin yalnız sənət və estetik dəyərlərlə məhdudlaşmadığını, eyni zamanda, cəmiyyətin hüquqi maarifləndirməni də əhatə etdiyini bildirib. Vəkillər Kollegiyasının sədri, Məhkəmə-Hüquq Şurasının üzvü Anar Bağırov belə müzakirələrin hüquq və mədəniyyət sahəsində fikir mübadiləsi aparmaq və təcrübə paylaşmaq üçün əlverişli imkan yaratdığını qeyd edib.

Panel müzakirələrində "Mədəniyyət və Hüquq", "Azərbaycan Respublikası Konstitusiyası və mədəni dəyərlərimiz" və "Mədəniyyətin beynəlxalq münasibətlər sistemindəki yeri" mövzuları incələnib.

*XQ*

# Konstitusiya Məhkəməsi Palatasının növbəti iclası

**Azərbaycan Respublikası Konstitusiya Məhkəməsi Palatasının növbəti iclası olub.**

Müzakirədə Azərbaycan Respublikası Konstitusiyasının 130-cu maddəsinin VII hissəsinə və "Konstitusiya Məhkəməsi haqqında" Qanunun 7.1-ci maddəsinə əsasən, Azərbaycan Respublikası Əmək Məcəlləsinin 144-cü maddəsinin 2-ci və 3-cü hissələrinin Azərbaycan Respublikası Konstitusiyasının 25, 37, 71 və 149-cu maddələrinin müvafiq hissələrinə uyğunluğunun yoxlanılmasına dair Azərbaycan Respublikasının insan hüquqları üzrə müvəkkilinin (ombudsmanın) sorğusuna baxılaraq, plenumun icraatına qəbul olunması haqqında qərardad qəbul edilib.

Sorğuya mahiyyəti üzrə, tərəflərin iştirakı ilə Konstitusiya Məhkəməsi Plenumunun dekabrın 29-na təyin edilmiş iclasında baxılacaq.

*XQ*

# QAİ-nin İrəvan Qazılığı ilə əməkdaşlığı

**Qərbi Azərbaycan irsinin sistemli şəkildə araşdırılması, dini-mənəvi abidələrin qorunması və bu həqiqətlərin beynəlxalq ictimaiyyətə çatdırılması son dövrdə bu hərəkatın fəaliyyətində önəmli yer tutur.**



Qərbi Azərbaycan İcmasında İrəvan Qazısı Bəxtiyar Nəcəfovla keçirilən görüşdə bu mövzu diqqət mərkəzində olub.

Qərbi Azərbaycan İcması İdarə Heyətinin sədri, Milli Məclisin deputatı Əziz Ələkbərli bildirib ki, Qərbi Azərbaycanda tarix boyu çoxsaylı məscidlər, dini ocaqlar, pir və ziyarətgahlar mövcud olub. Bu irsi erməni vandalları kütləvi surətdə dağıtmış və təhrif etmişdir. O, icmanın bu irsi faktoloji əsaslarla yenidən araşdırmaq, mövcud məlumatları dəqiqləşdirmək və beynəlxalq ictimaiyyətə çatdırmaqla bağlı ardıcıl iş apardığını vurğulayıb.

Qərbi Azərbaycan İcması Nəzarət-Təftiş Komissiyasının sədri, professor Vahid Novruzov və İdarə Heyətinin üzvü Mirfaiq Mirheydərli dini-mənəvi irsin araşdırılması, bu yöndə sistemli əməkdaşlığın gücləndirilməsi və təsdiqlənmiş həqiqətlərin beynəlxalq platformalarda təqdimatı mövzusunda İrəvan qazısı ilə fikir mübadiləsi aparıblar.

Hacı Bəxtiyar Nəcəfov dini dəyərlərin cəmiyyətdə oynadığı rol və mənəvi irsin gələcək nəsillərə ötürülməsinin vacibliyini qeyd edib. O, Qərbi Azərbaycana Qayıdış hərəkatının yalnız təkcə siyasi deyil, həm də dini-mənəvi və mədəni məsələ olduğunu vurğulayaraq, qazılığın bu istiqamətdə icma ilə sıx əməkdaşlığının zəruriliyini bildirib. Qazı sülhün, mənəvi birliyin və dini həmrəyliyin bölgədə sabitlik üçün mühüm şərt olduğunu diqqətə çatdırıb.

Görüş zamanı tərəflər dini irsin araşdırılması, tarixi faktların toplanması və ictimai maarifləndirmə işlərinin koordinasiyalı şəkildə aparılması barədə razılığa gəliblər.

*XQ*

# QHT təmsilçiləri Kərkükdə



**Azərbaycanlıların və digər Türkdilli Xalqların Əməkdaşlıq Mərkəzi İctimai Birliyinin sədri İlham İsmayılov və Vətənpərvərliyin Təbliğinə Dəstək İctimai Birliyinin sədri Şəmistan Əlizamanlı İraqın Kərkük şəhərinə səfər ediblər.**

Soydaşlarımızın səfəri QHT-lərə Dövlət Dəstəyi Agentliyinin maliyyə yardımı əsasında "Vətənpərvərlik mövzusunda yeni musiqi əsərinin hazırlanması və türkman vətəndaş cəmiyyəti üzvləri ilə görüşlər və konfranslar" layihəsinin icrası çərçivəsində həyata keçirilir. Gündəlikdə vətəndaş cəmiyyəti təşkilatları arasında əlaqələrin qurulması, İraq–türkman irsinin, ortaq mədəniyyətin təbliği, xalqlarımız arasında əməkdaşlığın daha da inkişaf etdirilməsi məqsədilə konfranslar, görüşlər keçirilməsi, türkmanların yaşadığı bölgələrə səfərlər edilməsi nəzərdə tutulub.

Qeyd edək ki, bu ilin martında ATXƏM İB-nin layihə rəhbərliyi ilə Bakıda və Qarabağ bölgəsində keçirilmiş "Türkman irsi: Vətəndaş cəmiyyətinin həmrəyliyi" mövzusunda forum və silsilə tədbirlərdə bir sıra ölkələrdən qonaqlar, o cümlədən İraq – Türkman Cəbhəsinin rəhbəri, millət vəkili Ərşad Salihi və Türkməneli Akademisyenler Təşkilatının sədri Nebil Şahin Kifrili iştirak ediblər.

*XQ*

# “Cənab Prezident, məgər siz mətbuata nəzarət etmirsiniz?”

## *Müsahibimiz Xalq yazıçısı Elmira Axundovadır*

**(əvvəli qəzetimizin 9, 10 dekabr 2025-ci il saylarında)**



**– Elmira xanım, Heydər Əliyev – jurnalist münasibətlərini, Ulu öndərin bu peşə sahiblərinə yanaşmasını, onlara qayğısını necə qiymətləndirərdiniz?**

– Mən konkret faktlarla danışmağı və yazılarımda da belə faktlar əsasında mövzuya münasibətimi açıqlamağı əsas götürürəm. Bununla bağlı yalnız 2 faktı misal çəkmək istərdim. Çünki reallıq faktla açılır.

Əvvəla, Heydər Əliyev onun tədbirinə, görüşünə dəvət alan jurnalistlərə imkan yaradırdı ki, onlar öz məqalələri, reportajları üçün faktlar, materiallar toplaya bilsinlər, birinci şəxsin hər hansı hadisə ilə bağlı açıqlamalarını eşitsinlər. Yəni tutaq ki, Rusiyadan baş nazir Çernomırdin gəlir, ABŞ Senatının nümayəndələri gəlir və Heydər Əliyev onlarla danışıqların ən azından məzmunundan jurnalistləri agah edirdi və biz də gedib onun, görüşdüyü rəsmilərin fikirlərini yayırdıq. Ona görə də Heydər Əliyev çalışırdı ki, jurnalistlər belə görüşlərdə, tədbirlərdə imkan daxilində çox qalsınlar. Amma qarşı tərəf bunu elə də razılıqla qarşılamırdı və Heydər Əliyevə deyirdilər ki, gəlin, jurnalistlər olmadan danışıqlar aparaq. Belə bir vəziyyətlərlə çox qarşılaşırdıq.

Bir dəfə Gəncədə tədbirdə mən arxada dayanmışdım, Ulu öndər də danışırdı. Gördü mən arxada dayanmışam, işarə elədi ki, gəl yanıma. Təbii, mən yaxınlaşdım və mənim çiynimə əlini qoyub dedi: “Bilirsiniz bu kimdir? Bu, Elmira Axundovadır, mənim köhnə etibarlı dostumdur”. Bu sözlər mənim üçün dünyalar qədər əziz bir ifadəyə çevrildi: Heydər Əliyevin etibarlı dostu...

Amma qayıdaq əvvəlki mövzuya. İtaliyaya səfərə getmişdik. Jurnalistləri də heç bir tədbirə qoymurdular. İcazə verəndə də 1-2 dəqiqə, onda da protokol üçün salamlaşmaq, hal-əhval tutmaq, başqa heç nə. Gərginlik içində idim. “Azadlıq” radiosuna nə göndərəydim, heç bir məsələdən danışılmır. Növbəti görüş Senatda keçirildi və yenə bizə imkan vermədilər ki, nəsə öyrənə bilək. Görüşdən sonra Heydər Əliyev foyeyə çıxdı və mən dərhal ona yaxınlaşdım.

Dedim: “Heydər Əliyeviç...” Gülə-gülə mənə baxıb dedi: “Nədir Elmira, yenə nədən narazısan?” Dedim: “Axı bizi heç yerə qoymurlar. İndi biz nə yazaq?” Özünəməxsus şəkildə qəhqəhə çəkib dedi: “Elə bilirsən hamı Heydər Əliyevdir? Hamı jurnalistləri mənim kimi sevir? Öyrəşin. Siz jurnalistsiniz, sizi qapıdan qovurlar, pəncərədən girin”. Biz də bundan sonra başladıq rəsmi adamlardan müsahibələr almağa. Məsələn, o vaxt xarici işlər naziri olan Həsən Həsənovdan və başqalarından. O bizə çox məlumat verirdi, əlbəttə, deyilməsi mümkün olan məlumatları.

İkinci belə bir hal Bakıda oldu. ABŞ Senatının nümayəndələri Bakıya Ulu öndərlə görüşə gəlmişdilər. O zaman da Azərbaycanda “Həyatverici lütf”, “Məhəbbət kilsəsi”, “İeqova şahidləri”, “Yeddinci gün adventistləri”, “Yeni həyat”, “Oşo” və sair qeyri-ənənəvi dini cərəyanların qeyri-qanuni fəaliyyəti ilə bağlı ciddi tədbirlər görülürdü və onlardan hansınınsa qeydiyyatını ləğv etmişdilər. Senatorlar da bununla bağlı prezidentlə görüşürdülər. Azərbaycandan da xeyli jurnalist bu görüşdə iştirak edirdi. Senatorlar jurnalistləri görəndə elə bil dəryada gəmiləri batmışdı və çox qayğılı görünürdülər.

Senatorlar danışır, fikirlərini deyirlər, Heydər Əliyev də özünəməxsus şəkildə səbirlə təmkinlə dinləyib arqumentli şərhlərlə bunlara cavab verir. Qonaqların narahatlığı getdikcə artırdı, çünki hiss olunurdu ki, məramlarını dilə gətirə bilmirlər. Axırda onlardan biri dözməyib Heydər Əliyevə dedi: “Əgər mümkünsə, biz istərdik bundan sonra söhbətimizi jurnalistlər olmadan davam etdirək”.

Heydər Əliyev mənalı-mənalı güldü və üzünü bizə tutub dedi, çıxın. Mən də onun İtaliyada bizə dediyinə söykənərək, bir az ləngidim və lap axırda çıxmağa başladım. Qulağım bunlardadır ki, görüm söhbət nədən gedir. Bu məqamda Heydər Əliyev dedi: **“Həəə, söz azadlığından çox dəm vururlar, amma həqiqi söz azadlığı olan yerdə danışmağı heç də hamı bacarmır”.** Həqiqət belə idi. Azərbaycanda söz azadlığının boğulmasından danışan ABŞ-ın nümayəndələri söz azadlığı üçün yaradılan şəraitdən belə qorxurdular. Axı onlar hərbi sirr danışmayacaq, məxfi məlumatlar bölüşməyəcəkdilər. Sadəcə, islam ölkəsində qeyri-ənənəvi dinlərlə insanların beynini zəhərləyən sektaların müdafiəsi üçün saqqal tərpədəcəkdilər. Mən də bunu yazdım və göndərdim redaksiyaya.

**– Heydər Əliyevin Türkmənistana səfəri zamanı jurnalistlərlə, xüsusilə də müxalifətyönlü mediada çalışan nümayəndələrlə bağlı bir problem yaranmışdı. O səfərdə siz də iştirak edirdiniz?**

– Bəli, mən də o səfərdə iştirak edirdim. Bu, Xəzər dənizi ilə bağlı zirvə görüşü idi. Bəri başdan deyim ki, bu sammit uğursuz yekunlaşdı. Türkmənbaşı Saparmurad Niyazovun iddiaları və siyasi şıltaqlığı üzündən bu sammitdə heç bir rəsmi sənəd, bəyanat belə imzalanmadı. Ona görə də Heydər Əliyevin bu üzdən kefi pozulmuşdu və bir az da əsəbi idi. Sonra biz geri qayıdıb artıq hava limanından evə getməyə hazırlaşarkən Dilarə Seyidzadə jurnalistlərə bildirdi ki, Heydər Əliyev bizi çağırır. Təbii, biz dərhal Ulu öndərin tapşırdığı yerə toplaşdıq. Heydər Əliyev bizə sual dolu baxışlarla müraciət etdi: “Mən sizə indiyə qədər nəyi necə yazmağı tapşırmışammı? Yaxud maraqlanmışammı nə yazacaqsınız, necə yazacaqsınız?” Bunu deyə-deyə hamımızın gözünə baxırdı. Biz də bildirdik ki, yox. Həqiqətən də, belə idi. Sonra dedi: “Amma istəyirəm bu dəfə sizdən bir xahiş edim. Xahişim də ondan ibarətdir ki, Saparmurad Türkmənbaşıdan heç nə yazmayın. Bilirəm, başlayacaqsınız onun qızıl heykəlindən yazmağa, onu tənqid etməyə. Heç nə yazmayın. Çünki o, mənə yaxınlaşıb dedi: “Heydər Əliyeviç, Sizin mətbuat mənim haqqımda tənqidi yazılar yazır. Siz niyə bunun qarşısını almırsınız?” Mən də ona dedim ki, axı Azərbaycan mətbuatı elə məndən də çoxlu tənqidi yazılar verir. Müxalifət qəzetləri elə materiallar, hətta ədalətsiz tənqidi yazılar çap edir ki, heç sənin ağlına gəlməz. Bəs mən bunlara necə dözürəm? Qayıdıb mənə deyir: “Ola bilməz. Bu, necə olur? **Heydər Əliyeviç, məgər siz mətbuata nəzarət etmirsiniz?”** Ona deyirəm, mən 1998-ci ildə senzuranı ləğv etmişəm, hamı sərbəst nə istəyir yazır. O da deyir: “Belə də. Amma axı biz dostuq, məni tənqid etməyə necə razı olursunuz?” Ona görə, dostlar, sizdən xahiş edirəm Türkmənbaşıdan nə yaxşı, nə pis, heç nə yazmayın”.

Bu, 2002-ci ilin aprel ayında oldu. Həqiqətən də o vaxtlar “Exo”, “Ayna” və sair qəzetlər onun haqqında çox tənqidi yazılar dərc edirdilər.

Bundan əvvəl də Türkmənistanda “Azadlıq” radiosunun 2 müxbiri - mən və Elmira Əmrahqızı problem yaşadıq. Səfərin ilk günü Türkmənistanın Xarici İşlər Nazirliyinin protokol xidmətinin əməkdaşları heç cür inana bilmirdilər ki, onların ölkəsində qadağan edilmiş bu radiostansiyanın rus və Azərbaycan redaksiyalarının müxbirləri Prezidentlə birlikdə səfərə gəliblər. Əvvəlcə elə düşünürdülər ki, biz özbaşına gəlmişik. Hətta bizdən təəccüblə soruşurdular: “Siz Azərbaycan Prezidentini müşayiət edən nümayəndə heyəti ilə birlikdə gəlmisiniz?” Biz dedik ki, bəli. Amma inanmadılar və bizi nümayəndə heyətindən ayırdılar, uzun-uzadı yoxlamalar keçirdilər.

Nəhayət, bizim XİN türkmənistanlı həmkarlarına sənədlər təqdim edib göstərdi ki, biz həqiqətən Azərbaycan Prezidenti ilə birlikdə gəlmiş rəsmi nümayəndə heyətinin tərkibində olan jurnalistlərik. Buna baxmayaraq, son günə qədər orada bizimlə çox ehtiyatla və qorxa-qorxa davranır, hər addımımızı izləyirdilər. Nümayəndə heyətimiz geri qayıdanda Heydər Əliyev məni və Elmira Əmrahqızını təyyarədə öz oturduğu salona çağırdı və söhbət zamanı mən bütün bunları ona danışdım. Qəhqəhə çəkib, xeyli güldü.

Heydər Əliyev belə faktları əsla unutmurdu. Həmin vaxtdan başlayaraq o, bu məsələni nəzarətə götürdü. Yadımdadır, Ulu öndər Qərb ölkələrindən birinə səfəri zamanı, həmin dövlətin başçısı ilə mətbuat konfransı keçirirdi. Mən də adaşımla ön sırada durmuşdum. Heydər Əliyevə söz veriləndə bizi göstərərək dedi: “Görürsünüzmü, onlar müxalifətdir, “Azadlıq” radiosunda işləyirlər. Yəqin ki, bu radiostansiyanı yaxşı tanıyırsınız. Amma mən səfərlərə gedərkən onları özümlə aparıram və heç maraqlanmıram da, onlar nə yazırlar”.

Yəni Heydər Əliyev bu faktı bir növ təbliğata, öz ölkəsində söz azadlığının yüksək səviyyədə qorunmasının sübutuna çevirə bildi. Onun ünsiyyət manerasının bu xüsusiyyətini, ölkəsinin imicini yüksəltmək, xalqı üçün mümkün qədər çox iş görmək məqsədilə hər dəqiqədən, hər andan istifadə etmək bacarığını, demək olar ki, bütün danışıqlarında müşahidə etmişəm.

**– Heydər Əliyev haqqında ən azından 7 cildlik bədii sənədli-bioqrafik əsər yazan Elmira Axundovaya bu sualı vermək bəlkə də yersiz görünər. Amma həmkarım olaraq sualımın mahiyyətini yaxşı başa düşərsiniz: Heydər Əliyev haqqında yazmaq, həm də fundamental əsərlər ortaya qoymaq nə qədər çətin, nə qədər asandır?**

– Maraqlı sualdır. Bilirsiniz, Heydər Əliyev həmişə jurnalistləri test edirdi. Bəzən mətbuat konfranslarında jurnalistlərdən kimsə yersiz sual verəndə acığı gəlirdi, əhəmiyyətsiz bir məsələyə toxunanda xoşu gəlmirdi. Həmişə deyirdi: “Hər şeydən əvvəl aktual məsələləri qaldırın, ciddi mövzulardan yazın, həm də həqiqəti yazın. Onda heç kim sizdən inciməz”.

Çalışdığım mətbuat orqanlarını, radiostansiyaları sadaladım. Həqiqətən, əgər mən ora maraqsız, aktual olmayan mövzulardan material yazıb göndərsəydim, o media orqanları nə məni işdə saxlayar, nə məni çap edər, nə də reportajlarımı efirə verərdilər. Bu mənada əlbəttə, Heydər Əliyevdən yazmaq, onun tədbirlərini işıqlandırmaq mənim üçün asan idi. Yeganə çətin məsələ bu idi ki, Heydər Əliyev fəaliyyətdə olan Prezident idi. Ona görə xarici mediaya verdiyim materiallarda bizim bir çox KİV-lər kimi onu tərifləyib şəxsi keyfiyyətlərini qabarda bilməzdim. Bunu qəbul etməzdilər. Mən elə yazmalıydım ki, xarici ölkələrdəki rusdilli oxucular, dinləyicilər özləri Heydər Əliyevin fəaliyyətini dəyərləndirsinlər. Dəyərləndirir, hətta heyranlıqla dinləyirdilər də. Çünki ortada faktlar, epizodlar, real böyük işlər var idi. Heydər Əliyevin böyüklüyünü göstərən məhz bunlar idi.

Digər tərəfdən onunla işləmək, ondan yazmaq asan idi, çünki faktları, epizodları o özü bizə verirdi. Jurnalistlərlə daim təmasda olurdu, müsahibələr verirdi. Heydər Əliyev özü də heç vaxt demirdi ki, məni tərifləyin. Deyirdi “reallığı yazın, faktlar göstərin”.

Yadımdadır, “Əsrin müqaviləsi” imzalanandan sonra mən “Literaturnaya qazeta”-da silsilə yazılar çap etdirdim. Burada yalnız faktlarla göstərirdim ki, bu müqaviləni imzalamaqla Heydər Əliyev nələrə nail ola bildi. Bunları şəxsən Ulu öndərə göstərəndə, çox məmnun oldu və mənə təşəkkür etdi.

Bir məsələni də qeyd edim. Təbii ki, bəzən tənqidi yazılar da yazırdım və bunlar dərc olunurdu. Onun ətrafında bəzi adamlar var idi ki, yaxşı materiallarımı deyil, bilavasitə bu tənqidi tonda yazılan məqalələri ona göstərib məni uzaqlaşdırmağa çalışırdılar. Amma buna nail ola bilmədilər. Çünki Heydər Əliyev mövqeyimi bilirdi və mənə inanırdı.

**– Bilirəm, geniş mütaliəniz var, müxtəlif siyasi xadimlər haqqında da yəqin çoxlu əsərlər oxumusunuz. Heydər Əliyevi dünya siyasətinin nəhənglərindən kiminlə yanaşı qoyardınız?**

– Heydər Əliyevi dünyanın çox nəhəng siyasətçiləri ilə müqayisə edirlər. Bir qismi Atatürklə, bir qismi Ruzveltlə, bəziləri Şarl de Qoll, ya da Adenauerlə müqayisə edənlər var. Mən onu sovet siyasi dönəmində olan heç bir dövlət və siyasi xadimlə müqayisə edə bilmirəm. Ona görə ki, bu siyasətçilərdən hansısa hakimiyyətdən uzaqlaşdırılanda onlardan heç biri ikinci dəfə hakimiyyətə qayıda bilmədi. Tarixdə belə bir nümunə olmayıb. Bir qədər Eduard Şevardnadzenin hakimiyyətə qayıdışı bu fenomenə bənzəyir. Ancaq o hakimiyyətdən təzyiqlə uzaqlaşdırılmayıb. O, SSRİ xarici işlər naziri olub və hörmətlə istefaya göndərilib. Sonra gedib Gürcüstana, orada da onu hörmətlə qarşılayıblar və prezident seçiblər. Amma sonda da çevriliş nəticəsində hakimiyyətdən uzaqlaşdırılıb.

Yeltsini götürək. Rusiyanın prezidenti oldu, amma necə oldu sizə məlumdur. Sonra da Rusiyanı bərbad günə qoydu və öz xahişi ilə istefaya getdi. Əslində Rusiyanın bəzi qüvvələri onu buna məcbur etdilər. Demək istədiyim odur ki, o nəsildən heç kim Heydər Əliyev kimi öz ağlı, zəkası, xalqın ona olan inamı və sevgisi sayəsində yenidən hakimiyyətə qayıtmayıb. Nəinki qayıdıb, 10 il ərzində nəhəng işlər görərək öz xalqının Ümummilli lideri səviyyəsinə ucalıb.

Həmkarım, bizim həmyerlimiz, görkəmli publisist və jurnalist Mixail Solomonoviç Qusmanla müsahibəmdə, onun Heydər Əliyevlə bağlı apardığı müqayisə mənim qənaətimə daha yaxındır. Qusman deyir: *“...XX əsri öyrənib geriyə nəzər salsaq, deməliyəm ki, o zaman böyük siyasi fiqurlar kifayət qədər çox idi. Amma mən XX əsrin yanaşı qoya biləcəyim iki dövlət xadiminin adını çəkəcəyəm. Bunlar Heydər Əliyev və Uinston Çörçilldir. Deyim niyə. Dünyanın böyük siyasətçilərinə müxtəlif rakurslardan, bir növ, qolloqrafik prinsiplə yanaşmaq lazımdır. Kiməsə siyasi islahatlar baxımından, kiməsə iqtisadi nailiyyətlər, bir başqasına sosial dəyişikliklər prizmasından baxmalısan və s. Lakin fikrimcə, XX əsrdə yalnız iki siyasətçinin özü haqqında belə demək haqqı vardı:* ***“Mən öz ölkəmi xilas etmişəm!”*** *Bu, siyasi məharəti sayəsində Böyük Britaniyanı Hitler faşizminin hücumundan xilas etmiş Çörçill və öz xalqının düşmənlərinin ölkəni, sözün əsl mənasında, hissələrə parçaladığı bir dövrdə Azərbaycanı bir neçə yerə qaçılmaz parçalanmadan qorumuş Heydər Əliyevdir. O, faktiki olaraq, ölkəni məhv olmaqdan qurtardı. Bu isə istənilən siyasətçi üçün ən yüksək kriteriya və ən ali dəyərdir. Yalnız bu iki şəxs XX əsrdə, həqiqətən də, öz ölkələrinin xilaskarı oldular”.*

Mən də bu fikirlə tam razıyam. Heydər Əliyev həqiqətən dahi siyasətçi idi və bu dahiliyi sayəsində də ölkəmiz süqutdan xilas edildi. 7 cildlik kitabımın 6-cı cildi elə bu sözlərlə başlayır: “Heydər Əliyev, gəlin, öz xəstə Azərbaycanınızı xilas edin!”.

**– Heydər Əliyevin bütün tərcümeyi-halını və fəaliyyətini araşdıran, bu qədər əsərlər yazan Elmira Axundova bu prosesin içində hansı məqamlarda təəssüf hissi yaşayıb və deyib: “kaş belə olmayaydı”?**

– Əlbəttə, olub. Etiraf etmək lazımdır ki, Heydər Əliyev heç də rahat və dəbdəbəli həyat sürməyib. Çox çətin və mürəkkəb həyat yaşayıb. Xüsusilə də Moskva illəri onun üçün son dərəcə ağır illər olub. Bu dövrlə bağlı mənim çoxcildliyimin 700 səhifəlik bir cildi var. Bunu oxuyanlar məəttəl qalırlar ki, Elmira Axundova bunları haradan tapıb.

Doğrudur, Moskvadakı fəaliyyətinin Andropov və Çernenko dövrlərində Heydər Əliyev öz siyasi zəkası, fenomenal iş qabiliyyəti və bacarığı ilə nəinki Sovetlər Birliyinə, bütün Qərbə səs salmışdı. Qərb mətbuatı, ümumən bütün dünya mətbuatı onun haqqında geniş təhlili materiallar dərc etməyə başlamışdılar. Bütün bunlar Kremldəki bəzi qüvvələrin heç də ürəyindən deyildi.

**“Heydər Əliyev: şəxsiyyət və dövr” kitabından bir epizod:**

***“Bakıdan olan parlaq siyasətçi”, “Taym” jurnalı, 1982.***

***Con Koqan, Erik Amfiteatrov və Joanna MakQri***

*“Azərbaycan Kompartiyasının şefi, 59 yaşlı Heydər Əlirza oğlu Əliyev uzun illərdir ki, rusiyalı olmadan yüksəklərə qalxmağın olduqca çətin olduğunu düşünən Qərb analitiklərinin diqqətini çəkməkdədir. Lakin ötən həftə onun ikili yüksəlişi, əbədiləşməkdə olan bu qənaətləri alt-üst edib. Heydər Əliyev müsəlman ölkələrindən olan ilk şəxsdir ki, Sovet İttifaqının Nazirlər Sovetində yüksək posta yüksəlməyə nail olub...”*

***“Kremlin xoşbəxt əsgəri”, “Newswe” jurnalı, 9 iyul 1984.***

***Qreq Kanin və Joys Barnatan***

*“... Bəziləri elə düşünürlər ki, Əliyev 79 yaşlı baş nazir Nikolay Tixonovun yerini tutmağa əsas namizədlərdən biridir. Belə qənaətlər var idi ki, Andropov Siyasi Büronun yeni üzvü Vitali Vorotnikovu bu psotda görür. Ancaq Çernenkonun hakimiyyətə gəlməsi ilə Əliyev bu posta əsas namizəd sayılır.*

*Lakin rus mənşəli olmaması onun Baş katib olmaq şanslarını aşağı salır”.*

*

...Heydər Əliyevin Moskvadakı fəaliyyət dövrü onun üçün məyusluq dövrünə çevrilib. Xüsusilə də Mixail Qorbaçov Baş katib seçiləndən sonra. 1985-ci ildə Qorbaçov Baş katib seçiləndən az bir müddət keçəndən sonra Mərkəzi Komitədə ona qarşı bir koalisiya yaranmağa başladı. Mən bütün bu dövrü ən xırda detallarına qədər araşdırıb qələmə almışam. “Kreml üçlüyü” kitabımda bütün bunlar var. İndi çoxları bu kitaba istinad edir.

Kremldə Yeqor Liqaçov, Aleksandr Yakovlev və Şaxnazarov üçlüyü ən qatı antiƏliyevçi olublar. Qorbaçov Baş katib seçilən kimi Liqaçov Heydər Əliyevə qarşı olan bütün kinini üzə vurub. Yakovlev Qorbaçovun ideoloqu olsa da, səfehin biri idi və Heydər Əliyevi Brejnevin adamı hesab edirdi. Digər tərəfdən də DTK məktəbi keçən siyasi liderlərə qarşı bir qısası vardı. Şaxnazarovun da, aydındır ki, məlum səbəblərə görə Heydər Əliyevi görməyə gözü yox idi. Bu üçlük Moskvada Heydər Əliyevə qarşı bütün çirkli kampaniyalara rəhbərlik edirdi. Onlar Qorbaçova təzyiq edirdilər ki, o, Heydər Əliyevi işdən çıxarsın. Əlbəttə, bu təzyiqlər altında işləmək çox dözülməz idi.

Hətta Yeqor Liqaçov Siyasi Büronun üzvü olanda Heydər Əliyevə qarşı özünü çox kobud və qaba aparırdı. Heydər Əliyevin nazirləri, köməkçiləri, Siyasi Büronun üzvləri olan adamlar danışırdılar ki, Yeqor Liqaçov bəzən insanlar arasında belə Heydər Əliyevlə kobud danışmaqdan çəkinmirdi.

Söhbətlərin birində Heydər Əliyevin köməkçilərindən biri danışırdı ki, nəqliyyat məsələləri ilə bağlı geniş toplantı keçirirdik. SSRİ-nin bütün nəqliyyat sahəsi Heydər Əliyevin kurasiyasında idi. İclası yeni başlamışdıq ki, birdən Yeqor Liqaçov peyda oldu. Müşavirə dəmir yollarında daşımaların ləğmənsinə həsr olunmuşdu. Liqaçov Sov.İKP MK-nın ideoloji məsələlər üzrə katibi idi və onun bu məsələlərə heç bir aidiyyatı yox idi. Bəyan etdi ki, mən də müşavirədə iştirak edəcəyəm. Heydər Əliyev çox təmkinli və ziyalı insan idi, nəzakət xətrinə heç bir söz deməqdi və razılaşdı. İclasın gedişində Heydər Əliyev hər hansı problemdən danışmağa başlayanda, Liqaçov çox kobud şəkildə onun sözünü kəsirdi: “Bəsdir!”, “Dayanın!” və sair bu kimi kobud ifadələr işlədirdi”.

Hətta Siyasi Büronun iclaslarında ona imkan vermirdi ki, fikrini tamamlasın, sözünü axıra çatdırsın. Bəli, Liqaçov belə mədəniyyətsiz insan idi. Amma Heydər Əliyevlə belə danışmağa ona cəsarət verən adam var idi – Qorbaçov.

Yakovlev isə saman altdan su yeridirdi, altdan işləyirdi. Bütün bunlar Heydər Əliyevə çox ağır gəlirdi. Axı Heydər Əliyev özünə, şəxsiyyətinə son dərəcə hörmət edən bir insan idi.

**(ardı var)**

***Müsahibəni qələmə aldı:***
***İlqar RÜSTƏMOV,***
***Əməkdar jurnalist***

# “Qarşımda belə böyük siyasətçi var, mən necə yorula bilərəm...”



### “Heydər Əliyev xatirələr işığında” layihəsinin növbəti qonağı tarix elmləri doktoru, uzun müddət ulu öndər Heydər Əliyevin köməkçisi olmuş Dilarə Seyidzadədir



**Qısa təqdimat: Dilarə Bağır qızı Seyidzadə tarix elmləri doktoru, professor. 1939-cu il oktyabrın 25-də Bakı şəhərində anadan olub. Azərbaycan Dövlət Universitetinin (indiki Bakı Dövlət Universiteti) məzunudur. 1961-1978-ci illərdə Azərbaycan EA-nın Tarix İnstitutunda baş laborant, kiçik elmi işçi, 1978-1983-cü illərdə Ü.Hacıbəyov adına Azərbaycan Dövlət Konservatoriyasında (indiki Bakı Musiqi Akademiyası) baş müəllim, 1983-1993-cü illərdə Azərbaycan Elmlər Akademiyasının Tarix İnstitutunda baş elmi işçi, aparıcı elmi işçi, 1993-1997-ci illərdə Azərbaycan Respublikası Prezidentinin İcra Aparatının Humanitar siyasət şöbəsində böyük məsləhətçi, 1997-1998-ci illərdə Azərbaycan Respublikası Prezidentinin köməkçisi, 1998-1999-cu illərdə Azərbaycan Respublikası Prezidentinin Katibliyi rəisinin müavini - Prezidentin köməkçisi vəzifələrində çalışıb. Azərbaycan Respublikası Prezidentinin 16 noyabr 1999-cu il tarixli sərəncamı ilə Azərbaycan Respublikası Prezidenti Katibliyinin rəisi vəzifəsinə təyin edilib. Dilarə Seyidzadə dövlət qulluğunda xidmətlərinə görə Azərbaycan Respublikası Prezidentinin 24 oktyabr 2009-cu il tarixli Sərəncamı ilə “Şöhrət”, 24 oktyabr 2019-cu il tarixli sərəncamı ilə “Şərəf” ordenləri ilə təltif olunub.**

**– Dilarə xanım, Heydər Əliyev hələ 1970-ci illərdə – respublikaya rəhbərlik etdiyi ilk dövrdə çox populyar və tanınmış bir şəxsiyyət olub. Ulu öndərlə işləməyə başlamazdan çox-çox əvvəllər bir tarixçi, vətəndaş olaraq Heydər Əliyev haqqında təəssüratınız necə idi?**

– O dövrü xatırlamamaq olarmı?! Mən hələ tarixçi kimi elmi işlə məşğul olanda cümhuriyyət dövrünün tanınmış siyasi xadimləri Fətəli xan Xoyski, Əlimərdan bəy Topçubaşov, Xəlil bəy Xasməmmədov, Nəsib bəy Yusifbəyli və digərləri haqqında arxiv sənədləri ilə tanış olmuşdum, Azərbaycanın yeni dövrü üçün qəhrəman axtarışında idim.

Yadımdadır, 1969-cu ilin avqust ayı idi. Heydər Əliyev iyulun 14-də Azərbaycan KP MK-nın birinci katibi seçilmişdi. Bir ay idi Azərbaycana rəhbərlik etməyə başlamışdı və Bakıda SSRİ–Yaponiya gənclərinin beynəlxalq simpoziumu keçirildi. Həmin illərdə də Azərbaycan Komsomolu Mərkəzi Komitəsinin katibi Elmira Qafarova Akademiyadan gənc alim kimi mənə həmin tədbirdə çıxış etməyi tövsiyə etdi. Tədbir çox yüksək səviyyədə keçdi və şübhəsiz, bunda Heydər Əliyevin təşkilatçılıq məharəti görünürdü.

Sonra Azərbaycanda çox sürətlə quruculuq və sənayeləşmə başladı. Heydər Əliyev az bir müddətdə nəinki Azərbaycana, bütün SSRİ-yə səs saldı. Bakıda onun haqqında əfsanələr dolaşmağa başladı.

1969-cu il dekabrın sonunda Bakı Yeni il şənliyinə hazırlaşırdı. Evimiz “Azərbaycan” kinoteatrının yanında idi. Dekabrın 31-də Yeni il süfrəsi açmaq üçün yaxınlıqdakı ərzaq mağazasına bazarlıq etməyə getmişdim. Mağazaya girəndə gördüm insanlar toplaşıb, içəridə kimsə Azərbaycan dilində gözəl və səlis tərzdə danışır, insanlara suallar verir. Baxdım ki, respublikanın yeni rəhbəri Heydər Əliyev burada insanlarla səmimi söhbət edir, onların problemləri, qayğıları ilə maraqlanır və onu müşayiət edən məmurlara hansısa göstərişlər verir. Üzündəki təbəssüm və baxışlarındakı qətiyyət diqqətimdən yayınmadı və bütün bunlar məndə çox xoş təəssürat oyatdı. Bundan sonra, bir tarixçi kimi, təbii ki, onun fəaliyyətini izləməyə bilməzdim. Görürdüm respublika çox sürətlə inkişaf edir, Azərbaycan ildən-ilə gözəlləşir, mədəniyyət və incəsənət adamlarımız İttifaq səviyyəsində yüksək orden və fəxri adlarla mükafatlandırılır. O zamandan başa düşdüm ki, axtarmağa başladığım qəhrəman bu insan ola bilər. Elə də oldu...

**– İlk hakimiyyəti illərində Heydər Əliyevin Seyidzadələr ailəsi ilə bağlılığı vardımı?**

– İngiltərədə rəsmi səfərdə olanda Heydər Əliyev onunla bağlı keçirilən tədbirlərin birində möhtəşəm çıxış etdi. Müxtəlf suallar verdilər, onlara da gözəl cavablarla məni heyrətləndirdi. Görüşdən çıxandan sonra üzünü mənə tutub dedi: “Xoşunuz gəldi çıxışımdan?” Dedim: “Oy, necə də gəlməsin. Mənim atam bu suallara cavab verməzdi”. Dedi: “Sizin atanız Molotovun diplomatı olub, mən burada Azərbaycan Prezidentiyəm. Onlar hamısını bilir, onlar məni yoxlayır”. O hər şeyi hiss edirdi, duyurdu.

Bu məqamda ürəyimə damdı ki, Ulu öndər atamı tanıyır. Soruşdum: “Cənab Prezident, siz atamı haradan belə tanıyırsınız?” Amma açıqlamadı.

Bu yaxınlarda Adıgözəl Məmmədov “Azərbaycan naminə Bağır Seyidzadə” adlı kitab yazıb. Müəllif məxfi sənədlər tapıb və orada göstərilir ki, atam Bağır Seyidzadə Azərbaycan KP MK-nın birinci katibi Mircəfər Bağırovun tapşırığı ilə Pişəvərini Culfaya gətirir. Burada Pişəvəri Mircəfər Bağırovla görüşür və DTK-da işləyən Heydər Əliyev də birinci katibin yanında olur. Ona görə də Heydər Əliyev atam Bağır Seyidzadəni yadda saxlamışdı...

**– Onun əminiz Hüseyn Seyidzadə ilə münasibətləri haqqında nə deyə bilərsiniz?**

– Bu tanışlığın da qəribə tarixçəsi var. Əmi dediyim, atamın əmisi oğlu Hüseyn Seyidzadə kinorejissor idi. Uşaqlıqdan atamla bir evdə böyümüşdülər. İki qardaşın 6 oğlu və 5 qızı bir evdə yaşayıblar. Ermənilərin azərbaycanlılara qarşı 1918-ci il soyqırımından əvvəl onlar İrəvanda yaşayıblar və orada 2 mərtəbəli evləri olub. Sovet dövründə ermənilər o evi uşaq bağçası etmişdilər. Ona görə də, mən deyə bilmirəm ki, onlar qardaş deyildilər, çünki son dərəcə yaxın idilər, doğma qardaşdan irəli idilər.

Hüseyn Seyidzadə çox zarafatcıl, deyib-gülməyi sevən bir adam idi. O biri qardaşları da vəzifə adamları idilər. Hüseyn əmim milli koloritli konorejissor idi və çəkdiyi bir çox filmləri onun başını daim cəncələ salırdı.

1970-ci illərdə Hüseyn Seyidzadə rus müəllifin “Qatır Məmməd” filminin ssenarisi ilə razılaşmayıb və xalqımızın sevimli qəhrəmanını tarixdə olduğu kimi təqdim edib. Ssenaridə isə Qatır Məmmədi bolşeviklərin şəriki və tərəfdarı təqdim edirdilər. Əmim filmi öz düşündüyü və tarixi mənbələrə uyğun şəkildə çəkmişdi. Bu da Moskvanın qəzəbinə səbəb olmuşdu. Filmin səsləndirilməsi ərəfəsində iş dayandırıldı. Böyük qalmaqal yaranmaq ərəfəsində, Heydər Əliyevə xəbər çatdırmışdılar. O da məsələnin böyüməsinə imkan verməmişdi.

Bir gün də Heydər Əliyev “Azdrama”ya gəlib “Qayınana” pyesinin tamaşasına baxır. Tamaşadan sonra səhnə arxasında aktyorlarla görüşür və Nəsibə Zeynalovaya deyir ki, bu pyesin əsasında mütləq film çəkilməlidir. Tapşıraram, bu filmi komediya janrının böyük ustadı Hüseyn Seyidzadə çəksin. Yəni Heydər Əliyev Hüseyn Seyidzadənin yaradıcılığına bələd idi və onu komediya filmlərinin böyük ustadı adlandırırdı...

**– Heydər Əliyev çox tələbkar insan idi. Sizə köməkçi vəzifəsi təklif edəndə tərəddüd, həyəcan hissi keçirdinizmi?**

– 1993-cü ildə ulu öndər Heydər Əliyev hakimiyyətə gəldi və az bir vaxtdan sonra dövlət aparatı yaradılmağa başlandı. Bir gün mənə də təklif etdilər ki, Prezident Aparatında işləməyə gəlim. Mənim isə evdə yataq xəstəsi olan bacım vardı. İmkanım da yox idi ki, adam tutum ona baxsın və ona zəhmənthaqqı ödəyim. 3 gün çox gərgin anlar yaşadım. Aparatdan isə təkidlə bildirdilər ki, mən ora işə getməliyəm. Çünki mən artıq Azərbaycan tarixinin Cümhuriyyət dövrünün araşdırıcısı kimi bu mövzuda doktorluq dissertasiyası müdafiə edib elmlər doktoru elmi dərəcəsi almışdım. Onlar da məhz tarixçi alim tələb edirdi. Bu tərəddüdlərimin aradan qalxmasında dayım qızı mənə yardımçı oldu və dedi: “Dilarə, sən get işlə, mən sənə kömək edərəm”. Beləcə, işləməyə razılıq verdim.

Bir məsələni də xatırlatmaq istəyirəm (Dilarə xanım bunu deyib gülümsəyir), Heydər Əliyev hakimiyyətə qayıdandan sonra anam bir gün mənə dedi ki, “Dilarə, Heydər (anam həmişə Heydər deyirdi cənab Prezidentə) səni özü yanına işə götürəcək”. Dedim: “Ay ana, sən nə danışırsan, hardan bilirsən?” Dedi: “Ona təmiz adamlar lazımdır”.

İşə dəvət alandan sonra Prezident Aparatına getdik. Bizi o zaman dövlət katibi olan Lalə-Şövkət Hacıyeva qəbul etdi. Mənim də həmin ərəfədə monoqrafiyam çıxmışdı, onu da özümlə götürmüşdüm. Kitaba baxdı və bəyəndi.

Bir neçə gündən sonra bizə dedilər ki, Prezident Heydər Əliyev haqqında bir kitabça hazırlamaq lazımdır, vizit kartı kimi xarici ölkələrə səfərlər ərəfəsində dövlət strukturlarına paylasınlar, onu dünyaya tanıtsın. Kitab 12 dildə olmalı idi. Biz az bir vaxtda bu kitabı hazırladıq. Kitab Heydər Əliyevin çox xoşuna gəlmişdi. Humanitar şöbənin müdiri Fatma Abdullazadə məni yanına çağırıb dedi: “Cənab Prezident kitabı bəyənib, amma bu kitabın bir müəllifi olmalıdır. O da tarixçi olmalıdır. Şöbədən də bir Siz tarix elmlər doktorusunuz. Sizin müəllif olmağınızı məsləhət bilir. Siz hazırsınız?” Razılaşdım. Başqa nə deyə bilərdim. Beləliklə, əvvəlcə məni humanitar şöbəyə baş məsləhətçi vəzifəsinə götürdülər.

O zaman vəziyyət çox ağır idi. Bunu bildiyindən, bizi ruhlandırmaq üçün 8 Mart Beynəlxalq Qadınlar Günü münasibətilə Aparatdakı qadınları toplayıb təbrik edirdi, 31 dekabrda toplaşırdıq, gəlib bizimlə bayramlaşırdı və elə sözlər deyirdi ki, sanki bütün məhəbbəti ilə bizi bağrına basıb əzizləyirdi. Bu, bizi çox ruhlandırırdı.

8 ay keçmişdi. “Bakinski raboçi” qəzetində çalışan İbrahim Şükürov bir gün mənim yanıma gəldi və dedi: “Dilarə xanım, xəbəriniz var, bizimlə Mərakeşə gedirsiniz. Kasablankada İKT-nin sammiti keçirilirdi, Heydər Əliyev də ora dəvət edilmişdi. Dedim: “Xəbərim yoxdur”. Sən demə, Prezident deyib ki, məni kitabın müəllifi ilə tanış edin. Beləliklə, mən Prezidentin nümayəndə heyətinin tərkibində Kasablankaya yola düşdüm. Bu, Heydər Əliyevlə xarici ölkələrə səfərimin başlanğıcı oldu.

Oradan qayıdanda Prezident ənənəsinə uyğun olaraq təyyarədə nümayəndə heyətinin üzvlərini öz salonuna dəvət etdi. Mən də dəvət olundum.

1994-cü ilin dekabrında onun tapşırığı ilə nümayəndə heyətinin tərkibində Böyük Britaniya səfərinə getdim. Bu səfərə Prezidenti “bp” şirkəti dəvət etmişdi. Orada gördüm Heydər Əliyev o qədər gözəl məlumatlar verir, çıxışlarında elə ciddi məsələlərə toxunur bunları mütləq qeyd etmək lazımdır. Amma qeyd edən yoxdur. Buna yaradıcı yanaşmaq qərarına gəldim. Şəxsi təşəbbüsümlə bir ümumi dəftər aldım və həmin görüşləri, Prezidentin çıxışlarını ayaq üstə yazmağa başladım.

Yazdığım vaxtlarda gördüm Heydər Əliyev bir neçə dəfə diqqətlə mənə baxdı. Bir gün də məni yanına dəvət etdi və dedi: “Bir göstərin görüm, siz orada nə yazırsınız?” Verdim və diqqətlə dəftəri vərəqlədi və qayıtdı ki, siz ali məktəbdə stenoqramı öyrənmisiz? Dedim: “Cənab Prezident, bu stenoqramma deyil, axı mən sözlərlə yazıram”. Soruşdu: “Bəs necə çatdırırsınız?”

Dedim: “Cənab Prezident, mən tarixçiyəm, belə bir tarix mənim gözlərim önündə baş verir, bunu yazmaya bilmərəm”. Dedi: “Başa düşürəm, amma necə çatdırırsınız?” Onda mən ona danışdım ki, o zaman bizim araşdırdığımız tarixi sənədlərin böyük bir qismi məxfi qrifi ilə arxivlərdə saxlanılırdı. Mənim bu sənədlərlə tanış olmağa icazəm vardı. Amma sənədləri mənə təqdim edən kimi qələmimi əlimdən alırdılar və deyirdilər ki, qeydlər aparmaq olmaz. Mən də məcbur olub onları əzbərləyirdim və evə gələn kimi tez kağıza köçürürdüm ki, yadımdan çıxmasın. Dedi: “Yazın, mənim yazarım olmayıb, siz olun yazarım”. Dedim: “Yaxşı, yazaram”. Beləcə başladım yazmağa.

“bp”nin rəhbəri Braunla görüşdə birdən məni göstərib dedi ki, bu, mənim köməkçimdir. Özü də tarix elmləri doktorudur. Amma Bakıda qəbullarda, görüşlərdə iştirak etmirdim, öz köməkçiləri vardı.

Beləliklə, mən 1993-cü ildən 2003-cü ilə qədər cənab Prezidentlə bütün xarici səfərlərə gedirdim və indiyə qədər o səfərlərdən qeydlərimin yer aldığı 60 dəftərim var. Hətta səfərlər zamanı onun şərəfinə verilən ziyafətlərin menyusunu da götürüb özümlə gətirirdim. Biz Tarix İnstitutunda oxuyanda müəllimlərimiz deyirdilər ki, cızma-qara etdiyiniz kağızı belə atmayın, o da tarixdir.

Bir dəfə cənab Prezidentin tapşırığı ilə hazırladığım məktubu gətirib ona göstərdim. Baxdı və xeyli düzəlişlər etdi. Düzəlişləri keçirib yeni nüsxə ilə birlikdə gətirdim. Düzəlişləri olan məktubu atmaq istədi, dedim atmayın, mənə verin, bu bir tarixdir. Onları da toplayırdım.

Xatırlayırsınız, bir dəfə görkəmli bəstəkarımız Tofiq Quliyev ona dedi: “Cənab Prezident, kimsə yazırmı?” Dedi: “Tofiq, mən hamısını özüm yazıram”. Ona görə deyirəm ki, bunlar hamısı tarixdir. Kim maraqlansa, onların hamısını vermişəm arxivə. Amma yazdığım dəftərlər hamısı məndədir.

**– Bir müddət sonra isə artıq rəsmən Heydər Əliyevin köməkçisi oldunuz. Bu necə baş verdi?**

– 1997-ci il sentyabrın 1-nə qədər mən köməkçi deyildim. 3 il humanitar şöbədə baş məsləhətçi vəzifəsində çalışandan sonra Administrasiyada özümə qarşı bir qısqanclıq gördüm. Əlbəttə, bu Heydər Əliyevin məni tez-tez özü ilə xarici səfərlərə aparmasından, mənə olan etibarından, inamından irəli gəlirdi. Nəhayət, bir gün qərara aldım ki, Akademiyaya qayıdıb, öz işimlə məşğul olum və bunu şöbə müdirinə bildirdim. Fikrimi dərhal Heydər Əliyevə çatdırmışdılar.

Bir gün məni yanına dəvət etdi. İndi sizə danışdıqlarım haqda heç nə demədi. Söhbətə tamam başqa yöndən başladı və dedi: “Bilirsiniz, mən səfərlərdə baxıram, kişilər tez yorulub əldən düşürlər, amma siz yorulmursunuz. İstəyirəm sizə təklif edim mənim köməkçim olasınız. Hazırsınızmı?” Mən çiyinlərimi çəkdim. Dedim: “Bilmirəm, cənab Prezident”.

Bir az narazı tonda dedi: “Bu nə cavabdır? Hamı şərəf bilir, adam göndərir, xahiş-minnət edirlər. Siz niyə tərəddüd edirsiniz?”

Dedim: “Cənab Prezident, mənim üçün də şərəfdir. Amma mən heç kimin köməkçisi olmamışam, tarixçiyəm, bilmirəm köməkçi nə deməkdir”. Soruşdu: “Siz indi nə işlə məşğulsunuz?” Dedim: “Budur köməkçinin işi?” Dedi: “Bəli”. Dedim: “Onda icazə verin, gedim işimlə məşğul olum”. Dedi: “Gedin işinizə davam edin”. Beləcə, oldum onun köməkçisi. Bu bir müddət davam etdi.

Bəzən əhvalı yaxşı olanda soruşurdu ki, siz bunları yazmağı necə çatdırırsınız, yorulmursunuzmu? Deyirdim: “Cənab Prezident, mənim qarşımda belə böyük bir siyasətçi var, mən necə yorula bilərəm. Mən bu işdən böyük zövq alıram. Əgər bu işimlə, azacıq da olsa, sizə dəstək ola bilirəmsə, bu, mənim üçün böyük şərəfdir. Tarixin canlı yaradıcısı mənim qarşımda ikən, mən necə yorula bilərəm...”

**– Dilarə xanım, Ulu öndərin xarici ölkələrə səfərlərində çox iştirak etmisiniz. Səfər öncəsi sizə tapşırıqları olurdumu?**

– Olmaya bilərdimi?! Elə xarici səfər olmurdu ki, onun birbaşa tapşırıqları olmasın. Yadımdadır, 2002-ci il iyunun 25-də Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatına üzv ölkələrin rəhbərlərinin iştirakı ilə İstanbulda “Üç dəniz əfsanəsi” adlı konfrans keçirilməli idi. Təbii ki, Azərbaycan Prezidenti də həmin konfransda iştirak edəcək əsas şəxslərdən biri idi. Ulu öndər o tədbirə çox böyük əhəmiyyət verirdi və ciddi hazırlaşırdı. Bu konfrans Qara dəniz ətrafı ölkələrin Azərbaycanla əməkdaşlığına inanmayanların qənaətlərini ölkəmizin xeyrinə kökündən dəyişməli idi. Prezident Heydər Əliyev bizə tapşırdı ki, onun çox yığcam və mükəmməl bir çıxışını hazırlayaq. Bizə hansı məsələləri çıxışda görmək istədiyini bənd-bənd dedi.

Getməmişdən 1 gün əvvəl axşam saat 11-də məni yanına çağırdı. Soruşdu: “Çıxış hazırdır?” Dedim: “Bəli, hazırdır, cənab Prezident”. Söhbət təkcə çıxışın Azərbaycan dilində mətnindən getmirdi, həm də ingilis, fransız və rus dilinə tərcüməsinin nə vəziyyətdə olduğunu soruşurdu. Bundan sonra mən evə getdim. Gecə saat 1-də evə zəng vurdu və dedi: “Mən mətndə bəzi dəyişikliklər etmişəm. Bunu necə eləyək?” Dedim: “Cənab Prezident, gedib hamısını dəyişərəm. Siz narahat olmayın”. Saat 6-da gəldik hava limanına. Məni görəndə yenə sual verdi: “Hazırdı?” Dedim: “Bəli, hazırdı”.

Türkiyədə Boğazın kənarında Heydər Əliyevi orkestrin şaqraq musiqisi altında, çox böyük təntənə ilə qarşıladılar. Xəzər, Aralıq dənizi və Qara dənizlə bağlı olan bütün ölkələrin prezidentləri hamısı burada idi. Oturan kimi məni yanına çağırdı və soruşdu ki, çıxışın mətnini hamıya payladınız? Dedim: “Bəli, payladıq”. Gedib dayandım çıxışların tərcüməsini oxuyan kabinaların yaxınlığında. Bizim nümayəndə heyətinin üzvlərindən biri soruşdu ki, Dilarə xanım, siz niyə burada durmusunuz? Dedim: “Gözləyirəm, çıxışda bir dəyişiklik olsa, dərhal düzəliş edim”. Bilirdim ki, Heydər Əliyev mətndən çıxış oxumağı əsla sevmir.

Heydər Əliyev çıxışdan 2 cümlə deyəndən sonra başladı sərbəst danışmağa. Mən heyrət elədim ki, Allahım, bu necə olacaq? Özü də mənə baxıb gülür. Tez tərcüməçiyə yaxınlaşdım ki, tez get, yaxınlaş kabinaya, ingilis dilinə tərcümə et.

Görün necə başladı çıxışa: “3 dəniz əfsanəsinin bir anası var – Xəzər dənizi. Bu ananın yanında isə Azərbaycan yerləşir. Səsindəki həyəcanı duymamaq olmurdu. Sonra yenə davam etdi.– Artıq 3 ildir ki, Xəzər, Qara dəniz və Aralıq dənizlərinin birgə “3 dəniz əfsanəsi” konfransı keçirilir. Görəsən, nəyə görə əvvəl bu tədbir baş tutmurdu? Çünki əvvəllər bizim indiki kimi sıx əməkdaşlığımız, bu iş haqqında kifayət qədər informasiyamız yox idi. Bundan əlavə, bu layihəyə inananlar da çox az idi. Yalnız 1994-cü ildə “Əsrin müqaviləsi” imzalandıqdan sonra bütün dünyada Xəzərin problemi danışıqlar mövzusuna çevrilməyə başladı. Ola bilər ki, indiyədək Xəzər dənizi haqda, onun bu cür zəngin neft, qaz yataqlarının olması barədə beynəlxalq aləmdə informasiya yox idi. Amma biz Azərbaycanda bu haqda bilirdik...”

Bax, bu ruhda, qürurla 1 saat 20 dəqiqə danışdı. Elə əfsanə danışdı ki, hamı oturub heyranlıqla ona baxırdı.

Onunla səfərlərə getməyə başladığım vaxtlardan az bir müddət sonra bilavasitə mənə bir tapşırığı olmuşdu. Bir gün mənə dedi ki, Azərbaycanın bir xəritəsini hazırlayın, orada Ermənistanın işğal etdiyi ərazilər, Dağlıq Qarabağın ərazisi olduğu kimi qeyd edilsin. Mən də hazırladım. Sonrakı xarici səfərlərində bu xəritəni özü ilə hər yerə aparırdı. Mən də ona bir çamadan kimi düzəltdirmişdim, içində göstərici çubuğu da vardı. Açan kimi, çubuğu götürüb o xəritədə tarixi həqiqətləri, Ermənistanın işğalçılıq siyasətini izah etməyə başlayırdı. Bir dəfə hansısa beynəlxalq tədbirdə Fransanın Pezidenti Jak Şirakla dayanıb kofe içirdi. Birdən mənə işarə etdi. Bildim ki, xəritəni istəyir. Tez gətirib açdım və çubuğu da verdim ona. Başladı ona bu xəritə üzərində izahatlar verməyə. Ümumiyyətlə, Şirakla hər dəfə görüşəndə o xəritəni göstərirdi. Deyirdim, cənab Prezident, axı ona bir neçə dəfə göstərib izah etmisiniz bunu. Gülə-gülə dedi: “Neyniyim, yadında qalmır, təkrar edirəm...”

**(ardı var)**

*Müsahibəni qələmə aldı:*
***İlqar RÜSTƏMOV,***
*Əməkdar jurnalist*

# Heydər Əliyevin akademiklik seçkisi və Akademiyanın dövlətçilik dərsləri

**Unudulmaz səhifələr**

Məlum olduğu kimi, Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyev respublikamıza rəhbərlik etdiyi tarixi epoxada cəmiyyət həyatının bütün sahələri ilə bir sırada ölkə elminin və Elmlər Akademiyasının da inkişafını yeni mərhələyə qaldırmışdır. Sovet hakimiyyəti dövründə Azərbaycanda fundamental və tətbiqi elmlərin inkişaf etdirilməsinə dövlət səviyyəsində dəstək verilməsi, Elmlər Akademiyasının “Xalqlar dostluğu” ordeni ilə təltif olunması, müstəqillik illərində ali dövlət elmi təşkilatının Milli Elmlər Akademiyası statusu qazanması, görkəmli elm xadimlərimizin dövlətimizin ən yüksək mükafatları və fəxri adları ilə təltif olunmaları görkəmli dövlət xadimi Heydər Əliyevin adı və yorulmaz fəaliyyəti ilə üzvi surətdə əlaqədardır.

Ulu öndər Heydər Əliyevin tərcümeyi-halının Azərbaycan Elmlər Akademiyası ilə bağlı daha bir səhifəsi də ölkə rəhbəri kimi onun Elmlər Akademiyasının həqiqi üzvlüyünə qəbul edilməsinə dair seçkinin keçirilməsi ilə əlaqədar indiyədək haqqında çox az, epizodik şəkildə söz açılmış məsələdir. Hesab edirik ki, həm elm tarixi ilə əlaqədar əhəmiyyətli fakt olduğu üçün və həm də dahi şəxsiyyət Heydər Əliyevin əsl dövlət xadimi olaraq xarakter xüsusiyyətlərinə yaddaqalan səhifələr əlavə etdiyinə görə bu məsələni də sənədlərin dili ilə geniş ictimaiyyətə çatdırmaq əhəmiyyətlidir.

Azərbaycan Milli Elmlər Akademiyasının Elmi irs arxivindən ilk dəfə əldə etdiyimiz sənədlərdən aydın olur ki, Elmlər Akademiyasının Rəyasət Heyəti 22 may 1998-ci il tarixdə Akademiyanın prezidenti, akademik Fəraməz Maqsudovun sədrliyi ilə keçirilmiş iclasında Azərbaycan dövləti və xalqı qarşısındakı müstəsna xidmətlərini, dünya siyasətindəki xüsusi rolunu və mövqeyini, həmçinin ölkə elminin inkişafına göstərdiyi əvəzsiz diqqət və qayğısını əsas götürərək, Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin siyasi elmlər üzrə Elmlər Akademiyasının həqiqi üzvü seçilməsi ilə əlaqədar qərar qəbul etmişdir. AEA Rəyasət Heyətinin iclasında görkəmli dövlət xadimi Heydər Əliyevin Akademiyanın həqiqi üzvü seçilməsi əsaslandırılmış elmi müddəalarla əsaslandırılmışdır: “Azərbaycan Respublikasının beynəlxalq aləmdə artan nüfuzu, daxili sabitliyə nail olunması, yürüdülən daxili və xarici siyasət, ölkədə aparılan demokratik islahatlar məhz böyük siyasətçi Heydər Əliyevin adı ilə bağlıdır. XX əsr dünya siyasət tarixinə adı əbədilik həkk olunmuş Heydər Əliyevin dövlət quruculuğu, siyasi, iqtisadi, hərbi, elmi-mədəni sahələrdəki qaynar, səmərəli və məhsuldar fəaliyyəti fundamental tədqiqat obyektidir. Artıq ölkəmizdə Heydər Əliyev siyasi məktəbi yaranmışdır və bu məktəbdən nəinki siyasi elmlər sahəsində çalışan Azərbaycan alimləri, habelə digər ölkələrin tədqiqatçıları da bəhrələnirlər”.

Azərbaycan Elmlər Akademiyası Rəyasət Heyətinin üzvləri Akademiyanın prezidenti, akademik Fəraməz Maqsudovun təklifini müdafiə edərək, yekdilliklə Heydər Əlirza oğlu Əliyevin siyasi elmlər ixtisası üzrə AMEA-nın tərkibinə həqiqi üzv seçilməsini məqsədəuyğun saymışlar. Bu məqsədlə Elmlər Akademiyasının Rəyasət Heyəti 22 may 1998-ci ildə aşağıdakı kimi qərar qəbul etmişdir: “Bu gün Azərbaycanın müstəqil dövlət kimi yaşaması, möhkəmlənməsi və onun təhlükəsizliyinin təmin edilməsi üçün digər elm sahələrindən daha çox siyasi elmlərin inkişaf etdirilməsinin vacibliyini nəzərə alaraq və Heydər Əliyevin AEA-nın tərkibinə siyasi elmlər ixtisası üzrə həqiqi üzv seçilməsini məqsədəuyğun hesab edərək, Azərbaycan Elmlər Akademiyasının Rəyasət Heyəti qərara alır:

*1. 23 may 1998-ci il tarixdə AEA-nın Ümumi Yığıncağı çağırılsın.*

*2. Ümumi Yığıncağın gündəliyinə Heydər Əlirza oğlu Əliyevin AEA-nın həqiqi üzvlüyünə siyasi elmlər ixtisası üzrə seçkilərinin keçirilməsi məsələsi daxil edilsin.*

*3. Heydər Əlirza oğlu Əliyevin AEA həqiqi üzvlüyünə siyasi elmlər ixtisası üzrə namizəd seçilməsi məsələsinə İctimai Elmlər Bölməsinin Ümumi Yığıncağında müəyyən olunmuş qaydada baxılsın”.*





Görkəmli dövlət xadimi Heydər Əliyevin Akademiyanın həqiqi üzvlüyünə seçilməsinə dair seçkinin keçirilməsi üçün Nizamnaməyə uyğun olaraq 23 may 1998-ci il tarixdə çağırılan AEA İctimai Elmlər Bölməsinin iclasında Bölmədə təmsil olunan akademiklər görkəmli dövlət xadimi Heydər Əliyevin bu akademik qurumun siyasi elmlər üzrə həqiqi üzv seçilməsi məsələsini müzakirə edərək, böyük məmnuniyyətlə təklif edilən qərarın lehinə səs vermişlər. AEA-nın İctimai Elmlər Bölməsinin Ümumi Yığıncağının akademik **Cəmil Quliyevin** sədrliyi ilə keçirilmiş 23 may 1998-ci il tarixli iclasında çıxış edən AEA-nın həqiqi üzvləri: Asəf Nadirov, Ziyad Səmədzadə, Firudin Köçərli, müxbir üzvlər: **Səlvər Aslanov, Mənsumə Məlikova, Məqsəd Səttarov, İqrar Əliyev, Teymur Bünyadov, Ağasəlim Ələsgərov, Fuad Qasımzadə** kimi tanınmış elm adamları görkəmli dövlət xadimi Heydər Əliyevin xalqımız və dövlətimiz qarşısındakı böyük xidmətlərini yüksək qiymətləndirdiklərini bildirmiş, onun geniş siyasi dünyagörüşü və dünya siyasətindəki yeri və mövqeyi haqqında elmi cəhətdən əsaslandırılmış fikirlər irəli sürmüşlər. AEA-nın İctimai Elmlər Bölməsinin 23 may 1998-ci il tarixli 3 saylı protokolundan görünür ki, akademik Firudin Köçərlinin sədrliyi ilə təşkil olunmuş və akademik Asəf Nadirovla akademik Ziyad Səmədzadənin üzv olduqları hesablama komissiyası Heydər Əlirza oğlu Əliyevin siyasi elmlər üzrə AEA-nın həqiqi üzvlüyünə seçkidə yüz faiz səs aldığını elan və təsdiq etdikdən sonra Bölmə onun AEA-nın həqiqi üzvlüyünə namizəd seçilmiş hesab olunduğunu nəzərə almaqla, Akademiyanın Ümumi Yığıncağının qarşısında bu qərara baxılması üçün vəsatət qaldırmışdır.

AEA-nın 23 may 1998-ci il tarixdə, günün ikinci yarısında keçirilmiş Ümumi Yığıncağında isə akademiyanın bütün elmi sahələri üzrə çıxış edən həqiqi üzvlərinin hamısı Heydər Əlirza oğlu Əliyevin siyasi elmlər üzrə həqiqi üzv seçilməsi məsələsini müzakirə edərək, onun lehinə böyük ruh yüksəkliyi ilə səs verəcəklərini bildirmişlər. Seçkinin keçirilməsinə dair protokoldan məlum olur ki, AEA-nın Ümumi Yığıncağında iştirak edən 26 nəfər Akademiyanın həqiqi üzvlərinin əksəriyyəti səsvermədən əvvəl Heydər Əliyevin çoxcəhətli yorulmaz fəaliyyətini, böyük xidmətlərini müxtəlif aspektlərdən elmi-siyasi cəhətdən təhlil edərək yüksək qiymətləndirmişlər. AEA-nın Ümumi Yığıncağında Heydər Əliyevin Akademiyanın həqiqi üzvü seçilməsi məsələsinin akademiyanın çoxsaylı akademiklərinin müraciətləri əsasında həyata keçirildiyi nəzərə alınmaqla, akademik düşərgəni təmsil edərək çıxış edənlər onun fəaliyyətini dövrlər və problemlər üzrə sistemli şəkildə təhlil edərək, ümumiləşdirilmiş elmi fikirlər və mülahizələr irəli sürmüşlər. Heydər Əliyevin Akademiyaya həqiqi üzv seçilməsi ilə əlaqədar səsləndirilmiş bu mülahizələr elm adamlarının siyasi mövqeyi və Azərbaycanda elmi-siyasi fikrin Heydər Əliyev siyasəti haqqında ayrıca bir istiqamət olaraq yaranmasına xidmət edir. Dünya şöhrəti qazanmış görkəmli dövlət xadimi Heydər Əliyevin çoxillik və çoxcəhətli fəaliyyətini geniş şəkildə təhlil edib dəyərləndirən AEA-nın prezidenti, akademik **Fəraməz Maqsudov** Azərbaycan Respublikasının Prezidentində dünya siyasətçilərinə və böyük dövlət xadimlərinə xas olan yüksək dövlətçilik xüsusiyyətlərini Ümumi Yığıncaq iştirakçılarının diqqətinə çatdırmışdır: *“Heydər Əliyevin siyasət elmi sahəsindəki işlərini 3 dövrə bölmək olar. 1970-ci illərdə apardığı işlər. O zaman Azərbaycan Respublikası Rusiyanın (SSRİ nəzərdə tutulur – İ.H.) tərkibində idi. Bu dövlətin tərkibində ola-ola özünə xas olan üsullarla, dəlillərlə Heydər Əliyev cənabları Azərbaycan diplomatiyasını ayaq üstə qaldırdı... Azərbaycanı dünya miqyasında tanıtdı.*

*Heydər Əliyev siyasətinin ikinci dövrü Moskvada işləyərkən, Baş Nazirin Birinci müavini olarkən apardığı siyasət idi. Dünyanın siyasi xadimləri, rəhbərləri Heydər Əliyev cənablarını əfsanəvi bir şəxsiyyət kimi qiymətləndirirlər. İstər xarici, istərsə də daxili siyasətdə ən çətin anlarda belə Heydər Əliyev cənabları öz işini görməkdə idi.*

*Heydər Əliyev cənabları siyasət sahəsində üçüncü dövrdə, bu çətin dövrdə Azərbaycanı dünyaya yenidən tanıtmaq üçün çox nəhəng, titanik işlər görmüşdür... O, dünya siyasətində aparıcı yerini tutur.*

*...O, Azərbaycanla nəfəs alır. Bu xüsusiyyət ona ana südü ilə daxil olub.*

*...Heydər Əliyev əsl bir alim kimi hər şeyə öz üsulu ilə yanaşır,... elmə əsaslanır... Riyaziyyatçı ilə riyaziyyatçı kimi, musiqiçi ilə musiqiçi kimi, memarla memar kimi danışır. O, hər şeyi bilir, tariximizə gəldikdə isə... bizim bir nömrəli tarixçimiz cənab Prezidentimizdir”.*

AEA Ümumi Yığıncağının protokolunun stenoqramından görünür ki, bu elmi qurumun rəhbərinin giriş sözündən sonra Nizamnamənin müddəalarına əməl edilməklə, Akademiyanın İctimai Elmlər Bölməsinin akademik-katibi, akademik **Cəmil Quliyev** həmin Bölmədə Heydər Əliyevin siyasi elmlər üzrə AEA-nın həqiqi üzvü seçilməsi haqqında qəbul edilmiş qərar və qaldırılmış vəsatət haqqında məlumat vermişdir. AEA Ümumi Yığıncağının iştirakçıları olan Akademiya üzvləri çıxış edərək İctimai Elmlər Bölməsinin qərarını və vəsatətini ürəkdən dəstəklədiklərini bildirməklə yanaşı, həm də başlanmış müzakirələri davam etdirərək, Azərbaycan xalqının böyük oğlu və dünya şöhrətli qüdrətli dövlət xadimi, mahir siyasətçi Heydər Əliyev haqqında baxışlarını meydana qoymuşlar. Hesab edirik ki, Akademiyada keçirilən məsuliyyətli və şərəfli bir seçki prosesində Heydər Əliyev barəsində səsləndirilmiş elmi mülahizələr sadəcə yalnız seçki məsələsi ilə bağlı olmayıb, ümumiyyətlə bu dahi insanın şəxsiyyətinin və fəaliyyətinin miqyası, dövlətçilik sahəsindəki xidmətləri haqqında Azərbaycan alimlərinin elmi baxışlarının ifadəsidir. Akademiyanın Ümumi Yığıncağının 23 may 1998-ci il tarixli iclasında ölkəmizin görkəmli alimləri tərəfindən deyilmiş və indiyədək naməlum qalan, heç bir yerdə çap edilməmiş fikirlər Azərbaycan Heydər Əliyevşünaslığının əhəmiyyətli səhifələrindən ibarətdir. Ümumi Yığıncaqda bəyan edilmiş mülahizələrdən hər biri həmin fikirlərin sahibləri olan alimlərin Azərbaycan Respublikasında Heydər Əliyev epoxasında gedən proseslərə, qazanılmış nailiyyətlərə, baş vermiş ictimai-siyasi hadisələrə dair elmi yanaşmalarını, təhlillərini və dəyərləndirmələrini diqqətə çatdırır.

AEA-nın İctimai Elmlər Bölməsini təmsil edən akademik **Asəf Nadirovun** çıxışında Heydər Əliyevin ölkəni elmi əsaslarla idarə etməsi diqqət mərkəzinə çəkilmişdir: *“Heç zaman Akademiyanın həyatında akademiyanın üzvlüyünə seçki mərasiminin bu qədər ruh yüksəkliyi ilə keçirilməsinin şahidi olmamışam. Bu şəxsiyyət əsl mənada Azərbaycanın ən böyük alimidir. Heydər Əliyev cənabları böyük iqtisadçı, filosof, tarixçidir.*

*Ancaq bir həqiqət var... 60-cı illərin axırlarında Azərbaycanın iqtisadiyyatı ağır vəziyyətdə idi. Lakin az bir müddət ərzində Azərbaycanın iqtisadiyyatı keçmiş SSRİ-də yüksək səviyyəyə qalxdı. Bəs, bu necə oldu? Həmin iqlim, həmin adamlar... Bu ondan irəli gəlir ki, Azərbaycanı idarə edən müdrik rəhbər var, bu müdrik rəhbər Azərbaycan iqtisadiyyatını elmi əsaslarla idarə edir.*

*... Biz müstəqillik deyəndə elə bilirdik ki, bu, 1991-ci ildə oldu. Doğrudur, bu belə idi. Ancaq gəlin həqiqətlərin üzünə düz baxaq. Mən Azərbaycan xalqının müstəqilliyinin ilk ab-havasını 70-80-ci illərdə görmüşəm. Məhz Heydər Əliyevin rəhbərliyi sayəsində Azərbaycan o səviyyəyə qalxmışdı. ...Bəli, biz onunla fəxr edirik”.*

Akademiyanın həqiqi üzvü **Ədilə Namazova**: *“Akademik seçəndə, istər SSRİ dövründə, istərsə də indi, biz onun elmi cəhətdən necə olduğunu nəzərə alırıq... Biz akademik seçəndə onun kadr hazırlığını nəzərə alırıq. Bütün bunlar bizim cənab Prezidentimiz Heydər Əliyevə məxsusdur.*

*Azərbaycanda nə qədər tibb elmləri doktoru varsa, hamısı Heydər Əliyevə borcludur. ...Mən vaxtaşırı Rusiyada oluram. Doğrudan da, Rusiyanın tibb alimləri bizə həsəd aparırlar.*

*Siz Lissabon Sammitini yaqin ki, dinləmisiz. Mən sənədləri oxuyanda, hətta orada çıxan qəzetlərdən deyə bilərəm ki, orada yazılır ki, «Ne tolko Lissabonskom Sammite i o nem». Bu, çox fərəhləndirici haldır. Mən qətiyyətlə deyə bilərəm ki, Heydər Əliyev cənabları Azərbaycan Elmlər Akademiyasının üzvü olsa, bizim hörmətimizi daha da yüksəldər”.*

Akademik **İsmayıl İbrahimov** dövlət işlərində çalışdığı dövrdə Heydər Əliyevin fəaliyyətində müşahidə etdiyi yüksək dövlət idarəçiliyi qabiliyyətlərindən danışmışdır: *“O illər, 60-80-ci illər Azərbaycan tarixinin xüsusi illəridir. Bu dövrdə bizim sənayemiz, iqtisadiyyatımız sox inkişaf etmişdir. Bu göstəriciləri ələ gətirmək üçün... Büro iclaslarında Heydər Əliyev bütün məsələləri ətraflı öyrənməmiş, hiss etməmiş heç bir qərar qəbul etmirdi.*

*...Demək istəyirəm ki, o, ...hər bir məsələ üzrə təşkilatçı idi. Apardığı işlərə görə... ona bütün texniki elmlər üzrə elmlər doktoru adı vermək olar. Eyni zamanda, EA-nın həqiqi üzvü seçilməsinə də tam hüququ var”.*

AEA-nın 23 may 1998-ci il tarixli iclasında iştirak edənlərdən hazırda müxtəlif sahələrdə fəaliyyətlərini davam etdirən akademik **Akif Əlizadə**, akademik **Urxan Ələkbərov** və akademik **Ziyad Səmədzadə** həmin xüsusi anlamdar günün şanlı şahidləridir. Ümumi Yığıncağın iclasında akademik Akif Əlizadə və akademik Ziya Səmədzadə çıxış etmiş, akademik Urxan Ələkbərov isə seçki üzrə təşkil edilmiş müsabiqə komissiyasının üzvü kimi üzərinə düşən şərəfli vəzifəni məsuliyyətlə yerinə yetirmişdir.

Akademik **Ziyad Səmədzadənin** çıxışından: *“Bu gün Azərbaycan elmində çox böyük bir hadisə baş verir. Onun problemlərinin həllində Heydər Əliyev cənablarının böyük xidmətləri vardır... Təkcə təşkilatçılıqda deyil, struktur dəyişikliklərində, Azərbaycanda əmək məhsuldarlığının sürətlə artmasında Heydər Əliyev elmə əsaslanır və əsaslanmaqdadır. İlk dəfə olaraq çox cəsarətlə Azərbaycan özü-özünü saxlamaq, yaşatmaq imkanlarını göstərmişdir.*

*Bu, Azərbaycan elminin tarixində yeni hadisədir. Bu, Azərbaycan elminin inkişafına, ictimai elmlərin sürətli inkişafına, alimlərin qorunmasına xidmət edəcəkdir”.*

**Akademik Akif Əlizadə:** *“Çox yaxşı oldu ki, mən də öz sözümü deyə bildim. Onun çox gözəl idarəetmə qabiliyyəti vardır... Bütün qlobal problemlərin, iqtisadi problemlərin həllində dərin iz buraxmışdır. Kadr hazırlığına göstərdiyi qayğı hamıya məlumdur... ...Bu gün bizim yaddaşımızda dərin iz buraxacaqdır”.*

(ardı var)

**İsa HƏBİBBƏYLİ,**
**AMEA-nın prezidenti, akademik**


АЗӘРБАЈЧАН ЕЛМЛӘР АКАДЕМИЈАСЫНЫН ҺӘГИГИ ҮЗВЛҮЈҮНӘ НАМИЗӘДИН СЕЧИЛМӘСИ ҮЗРӘ АЗӘРБАЈЧАН ЕА ИЧТИМАИ ЕЛМЛӘР БӨЛМӘСИ ҮМУМИ ЈЫҒЫНЧАҒЫНЫН

ПРОТОКОЛУ №3

23 мај 1998-чи ил

Бакы ш.


ПРОТОКОЛ

23 мај 1998-чи ил

Бакы ш.


AZƏRBAYCAN ELMLƏR AKADEMİYASI

BAKI - 1998


AZƏRBAYCAN ELMLƏR AKADEMİYASI

Azərbaycan Elmlər Akademiyasının Nizamnaməsinə uyğun olaraq

HEYDƏR ƏLİRZA OĞLU ƏLİYEV

23 may 1998-ci ildə Azərbaycan Elmlər Akademiyasının HƏQİQİ ÜZVÜ (AKADEMİKİ) SEÇİLMİŞDİR

Azərbaycan Elmlər Akademiyasının Prezidenti F.Q. Maqsudov

# Heydər Əliyevin ümummilli liderlik salnaməsi

*(əvvəli qəzetin ötən sayında)*

## 6. Sovet İttifaqının rəhbərliyində (Moskva, 1982 – 1987)

Sov.İKP MK-nın Baş katibi, ölkənin rəhbəri L.İ.Brejnevin 1982-ci ilin noyabrında vəfatından sonra dövlət rəhbərliyində dəyişiklik baş verdi. Heydər Əliyev noyabrın 22-də SSRİ Ali Sovetinin qərarı ilə SSRİ Nazirlər Soveti sədrinin birinci müavini təyin edildi. Sov.İKP MK plenumunda isə Siyasi Büronun üzvü seçildi.

Dünyanın bir sıra ölkələrində qanunvericiliklə müəyyən edilmiş hakimiyyət iyerarxiyası mövcuddudr. Bunun əsasında dövlət rəhbərliyinin ali səviyyəsində vəzifələrin siyahısı müəyyən edilir. SSRİ-də bu sahədə vəziyyət qanunvericiliyə deyil, ümumi mühakimələrə əsaslanırdı. Çox maraqlıdır ki, ilk dəfə Heydər Əliyev öz vəzifəsindən çıxış edərək bu məsələyə də aydınlıq gətirmişdir.

Ulu öndər sonralar bu barədə demişdir: “1982-ci ildə Brejnev vəfat etdikdən sonra Andropov Baş katib seçildi. O, məni Moskvaya dəvət etdi. Mənə müraciət etdi ki, Moskvaya gəlim, orada həm Siyasi Büronun üzvü, həm də Baş nazirin birinci müavini işləyim. Baş nazirin 12 müavini var idi. Onlardan ancaq bir nəfəri birinci müavin idi. Siyasi Büronun isə cəmi 10 üzvü var idi. Amma mən həm Siyasi Büro üzvü, həm də Baş nazirin birinci müavini olduğuma görə o vaxt Sovetlər Birliyinin rəhbərliyində üçüncü-dördüncü şəxs idim”.



Beləliklə, Heydər Əliyev Sovet dövlət idarəçiliyinin zirvəsinədək yüksəldi, onun rəhbərlərindən biri oldu. Bu faktın mahiyyətini müəyyən etmək üçün qeyd etmək lazımdır ki, SSRİ ərazisinə görə yer kürəsinin altıda bir hissəsini tuturdu. SSRİ dünya sosializm sisteminə daxil olan və onun nüfuz dairəsini təşkil edən dövlətlərin siyasətini müəyyənləşdirirdi. Kreml dünyanın iki siyasi mərkəzindən birinin başında dururdu.

Heydər Əliyev məhz belə bir dövlətin sosial-iqtisadi həyatının ən mühüm sahələrinə rəhbərlik etmiş, onun xarici siyasətinin həyata keçirilməsində imzasını qoymuşdu. O, SSRİ Nazirlər Sovetinin 1982-ci il 15 dekabr tarixli qərarı ilə SSRİ Yollar, Dəniz Donanması, Yol – tikinti, Rabitə nazirlikləri, həmçinin müttəfiq respublikaların avtomobil, çay nəqliyyatı və yol təsərrüfatı məsələlərinə nəzarət edir və SSRİ Nazirlər Sovetinin Baykal-Amur dəmir yolu tikintisi üzrə daimi komissiyasına rəhbərliyi həyata keçirirdi. Qısa bir müddətdən sonra, 1983-cü il fevralın 2-də Səhiyyə, Tibb Sənayesi, Mədəniyyət, Maarif, Ali və Orta ixtisas təhsili nazirlikləri, bir sıra dövlət komitələri və orqanları da Heydər Əliyevin rəhbərlik sahəsinə verilmişdi.

Onun həyatının Moskva-Kreml mərhələsi Sovet dövlətinin tarixində ən gərgin məqamlara təsadüf etdi. Təkcə belə bir faktı qeyd etmək lazımdır ki, bu dövrdə dövlət başçıları 3 dəfə (Y.V.Andropov, 1982–1984;, K.U.Çernenko, 1984–1985; M.S.Qorbaçov, 1985–1991) dəyişmişdi. Belə bir mürəkkəb şəraitdə dövlətin idarə olunmasında özünün yüksək mövqeyini qorumaq, üzərinə düşən vəzifəni yerinə yetirmək böyük bacarıq və istedad tələb edirdi.

Yuri Andropovun hakimiyyəti zamanı SSRİ-də həyata keçirilən ən əsas tədbirlərdən biri əmək intizamının möhkəmləndirilməsi olmuşdu. Dövlətin nüfuzunun artmasında xüsusi rol oynayan bu siyasətin hazırlanmasında Heydər Əliyev fəal iştirak etmiş və bu ərəfədə “SSRİ-də əmək kollektivləri və onların müəssisələrin, idarələrin, təşkilatların idarə edilməsində rolunun artırılması haqqında qanun” qəbul olunmuşdu.

Heydər Əliyevin işgüzarlığı sayəsində qısa bir vaxt ərzində nəhəng bir dövlətin dəmiryol nəqliyyatı işində dönüş yaradıldı, Baykal–Amur dəmir yolu xəttinin çəkilişində irəliləyişlər baş verdi, təhsil, mədəniyyət, səhiyyə sahəsində yeniliklər özünü göstərməyə başladı. Bütün bunlar yüksək təşkilatçılığın, dəmir iradənin, hərtərəfli biliyin sayəsində mümkün oldu.

SSRİ rəhbərlərindən biri kimi onun yüksək dövlətçilik məsuliyyəti özünü “Admiral Naximov” teploxodu ilə əlaqədar faciəni təhqiq edən Dövlət Komissiyasının sədri olduğu zaman bir daha göstərdi. 1986-cı il avqustun 30-da Novorossiysk yaxınlığında “Admiral Naximov” sərnişin teploxodu ilə “Pyotr Vasev” yük gəmisi toqquşmuşdu. İlkin məlumatlara görə, “Admiral Naximov”un göyərtəsində 1234 nəfər (888 sərnişin və 346 ekipaj üzvü) var idi. Toqquşmadan cəmi 7-8 dəqiqə sonra gəmi batmışdı. Yalnız 836 nəfəri xilas etmək mümkün olmuşdu, qalan 398 nəfər batmışdı. Dövlət Komissiyasının sədri Heydər Əliyev faciənin səbəblərinin müəyyənləşdirilməsi və nəticələrinin aradan qaldırılması üçün böyük işlər gördü, ən başlıcası, əzizlərini itirmiş yüzlərlə adamın dərdinə şərik çıxıb, onların qəm-qüssəsini yüngülləşdirməyə nail oldu.

Heydər Əliyev Sovet dövlətinin xarici siyasət xəttinin həyata keçirilməsində də fəal iştirak edirdi. Xarici ölkələrə göndərilən sovet nümayəndə heyətinə, onların fəaliyyətinə başçılıq edirdi. O, Sovet İttifaqının rəhbərləri arasında ən intellektual, nüfuzlu və dinamik şəxs kimi ad çıxarmışdı. SSRİ Ali Sovetinin 7 may 1983-cü il tarixli fərmanı ilə Heydər Əliyevə 60 illik yubileyində ikinci dəfə Sosialist Əməyi Qəhrəmanı adı verildi, elə həmin ildə Naxçıvanda onun büstü ucaldıldı.

O zaman Heydər Əliyev faktik olaraq Sovet dövlətinin lideri səviyyəsinə yüksəlmişdi. Təsadüfi deyil ki, K.U.Çernenkodan sonra SSRİ-də hakimiyyətə ən real namizədlərdən biri məhz o olmuşdu. Uzun müddət (1957–1985) SSRİ-nin xarici işlər naziri olmuş A.A.Qromıko qeyd etmişdi: “Bizim Siyasi Büroda 3 adam nisbətən cavandır: Romanov, Qorbaçov və Əliyev. Axırıncı mənə daha xoş gəlir. Onun vaxtında Azərbaycan, xüsusən onun kənd təsərrüfatı çox sürətlə inkişaf etmişdir. Əliyev gözəl təşkilatçıdır, təmiz və ləyaqətli adamdır. Amma, təəssüf ki, onun namizədliyi istisna olunur”. O, “nəyə görə, milliyyətinə görəmi?” - sualına belə cavab vermişdi: “Bu məsələdə – hə, milliyyətinə görə”.

Kremldə hakimiyyətə ilk vaxtlardan Heydər Əliyevə rəqib kimi baxan M.S.Qorbaçov gətirildi. Amma belə bir şəraitdə də Heydər Əliyev Sovet dövlətinin rəhbərliyindəki aparıcı mövqeyini saxlamağa nail oldu. Heydər Əliyevin 1986-cı il oktyabrın 16-da SSRİ Nazirlər Sovetinin Sosial İnkişaf Bürosunun sədri təsdiq olunması bunu sübut edir. Sosial İnkişaf Bürosu 12 nazirlik, idarə və komitəyə rəhbərlik edir, dövlət siyasətinin hazırlanması və həyata keçirilməsinin əlaqələndirilməsi xəttini həyata keçirirdi.

Heydər Əliyev Sovet dövlətinin rəhbərlərindən biri kimi SSRİ-nin gələcək inkişafını ciddi yeniliklərdə görürdü. O, müttəfiq respublikaların müstəqilliyi, onların arasında yeni münasibətlərin yaradılması, dünya birliyinə layiqli inteqrasiyasının təmin edilməsinə tam hazır idi. Bu baxımdan onun “Siz Litvanın İttifaqdan çıxmaq hüququnu qəbul edirsinizmi?”, – sualına verdiyi cavab olduqca maraqlıdır: “Əgər bizdə Konstitusiya müttəfiq respublikaya ayrılmağa qədər öz müqəddəratını təyin etmək hüququ verirsə, qoy, respublikanın özü də qərara gəlsin. Əgər bizdə, partiyada, sözdə elan olunduğu kimi, demokratiya varsa və Litva KP MK da müstəqil olmaq istəyirsə, qoy, onda o, müstəqil olsun. Soruşulur, niyə biz buna əngəl törətməliyik?”

Heydər Əliyev Kremldə yüksək dövlət vəzifəsi tutduğu illərdə Azərbaycanın tərəqqisi və inkişafına diqqət və qayğısını daha da artırmışdı. O, 1984-cü ildə Bakının Lenin (hazırda Sabunçu) rayonundan SSRİ Ali Sovetinin İttifaq Sovetinə deputat seçilmiş, xalqı bu orqanda yüksək səviyyədə təmsil etmişdir.

Heydər Əliyev Moskvada işlədiyi dövrdə Azərbaycana işgüzar səfərlər etmiş, problemləri yerində öyrənərək, yüksək səviyyədə həllinə nail olmuşdu. SSRİ Nazirlər Soveti Sədrinin birinci müavini Heydər Əliyevin imzaladığı qərarla (1985-ci il) Azərbaycan SSR Səhiyyə Nazirliyi sistemində yeni elmi tədqiqat institutu açılmış, mövcud baza əsasında Pediatriya İnstitutu təşkil edilmişdi.

Zəngilan rayonundan keçərək Mehri rayonunun ərazisindən Naxçıvana gedən yol çəkilməsi də xüsusi qeyd edilməlidir. Heydər Əliyev bu yolun çəkilməsinə necə nail olduğunu belə xatırlayırdı: “Bu yolun tikilməsi üçün və Naxçıvanın birbaşa Azərbaycanın əsas hissəsinə bağlanması üçün 1970-ci illərdə burada biz çox iş görmüşdük, qərar qəbul etmişdik. Hətta Ermənistanın ovaxtkı rəhbərləri də bizim təklifimizlə qərar qəbul etmişdilər. Və ona görə də biz o yolun tikilməsinə başladıq. O yolun Azərbaycan üçün böyük strateji əhəmiyyəti var idi. Ancaq həmin illərdə, - bu, təxminən, 1985-ci il, 1986-cı il idi, - mən Moskvada işləyərkən Ermənistan tərəfi bu yolun Azərbaycan üçün nə qədər böyük əhəmiyyəti olduğunu dərk etdi və ayrı-ayrı qüvvələr orada artıq Azərbaycana qarşı təxribatçı planlarını artırmağa və bu yolun tikilməsinə maneçiliklər törətməyə başladılar.

Mən indi vaxt olsa, bu barədə öz xatirələrimi geniş yazmalıyam. Çünki bu yolun tikilməsi üçün mən Moskvada ən yüksək səviyyələrdə gərgin mübarizələr aparmışdım. Biz bu yolu Araz boyu, yəni dəmir yolu keçən yerdə, dəmir yolu ilə paralel olaraq çəkmək planı qurmuşduq. Belə bir plan var idi, təsdiq olunmuşdu. Sonra bu yolun qarşısını almaq üçün cürbəcür bəhanələr ortaya atdılar ki, bunu Araz boyu çəkmək olmaz, dəmir yolu ilə yanaşı çəkmək olmaz. Moskvada yaşayan bir çox erməni alimləri, cürbəcür iqtisadçıları və başqa qüvvələri cəlb etdilər və ekspertiza rəyi almağa çalışdılar ki, bu yolu bu cür çəkmək olmaz...

Nəhayət, o yolun çəkilməsinə mən nail oldum və yol çəkildi. Burada artıq qeyd edildi ki, cəmisi 10 kilometr qalmışdı. Amma 1987-ci ildən sonra bu yolun çəkilməsi də dayandırıldı, bütün bu proseslər də başlandı. Mən bir daha qeyd etmək istəyirəm, o yolun çəkilməsində biz Mehri rayonunda yaşayan azərbaycanlıları da nəzərə almışdıq. O yol məhz Nüvədi kəndindən, onun yanından, başqa Azərbaycan kəndlərinin yanından keçib getməli idi. Beləliklə, o Azərbaycan kəndlərini də, azərbaycanlıların yaşayış məntəqələrini də biz Azərbaycana tamamilə bağlamaq istəyirdik”.

Heydər Əliyevin həyatının Moskva dövründə ailəyə ağır itki üz verdi. 1985-ci il aprelin 15-də həyatının otuz ildən çox bir dövründə onunla olan ömür-gün yoldaşı Zərifə xanım Əliyeva 62 yaşında vəfat etdi, Moskvada Novo-Deviçye qəbiristanlığında dəfn edildi. 1994-cü ildə isə cənazəsi doğma Vətənə gətirilərək, Fəxri Xiyabanda dəfn olundu.

Heydər Əliyev sovet rəhbərliyində olarkən də Azərbaycanın ərazi bütövlüyünün qorunmasına xüsusi önəm verirdi. Təsadüfi deyildi ki, ermənilərin Azərbaycanın milli mənafeyi və ərazi bütövlüyünə qarşı hər hansı bir qəsdinin qarşısı onun tərəfindən cəsarətlə alınırdı. Bu, ermənilərin ona qarşı düşmənçiliyinin kəskin artmasına səbəb olmuşdur. Ermənilər Muradyan adlı bir nəfərin vasitəsilə sovet rəhbərliyinə sistemli şəkildə donoslar yazır, digər tərəfdən onu fiziki cəhətdən məhv etməklə hədələyərək, terror tətbiq edirdi.

Heydər Əliyev bu barədə müsahibələrindən birində (1990, iyun) demişdir: “Mən 1987-ci ilin may ayında xəstələndim, sağalandan sonra 1-2 ay işləmədim. O dövrdə Ermənistandan bir məktub aldım. Müəllifi Qarabağ cəmiyyətinin rəhbərlərindən biri olan İqor Muradyandır. Təəssüf ki, məktub yanımda deyil. Məktub müəllifi bildirirdi ki, onlar mənimlə mübarizə aparacaqlar, çünki Qarabağın Ermənistana verilməsinə mane oluram. Məktubunda erməni terroristləri tərəfindən öldürülmüş azərbaycanlıların və türklərin siyahısı göndərilib. O məktubu ailə üzvlərimdən başqa heç kəs görməyib”. (Olub-keçənləri düşünərkən // “Ulduz”. 1990, №6; Qətiyyətin təntənəsi (Sənədli xronika). Bakı, 1995, s. 48).

Müxbir Elmira Əhmədovanın “Sizin arxanızca respublikamızdan da anonim məktublar gəlib?”, –sualına cavab isə milli liderin örnək ola biləcək bir münasibətidir. Həmin cavabın bir hissəsinə diqqət yetirək: “Bəli, təxminən, 1986–1987-ci illərdə mənim haqqımda böhtan dolu anonim məktublar respublikamızdan və Ermənistandan gəlmişdir. Və mənə sonralar aydın oldu ki, İ.Muradyan və Z.Balayan kimiləri mənim əleyhimə uzun müddət işləyiblər”. Göründüyü kimi, xalqımızın təəssübkeş oğlu respublikadan olan anonim məktublar üzərindən keçərək, hədəfi ermənilərə yönəltmişdir.

Heydər Əliyevə qarşı əsas qüvvə isə sovet rəhbərliyində yetişməkdə idi. O, 11 may 1987-ci ildə iş otağında infarkt keçirdi və müəyyən müddət müalicə olundu. Onun müalicəsi dövründə Qorbaçov və komandasının Heydər Əliyevə açıq-aşkar etinasız münasibəti infarkt faktının təsadüfi olmayıb, sui-qəsd planı kimi gerçəkləşdirilməsi ehtimalına əsas verir. Yəqin, belə güman edilirdi ki, Heydər Əliyev bu xəstəlikdən sonra, özünə gələ bilməz.

Lakin bir şey nəzərə alınmamışdı: Onların düşündüklərinin əksinə qlaraq, bu insan Naxçıvandan SSRİ-nin rəhbərliyinə qədər uzanan 64 illik həyat yolunda dəfələrlə sınaqlardan keçən, hər dəfə məqsədinə nail olan və qarşısında hələ yeni-yeni vəzifələr duran Heydər Əliyev idi! O, bu sınaqdan da çıxdı. Qorbaçov və komandası isə yeni bir üsula əl atdı. Heydər Əliyevin xəstələnməsindən heç bir ay keşməmiş Sov.İKP MK-nın Oktyabr inqilabının 70 illiyi ilə əlaqədar məsələnin müzakirə olunduğu plenumda təşkilat məsələsinə də baxıldı...

## 7. Sovet rəhbərliyinin hədəfində (Moskva, 1987 – 1990)

1987-ci il oktyabrın 21-də Sov. İKP MK-nın plenumu keçirildi. Rəsmi məlumatda göstərilirdi ki, guya, plenum “səhhətinə görə pensiyaya çıxması ilə əlaqədar Sov. İKP MK Siyasi Bürosunun üzvü H.Ə.Əliyev yoldaşın vəzifəsindən azad edilməsi barədə xahişini təmin etmişdir”. SSRİ Ali Sovetinin Rəyasət Heyəti də eyni səbəblə Heydər Əliyevi SSRİ Nazirlər Soveti sədrinin birinci müavini vəzifəsindən azad etdi.



Bəzən bu addım Sov.İKP MK-nin “Yenidənqurma və partiyanın kadr siyasəti haqqında” məsələ müzakirə etmiş yanvar (1987) plenumu, yaxud Yeltsin başda olmaqla, “islahatçılar”ın tələbi ilə əlaqələndirilir. Bu baxışlar o qədər də əsaslı görünmür. Səbəblər isə daha dərin idi.

İllər keçəndən sonra Heydər Əliyev müsahibələrindən birində (1990, fevral) demişdir: “Əsl səbəb təkcə səhhətimlə bağlı deyildi, hərçənd əlbəttə, mən, həqiqətən, xəstələnmişdim. Səbəblər odur ki, işlədiyim son dövrdə Qorbaçov tərəfindən özümə qarşı qeyri-səmimi münasibət hiss edirdim. Bu, çox şeydə özünü büruzə verirdi. Mən vicdanla işləyirdim, işimdə heç bir qüsur görmürdüm, Qorbaçov isə subyektiv hisslərinin əsiri oldu, vəssalam”.

Bir qədər sonra isə başqa bir müsahibəsində Heydər Əliyev ciddi əhəmiyyətli faktları söyləyərək bildirmişdi: “1986-cı ildə ilk dəfə Qorbaçov Sovetlər Birliyinin tərkibindəki türkdilli respublikaların rəhbərlərini çıxarıb, onların yerinə rusları və başqa millətdən olan adamları təyin etməyə başladı. Mən ona anlatdım ki, belə etmək olmaz. Onunla bir neçə dəfə belə söhbətim oldu. Nəhayət, 1986-cı ilin dekabrında Qazaxıstanın rəhbəri Kunayevə qarşı ədalətsizlik oldu. Qazaxlar yeni təyin olunan adamı qəbul etmədilər. Orada gənclər ayağa qalxıb üsyan etdilər. Onların bir çoxlarını həbs etdilər, bəziləri həlak oldular. Sonra araşdırmalar aparıb “Qazaxıstan millətçiliyi” barədə qərar qəbul etdilər. Yəni qazax xalqına qarşı bir qərar çıxardılar. Mən buna qarşı da etiraz etdim.

Tək bu deyildi. Şimali Qafqazda bir çox kiçik müsəlman respublikaları var. Məsələn, Kabardin-Balkar Muxtar Respublikasının rəhbəri Malbaxov da müsəlman idi. Qorbaçov onu çıxardıb, yerinə Sibirdən bir rus gətirib qoymaq istəyirdi. Mən buna da, digər belə məsələlərə də etiraz etdim. Siyasi Büroda mənim – bir türkün, müsəlmanın olması onlar üçün əlverişli deyildi”.

Heydər Əliyevin istefasından az sonra Dağlıq Qarabağın Azərbaycandan qoparılması üçün erməni separatizminin açıq fəaliyyətə keçməsi də çox mətləblərdən xəbər verir... Qorbaçovun yaxın adamlarından hesab olunan akademik Abel Aqanbekyan 1987-ci il noyabrın 18-də “Humanite” qəzetinə müsahibəsində Dağlıq Qarabağın Ermənistana verilməsinin məqsədəuyğun olmasını və bu barədə dövlət başçısına təklif verdiyini bildirmişdi. M.S.Qorbaçovun erməniləri dəstəkləməsi nəticəsində onlar 1988-ci ilin fevralında açıq fəaliyyətə keçdilər.

Azərbaycan KP MK-nın birinci katibi K.Bağırov dövlətin və xalqın mənafeyini müdafiə edə bilmədi. Sovet xüsusi xidmət orqanları erməni təxribatçıları ilə birlikdə Sumqayıt hadisələrini törətdilər. Xalqın içərisində Heydər Əliyevin yenidən Azərbaycan rəhbərliyinə gəlməsi zərurəti, yaranmış problemləri yalnız onun həll edə biləcəyi barədə fikirlər geniş yayılmağa başladı.

Heydər Əliyev 1987–1988-ci illərdə SSRİ Nazirlər Soveti yanında Dövlət müşaviri, sonra İttifaq əhəmiyyətli fərdi təqaüdçü olmuşdu. Lakin belə bir vəziyyətdə də onun varlığı Qorbaçova rahatlıq vermirdi. 1989-cu il aprelin 24-də Heydər Əliyev Sov. İKP MK üzvlüyündən də azad edildi. Lakin bu təqiblər həyat görmüş, siyasi mübarizələrdə əzmkarlıq və cəsarət göstərmiş bir siyasi lideri heç bir zaman mövqeyindən çəkindirmədi. Əksinə, o, daha qətiyyətli addımlar atdı, geri çəkilmədi.

Sov.İKP MK-nın həmin plenumunda çıxış edən Heydər Əliyev deyirdi: “Bakıda və Moskvada çalışarkən mən doğru-düzgün və vicdanla işləmişəm, vaxtıma qızırqalanmadan işləmişəm, özümü bütünlüklə işə həsr etmişəm, heç kimi təqib etməmişəm, mənfi hallara qarşı fəal mübarizə aparmışam və nəticədə, özümə çoxlu düşmən qazanmışam, geniş ürək infarktı keçirmişəm. Belə hesab edirəm ki, mətbuatda məruz qaldığım hücumlara layiq deyiləm”.

Buna görə də Qorbaçov başda olmaqla Sovet rəhbərliyi Azərbaycan xalqının liderinə qarşı bütün təqib və zorakılıq mexanizmlərini səfərbər etməyə başladı. Heydər Əliyevin nüfuz və mövqeyinə zərbə vurmaq, xalq içərisində onun etimadını sarsıtmaq üçün yeni-yeni təsir vasitələrinə əl atılırdı. Moskvanın iştirakı ilə əsassız yoxlamalar aparılır, günahsız insanlara qarşı cinayət işləri qaldırılır, bu yol ilə əldə edilmiş ifadələrlə Heydər Əliyevi ləkələməyə çalışırdılar.

Təəssüf ki, respublikanın bəzi vəzifəli şəxsləri də həqiqəti müdafiə etmək əvəzinə, bu oyunda vasitəyə çevrilirdi. Mərkəzi mətbuat da Heydər Əliyevə qarşı uydurma cızmaqaralar çap edirdi. 1988-ci ildə “Literaturnaya qazeta” da bir yazı çıxdı. Bütün etik prinsiplərin əksinə olaraq, Heydər Əliyevə cavab imkanı verilmirdi.

Bu barədə Ulu öndər sonralar Moskva mətbuatına müsahibəsində demişdi: “Mən heç vaxt susmamışam; yadınızda varsa, 1989-cu ilin aprelində MK plenumunda çıxış etdim. Zənnimcə, orada hamıya cavab verdim. Daha əvvəl, (1988-ci il – K.Ş.) “Literaturnaya qazeta”da dərc olunmuş məqaləyə cavab göndərmişdim. Ancaq onu dərc etmədilər”.

Sonuncu sovet diktatoru Qorbaçovun rəhbərliyi ilə Heydər Əliyevin fıziki cəhətdən məhvi planı ona qarşı şər və böhtan kampaniyasına əsaslanırdı. Heydər Əliyev qeyd edirdi: “30 il sıralarında çalışdığım Dövlət Təhlükəsizlik Komitəsi indi məni quruluş əleyhinə olan bir şəxs kimi təqib etməyə başladı. Məqsədləri məni təxribat yolu ilə aradan götürüb, onlara qarşı mübarizəmi dayandırmaq idi”.

Sov. İKP MK katibi Y.Liqaçov Bakıda olarkən Azərbaycan KP MK-nın ikinci katibi (mərkəzin canişini – red) V.Konovalova Heydər Əliyevin Azərbaycana rəhbərlik etdiyi dövrdə onun fəaliyyətinin yoxlanılması üçün komissiya yaradılması barədə göstəriş vermişdi.

Ə.Vəzirovun 1988-ci ilin mayında Azərbaycanda hakimiyyətə gətirilməsindən sonra bu işin daha da genişləndiriləcəyinə ümid edilirdi. Azərbaycan xalqı Heydər Əliyevə qarşı fitnəkar siyasətin mahiyyətini yaxşı başa düşürdü. Heydər Əliyevin müdafiəsi və respublikanın ərazi bütövlüyünün qorunması onun həyati məsələsinə çevrildi. Heydər Əliyevin ən böyük xoşbəxtliyi bunda idi. Bununla barışmaq istəməyən Qorbaçov Azərbaycan xalqına qarşı məkrli planlar həyata keçirməyə başladı. 1990-cı ilin yanvarında görünməmiş cinayətə əl atıldı. Yanvarın 19-dan 20-sinə keçən gecə sovet ordu hissələri Bakıya müdaxilə edərək, dinc əhaliyə divan tutdu. Bu hadisə tarixə “Qara Yanvar” kimi daxil oldu.

Yalnız bu qəddarlıq törədildikdən sonra, yanvarın 20-də səhər saat 6 – 7 radələrində SSRİ Ali Soveti Rəyasət Heyətinin fövqəladə vəziyyət haqqında fərmanı elan olunmuşdu. Bu çətin günlərdə Heydər Əliyev yenə də Azərbaycan xalqını tək qoymadı. O, yanvarın 21-də oğlu İlham Əliyevlə birgə Azərbaycan SSR-in Moskvadakı Daimi nümayəndəliyinə gəlib, burada toplaşan jurnalistlər və ictimaiyyət nümayəndələri qarşısında çıxış etdi. Onun həmin çıxışını bu gün də həyəcansız oxumaq mümkün deyildir.

1990-cı il 20 Yanvar faciəsi ilə əlaqədar Azərbaycanın Moskvadakı daimi nümayəndəliyində keçirilmiş yığıncaqda Heydər Əliyevin çıxışında demişdi: “Mən baş vermiş hadisələr haqqında dünən xəbər tutmuşam və təbiidir ki, bu hadisəyə laqeyd qala bilməzdim. Buraya ən əvvəl ona görə gəlmişəm ki, Azərbaycanın Moskvada kiçik parçası olan Daimi nümayəndəliyində, böyük itkilərə səbəb olmuş faciə ilə bağlı bütün Azərbaycan xalqına başsağlığı verim. İkinci tərəfdən, bu məsələyə öz münasibətimi bildirmək istəyirəm”.

Heydər Əliyev hələ o zaman, isti-isti 1990-cı il Yanvar faciəsinin səbəblərini və nəticələrini dərin təhlil etmiş, günahkarların cəzalandırılmasını tələb etmişdi. O zaman respublikada bütün hadisələr məcrasından çıxmışdı. Belə bir vəziyyətdə ölkəyə rəhbərliyi yalnız Heydər Əliyev həyata keçirə bilərdi. Böhranlı məsələləri yalnız o, tezliklə həll edərdi. Lakin M.Qorbaçov baş verənlərdən nəticə çıxarmaqdan uzaq idi.

1990-cı il Yanvar hadisələrindən sonra Bakıdan qaçan Ə.Vəzirovu A.Mütəllibov ilə əvəz etdi. Heydər Əliyevə qarşı təqiblər isə yenidən gücləndi. 1990-cı il fevralın 4-də Heydər Əliyevin əleyhinə “Правда” (“Həqiqət”) qəzetində böhtanla dolu məqalə çap edildi. Lakin artıq vəziyyət dəyişmişdi. İstər SSRİ, istərsə də Azərbaycanın oyuncaq rəhbərliyinin Heydər Əliyev ətrafında yaratdığı təcrid siyasəti iflasa uğramışdı. 1990-cı il fevralın 9-da Heydər Əliyevin “Teatralnaya jizn” jurnalının şöbə müdiri Andrey Karaulovla söhbəti olmuşdu. Bu söhbətdə “Vaşinqton post” qəzetinin müxbiri Devid Remnik də iştirak etmişdi.

Heydər Əliyev bu müsahibədə obyektiv vəziyyəti və mövqeyini konkret şəkildə şərh etmişdi: “Düzünü desəm, mən buna inana bilmirəm. Mən pensiyadayam. Azərbaycanda nələr baş verdiyini, xalqımın güzəranının necə çətinləşdiyini böyük təəssüf hissi ilə müşahidə edirəm. Bütün bunlar son dərəcə ağırdır. Bunları yaman ürəyimə salıram. Bilmək istəsəniz, mənim üçün bu, faciədir”.

Heydər Əliyevi həyatdan silmək istəyənlər ona qarşı qeyri-bərabər qüvvələri ilə kifayətlənməmiş, ən çirkin metodlara əl atmışdılar. Heydər Əliyevin ailəsi də bu təqibin hədəfinə çevrilmişdi. Lakin Heydər Əliyevin ailəsini də sındırmaq mümkün olmamışdı. Bütün bu basqıların, hücumların müqabilində İlham Əliyev 1990-cı ildə Moskva Beynəlxalq Münasibətlər İnstitutunda müəllim fəaliyyətindən uzaqlaşmağı üstün tutmuşdu.

***(ardı var)***

***Kərim ŞÜKÜROV,***
***AMEA Tarix və Etnologiya İnstitutunun direktoru,***
***tarix elmləri doktoru, professor***

# Aİ-Ermənistan: tərəfdaşlıq, yoxsa təxribat gündəliyi?

(əvvəli 1-ci səhifədə)

Amma Avropa İttifaqının Genişlənmə Siyasəti üzrə Ali Komissarı Marta Kos təmsil olunduğu qurumun TRIPP layihəsində mümkün iştirakı ilə bağlı ABŞ, Azərbaycan və Türkiyə ilə danışıqlar apardığını bildirəndə şübhələnmişdik. O, "Aİ-nin öz təklifləri var və blok Türkiyə və Azərbaycanla məsləhətləşmələrini davam etdirir. ABŞ-ın iştirakı xüsusilə önəmlidir, çünki layihə yalnız bir dəmir yolu seqmentini əhatə edir" deyəndə şübhəmiz daha da artmış və düşünmüşdük ki, kimlərsə özündə Cənubi Qafqaz müstəvisində hələ çox kövrək olan reallıqlara meydan oxumaq cəsarətini tapır.

Bəli, Aİ Ermənistanı təkcə Rusiyaya deyil, eyni zamanda, Azərbaycana qarşı da istifadə etmək istəyir və nəticə etibarilə 2020-ci ilin 44 günlük müharibəsindən sonra rəsmi İrəvanın Bakı ilə sülhə gəlməsinə imkan verməyən xətti aktivləşdirir.

Təsəvvür edin, Azərbaycan və Ermənistan bu il avqustun 8-də Vaşinqtonda Birgə Bəyannamə imzalayır, ölkələr bir çox məqamları dəqiqləşdirirr, sülh sazişini paraflayır, yekun barış müqaviləsi yolunda əzm göstərirlər, Aİ-dəkilər isə yenidən qızışdırıcı mövqe tuturlar. Hesab edirik ki, burada təkcə anti-Rusiya və anti-Azərbaycan deyil, eyni zamanda anti-Amerika xətti də gündəmdədir. Sanki Ukrayna müharibəsi fonunda ABŞ-la baxışları kəsişən Avropa Birləşmiş Ştatları, bir növ, Cənubi Qafqazda durumu qəlizləşdirməklə hədələyir. Hədələyir və Ermənistanı alətə çevirmək məqsədi güdür. Bunun hansı nəticələr doğura biləcəyi barədə sonda söz açacağıq. Hələlik isə...

Bəli, Azərbaycan Xarici İşlər Nazirliyi Aİ və Ermənistan arasında Brüsseldə keçirilən Tərəfdaşlıq Şurasının VI iclasının nəticəsində imzalanmış "Avropa İttifaqı-Ermənistan Tərəfdaşlığı üçün Strateji Gündəlik" adlı sənədin postmünaqişə dövründəki reallıqları təhrif etdiyini, bütövlükdə Bakı ilə İrəvan arasında sülh gündəliyinə zidd olan bir sıra məsələləri prioritetləşdirdiyini bildirir. Bütün bunlar isə narahatlıq doğurur: "Növbəti 7 il müddətində Aİ ilə Ermənistan arasında strateji prioritetləri müəyyənləşdirən bu ikitərəfli sənəddə Azərbaycanı hədəf alan məsələlərə yer ayrılması qəbuledilməzdir və bu, eyni zamanda, Azərbaycan-Avropa İttifaqı münasibətlərinin perspektivlərinə mənfi təsir edir".

Əlbəttə, gündəlik Aİ-Azərbaycan münasibətlərinə etimadı sarsıdır. Ancaq ölkəmizin baş xarici siyasət idarəsinin narahatlığı təkcə bununla məhdudlaşmır. XİN bildirir ki, "Avropa İttifaqı-Ermənistan Tərəfdaşlığı üçün Strateji Gündəliy"in giriş hissəsində və bir sıra digər bölmələrində "Azərbaycanın hərbi əməliyyatlarından sonra köçkün düşmüş Qarabağ ermənilər" ifadəsinin işlədilməsi və bu məsələnin Aİ və Ermənistan arasında tərəfdaşlıq prioriteti kimi müəyyənləşdirilməsi, eləcə də bu kateqoriyaya məxsus insanların "qaçqın" statusunda vurğulanması ölkəmizə qarşı açıq-aydın qərəz nümunəsidir.

Məlumdur ki, Qarabağın erməni sakinləri Azərbaycanın reinteqrasiya planından imtina edərək, Ermənistana getmiş, respublikamızın heç bir strukturu onları evlərindən çıxarmamışdı. Əksinə, Qarabağın haylardan boşaldılması bilavasitə rəsmi İrəvan tərəfindən planlı şəkildə reallaşdırılmışdı. Məqsəd anti-Azərbaycan siyasət aparmaq idi. Nəzərə alaq ki, erməni iqtidarı 2023-cü ilin uğurlu antiterror tədbirlərindən, daha dəqiq desək, barəsində bəhs etdiyimiz hay köçünə strat verdikdən sonra Qarabağ ermənilərı üçün beynəlxalq təminat oyununa girişmişdi. Bu oyun ölkəmizin ərazi bütövlüyünü və suverenliyini şübhələndirmək, separatçılığı fərqli şəkildə yaşatmaq məramı daşımışdı. İndi nə düşünək? Düşünək ki, Aİ yeni erməni separatizmi üçün zəmin hazırlayır?

Hazırda Ermənistan rəhbərliyi, eləcə də baş nazir Nikol Paşinyan çıxışlarında Qarabağı tərk etmiş ermənilərin geridönüşünün mümkünsüzlüyündən söz açır, Aİ isə İrəvan üçün bununla bağlı "gündəlik" müəyyənləşdirir. Heç şübhəsiz, yanaşma 44 günlük müharibədən və lokal xarakterli antiterror tədbirlərindən sonra formalaşmış və regionda real sülhə maneçilik törədən klişelərin yenidən gündəmə gətirilməsidir. Belə təəssürat yaranır ki, sözügedən gündəliyi hazırlayanlar keçmişdə qalıblar. Halbuki, elə deyil. Onlar nə etdiklərini gözəl anlayırlar. Amma nəticəni hesablamırlar. Necə deyərlər, mal özgənin, can özgənin.

Qeyd edək ki, "Avropa İttifaqı-Ermənistan Tərəfdaşlığı üçün Strateji Gündəliy"ini regionda normallaşma proseslərinə Aİ-nin mümkün töhfələri bölməsində Beynəlxalq Ədalət Məhkəməsinin bütün müvafiq qərarlarının tam, dərhal və effektiv həyata keçirilməsinin dəstəklənməsi müddəası yer alır. Ölkəmizin Xarici İşlər Nazirliyi bu məqamı Ermənistan tərəfindən Azərbaycana qarşı irəli sürülmüş məlum iddiaların gündəmə gətirilməsi kimi dəyərləndirir. Əslində, başqa cür düşünmək üçün əsas yoxdur. Deməli, sülh prosesinə zidd təmayül var.

Haşiyə çıxaq ki, "Azərbaycan Respublikası və Ermənistan Respublikası arasında sülhün və dövlətlərarası münasibətlərin təsis edilməsi haqqında saziş"in mətninin XV maddəsində bildirilir ki, tərəflər "XIV Maddəyə xələl gətirmədən, Tərəflər hər hansı bir hüquqi müstəvidə onlar arasında bu Sazişin imzalanmasından əvvəl mövcud olan bütün dövlətlərarası iddiaları, şikayətləri, etirazları, iradları, icraatları və



mübahisələri bu Sazişin qüvvəyə mindiyi gündən bir ay ərzində geri çəkəcək, xitam verəcək və ya hər hansı bir formada həll edəcəklər və bir-birinə qarşı bu cür iddiaları, şikayətləri, etirazları, iradları və icraatları başlamayacaq və tərəflərdən hər hansı birinə qarşı hər hansı digər üçüncü tərəfin başlatdığı bu kimi iddia, şikayət, etiraz, irad və icraatlara hər hansı bir formada cəlb olunmayacaqlar; Tərəflər bu Sazişin ziddinə bir-birinə qarşı diplomatik, informasiya və digər sahələrdə düşmən addımlar atmayacaq, bu addımları həvəsləndirməyəcək və ya hər hansı bir formada bu fəaliyyətlərə cəlb edilməyəcək və bu məqsədlə bir-birləri ilə müntəzəm məsləhətləşmələr həyata keçirəcəklər".

Yəni, sülh yolunda belə bir niyyət, üstəlik barış sazişinin imzalanmasının tezliklə reallaşdırılmasına dair gözlənti varkən, Aİ strateji gündəliyinə haqqında söz açdığımız məsələni daxil edir. Ona görə də Azərbaycan XİN vurğulayır: "Azərbaycan, ABŞ və Ermənistan liderlərinin iştirakı ilə Vaşinqtonda paraflanmış sülh sazişində bu iddiaların aradan qaldırılmasına dair müddəa nəzərə alındıqda, Aİ-Ermənistan sənədində həmin məsələyə toxunulması sülh prosesi ilə birbaşa ziddiyyət təşkil edir və Ermənistan tərəfinin bəyan etdiyi niyyətlə bağlı ciddi suallar yaradır".

Deməli, Aİ Azərbaycan və Ermənistan arasında sülhün formalaşmasında maraqlı deyil. Həmçinin qurum nəzərə almır ki, Bakının da İrəvana qarşı legitim məhkəmə iddiaları var. O iddialar ki, onların hüquqi qüvvəyə malikliyi şəraitində Ermənistanın düşəcəyi zərərin altından çıxması qeyri-mümkündür. O zaman heç bir gündəlik və bu kimi mənasız sənədlər kömək gəlməyəcək. İnsanlıq əleyhinə cinayətlər və hərbi cinayətlərdə ittiham olunan və məhkum edilmiş ermənəsilli şəxslərin "Avropa İttifaqı-Ermənistan Tərəfdaşlığı üçün Strateji Gündəliy"ində "əsir" statusunda qeyd edilmələri və onların azadlığa buraxılmalarının ayrıca prioritet kimi müəyyənləşdirilməsi də reallıqların ciddi şəkildə təhrifinə yönəlmiş qəbuledilməz haldır və İrəvan üçün qətiyyən faydalı deyil.

Aİ-Ermənistan sənədində digər məqamlar da var. Təsəvvür edin, rəsmi İrəvan bir neçə ildir "Dünyanın kəsişməsi" təşəbbüsünü irəli sürməkdədir. Elə indi də mövqeyində qalır. Məlumdur ki, bu təşəbbüs Azərbaycanın Zəngəzur dəhlizi ideyasına zidd mahiyyət daşıyır. Avqustun 8-də Vaşinqtonda imzalanmış Birgə Bəyannamədə TRIPP marşrutundan söz açılır ki, onun məğzində Naxçıvana yolun maneəsizliyi, faktiki olaraq, dəhliz məntiqi dayanır. O da məlumdur ki, "Dünyanın kəsişməsi" sözügedən maneəsizliyi nəzərdə tutmurdu.

Beləliklə, Aİ-nin sənədində TRIPP marşrutunun heç adı çəkilmir. Deməli, əsas mahiyyət arxa plana atılır. Halbuki, Aİ də zamanında bu marşruta dəstəyini ifadə etmişdi. Deməli, hazırda ortada riyakarlıq əməli var. Yeri gəlmişkən, əvvəldə fikirlərini diqqətə çatdırdığımız xanım Kos da məhz riyakarlığın anonsunu vermişdi. Sən demə, Aİ ABŞ-la dəmir yolu seqmenti ilə bağlı danışacaqmış. Yəni Ermənistanın vaxtilə "Dünyanın kəsişməsi" ideyası çərçivəsində irəli sürdüyü "mahiyyəti" qabardacaqmış.

Qeyd edək ki, həmin mahiyyətə əsasən Naxçıvana yol ancaq dəmir yolu şəklində olmalı, eyni zamanda, şərt əsasında açılmalı idi. Şərtə görə, ölkəmizin əsas hissəsindən Naxçıvana qatarlar gedəcəkdisə, Ermənistanın Mehrisindən ölkənin Arazdəyən bölgəsinə də Naxçıvandan keçməklə qatarlar hərəkət etməli imiş. Axı Mehri ilə Yerasx arasında əlaqə onsuz da var, yəni bölgələr bir-birindən Naxçıvanın Azərbaycanın əsas hissəsindən ayrı düşdüyü kimi ayrı düşməyiblər. Deməli, ortada qərəz rüşeymli məntiqsizlik var və Aİ bu məntiqsizliyə lobbiçiliklə məşğuldur.

Gündəlikdə yer alan başqa bir narahatverici məqam Aİ-nin Ermənistandakı EUMA adlandırılan mülki müşahidə missiyasının fəaliyyətinin, bir növ, ilahiləşdirilməsidir. Halbuki, Azərbaycanla Ermənistan arasında paraflanmış saziş layihəsinin 7-ci maddəsində tərəflərin qarşılıqlı sərhəddə hər hansı üçüncü tərəfin qüvvələrini yerləşdirməməklə bağlı öhdəliklərinə dair müddəa yer alır. Axı EUMA-nın Azərbaycana qarşı təbliğat vasitəsi kimi istifadə olunduğu birmənalıdır. O da birmənalıdır ki, Aİ-Ermənistan sənədində açıqlanmış prioritetlər sırasında hərbi və müdafiə məsələlərinin vurğulanması Ermənistanın hərbiləşməsinə xidmətdir. Aİ-də bunun nə demək olduğunun, ölkə üçün hansı fəlakət yaşadacağının fərqindədirlərmi?

Sonda bildirək ki, Azərbaycan XİN məlum şərhində Aİ-nin keçmiş münaqişənin elementlərini gündəmə gətirdiyini, bunun həm də Ermənistanın niyyətləri barədə ciddi şübhələr yaratdığını açıqlayıb. Qurum vurğulayıb ki, ölkəmiz həm Aİ-nin, həm də Ermənistanın mövcud reallıqları əks etdirməyən zərərli müddəaların aradan qaldırılması istiqamətində addımlar atacağını gözləyir. Əslində, konkret cavab verməli, qətiyyət göstərməli olan rəsmi İrəvandır. Erməni rəhbərliyi 2020-ci ildən sonra regionda yaşananları nəzərə alaraq dərk etməlidir ki, şirin vədlər və pafoslu təqdimatlar ona heç bir xeyir gətirməyib, əksinə ziyan verib.

Ən sonda onu da deyək ki, Aİ-Ermənistan gündəliyi hay avantürizminin dəstəklənməsinə yönəlib. Azərbaycan XİN həm dolayısı ilə bunu vurğulayır, həm də açıq şəkildə bəyan edir ki, gündəlikdəki ayrı-ayrı məqamlar Ermənistanın TRIPP layihəsi üzrə öhdəlikləri yerinə yetirmək niyyətinin ciddiliyi və Aİ-nin bu layihəyə bəyan etdiyi dəstəyi barədə suallar yaradır. Suallar şübhə doğurur, şübhələr etimad və inam mühitini zədələyir. Böyük anlamda sülh prosesi zərər görür. Sülhsüzlüyün ən böyük ziyanını isə Ermənistanın çəkəcəyi dəqiqdir. Sullar yaranır: Sıravi ermənilərin çəkdikləri azdırmı? Onların rahat yaşamalarına imkan vermək beləmi çətindir? Cavablar barədə Ermənistan rəhbərliyi düşünsün. Özü də təkcə düşünməsin...

***Ə.CAHANGİROĞLU***
***XQ***

# Koçaryanın "siyasi hiddəti" ölkəni yenidən uçuruma sürükləyir

## *Erməni cəmiyyəti kabusun qayıdışına "yox" deyəcəkmi?*

**Ermənistanın ikinci prezidenti, 1980-ci illərin sonlarında Qarabağın dağlıq hissəsində Azərbaycana qarşı başlayan qanlı etnik separatizmin fəal iştirakçılarından olan Robert Koçaryan 2026-cı il iyunun 7-də keçiriləcək növbəti parlament seçkilərində iştirak edəcəyini açıqlayıb. O tərəfdarları ilə keçirdiyi görüşdə bildirib: "Hələlik formatlarla bağlı yekun qərarımız yoxdur, amma çox güman ki, seçkilərdə iştirak edəcəyəm".**

Qeyd edək ki, Azərbaycana qarşı revanşist fikirlərlə yaşayan Ermənistanın sabiq ombudsmanı, gələnlki seçkidə iştirak edəcəyini açıqlamış "Birlik qanadları" adlanan siyasi təşəbbüsün rəhbəri Arman Tatoyan mövcud hakimiyyətə qalib gəlməyi real seçim halına gətirmək üçün ölkənin keçmiş prezidentlərinin 2026-cı il parlament seçkilərindən çəkilməli olduqlarını bildirib. Koçaryan isə Tatoyanın çağırışını rədd edərək seçkilərə qatılacağını vurğulayıb.

Bütövlükdə, seçkilər yaxınlaşdıqca, Ermənistanda daxili siyasi mübarizənin hərarəti durmadan artır. Bunun əsas səbəbi baş nazir Nikol Paşinyanın keçmiş əleyhdarlarının yenidən aktivləşməsidir. Bu sırada Qarabağ klanının "xaç atası" R.Koçaryanla yanaşı, digər hərbi cinayətkar Serj Sarkisyan, eləcə də Erməni Apostol Kilsəsinin rəhbəri katolikos II Qaregin dayanır. Koçaryanın siyasi ambisiyalarına gəldikdə, qeyd etmək lazımdır ki, o, bütün siyasi yarışlarda istisnasız olaraq yalnız öz maraqlarını güdür. "Hraparak" qəzetinin bu yaxınlarda yazdığına görə, Ermənistanın keçmiş prezidenti 2026-cı il parlament seçkilərində oğlunu – "Hayastan" fraksiyasının deputatı Levon Koçaryanı seçki siyahısında birinci yerə çıxarmaq niyyətindədir. Nəşrin məlumatına əsasən, Levon son aylarda bölgələrə səfərlər edir, vətəndaşlarla görüşlər keçirir. Bu da maraqlıdır ki, R.Koçaryan daimi fəaliyyət göstərən bir partiyaya malik deyil. Lakin o, "Daşnaksutyun" və "Dirçələn Ermənistan" partiyalarının daxil olduğu "Hayastan" alyansına başçılıq edir.

*

Koçaryanın seçkilərdə iştirak qərarına Ermənistanın müstəqil mediasının münasibəti kifayət qədər mənfi olub. Məsələn, "ArmenianReport" saytında yerləşdirilmiş "Ermənistanın ölümünün həndəsəsi" sərlövhəli analitik məqalədə müəllif Samvel Ohanesyan yazır: "...və elə buradaca mən bizim faciəvi fiqurumuzun dördüncü nöqtəsinə keçmək istəyirəm. Hadisə yeri – İrəvan. Natiq – Ermənistanın ikinci prezidenti Robert Koçaryan. O, bir neçə gün öncə Nikol Paşinyanın siyasətini tənqid etdi. Koçaryan "başa düşməyə" çalışırdı ki, Paşinyan kimdir – agent, cahil və təkəbbürlü bir insan, yoxsa qəsdən dövlət əleyhinə fəaliyyət göstərən şəxs?! Ermənistanın ikinci prezidenti Paşinyanı dövlət reketçiliyində, kilsəni məhv etməkdə, kompromatlara olan həvəsdə və cəmiyyətdə yaxınlaşan müharibə qorxusunu (?) süni şəkildə artırmaqda ittiham edirdi. "Bu gün Nikol Paşinyan Ermənistan Respublikasının boğazındakı ilgəkdir və biz bundan qurtulmalıyıq" – deyə ikinci prezident bəyan edib. Bundan əlavə, artıq kifayət qədər yaşlı olan Robert Koçaryan 2026-cı il parlament seçkilərində iştirak edə biləcəyini də istisna etməyib.



Əslində isə Robert Koçaryan misli görünməmiş bir bədheybətdir. Məhz o, Ermənistanı Rusiyanın ixtiyarına verib, ölkədə kriminal–korrupsioner–oliqarxik sistemin memarı da məhz odur. Bununla belə Koçaryan gözəl və zahirən ağıllı danışmağı bacarır. Paşinyanın yüksək populizmindən bezən insanlar, ölçülü-biçili çıxışları və dövlət xadimi kimi təcrübəsi ilə ona, daha doğrusu, onun gücünə səs verməyə inandıracaq başqa bir natiqə müraciət edə bilərlər. Lakin keçmiş qüvvələrin hakimiyyətə qayıdışı Ermənistanı xilas etməyəcək. Ermənistanın hətta Rusiya kimi dayağa arxalanması da mümkün olmayacaq: bu böyük və soyuq ölkə indi elə vəziyyətdədir ki, yeni münaqişələrə girişə bilməz – özünün başlatdığı həmin "xüsusi hərbi əməliyyatın" yaralarını, üstəlik sanksiyaların vurduğu zərbələri uzun müddət sağaltmalı olacaq. Üstəlik, Türkiyə ilə münasibətləri yüksələn xətt üzrə inkişaf edən Azərbaycanla hətta Rusiya–Ukrayna müharibəsi bitdikdən sonra belə, mübahisəyə girişmək Moskvanın marağında olmayacaq. Şimali Qafqaz da çalxalanmağa yaxındır – Çeçenistan və Dağıstanda vəziyyət onsuz da ipdən asılı vəziyyətdədir".

Yazıda qeyd olunub ki, R.Koçaryanın qayıdışı ölkəyə iqtisadi yüksəliş də vəd etmir: "Çətin ki, onun sehrli həbi olsun – belə bir dərman heç kimdə yoxdur. Qoca Avropa belə bu günlərdə ən yaxşı çağlarını yaşamır. Koçaryanın özü ilə qaçılmaz olaraq gətirəcəyi korrupsiya fonunda (yaşamışıq, bilirik – müəll.) Ermənistandan sonuncu investorlar da qaçacaq. Beləliklə, Paşinyanın və onun komandasının zəifliyi, qeyri-peşəkarlığı və iradəsizliyindən yorulmuş sadəlövh seçicimizi xilas yolu axtarmağa vadar edə bilər. Və seçicimizin baxışlarının ilk olaraq inandırmağı bacaran Robert Koçaryan və onun "Hayastan" bloku üzərində cəmləşməsi mümkündür. Lakin bu çoxbucaqlının həmin "zirvəsi" də əvvəlkilərdən az təhlükəli deyil. Çünki Ermənistanda, necə olursa-olsun, Paşinyanın dövründə başlanan demokratik islahatlar məhv ediləcək, investisiya mühiti dağıdılacaq və Moskvanın diktəsi bərpa olunacaq. Müharibə, bəlkə də, olmayacaq, amma Azərbaycanla məsələlər də erməniyönümlü həllini tapmayacaq – böyük ehtimalla, sadəcə, qeyri-müəyyən müddətə dondurulmuş vəziyyətdə qalacaq. Beləliklə, girişdə bəhs etdiyimiz dördüncü zirvə xilas yox, eyni dərəcədə məhvdir. Ermənistanın ölümü... Bunu hamımız anlamalı və ayıq-sayıq olmalıyıq".

*

Onu da bildirək ki, özünə loyal media nümayəndələrinin qatıldığı son mətbuat konfransı zamanı Koçaryan avqustun 8-də Ağ Evdə əldə olunan razılaşmaları sərt tənqid etmiş və Paşinyana qarşı növbəti hücumlara start vermişdi. O, Vaşinqton razılaşmalarını 2020-ci il 10 noyabr tarixli, Rusiyanın iştirakı ilə imzalanmış üçtərəfli bəyanatla müqayisə edərək həmin sənədi "xəyali sənədi" adlandırmışdı. Baş naziri "Zəngəzur dəhlizinə nəzarəti ABŞ-a verməkdə" günahlandıran Koçaryan, regiondakı proseslərə İranın fəal şəkildə cəlb olunmasına çağırmış və bununla da alternativ alyansın formalaşdırılmasına gərəkliyinə işarə etmişdi.

Diqqətçəkən məqam odur ki, həmin mətbuat konfransının keçirildiyi vaxt Koçaryanın Moskvaya növbəti səfəri ilə üst-üstə düşmüşdü. Həmin vaxt eks-prezident son günlər Rusiyanın paytaxtında olduğunu inkar etməsə də, səfərin sırf şəxsi xarakter daşıdığını, siyasi təmaslarla olmadığını iddia etmişdi. Lakin "Hraparak" qəzeti öz mənbələrinə istinadən Koçaryanın Rusiya Prezident Administrasiyası rəhbərinin Ermənistanla bağlı məsələləri kurasiya edən müavini Sergey Kiriyenko ilə görüşdüyünü yazmışdı. Məlumata görə, söhbətin əsas mövzusu ölkədəki daxili siyasi proseslər, o cümlədən 2026-cı il parlament seçkilərinə hazırlıq olub. Qəzetin mənbələrinin iddiasına görə, Kiriyenko Koçaryan qarşısında heç bir öhdəlik götürməyib və Kremlin hazırkı erməni siyasi proseslərindən uzaq durduğunu açıq şəkildə bildirib.

Bununla belə, vurğulamaq lazımdır ki, Koçaryanın bu ilin fevral ayında keçirdiyi əvvəlki mətbuat konfransı da onun Moskvadan İrəvana qayıtmasından dərhal sonra baş tutmuşdu. Bu, sadəcə təsadüfdürmü? Siyasi maraqların mövcud olduğu yerdə təsadüflər istisna olunur. Ermənistandakı mövcud reallıqlar göstərir ki, Cənubi Qafqazda sülhün əleyhdarları qarşıdan gələn seçkilərdə hələdici döyüşə hazırlaşırlar. Hazırda yeganə sual budur ki, Ermənistan cəmiyyəti onların yolu ilə gedəcəkmi?

Bu sualımızı cavablandıran **siyasi şərhçi Rizvan Hüseynov** bildirdi ki,



Ermənistan cəmiyyətinin qarşıdan gələn seçkilərdə revanşist qüvvələrin arxasınca gedib-getməyəcəyi sualı, əslində, ölkənin gələcək taleyini müəyyən edəcək əsas məqamdır. Onun sözlərinə görə, mövcud sosial-siyasi fon göstərir ki, əhalinin əhəmiyyətli qismi radikal keçmişə dönüşün yaratdığı riskləri çox yaxşı anlayır: "2020-ci ilin məğlubiyyətindən sonra cəmiyyətdə formalaşan fikir ondan ibarətdir ki, ölkəni yenidən köhnə, korrupsioner və Moskvayönlü siyasi xəttə qaytarmaq Ermənistanı daha da dərin böhrana sürükləyə bilər. Bu baxımdan, Koçaryan və onun blokunun ideallı çıxışlarına baxmayaraq, erməni seçicisinin əksəriyyətinin onlara "yox" deməsi ehtimalı kifayət qədər yüksəkdir. Cəmiyyət yaxşı başa düşür ki, keçmiş elitanın yenidən hakimiyyətə gəlməsi təkcə demokratik institutların sıradan çıxması ilə nəticələnməyəcək, həm də Ermənistanı kənar güclərin təsir orbitinə qaytaracaq. Bu isə nə iqtisadi inkişaf, nə təhlükəsizlik, nə də regional sülh baxımından perspektiv vəd etmir".

Ekspert qeyd etdi ki, ermənilərin Paşinyandan narazı olmaları belə keçmişin qüvvələrinə kor-koranə dəstək vermək anlamına gəlmir. Məhz buna görə revanşistlərin seçkidə qələbə şansı, iddialı görünmələrinə rəğmən, reallıqda xeyli məhduddur.

***Səxavət HƏMİD***
***XQ***

(əvvəli 1-ci səhifədə)

# Əməkdaşlıq yaxşıdır, amma...



Təsir mexanizminin kökü bölgədə paralel şəkildə işləyən üç siyasi prosesin kəsişməsində gizlənir. Ermənistan uzun illərdən sonra ilk dəfə postsovet orbitindən qopmağa və öz təhlükəsizlik arxitekturasını yenidən dizayn etməyə çalışır. Aİ bu boşluğu fürsətə çevirərək, regionda geosiyasi izini dərinləşdirməyə qərarlıdır. Azərbaycan və Ermənistan arasında müharibəni hüquqi olaraq bitirəcək sülh sazişinin imzalanması istiqamətində real irəliləyiş olsa da, proses hələ yekunlaşmayıb və hər incə detal balansı dəyişə bilər.

Belə bir şəraitdə Brüsselin İrəvana yönəlmiş yeni gündəliyi bölgənin bütün təhlükəsizlik strukturunu formalaşdıran amildir. Ermənistanın Rusiyadan uzaqlaşması ilə Aİ-nin bu boşluğa daxil olması eyni vaxtda baş verir və bu iki xəttin kəsişdiyi nöqtə məhz Bakı–İrəvan münasibətləridir. Sülhün imzalanmadığı, postmünaqişə prosesinin həssas olduğu şəraitdə hər ifadə, prioritet, siyasi mesaj tərəflərin davranış modelinə təsir edir. Görünür ki, Brüssel Cənubi Qafqazda bölgənin gələcək təhlükəsizlik memarlığını formalaşdıran aktora çevrilmək istəyir. Mənzərəni təhlil edəndə belə bir sual ortaya çıxır: əgər sülh sazişi artıq paraflanıbsa, nə üçün Brüsseldə qəbul edilən sənəd Bakıda sərt reaksiyaya səbəb oldu? Məsələ ondadır ki, paraflanmış saziş sülhün konturlarını göstərir, amma onu hüquqi müstəviyə daşımır. Müharibənin faktiki olaraq bitməsi bölgəyə sakitlik gətirsə də, bu sakitlik sənədlə təsbit olunmadığı müddətdə yetərli deyil və proses hər an kənar təsirlərə açıq qalır. Buna görə də, hətta üçüncü tərəflər arasında imzalanmış ikitərəfli sənədlərin həm Bakının siyasi davranışına, həm də ümumi sülh dinamikasına təsiretmə potensialı yaranır.

Brüsseldəki sənədin problemli görünən tərəfi də məhz budur: o, postmünaqişə dövrün humanitar və tarixi reallıqlarını birtərəfli formatda təqdim edir. Mətndə yalnız 2023-cü ildə Qarabağı tərk etmiş ermənilərdən bəhs olunur – bunlar danışıqlar masasında nəzərə alınmalı humanitar epizoddur. Amma məhz eyni çərçivənin içində 1988-1990-cı illərdə doğma yurdlarından qovulmuş yüz minlərlə azərbaycanlıya heç bir istinadın olmaması ciddi qeyri-bərabərlik yaradır. Sanki regionun humanitar mənzərəsi yalnız bir tərəfin təcrübəsi üzərindən qurulmuş kimi göstərilir. Bundan daha ağırı odur ki, 2020-ci ildən sonra azad edilmiş ərazilərdə aşkarlanan kütləvi dağıntılar, talan edilmiş şəhərlər, mina terroru nəticəsində davam edən itkilər, rekonstruksiya prosesinin yaratdığı sosial-humanitar çətinliklər sənəddə ümumiyyətlə öz əksini tapmır. Deməli, Aİ-nin təqdim etdiyi çərçivə balansı pozur və regiondakı reinteqrasiya reallığını birtərəfli şərh edir. Bu yanaşma nəinki hüquqi sülhün ruhuna uyğun gəlmir, həm də psixoloji və siyasi baxımdan zərərli mesaj verir: elə bil ki, bölgədə humanitar travmalar yalnız bir tərəf üçün mövcuddur, digərinin yaşadığı faciələr isə unudula biləcək qədər kiçikdir.

*

Bakının reaksiyası tamamilə rasional xarakter daşıyır: əgər sənəd bölgənin humanitar tarazlığını təhrif edirsə, bu, sülh prosesini də təhrif edir. Çünki sülh yalnız ədalətli narrativlə qurulur və həmin narrativin birtərəfli olması gələcək addımların legitimliyini sual altına qoyur.

Analitik sual ikinci dəfə bizi daha dərin mərkəzə aparır: Aİ bunu nə üçün edir? Aİ-nin bu addımı siyasi etiketi düzgün seçməməkdir, yoxsa arxasında geniş geosiyasi hesablamalar dayanır? Sənəddəki bəzi ifadələr təsadüfən işlənmiş kimi görünə bilər. Amma son illərin proseslərini yan-yana qoyanda ortaya tam başqa mənzərə çıxır: Brüssel Ermənistanla münasibətlərini struktur olaraq yenidən qurur və bunu postsovet məkanında Rusiyanın sürətlə daralan təsir dairəsi fonunda edir. Ermənistanın 2025-ci ildə parlament səviyyəsində "Aİ-yə üzvlük prosesinin başlanması haqqında" qanun qəbul etməsi bu strategiyanın təsadüfi olmadığını sübut edən göstəricidir. Qərar İrəvanın Moskva ilə təhlükəsizlik müttəfiqliyindən uzaqlaşmaq niyyətinin institusional ifadəsi idi və Brüssel bu addımı yalnız müşahidə etmədi, ona siyasi-ideoloji dəstək verdi. Həmin dəstək indi Cənubi Qafqazın gələcək arxitekturasını müəyyən edən yeni platformalar vasitəsilə həyata keçirilir.

Aİ-nin davranışı üç strateji xətt üzrə aydın görünür. Əvvəla, Ermənistanı Qərb orbitinə çəkmək niyyəti açıqdır. Növbəti istiqamət regionda nəqliyyat xəritəsinin yenidən qurulması prosesində söz sahibi olmaqdır. Brüssel Cənubi Qafqazı Avrasiya ilə Avropanı birləşdirən tranzit qovşağı kimi görür və regional nəqliyyat layihələrinin ideoloji konturunu müəyyən etmək istəyir. Üçüncü xətt isə sülh prosesinin özündə daha təsirli aktora çevrilmək cəhdidir. Brüssel prosesin mahiyyətinə və istiqamətinə də təsir edən aktor statusunu əldə etməyə çalışır.

Məhz buna görə "Strateji tərəfdaşlıq gündəliyi"nin hər bəndi geosiyasi mesajdır və bölgənin bütün aktorlarına ünvanlanıb. Brüssel bu sənədlə Cənubi Qafqazda yeni güc balansının ideoloji konturunu cızır və özünü həmin balansın formalaşdırıcısı kimi təsdiqləmək istəyir.

*

Növbəti sual bizi regiondakı həssas məsələlərdən birinə – nəqliyyat-kommunikasiya xətlərinin geosiyasi məntiqinə qaytarır. Niyə Brüssel sənəddə Ermənistanın "Sülhün kəsişməsi" layihəsinə xüsusi vurğu edir? Aİ-nin bu layihəni açıq şəkildə dəstəkləməsi Bakı üçün riskli görünən bir neçə strateji səbəblə bağlıdır. Birincisi, "Sülhün kəsişməsi" ABŞ vasitəçiliyi ilə razılaşdırılmış "Tramp marşrutu"nun (TRIPP) alternativi kimi təqdim olunur. TRIPP Azərbaycanla Ermənistan arasında razılaşdırılmış, sülh sazişinin tərkibinə daxil olan hüquqi formatdır.

Ermənistanın "Sülhün kəsişməsi"i isə tamamilə fərqli məntiq daşıyır. Layihə regional tranzit ideyasını Ermənistan mərkəzli bir narrativlə yenidən çərçivələndirməyə yönəlib. Yəni məqsəd hazırda razılaşdırılmış formatı deyil, Ermənistanın özünün "regionun logistika mərkəzi" kimi təqdim etdiyi birtərəfli modelini legitimləşdirməkdir. Brüssel də bu təşəbbüsə açıq siyasi dəstək verəndə, faktiki olaraq, mövcud razılaşmanın alternativini beynəlxalq səviyyəyə daşıyır. İkincisi, bu dəstək Aİ-nin Bakı üçün kritik bir sahədə – sülh sazişinin strukturunda – arzuolunmaz asimmetriya yaratmasıdır. Nəqliyyat xəttləri sülh sazişinin strateji dayaqlarından biridir. Sərhədlər, təhlükəsizlik və kommunikasiya – bu üçlük sülhün mexanizmini təşkil edir. Əgər kommunikasiya sahəsində alternativ modellər beynəlxalq legitimlik qazanırsa, bu, tərəflərin razılaşdırdığı formatı arxa plana keçirir və danışıqların bütövlüyünü pozur.

Başqa sözlə, Aİ-nin "Sülhün kəsişməsi" ə dəstəyi, bəlkə də, iqtisadi-tarixi çərçivədə zərərsiz görünə bilər, amma siyasi reallıqda bu, sülh mexanizminin təməl sütununa toxunmaq deməkdir. Çünki kommunikasiya xəritəsi dəyişəndə, sülh sazişinin özü də dəyişir. Aİ-nin Ermənistan üçün elan etdiyi 270 milyon avroluq paket və vizasız rejim perspektivi regionun geosiyasi arxitekturasını yenidən qurmaq cəhdidir. Brüssel bu addımlarla Ermənistanın özünü daha təhlükəsiz hiss etməsini, Rusiyadan asılılığını azaltmasını və Qərb məkanına doğru yeni siyasi trayektoriya formalaşdırmasını hədəfləyir. Lakin bu prosesin yan təsiri ondan ibarətdir ki, Ermənistan özü-



nü arxayın hiss etdikcə, danışıqlarda daha sərt xətt götürür və bu, sülh dinamikasını mürəkkəbləşdirir.

Qeyd etməliyik ki, Aİ-nin iştirakı strukturlaşdırılmış dialoq mühiti yarada bilər, lakin eyni zamanda postkonflikt narrativini birtərəfli təqdim etməklə reallıqları təhrif edir. Brüsselin regionu Rusiya–Qərb qarşıdurmasının yeni meydanına çevirmək meyli prosesin mahiyyətini dəyişir və Bakı–İrəvan xəttini ikinci plana çəkir. Sülhün konturları indi böyük güclərin strateji rəqabəti fonunda formalaşmağa başlayır və bu, prosesin səmimiliyinə xələl gətirir.

Son olaraq qeyd edək ki, bu mənzərədə dəyişməyən bir reallıq qalır: sülhün taleyi nə Brüsseldə, nə Moskvada hazırlanır. Siyasi iradə Bakı və İrəvanda formalaşmayınca, heç bir kənar aktor prosesin mahiyyətini dəyişə bilməz.

***Şəbnəm ZEYNALOVA,***
***XQ-nin siyasi analitiki,***
***siyasi elmlər üzrə fəlsəfə doktoru***

# Ermənistanın dəyişən strategiyası

## *Paşinyanın mesajları regionda nəyə yönəlib?*

**Ermənistanın Baş naziri Nikol Paşinyan Berlində Almaniya Beynəlxalq Əlaqələr Assosiasiyasında keçirilən görüşdə ölkəsinin regiondakı mövqeyi və gələcək strategiyası barədə geniş açıqlama verib. O, Ermənistan üçün xarici dəstək olmadan yaşama qabiliyyətini təmin etməyin, region ölkələri ilə münasibətlərini gücləndirməyin və sülh prosesini davam etdirməyin vacibliyini vurğulayıb. Paşinyan, eyni zamanda, Ermənistan Konstitusiyasında Azərbaycanın ərazi iddiaları ilə bağlı müzakirələri və 2026-cı ildən başlayaraq yeni Konstitusiyanın qəbuluna dair planları barədə açıqlamalar verib. Qeyd edib ki, ölkəsi Azərbaycan tərəfindən veriləcək sualları cavablandırmağa, danışıqlar masasına oturmağa və bütün nüansları müzakirə etməyə hazırdır.**

Paşinyanın bu çıxışında daxili siyasi məqsədlər, xarici siyasətdə balans yaratmaq cəhdləri özünü göstərir. Onun Ermənistanın regionda xarici yardım və dəstək olmadan yaşamaq niyyətini bəyan etməsi, ilk baxışdan konstruktiv və rasional yanaşma kimi görünür. Çünki uzun illər ərzində apardığı regional reallıqlardan uzaq düşməsi, Rusiyaya tam bağlılığı, eyni zamanda, Qərbə meyillənərək balans yarada bilməməsi İrəvanı siyasi, iqtisadi, həm də hərbi müstəvidə dərin asılılıqlara sürükləyib. Bu asılılıqlar nəticə etibarilə fərdi regional strategiya formalaşdırmaq imkanlarını məhdudlaşdırıb.

Bununla belə, Ermənistanın daha müstəqil və regionalyönümlü siyasətə keçmək iddiası Azərbaycan üçün, müəyyən mənada, müsbət dinamika yaradır. Ona görə ki, xarici güclərin Cənubi Qafqazdakı rəqabəti İrəvanı illərlə qeyri-praqmatik mövqe tutmağa sövq etmiş, bu isə regiondaxili anlaşmanı çətinləşdirərək sabitliyi pozmuşdu. Ermənistanın yerli reallıqları qəbul edən, təhlükəsizlik və qarşılıqlı tanınma üzərində qurulan siyasətə keçidi ölkəmizlə də uzunmüddətli sülhün əldə olunmasına şərait yaradır.

Lakin Paşinyanın bu konsepsiyasının real həyatakeçmə ehtimalı məhduddur. Bununla bağlı səbəblər müxtəlifdir. Birincisi, iqtisadi asılılıq var. Ermənistan iqtisadiyyatının böyük hissəsi xarici donorlar, diasporadan gələn pul axınları və qeyri-sabit ticari əlaqələrin üzərində qurulub. Regiondakı kommunikasiyaların bağlı olması ölkənin daxili inkişaf potensialını məhdudlaşdırır. İkinci məqam kimi hərbi asılılıq amili üzərində dayanaq. Ermənistan ordusu uzun illər Rusiya silahlarına və bu ölkənin təlim standartlarına bağlı olub. Alternativ təhlükəsizlik mexanizmləri isə hələ formalaşmayıb.



Üçüncü məsələ siyasi asılılıqdır. Ermənistan daxilindəki güc qrupları, xüsusilə köhnə elitalar və Qarabağ klanı xarici təsirlərə söykənən siyasi konfiqurasiyaya alışmış vəziyyətdədir. Onların müqaviməti hər hansı müstəqil kursu çətinləşdirir. Dördüncüsü isə, geosiyasi məhdudiyyətdir. Ermənistan Qərbə meyil etsə belə, coğrafi bağlılığı Rusiya və İran arasında sıxışmış vəziyyətindədir. Yəni real alternativlər tam sərbəst seçim imkanı yaratmır.

Bu səbəblərdən "xarici dəstəkdən asılı olmayan Ermənistan" ifadəsi daha çox siyasi ritorika, daxili auditoriyaya yönəlmiş populist mesaj və xarici tərəfdaşlara balans siqnalı kimi görünür. Reallıqda isə Ermənistan yalnız regional əməkdaşlıq çərçivəsinə inteqrasiya edəcəyi halda yaşam imkanlarına malikdir. Bu əməkdaşlığın əsas şərti isə Azərbaycanın ərazi bütövlüyünün tanınması, sərhədlərin demarkasiyası, nəqliyyat və rabitə xətlərinin açılması, revanşist ritorikanın tam dayandırılmasıdır.

Ümumiyyətlə, Paşinyanın bəyanatı müəyyən yumşalma və yeni yanaşma niyyətini göstərsə də, Ermənistanın mövcud asılılıq mexanizmləri bu konsepsiyanı hələlik yalnız siyasi şüar səviyyəsində saxlayır. Azərbaycanın baxış bucağından isə real qiymətləndirmə yalnız Ermənistanın praktiki addımlarına əsaslanır. Ona görə ki, sülh və əməkdaşlıq yalnız real siyasi iradə ilə mümkündür.

Bildirdiyimiz kimi, Ermənistan baş nazirinin toxunduğu məsələlərdən biri də konstitusiya ilə bağlıdır. Bu, Ermənistan–Azərbaycan münasibətlərində ən həssas və təhlükəsizlik baxımından ən kritik istiqamətlərdən biridir. Paşinyanın "Konstitusiyada Azərbaycana qarşı ərazi iddiaları yoxdur" fikri formal baxımdan səsləndirilmiş bəyanatdır və tam mənada həqiqəti əks etdirmir. Bu, manipulyativ yanaşmadır. Çünki erməni əsas qanununda ərazi iddiası açıq ifadəsini tapmasa da, sənədin Qarabağla bağlı tezisləri özündə ehtiva edən Müstəqillik Aktına hüquqi istinadı həmin iddianın dolayı şəkildə təsdiqidir.

Bundan əlavə, Ermənistanın siyasi və dövlətçilik ənənələrində uzun illər separatizmi təşviq edən yanaşmalar açıq şəkildə müdafiə edilib. Ermənistanın keçmişdə işğal siyasətini əsaslandırmaq üçün yaratdığı hüquqi baza isə Azərbaycanın təhlükəsizliyi üçün konkret təhlükə idi.

Bu şəraitdə Azərbaycanın konstitusiya islahatlarını sülh sazişinin şərtlərindən biri kimi irəli sürməsi tam hüquqi, siyasi və tarixi əsaslara söykənir. Sülh müqaviləsinin mahiyyəti qarşılıqlı ərazi bütövlüyünün qeyd-şərtsiz tanınmasına əsaslanırsa, Ermənistanın konstitusion çərçivəsində bu məsələyə dair bütün ziddiyyətli istinadların aradan qaldırılması zəruridir. Məsələnin həlli yalnız diplomatik dil və siyasi bəyanatlarla deyil, hüquqi mexanizmlərlə təmin edilməlidir.

Paşinyanın "əgər Konstitusiya Məhkəməsi uyğun olmadığını desə, konstitusiya dəyişikliklərinə özüm təşəbbüs göstərəcəyəm" bəyanatı müəyyən yumşalma siqnalı kimi qiymətləndirilə bilər. Lakin bu açıqlama hələlik real siyasi iradəni ifadə etmir. Ermənistan daxilində güclü revanşist qrupların, keçmiş elitanın, kilsənin və radikal millətçi dairələrin sərt müqaviməti fonunda belə bir addımın praktik olaraq həyata keçirilməsi çətindir. Ermənistanın daxili siyasi mühiti nəzərə alındıqda, konstitusiya dəyişikliyi yalnız siyasi liderin bəyanatı ilə deyil, həm də geniş ictimai konsensus, parlament dəstəyi və institusional davamlılıq tələb edir. Sülhün davamlı olması üçün hüquqi ziddiyyətlərin tam aradan qaldırılması qaçılmazdır və bu, regionda uzunmüddətli sabitliyin əsas şərtlərindən biridir.

Bununla yanaşı, Paşinyanın 2026-cı ildə yeni konstitusiyanın qəbul ediləcəyini açıqlaması maraq doğurur. Azərbaycan üçün əsas məsələ dəyişikliklərin vaxtı deyil, onların məzmunu və hazırkı sülh prosesinə real təsiridir. Sazişlərin və prinsiplərin konstitusiyaya uyğun şəkildə qəbul edilməsi, qanuni şəkildə təsdiqlənməsi və həyata keçirilməsi Azərbaycan üçün prioritetdir.

Ermənistan bunu yalnız daxili məsələ kimi təqdim etsə də, faktiki olaraq, konstitusiya dəyişiklikləri və ya yeni sənədin qəbulu regionun təhlükəsizlik və sabitliyinə birbaşa təsir göstərir. Konstitusiyadakı müddəalar və hüquqi çərçivə sülh sazişlərinin icrasını şərtləndirir və Azərbaycan üçün təhlükəsizlik təminatının əsas elementidir.

Beləliklə, Paşinyanın bəyanatları, Vaşinqton sənədinə istinadla birlikdə, Ermənistanın sülhə formal olaraq hazır olduğunu göstərsə də, real nəticələrin əldə olunması yalnız konstitusiya və hüquqi mexanizmlərin praktiki icrasından asılıdır.

**Politoloq Tural İsmayılov** bildirdi ki, Paşinyanın çıxışı Azərbaycan üçün həm imkanlar, həm də ehtiyatlılıq tələb edən risk-



lər yaradır: "Mümkün müsbət istiqamətlər arasında ilk növbədə Ermənistanın ərazi iddialarından rəsmən imtina etməyə meyilli olduğunu göstərmək olar. Bu, uzun illər boyu Azərbaycanın təhlükəsizliyi üçün ciddi narahatlıq doğuran əsas məsələdir. Eyni zamanda, sərhədlərin tanınması prinsipi daha açıq şəkildə müdafiə olunur ki, bu da sülh prosesinin hüquqi və praktiki bazasını möhkəmləndirir. Paşinyanın birbaşa dialoqa hazır olduğunu bəyan etməsi isə Azərbaycanla qarşılıqlı anlaşmanın formalaşdırılması üçün önəmli imkan yaradır. Üstəlik, Ermənistanın yeni siyasi kursu regionda daha praqmatik və əməkdaşlığa əsaslanan münasibətlərin qurulmasına yol aça bilər.

Digər tərəfdən, bəzi risklər və qeyri-müəyyənliklər də mövcuddur. Konstitusiya dəyişiklikləri hələ real addımlarla müşayiət edilmir. Bu, sülh sazişinin hüquqi təsirinin məhdud qalması ehtimalını artırır. Ermənistan daxilindəki revanşist qüvvələr və radikal dairələr prosesi əngəlləyə bilər. Paşinyan hökumətinin zəifliyi uzunmüddətli öhdəliklərin icrasını sual altına qoyur və prosesin davamlılığını risk altında saxlayır. Bundan əlavə, Qərb vasitəçiliyi ilə imzalanan sənədlər regionda geosiyasi rəqabəti artıraraq, sülh prosesinin xarici təsirlərdən asılılığını gücləndirir.

Azərbaycan üçün prioritet, sözlərdən daha çox reallığa əsaslanan, hüquqi və siyasi təminatlarla müşayiət olunan davamlı sülh modelidir. Paşinyanın bəyanatı müəyyən yumşalma siqnalları və dialoq imkanları yaratsa da, hazırda onu yekun siyasi iradə və praktik öhdəlik kimi dəyərləndirmək mümkün deyil. Regionda sabitliyin təmin olunması yalnız konkret addımların icrası ilə mümkündür".

***Pünhan ƏFƏNDİYEV***
***XQ***

# Strateji tərəfdaşlar yeni əməkdaşlıq mexanizmləri axtarışında

## *Bratislava Bakının Avropaya enerji dəstəyinə güvənir*

**Cənubi Qafqazın postmünaqişə mərhələsinə qədəm qoyduğu bir dövrdə regionda təhlükəsizlik anlayışı artıq ənənəvi hərbi konsepsiyadan daha geniş iqtisadi-texnoloji platformaya çevrilir. Dövlətlər yeni geosiyasi çağırışları diplomatiya ilə bərabər həm də sənaye gücü, innovasiya imkanları və istehsal şəbəkələri vasitəsilə qarşılayırlar. Bu fonda Azərbaycanla Avropa ölkələri arasında müdafiə sənayesi sahəsində ortaya çıxan əməkdaşlıq formatları həm siyasi, həm iqtisadi, həm də strateji baxımdan diqqəti cəlb edir.**

Məhz belə bir məqamda dekabrın 8-də Prezident İlham Əliyevin Slovakiyaya rəsmi səfəri xüsusi çəkisi olan siyasi hadisə kimi yadda qaldı. Dövlətimizin başçısının və Slovakiya Prezidenti Peter Pelleqrininin mətbuata birgə bəyanatları əməkdaşlığın gələcək istiqamətlərini müəyyənləşdirən mühüm mesajları ehtiva edirdi. Elə buna görə də Bratislava bəyanatları yeni strateji xəttin konturları kimi dəyərləndirilə bilər. Prezident İlham Əliyev çıxışında 2024-cü ildə imzalanmış "Strateji Tərəfdaşlıq haqqında Birgə Bəyannamə"ni xatırladaraq bildirdi ki, həmin sənəd Azərbaycan–Slovakiya əlaqələrini ən yüksək siyasi səviyyəyə qaldırmaqla yanaşı, sonrakı mərhələdə bütün istiqamətlər üzrə çox dinamik əməkdaşlıq üçün zəmin yaratdı. Dövlətimizin başçısının vurğuladığı kimi, sənəd imzalandıqdan sonra həm siyasi dialoq intensivləşib, həm də iqtisadi və texnoloji sahələrdə yeni əməkdaşlıq mexanizmləri aktivləşib.

Prezident İlham Əliyev çıxışında müdafiə sənayesini ayrıca qeyd etməklə bu sahənin strateji mahiyyətini daha aydın şəkildə ortaya qoydu: "Biz bu sahədə əməkdaşlığı sənayenin inkişafı nöqteyi-nəzərindən görürük. Biz müharibə aparmaq fikrində deyilik. Yəni bizim üçün müharibələr artıq keçmişdə qalır və sadəcə olaraq, burada bir sinergiyanın yaradılması üçün Slovakiya texnologiyaları ilə Azərbaycan maliyyə imkanlarını birləşdirərək yeni məhsulların istehsalı dünya bazarları üçün də maraqlı ola bilər. Həm də ki, bu, texnoloji inkişafın da bir qolu olaraq bizə böyük faydalar verəcəkdir. Biz bu istiqamətdə konkret layihələr üzərində çalışırıq". Buradan da aydın olduğu kimi, həm



Slovakiyanın texnoloji potensialı, həm də Azərbaycanın maliyyə və istehsal imkanları ortaq platformada birləşərək qarşıdakı dövrdə müdafiə sənayesi sahəsində yeni sinergiya yaratmaqdadır.

Slovakiya Prezidenti Peter Pelleqrini də, öz növbəsində, bu məsələni xüsusi vurğulayaraq bildirdi ki, müdafiə sənayesi çox vacib sahədir: "Biz bu sahəni inkişaf etdiririk. Biz, sadəcə olaraq, Azərbaycana silah satmaq niyyətində deyilik. Bildiyiniz kimi, bu sahə Slovakiyada çox inkişaf edib. Biz özüyeriyən artilleriya qurğuları, sursat və digər məhsullar sahəsində də böyük təcrübəyə malikik. Biz Azərbaycanla texnologiya ötürülməsi, Azərbaycanın maliyyəsindən istifadə edilməsi və birgə istehsalın üzərində işləyə və birlikdə istehsal etdiyimiz məhsulları üçüncü ölkələrə sata bilərik". P.Pelleqrininin səsləndirdiyi bu fikirlər Slovakiyanın Azərbaycanla münasibətlərə sırf ticarət-logistika kontekstindən deyil, daha geniş sənaye sinergiyası prizmasından baxdığını göstərir. Başqa sözlə, Bratislava Bakı ilə əməkdaşlığı təkcə hazır məhsul ixracı kimi deyil, həm də hər iki ölkənin güclü tərəflərini bir platformada birləşdirən uzunmüddətli strateji layihə kimi qiymətləndirir. Məhz bu baxımdan, Slovakiyanın təqdim etdiyi model həm rəqabətqabiliyyətli texnologiyanın Azərbaycanda lokallaşdırılmasını, həm də istehsal zəncirinin bir hissəsinin Bakıya daşınmasını nəzərdə tutur.

Slovakiya texnologiyası ilə Azərbaycan maliyyə və istehsal imkanlarının birləşməsi həm hər iki ölkənin müdafiə sənayesi xəttini genişləndirir, həm də onların beynəlxalq bazarlarda mövqelərini gücləndirir. Əlavə olaraq, Slovakiyanın NATO standartlarına uyğun artilleriya və sursat istehsalı sahəsində yığdığı təcrübənin Azərbaycanda tətbiqi yerli sənaye infrastrukturu üçün yeni keyfiyyət mərhələsi deməkdir. Çünki belə əməkdaşlıq modeli Azərbaycana yalnız texnologiya deyil, həm də yeni istehsal mədəniyyəti, modulyar modernizasiya imkanları və ixracyönümlü sənaye strategiyası qazandırır. Nəticə etibarilə, ortaya həm iqtisadi baxımdan səmərəli, həm də siyasi baxımdan gücləndirici bir tərəfdaşlıq formatı çıxır.

Slovakiyanın müdafiə sənayesi son illər Mərkəzi Avropa məkanında diqqətçəkən dirçəliş mərhələsinə daxil olub. Bunun əsas səbəblərindən biri özüyeriyən artilleriya qurğuları, sursat və elektron-optik sistemlər üzrə istehsal xətlərinin ardıcıl modernləşdirilməsidir. Bu, həm ölkənin milli müdafiə prioritetlərinə uyğundur, həm də Aİ tərəfindən dəstəklənən "European Defence Industrial Strategy" çərçivəsi ilə paralel hərəkət edir. Bu mənada, Bratislavanın hazırladığı "Zuzana" artilleriya sistemləri NATO standartlarına uyğunluğu, modullarının çevik yenilənməsi və ixrac qabiliyyəti ilə seçilir. Məhz bu xüsusiyyətlər Slovakiyanın regiondakı müdafiə sənayesi xəttini rəqabətli edir və onu yeni tərəfdaşlıqlara açıq hala gətirir. Elə buna görə də Slovakiya üçün Azərbaycanla ortaq istehsal modelinin çəkisi getdikcə artır. Çünki Azərbaycan həm maliyyə dayanıqlığı, həm də regionlararası logistik mövqeyi ilə istehsalın genişlənməsini daha funksional edir. Bu amillər birgə layihələrin həm iqtisadi səmərəsini yüksəldir, həm də bazara çıxış imkanlarını genişləndirir.

Ölkənin artan ixrac göstəriciləri də bu tendensiyanı təsdiqləyir. 2024-cü ildə Slovakiyanın silah ixracı 1,15 milyard avroya çatıb ki, bu da əvvəlki illə müqayisədə təxminən iki dəfə çoxdur.

Azərbaycan üçün bu əməkdaşlıq təkcə müdafiə sənayesinin genişlənməsi deyil, həm də müstəqil istehsal modeli qurulması deməkdir. Son illərdə dövlət tərəfindən qəbul edilən hərbi-texnoloji modernizasiya xətti göstərir ki, ölkə hazır məhsuldan çox, texnologiyanın özünü mənimsəməyə, daha doğrusu, daxili istehsal gücünün formalaşmasına üstünlük verir. Bu isə tərəfdaş ölkələrin konkret sənaye təcrübəsi ilə mümkündür. Bratislavanın təqdim etdiyi model də məhz buna uyğundur: texnologiya Azərbaycanda lokallaşdırılır, investisiya isə Bakının imkanlarına əsaslanır.

Burada diqqətdən qaçmayan daha incə məqam ondan ibarətdir ki, Avropa dövlətləri Azərbaycanla əməkdaşlığı artıq son illərdə ölkədə formalaşmış siyasi sabitlik, davamlı iqtisadi artım və çoxvektorlu diplomatiya ilə əlaqələndirirlər. Postmünaqişə mərhələsində regionun əsas istiqamətlərini müəyyənləşdirən aktor kimi Bakı tranzit, enerji və təhlükəsizlik sahələrində ardıcıl siyasət yürüdür və bununla da yeni geosiyasi balansın formalaşmasına təsir göstərir. Prezident İlham Əliyevin həyata keçirdiyi bu strateji kurs nəticəsində Azərbaycanın tərəfdaşlıq çərçivələri təkcə regionla məhdudlaşmır, artıq Şərqi Avropanı və daha geniş geosiyasi məkanı əhatə edir. Slovakiyanın mövqeyi də məhz bu reallığı təsdiq edir: Bratislava Bakının yaratdığı sabitlik mühitinə güvəndiyi üçün uzunmüddətli sənaye əməkdaşlığına açıq yanaşır.

Nəticə etibarilə Bratislavada verilən bəyanatlar Avropa təhlükəsizlik arxitekturasının yeni mərhələsində Azərbaycanın oynadığı rolun növbəti təsdiqidir. Regionda formalaşan sabitlik və inkişaf modeli Prezident İlham Əliyevin illərdir davam etdirdiyi ardıcıl strateji kurs sayəsində mümkün olub və Slovakiya kimi ölkələrin əməkdaşlığa açıq yanaşması da məhz həmin modelin beynəlxalq səviyyədə qəbul olunduğunu göstərir.

***Tacir SADIQOV***
***XQ***

# Gürcüstanın Azərbaycan dizelinə tələbatı artır

## *Bakı Tbilisinin enerji təchizatına önəmli töhfə verir*

**Cənubi Qafqazda enerji siyasəti yalnız iqtisadi maraqlarla ölçülmür. O, həm də siyasi sabitlik və regional geosiyasi balans üçün önəmli rol oynayır. Bu baxımdan, Azərbaycan–Gürcüstan enerji əməkdaşlığı son illərdə yeni mərhələyə qədəm qoyub və regionda strateji tərəfdaşlıq nümunəsinə çevrilir. Gürcüstanın neft məhsulları idxalı üzrə açıqlanan statistika bu tendensiyanı aydın göstərir. 2025-ci ilin ilk doqquz ayında Tbilisi 1,3 milyon ton neft məhsulu idxal edib. Ötən illə müqayisədə Rusiya mənşəli dizelin payında azalma müşahidə olunur və bu boşluğu getdikcə Azərbaycan yanacağı doldurur. Xüsusilə, 2025-ci ilin oktyabrında Azərbaycandan dizel idxalı 352 dəfə artaraq 30 min tona çatıb. Bu göstərici təsadüfi deyil, Azərbaycan yanacağının Gürcüstan bazarındakı strateji mövqeyinin sürətlə gücləndiyini ortaya qoyur. Bunun regional geosiyasi əhəmiyyəti də böyükdür.**




Onu da qeyd edək ki, Azərbaycan dizelinin üstünlükləri yalnız iqtisadi deyil, həm də logistika baxımından diqqət çəkir. Bakı–Tbilisi marşrutu Rusiya ilə müqayisədə daha qısa olduğu üçün nəqliyyat xərclərini əhəmiyyətli dərəcədə azaldır. Bu isə nəticədə nəqliyyat xərclərində əksini tapır. Bundan əlavə, Azərbaycan dizeli "Avro-5" standartına uyğun yüksək keyfiyyətə malikdir ki, bu da Gürcüstan üçün əlavə rəqabət üstünlüyü yaradır. Gürcüstan Neft İdxalçılar Birliyinin rəhbəri Vaxtanq İobaşvili bildirib: "Yanacağın keyfiyyəti Gürcüstan laboratoriyalarında "Avro-5" yüksək standarta uyğun olması test əsasında təsdiq edilib... Logistika xərcləri aşağıdır, amma yenə də hər şey "Platts"ın qiymətlərindən və dəmir yolu tariflərindən asılıdır".

Bununla da bazarda qiymətlərin sabitliyi təmin olunur, tədarük etibarlılığı artır və bazar daha rəqabətli hala gəlir. Bu, həm istehlakçılar üçün daha sərfəli qiymətlər deməkdir, həm də Tbilisinin enerji siyasətində çevik və dayanıqlı qərarlar qəbul etməsinə imkan verir.

Prosesin ən mühüm tərəfi isə siyasi mahiyyət daşımasıdır. Çünki Gürcüstan enerji təhlükəsizliyi baxımından Rusiya təsirindən daha müstəqil olur. Enerji sahəsində asılılığın azalması, Rusiya ilə siyasi gərginliyin yüksək olduğu bir kontekstdə Tbilisinin qərbyönlü siyasətini dəstəkləyir və milli təhlükəsizliyini möhkəmləndirir. Azərbaycan isə bu baxımdan heç bir siyasi risk yaratmayan, əksinə, strateji maraqları uzlaşan tərəfdaş kimi çıxış edir. Bu əməkdaşlıq Tbilisinin enerji resurslarını etibarlı mənbələrdən təmin etməklə yanaşı, Gürcüstanın regional sabitliyinə və geosiyasi dayanıqlığına da töhfə verir.

Buna paralel olaraq, Cənubi Qafqazda siyasi gərginlikləri, xüsusilə son vaxtlar Gürcüstanla Rusiya arasında yaranmış soyuqluğu da nəzərə almaq lazımdır. Bu yaxınlarda Gürcüstan Rusiyadan, Abxaziya və Cənubi Osetiyanın müstəqilliyini tanımaqdan imtina etməyi və qoşunlarını bu ərazilərdən çıxarmasını istəyib. Baş nazir İrakli Kobaxidze diplomatik əlaqələrin yalnız bu şərtlər təmin olunduqdan sonra bərpa oluna biləcəyini açıqlayıb və güzəşt olmayacağını vurğulayıb: "Gürcüstan Rusiya ilə Abxaziya və Cənubi Osetiya məsələsində heç bir güzəştə getməyəcək. Bu bizim üçün qırmızı xətdir. Bu mövzu üzrə hər hansı kompromis müzakirə oluna bilməz. Moskva isə bu tələbləri "mümkün olmayan və qeyri-real" hesab edir və hazırda heç bir güzəştə getmək istəmir. Bu vəziyyət Gürcüstanla Rusiyanın münasibətlərinə ciddi kölgə salır və Tbilisinin diplomatik əlaqələri normallaşdırmasına mane olur.

Rusiya, eyni zamanda, Gürcüstan, Abxaziya və Cənubi Osetiya arasında hücum etməmək barədə razılaşmanın bağlanmasını təklif edib, lakin Abxaziya Gürcüstanın bölgəni geri qaytarmaq cəhdlərini "keçmişin fantom ağrısı" adlandırıb və bu gözləntiləri utopik sayır. Bununla da görünür ki, separatçı bölgələr heç cür Gürcüstanın tərkibinə qayıtmaq istəmir. Moskva da bu məsələdə güzəştə getməkdə maraqlı görünmür.

Bu mürəkkəb geosiyasi vəziyyət Gürcüstanın enerji siyasətini strateji baxımdan daha da önəmli edir. Azərbaycan yanacağı Rusiya ilə gərgin münasibət fonunda etibarlı və sabit enerji mənbəyi kimi çıxış edir, Tbilisi isə enerji asılılığını minimuma endirərək milli təhlükəsizliyini təmin edir.



**Elm və Təhsil Nazirliyi İqtisadiyyat İnstitutunun şöbə müdiri Mahir Zeynalov** bildirdi ki, Azərbaycanın Gürcüstanla enerji əməkdaşlığı strateji əhəmiyyət daşıyır: "Gürcüstan Azərbaycanın Avropaya çıxış qapısı, enerji və nəqliyyat dəhlizlərinin əsas nöqtəsidir. Tbilisinin iqtisadi və siyasi sabitliyi Bakının regional siyasətinin təməl sütunlarından biridir. Azərbaycan yanacağının Gürcüstan bazarında mövqeyinin güclənməsi iki ölkə arasında qarşılıqlı əməkdaşlığı artırır, onu daha sarsılmaz edir və Cənubi Qafqazda Bakı–Tbilisi xəttini yalnız iqtisadi deyil, siyasi güc mərkəzinə çevirir.

Bu əməkdaşlıq həm də Avropa enerji təhlükəsizliyi baxımından əhəmiyyət kəsb edir. Rusiyadan asılı olmayan alternativ enerji marşrutunun formalaşması Qərbin regiona yönəlmiş enerji strategiyasına uyğun gəlir və Cənubi Qafqazın enerji xəritəsini dəyişdirir. Kulevi ərazisində tikilən yeni neft emalı zavodu Gürcüstanı idxalçıdan re-eksport mərkəzinə çevirə bilər və bu, əməkdaşlığın iqtisadi və strateji əhəmiyyətini daha da artırır".

Hazırda Gürcüstan bazarına Azərbaycan dizelinin sürətlə nüfuz etməsi, gələcəkdə Rusiya yanacağının tamamilə əvəzlənə biləcəyi perspektivini gücləndirir. Bu isə regionda enerji asılılığının azaldılması, sabitliyin təmin edilməsi və milli təhlükəsizliyin möhkəmləndirilməsi baxımından əhəmiyyətlidir. Nəticədə Azərbaycan–Gürcüstan enerji əməkdaşlığı yalnız iqtisadi qarşılıqlı fayda ilə məhdudlaşmır; regionda sabitlik, təhlükəsizlik və dayanıqlı siyasi balansın formalaşması üçün strateji addım kimi çıxış edir.

Bu əməkdaşlıq həm iqtisadi, həm də siyasi maraqların uzlaşmasını göstərir və Cənubi Qafqazın geosiyasi mənzərəsini yenidən formalaşdırır. Azərbaycan yanacağı Tbilisi üçün həm etibarlı enerji mənbəyi, həm də Rusiya təsirini balanslaşdıran strateji vasitə rolunu oynayır, Bakının isə Gürcüstan vasitəsilə Avropaya çıxışı güclənir".

Beləliklə, Bakı yalnız iqtisadi deyil, həm də geosiyasi güc mərkəzi kimi regionda öz mövqeyini möhkəmləndirir.

***P.ƏFƏNDİYEV***
***XQ***

# "Sərhədsiz reportyorlar"ın qərəzli hədəfləri

**"Sərhədsiz reportyorlar" (RSF) jurnalistlərin təhlükəsizliyi ilə bağlı yeni hesabatını təqdim edib. 2024-cü ilin dekabrından 2025-ci ilin dekabrınadək olan dövrü əhatə edən hesabatda qeyd edilir ki, bu müddət ərzində dünyada 67 jurnalist öldürülüb, 135 jurnalist itkin düşüb, 503 jurnalist həbsdə saxlanılıb, 20 nəfər isə girov götürülüb. Yəni son bir il müddəti jurnalist təhlükəsizliyi baxımından riskli dövr kimi tarixə düşüb.**

Öldürülən jurnalistlərlə bağlı vurğulanır ki, onların 79 faizi müharibə bölgələrində silahlı qüvvələr tərəfindən qətlə yetirilib. Digər qismi isə (16 nəfər) cinayətkar şəbəkələrin qurbanına çevrilib. Bu il müharibə bölgəsində həyatını itirən jurnalistlərin 43 faizi Qəzza sektorunun payına düşür. Onlar İsrail ordusunun zərbələri nəticəsində həyatlarını itiriblər. RSF-nin məlumatına əsasən, 2023-cü ilin oktyabr ayından, yəni İsrailin Qəzza bölgəsində hərbi əməliyyatlara başlamasından sonra ərazidə öldürülən jurnalistlərin sayı 220 nəfərə çatıb.

Rusiya–Ukrayna cəbhəsi də media təmsilçiləri üçün ölüm zonasına çevrilib. Hesabat dövründə orada 3 jurnalist həyatını itirib. Amma ümumilikdə, yəni 2022-ci ildə Rusiya-Ukrayna müharibəsinin başlanmasından sonrakı dövrdə ərazidə 17 nəfər jurnalist öldürülüb, 150 nəfər jurnalist ölümcül xəsarətlər alıb, 18 nəfər girov götürülüb. Rusiya tərəfindən girov götürüldüyü ehtimal edilən 1 nəfər jurnalist itkin düşmüş sayılır.

Jurnalistlərin həbsə alınması üzrə önə çıxarılan ilk 3 ölkə qismində isə Çinin (121 nəfər), Rusiyanın (48 nəfər) və Myanmanın (47 nəfər) adı çəkilir.

Hesabat jurnalist təhlükəsizliyi sahəsində qlobal vəziyyət barədə təsəvvür formalaşdırmaq baxımından əhəmiyyət daşıyır. Amma təəssüf ki, bu, işin yalnız zahiri, görünən tərəfidir. Real monitorinqlərə əsaslanan statistik rəqəmlər RSF hesabatında kiçik bir hissəni əhatə edir. Sənəd, daha çox rəylərdən, reytinq ölçülərindən və onların şərhinə həsr edilmiş subyektiv mülahizələrdən ibarətdir. Hesabatı incələdikcə, aydın olur ki, RSF-nin məqsədi heç də jurnalistlərin təhlükəsizlik durumu barədə aydın təsəvvür formalaşdırmaq, SOS siqnalı vermək, diqqəti bu səmtə yönəltmək deyil. O, həssas bir mövzunu merkantil maraqlar naminə istismar edib. Bəzən rəqəmlər üzərində manipulyasiya edib, bəzən faktları saxtalaşdırıb. Diqqətini hansısa dövlətlərin hədəfə çevrilməsi, nüfuzdan salınması üzərində kökləyib. Gürcüstan üzərində həyata keçirilən "əməliyyat" bu tendensiyanı sübuta yetirmək üçün tutarlı arqumentdir.

Məlumat üçün qeyd edək ki, "Sərhədsiz reportyorlar" "jurnalist təhlükəsizliyi" hesabatına istinad edərək, "Mətbuat azadlığı indeksi"ni hazırlayır. Dünyanın 180 ölkəsində media azadlığının durumunu şərh edərək reytinq cədvəli tərtib edir. 2025-ci ilin reytinq cədvəlində Gürcüstanın adını geridə, 114-cü yerdə, yəni media azadlığının pis olduğunu sərgiləyən qrafada göstərib. Ermənistanı isə önə çəkib, 34-cü pillədə yerləşdirib. Təsəvvür formalaşdırmaq üçün qeyd edək ki, Gürcüstan 2023-cü il siyahısında 77-ci pillədə, Ermənistanın qonşuluğunda (51) yer alıb. 2 il ərzində fantastik ölçüdə, 37 pillə geri çəkilərək ən aşağı pillələrdə yer tutub. Ermənistan isə, əksinə, 17 pillə önə çəkilərək, ən yaxşı yerlərlə mükafatlandırılıb. Nəzərə alaq ki, RSF-nin bu tərtibatına əsasən, Ermənistan guya media azadlığı sahəsində ABŞ-a (57-ci yer), Yaponiyaya (66-cı yer), İtaliyaya (49-cu yer), Türkiyəyə (159-cu yer) nümunə göstərilir. Realdırmı? Həqiqətənmi Ermənistan media azadlığının durumuna görə ABŞ,



**Müşfiq ƏLƏSGƏRLİ,**
**XQ-nin media eksperti**

İtaliya, Yaponiya, Türkiyədən öndədir? Təbii ki, yox.

Bəs nə baş verib ki, Ermənistan bu sıçrayışla önə çəkilib, Gürcüstan isə 2 il ərzində 37 pillə geri atılıb? Axı bu cür diskriminasiya adətən Azərbaycana qarşı sərgilənirdi. İndi isə Gürcüstanın üzərində fokuslanıb.

Təhlillər göstərir ki, problem Gürcüstanın media siyasətində deyil, Avropaya yanaşma kursundadır. Son iki il ərzində Gürcüstan müstəqil xarici siyasət kursu yürütməyə çalışıb. Parlament seçkilərini, prezident seçkisini Avropanın diktəsindən kənar, xalqın iradəsi ilə təşkil etməyə çalışıb. Bu səbəbdən də Avropa İttifaqının qəzəbinə tuş gəlib. Bu qəzəb bütün sahələrə sıçrayıb, siyasi, iqtisadi, humanitar mövzuları bürüyüb. "İnsan haqları", "mətbuat azadlığı", "ifadə özgürlüyü" problemləri süni şəkildə qabardılır, onun üzərindən Gürcüstan total şəkildə basqıların hədəfinə çevrilir. Azərbaycan kontekstində bu situasiya daha aydın görünür.

Məsələ ondadır ki, "Sərhədsiz Reportyorlar"ın mərkəzi ofisi Paris şəhərində yerləşir. Müstəqil hərəkət edən beynəlxalq təşkilat adlandırılsa da, öz fəaliyyətini Fransanın maraqları üzərində qurur, tendensiyalı davranır. Fransa xarici siyasətinin, prezident Emmanuel Makronun hansı ölkəyə yanaşması hansı tərzdədirsə, "Sərhədsiz Reportyorlar"ın yanaşması da eynidir. "Sərhədsiz Reportyorlar" Parisin siyasi ambisiyalarının ruporudur.

Digər tərəfdən, Fransada fəaliyyət göstərən güclü erməni diasporundan yardım alır. Bu mənada erməni diasporunun maraqlarının ifadəçisinə çevrilir. Türkiyəyə, Azərbaycana qarşı daimi olaraq düşmən münasibət sərgiləyir. Türk Dövlətlər Təşkilatına qoşulandan sonra Macarıstanı da hədəfə çevirib. Macarıstanın da adını qeyri-demokratik ölkələrin sırasında yerləşdirib. "Sərhədsiz Reportyorlar" Fransada, Ermənistanda və maraq dairələrində olan digər ölkələrdə qeyri-demokratik proseslərə göz yumur. Fransanın hədəfində olan ölkələrdə isə insidentləri zərrəbbinlə axtarır, olmayan faktları da uydurub siyahıya salır. Nəticə çıxır ki, onun davası demokratiya, söz-ifadə azadlığı, insan haqları deyil. RSF-nin fərqli maraqları, fərqli prinsipləri var.

# Britaniya ilə ticarət 2 dəfə çoxalıb



**Dekabrın 10-da Prezident İlham Əliyev Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığının Azərbaycan Respublikası üzrə ticarət elçisi Lord Olderdaysı qəbul edib. Dövlət başçısı ölkəmizlə bp şirkəti arasında 30 ildən artıq davam edən uğurlu əməkdaşlığı qeyd edib.**

Söhbət zamanı Azərbaycanla Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığı arasında strateji tərəfdaşlıq, dostluq və etimada əsaslanan münasibətlərin uğurla inkişaf etdiyi vurğulanıb, siyasi, iqtisadi, ticarət, investisiya, enerji, o cümlədən bərpaolunan enerji, müdafiə sənayesi, təhsil və digər sahələrdə əməkdaşlığın genişləndirilməsi üçün böyük potensialın olduğu qeyd edilib. İkitərəfli əlaqələrimizin dərinləşdirilməsində müxtəlif səviyyəli qarşılıqlı səfərlərin əhəmiyyətinə toxunulub. Böyük Britaniya şirkətlərinin Azərbaycanın işğaldan azad olunmuş ərazilərində aparılan bərpa və quruculuq işlərində iştirak etməklə bu məsələyə töhfəsi məmnunluqla qeyd olunub.

Qeyd edək ki, Azərbaycanın strateji tərəfdaş olduğu dövlətlərdən biri də Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığıdır. Rəsmi Bakı və London münasibətlərinin çağdaş tarixi 1990-cı illərin əvvəllərində formalaşıb. İki ölkə arasında siyasi münasibətlərin yüksələn xətlə davam etməsi iqtisadi-ticarət sahəsinə də müsbət təsir göstərib. Azərbaycanla Böyük Britaniya arasında ticarət dövriyyəsi bu ilin yanvar-oktyabr aylarında 2 dəfəyə yaxın artıb. Hesabat dövründə iki ölkə arasında ticarət əməliyyatlarının həcmi 1,023 milyard ABŞ dolları təşkil edib. Dövlət Gömrük Komitəsinin məlumatınna əsasən, bu, 2024-cü ilin eyni aylarındakı göstərici ilə müqayisədə 409,4 milyon ABŞ dolları və ya 1,7 dəfə çoxdur.

2025-ci ilin ilk 10 ayında Böyük Britaniya ilə ticarət dövriyyəsi Azərbaycanın ümumi ticarət dövriyyəsinin 2,50 faizi həcmində olub. Bununla da sözügedən ölkə hesabat dövrü ərzində Azərbaycanın ən çox ticarət əməliyyatları apardığı ölkələr sırasında 7-ci pillədə qərarlaşıb.

Cari ilin yanvar-oktyabr aylarında Azərbaycandan Böyük Britaniyaya 278 milyon dollarlıq məhsul ixracı qeydə alınıb. Bu, ötən ilin eyni dövrü ilə müqayisədə 122,6 milyon ABŞ dolları və ya 30,6 faiz azdır. Nəzərdə tutulan dövr ərzində Böyük Britaniyaya ixrac edilmiş məhsulların 273 milyon ABŞ dollarını bitumlu süxurlardan alınmış xam neft və xam neft məhsulları təşkil edib. Bu dəyərdə neft ixracının həcmi isə 514,9 min tona bərabər olub.

Beləliklə, ötən ilin eyni dövrü ilə müqayisədə bu ilin ilk 10 ayında Azərbaycandan Böyük Britaniyaya neft ixracı dəyər ifadəsində 117,8 milyon dollar və ya 30,1 faiz, həcm baxımından isə 135,2 min ton və yaxud 20,8 faiz azalıb. Bununla da Böyük Britaniya hesabat dövründə Azərbaycanın ən çox neft ixrac etdiyi ölkələr siyahısında 7-ci pillədə qərarlaşıb.

Eyni zamanda, hesabat dövründə Böyük Britaniyadan Azərbaycana 744,7 milyon ABŞ dolları dəyərində idxal əməliyyatları icra olunub ki, bu da 2024-cü ilin eyni dövrü ilə müqayisədə 532 milyon ABŞ dolları və ya 3,5 dəfə artım deməkdir. Bununla da hesabat dövründə Böyük Britaniya Azərbaycanın ən çox məhsul idxal etdiyi ölkələr sırasında 6-cı pillədə qərarlaşıb.

Xatırladaq ki, Böyük Britaniya Azərbaycan iqtisadiyyatına ən çox investisiya yatıran dövlətlər sırasında birincidir. Bu ölkə 2023-cü ilin sonunadək Azərbaycan iqtisadiyyatına ümumilikdə 83 milyard ABŞ dolları həcmində sərmayə qoyub. Azərbaycanda 500-dən çox Birləşmiş Krallıq investisiyalı kommersiya qurumu fəaliyyət göstərir.

İki ölkə arasında iqtisadi münasibətlərdə xüsusilə neft-qaz sahəsində əməkdaşlıq əsas rol oynayır. 1994-cü ilin sentyabrında "Əsrin müqaviləsi" imzalandıqdan sonra SOCAR ilə Britaniya şirkəti bp arasında enerji sektorunda səmərəli və davamlı tərəfdaşlıq formalaşıb. Bunun davamı olaraq, 2017-ci il sentyabrın 14-də tərəflər Xəzər dənizinin Azərbaycan sektorunda yerləşən "Azəri", "Çıraq" və "Günəşli" yataqlarının 2050-ci ilədək işlənməsini nəzərdə tutan yeni razılaşmaya imza atıblar. bp "Azəri-Çıraq-Günəşli" və "Şahdəniz" kimi böyük enerji layihələrinin operatoru olmaqla yanaşı, Bakı–Tbilisi–Ceyhan neft kəməri, Bakı–Tbilisi–Ərzurum qaz kəməri, Cənub Qaz Dəhlizinin əsas hissələrindən olan Cənubi Qafqaz boru kəməri, TANAP və TAP kimi genişmiqyaslı layihələrin də aparıcı investorları sırasında yer alır. Bundan əlavə, 2018-ci il aprelin 26-da Prezident İlham Əliyevin Böyük Britaniyaya həyata keçirdiyi işgüzar səfər zamanı bp və SOCAR arasında Xəzər dənizinin Azərbaycan sektorunda, Şimali Abşeron hövzəsində yerləşən D230 sahəsinin birgə araşdırılması və işlənməsi məqsədilə hasilatın pay bölgüsünə dair yeni müqavilə imzalanıb.

Yeri gəlmişkən, bp ilə əməkdaşlıq yalnız neft-qaz sahəsi ilə məhdudlaşmır. Müasir çağırışlara uyğun olaraq, "yaşıl enerji" istiqamətində də fəal birgə fəaliyyət həyata keçirilir. Şirkət hazırda Cəbrayılda 240 MVt gücündə Şəfəq Günəş Elektrik Stansiyasının tikintisini icra edəcək. Bu obyekt işğaldan azad olunmuş ərazilərdə reallaşdırılan ilk sənaye miqyaslı günəş enerjisi layihəsi olmaqla yanaşı, həmin bölgələrdə həyata keçirilən ən böyük birbaşa xarici investisiya təşəbbüsüdür.

Layihə 3 iyun 2021-ci ildə Energetika Nazirliyi ilə bp arasında imzalanmış İcra Müqaviləsinə əsasən həyata keçirilir. Şəfəq GES-də illik təxminən 500 milyon kilovat-saat elektrik enerjisi istehsalı nəzərdə tutulur. Bu isə ildə 120–150 milyon kubmetr həcmində təbii qaza qənaət və 260–330 min ton karbon emissiyasının azalması deməkdir.

Stansiyanın səhmdarları bp, SOCAR və Azərbaycan İnvestisiya Şirkətidir və layihəyə ümumilikdə, təxminən, 200 milyon ABŞ dolları həcmində sərmayə qoyulması planlaşdırılır. Ötən gün bp-nin Xəzər regionu üzrə vitse-prezidenti Bəxtiyar Aslanbəyli III Sənaye Təhlükəsizliyi Zirvəsində çıxışı zamanı deyib ki, artıq Cəbrayıla 13 milyon dollar dəyərində günəş panelləri gətirilib və yaxın zamanda stansiyanın tikintisinə start veriləcək.

*Musa BAĞIRLI*
*XQ*

*Ekspert rəyi*



**Eldəniz ƏMİROV, iqtisadçı**

Ümumiyyətlə, hesab edirəm ki, Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığı Azərbaycanın ən yaxın müttəfiqlərindən biridir. Digər ölkələr də Azərbaycana dost, tərəfdaş və müttəfiq kimi dəstək göstərsələr də, Böyük Britaniyanın ölkəmizin bugünkü qüdrətinin formalaşmasında, beynəlxalq nüfuzunun artmasında və beynəlxalq arenalarda mövqeyinin qorunmasında müstəsna rolu vardır. Bu, xüsusilə Vətən müharibəsi zamanı BMT-dəki səsvermələrdə də aydın şəkildə görünüb.

İqtisadi sahədə də Böyük Britaniyanın rolu mühümdür. 2023-cü ildə Azərbaycan və Böyük Britaniya arasında ticarət əlaqələri yüksək səviyyədə olub, sonrakı dövrlərdə isə müəyyən eniş müşahidə olunub. Lakin 2025-ci ilin 9 ayı ərzində ticarət dövriyyəsi 1 milyard dolları ötərək yenidən sürətli artım nümayiş etdirib. Bundan əlavə, Böyük Britaniya Azərbaycanın ən böyük xarici investisiya tərəfdaşıdır. Ölkəmizə yönəlmiş ən böyük xarici sərmayələr məhz bu ölkədən gəlir.

Enerji sahəsində də Böyük Britaniyanın rolu əvəzsizdir. bp şirkəti 30 ilə yaxındır Azərbaycanda fəaliyyət göstərir və ölkəmizə yönəlmiş xarici investisiyaların ən böyük subyektlərindən biridir. "Azəri–Çıraq–Günəşli" yataqlarında indiyə qədər 45 milyard dollardan çox investisiya qoyulub. Həmçinin "Şahdəniz" qaz-kondensat yatağının işlənməsi, Cənub Qaz Dəhlizi layihəsi, TANAP və TAP layihələrinin icrası prosesində bp-nin iştirakı Azərbaycan üçün xüsusi əhəmiyyət kəsb edir.

Bütün bunlar göstərir ki, Böyük Britaniya yalnız enerji sektorunda deyil, həmçinin iqtisadi və strateji əməkdaşlıq sahələrində də Azərbaycanın etibarlı tərəfdaşıdır.

## Neft şirkəti Macarıstanın qaz təchizatını davam etdirəcək



**Azərbaycan Dövlət Neft Şirkəti (SOCAR) ilə Macarıstanın "MVM ONEnergy" arasında təbii qaz təchizatına dair yeni saziş imzalanıb.**

Sənəd dünən SOCAR prezidenti Rövşən Nəcəfin "MVM Group"un baş icraçı direktoru Karoly Matrai ilə görüşündə imzalanıb.

Gələn ildən qüvvəyə minəcək saziş Azərbaycan ilə Macarıstan arasında strateji enerji tərəfdaşlığının daha da möhkəmləndirilməsinə xidmət edir. Təbii qaz təchizatına dair yeni razılaşma şirkətlər arasında əvvəlki müqavilə əsasında hazırlanıb. Son illərdə hər iki şirkət uğurlu, etibarlı və qarşılıqlı faydalı əməkdaşlıq münasibətlərini davam etdiriblər. Tərəfdaşlığın uzadılması hər iki tərəfin uzunmüddətli enerji əməkdaşlığına və regional enerji təhlükəsizliyinə sadiqliyini əks etdirir.

Görüşdə şirkətlər arasında enerji sektorunun müxtəlif istiqamətləri üzrə əməkdaşlıq məsələləri nəzərdən keçirilib, cari layihələr və gələcək tərəfdaşlıq imkanları ətrafında fikir mübadiləsi aparılıb.

Tərəflər qaz tədarükü, infrastruktur layihələri, davamlı enerji həlləri və regional tərəfdaşlıq istiqamətləri üzrə əməkdaşlığın genişləndirilməsi perspektivlərini müzakirə ediblər.

*XQ*

## Qeyri-neft-qaz sektorunda istehsal artıb

**Dövlət Statistika Komitəsindən bildirilib ki, bu ilin yanvar-noyabr aylarında Azərbaycanda sənaye müəssisələri və bu sahədə fəaliyyət göstərən fərdi sahibkarlar 57,5 milyard manatlıq məhsul istehsal edib. Neft-qaz sektorunda istehsal 2,1 faiz azalıb, qeyri neft-qaz sektorunda isə 4,8 faiz artıb.**

Sənaye məhsulunun 60,6 faizi mədənçıxarma sektorunda, 33 faizi emal sektorunda, 5,4 faizi elektrik enerjisi, qaz və buxar istehsalı, bölüşdürülməsi və təchizatı sektorunda, 1 faizi isə su təchizatı, tullantıların təmizlənməsi və emalı sektorunda istehsal olunub. Mədənçıxarma sektorunda əmtəəlik neft hasilatı 4,7 faiz azalıb, əmtəəlik qaz hasilatı isə 1,1 faiz artıb.

Emal sektorunda əczaçılıq məhsullarının istehsalı 94,9 faiz, ağacın emalı və ağacdan məmulatların istehsalı 60,9 faiz, kompüter, elektron və optik məhsulların istehsalı 49,9 faiz, toxuculuq sənayesi məhsullarının istehsalı 27,1 faiz, rezin və plastik kütlə məmulatlarının istehsalı 13,7 faiz, tütün məmulatlarının istehsalı 13,2 faiz, qida məhsullarının istehsalı 9,8 faiz, neft məhsullarının istehsalı 9,6 faiz, kimya sənayesi məhsullarının istehsalı 8,7 faiz artıb, içkilərin istehsalı 1,6 faiz, tikinti materiallarının istehsalı 3,4 faiz, maşın və avadanlıqların quraşdırılması və təmiri işləri 4,3 faiz, metallurgiya sənayesi məhsullarının istehsalı 8,6 faiz, maşın və avadanlıqların istehsalı 8,7 faiz, hazır metal məmulatlarının istehsalı 9,7 faiz, mebel istehsalı 10 faiz, elektrik avadanlıqlarının istehsalı 11,2 faiz, poliqrafiya məhsullarının istehsalı 18,7 faiz, dəri və dəri məmulatlarının, ayaqqabıların istehsalı 19,9 faiz, geyim istehsalı 20 faiz, kağız və karton istehsalı 26,2 faiz, avtomobil, qoşqu və yarımqoşquların istehsalı 33,9 faiz azalıb.

Elektrik enerjisi, qaz və buxar istehsalı, bölüşdürülməsi və təchizatı sektorunda istehsalın həcmi 0,9 faiz, su təchizatı, tullantıların təmizlənməsi və emalı sektorunda isə 3,3 faiz artıb.

*XQ*

# Azərbaycanın təşəbbüsləri və əməli addımları TDT-yə uğurlar qazandırır

**Türk Dövlətləri Təşkilatı (TDT) son illərdə regionda və qlobal arenada yeni bir güc mərkəzi kimi formalaşmaqdadır. Bu birliyin geosiyasi çəkisi getdikcə artır. Artıq təşkilat üzvləri təkcə mədəni platformada deyil, eyni zamanda, iqtisadi, enerji və siyasi sahələrdə də birgə addımlar ataraq qlobal aktor statusu qazanır.**

Azərbaycanın energetika naziri Pərviz Şahbazovun İstanbulda keçirilən TDT Enerji Nazirlərinin 5-ci iclasında vurğuladığı kimi, TDT artıq geosiyasi mərkəzə və qlobal arenada vacib aktora çevrilir. Bu prosesdə Azərbaycanın rolu xüsusilə seçilir. Məhz Azərbaycanın təşəbbüsləri və strateji addımları sayəsində türk dünyası enerji və iqtisadi inteqrasiyada mühüm uğurlara imza atmaqdadır.

Bu ilin oktyabr ayında Azərbaycanın ev sahibliyi ilə Qəbələdə keçirilmiş TDT sammiti təşkilatın statusunu bir daha göstərdi. Zirvə görüşünün nəticəsi olaraq qəbul edilən Qəbələ Bəyannaməsi türk dövlətlərinin həmrəyliyini və ortaq siyasət iradəsini nümayiş etdirdi. Artıq TDT üzvləri bir çox beynəlxalq məsələlərdə ortaq mövqedən çıxış edir, o cümlədən Kipr və Fələstin kimi həssas mövzularda vahid siyasət sərgiləyirlər. Bundan da önəmlisi, təşkilat siyasi dialoqdan əlavə, iqtisadi və enerji sahəsində də konkret qərarlar almağa başlayıb. Qəbələ sammitində regionun nəqliyyat bağlantılarının gücləndirilməsi istiqamətində ciddi addımlar atıldı.

Naxçıvanla Azərbaycanın əsas ərazisi arasında maneəsiz əlaqənin bərpası, yəni Zəngəzur dəhlizinin açılması strateji prioritet kimi vurğulandı. Bu addım təkcə Naxçıvanın blokadadan çıxmasına yox, eyni zamanda, hazırda fəaliyyət göstərən Bakı-Tbilisi-Qars dəmir yolunun tam gücü ilə istifadəsinə imkan verəcək. TDT liderləri, həmçinin Trans-Xəzər Orta Dəhlizi və Çin–Qırğızıstan–Özbəkistan dəmir yolu kimi layihələrə dəstək ifadə etdilər.

Beləliklə, Mərkəzi Asiyadan Qafqaz üzərindən Avropaya uzanan yeni ticari nəqliyyat arteriyalarının yaradılması türk dövlətlərinin Avrasiya ticarət yollarında daha fəal iştirakı üçün zəmin formalaşdırır. Bu strateji baxış TDT-yə üzv ölkələrin iqtisadi inteqrasiyasını sürətləndirir və təşkilatı regionun əsas logistik qovşaqlarından birinə çevirir.

Şübhəsiz, TDT-nin lokomotivləri sırasında Azərbaycan və Türkiyənin rolu danılmazdır. Azərbaycan ilə Türkiyənin səmimi qardaşlıq münasibətləri türk respublikaları arasında etimad mühitini gücləndirir. Bölgədə gerçəkləşdirilən layihələr sübut edir ki, bu iki ölkənin ittifaqı bütün türk dünyasının maraqlarına xidmət edir.

Bu gün türk dünyasının iqtisadi əməkdaşlığının əsas sütunlarını enerji və nəqliyyat dəhlizləri təşkil edir. Mərkəzi Asiyanın zəngin təbii sərvətlərinin Avropa bazarlarına çıxarılması istiqamətində TDT çərçivəsində geniş koordinasiya mövcuddur. Xüsusilə, Azərbaycan ilə Qazaxıstanın enerji sahəsində tərəfdaşlığı regionun neft və qaz təchizatında mühüm rol oynayır. Qazaxıstan neftinin bir qismi Bakı–Tbilisi–Ceyhan kəməri vasitəsilə dünya bazarına çıxarılır, bu da Azərbaycan ərazisini Orta Asiya üçün etibarlı tranzit marşrutuna çevirir. Ümumiyyətlə, TDT ölkələri birlikdə böyük enerji potensialına malikdir.

Təşkilatın Baş katibi Kubanıçbek Ömüraliyevin sözlərinə görə, TDT üzvləri əhəmiyyətli neft, təbii qaz, kömür və bərpaolunan enerji mənbələrinə malikdirlər – Azərbaycan və Qazaxıstan qlobal enerji bazarında əsas neft-qaz ixracatçıları kimi çıxış edir, Qırğızıstan hidroenergetika potensialına malikdir, Özbəkistan Mərkəzi Asiyanın ən böyük qaz istehsalçılarından biridir, Türkiyə isə həm ənənəvi, həm də günəş və külək kimi bərpaolunan enerjini sürətlə inkişaf etdirir. Belə zəngin baza sayəsində TDT çərçivəsində vahid enerji şəbəkəsi formalaşdırmaq, həmçinin beynəlxalq enerji bazarlarında daha böyük pay qazanmaq mümkündür.

Yaxın illərdə Azərbaycanın təşəbbüsü ilə Xəzər dənizi üzərindən "yaşıl enerji" dəhlizi layihəsi planlaşdırılır – bu layihə çərçivəsində Qarabağ və Şərqi Zəngəzurda qurulan günəş və külək elektrik stansiyalarının istehsal etdiyi enerjinin Azərbaycan–Gürcüstan–Türkiyə xətti ilə Avropaya ötürülməsi nəzərdə tutulur. Burada da məqsəd yalnız Azərbaycanın deyil, potensialda Qazaxıstan və Türkmənistanın da bərpaolunan enerji layihələrinin birlikdə reallaşdırılmasıdır.

Nəqliyyat-kommunikasiya sahəsində də türk dövlətlərinin əməkdaşlığı yeni mərhələyə qədəm qoyub. Artıq beynəlxalq aləmdə "Orta Dəhliz" kimi tanınan Trans-Xəzər nəqliyyat marşrutu Çindən başlayaraq Qazaxıstan, Xəzər dənizi, Azərbaycan, Gürcüstan və Türkiyə üzərindən Avropaya uzanan etibarlı ticarət yoludur. Rusiyadakı müharibə şəraitində şimal marşrutuna alternativ olaraq Orta Dəhlizə maraq daha da artıb – yükdaşımaların həcmi iki dəfə artaraq 2022-ci ildə 3,2 milyon tona yaxınlaşıb. Bu dəhlizin tam potensialla işləməsi üçün TDT ölkələri birgə addımlar atır: Aktau, Ələt, Poti kimi Xəzər və Qara dəniz limanlarında infrastruktur genişləndirilir, dəmir yolu ötürücülük qabiliyyəti artırılır, vahid tarif siyasəti üzərində iş gedir.

Orta Dəhlizin daha səmərəli fəaliyyəti üçün Azərbaycan, Qazaxıstan, Türkiyə və Gürcüstan 2022-2027-ci illəri əhatə edən Yol Xəritəsi layihəsini imzalayıblar. Bundan əlavə, Şimal-Cənub dəhlizi də TDT məkanının bir hissəsidir və Azərbaycan bu marşrutda da əsas əlaqələndirici rol oynayır. İndi isə Zəngəzur dəhlizinin reallaşması gündəmdədir. 2020-ci il 10 Noyabr Bəyanatına əsasən, Ermənistan ərazisindən keçəcək bu bağlantı Azərbaycanın qərb rayonlarını birbaşa Naxçıvan və Türkiyə ilə birləşdirəcək. Artıq Zəngəzur dəhlizi istiqamətində konkret addımlar atılır – Azərbaycan ərazisində dəmir yolunun və avtomobil yolunun tikintisi sürətlə gedir, İran üzərindən alternativ yol layihəsi də nəzərdən keçirilir.

Zəngəzur dəhlizi açıldıqdan sonra Türk dövlətlərinin coğrafiyası fiziki olaraq birləşəcək və Orta Dəhliz daha da qısalacaq. Bu, həm iqtisadi baxımdan tranzit vaxtını və məsafəni azaldacaq, həm də türk dünyasının coğrafi bütövlüyünü təmin edəcək – Qazaxıstandan yola çıxan yük qatarı fasiləsiz şəkildə Xəzəri keçib Azərbaycan üzərindən birbaşa Türkiyəyə gedə biləcək.

Beləliklə, enerji və nəqliyyat dəhlizləri türk dünyasında iqtisadi inteqrasiyanın "qan damarları" funksiyasını daşıyır.

Bu gün TDT üzv 5 dövlət (Azərbaycan, Türkiyə, Qazaxıstan, Özbəkistan, Qırğızıstan) və 2 müşahidəçi (Türkmənistan, Macarıstan) ölkə ilə birgə 170 milyon nəfərə yaxın əhalini əhatə edir. Bu ölkələrin birlikdə illik ÜDM-i 1,5 trilyon ABŞ dollarından çoxdur, qarşılıqlı ticarət dövriyyəsi isə 1,2 trilyon dollara yaxındır. Dünyanın ümumi ticarət dövriyyəsinin təxminən 2,4 faizi artıq türk dövlətlərinin payına düşür.

Təbii ki, bu rəqəmlər daha da artmaq potensialına malikdir, çünki hələ enerji və nəqliyyat sahəsində bütün imkanlar tam reallaşdırılmayıb. Xəzərin böyük qaz ehtiyatlarına sahib Türkmənistan TDT-yə tam qoşulduqdan və enerji şəbəkəsinə inteqrasiya edildikdən sonra təşkilatın ümumi iqtisadi çəkisi daha da artacaq.

Eyni zamanda, TDT məkanında "yaşıl enerji", rəqəmsal iqtisadiyyat, turizm kimi sahələrdə də böyük perspektivlər mövcuddur. Artıq "Türk Yaşıl Enerji Baxışı" adlı təşəbbüs qəbul olunub, iqlim dəyişikliklərinə birgə cavab olaraq ekoloji layihələrin koordinasiyasına başlanılıb. Türk dünyasının turizm potensialını birləşdirmək üçün "Müqəddəs İpək Yolu Turu" kimi ortaq marşrutlar hazırlanır. Bütün bunlar türk dövlətlərinin iqtisadiyyatlarının bir-birini tamamladığını və birlikdə böyük sinerji yarandığını göstərir.

Beləliklə, TDT-nin nüfuzu və regional rolu daha da artır. İndi türk dövlətləri tək-tək deyil, birlikdə hərəkət edən vahid güc mərkəzi kimi çıxış edirlər. Azərbaycan isə bu vahid mərkəzin enerji təminatçısı, tranzit körpüsü və siyasi təşəbbüskar lideridir. Türk dünyası birlikdə güclüdür – XXI əsr məhz bu birliyin inkişaf əsri olacaq. Azərbaycanın fəal iştirakı ilə formalaşan bu yeni geosiyasi-iqtisadi mərkəz Avrasiya məkanında sülhə, rifaha və davamlı inkişafa töhfə verməkdədir.

*Nurlan ABDALOV*
*XQ*

# Ulu öndərin liderlik timsalı gənclərimizə yüksəliş örnəyidir



**“Ulu öndər Heydər Əliyev bütün şüurlu həyatını doğma Azərbaycanın inkişaf və tərəqqisinə həsr etmişdir. Dahi siyasətçi xalqının taleyinin ən ağır anlarında böyük xilaskarlıq missiyası yerinə yetirən görkəmli dövlət xadimidir. Zərrə qədər şübhə yoxdur ki, qədirbilən Azərbaycan xalqı öz dahi oğlunun möhtəşəm xidmətlərini heç vaxt unutmayacaq, Azərbaycanın parlaq gələcəyinə xidmət edən ideyalarına sadiq qalacaq”.**

**Bu sözləri bizimlə söhbəti zamanı ixtisasca jurnalist olan, əmək fəaliyyətinə Quba radiosunda başlayıb, sonrakı illərdə rayonun rəhbər orqanlarında çalışmış, xeyli müddət Qubada Heydər Əliyev Mərkəzinə rəhbərlik etmiş, hazırda Azərbaycan Dövlət Pedaqoji Universitetinin Quba filialının baş müəllimi olan Elza Orucova söylədi. Sonra dərin qürur və həyəcanla sözünə davam edərək ürəyindən dilinə axan fikir və düşüncələrini belə ifadə etdi:**

– Heydər Əliyev Azərbaycanın dünyaya bəxş etdiyi nadir simalardan biridir. Belə dahi siyasətçilər bəlkə də dünyada yüz ildən, min ildən bir doğulur. Ulu öndərin adı və parlaq əməlləri təkcə ölkəmizin deyil, bütün Türk dünyası tarixinin şanlı salnaməsinə qızıl hərflərlə yazılmışdır. Ümummilli lider dərin zəkası, yüksək dövlətçilik təfəkkürü ilə ictimai-siyasi hadisələri düzgün məcraya yönəltməyi bacaran görkəmli tarixi şəxsiyyət idi. Onun yüksək idarəçilik məharəti dünya siyasətçilərini daim heyrətə gətirir.

Bəli, Heydər Əliyevin xalqımız qarşısındakı xidmətləri misilsizdir. O, xalqımızın ən ağır, gərgin, taleyüklü məqamlarında müstəqil Azərbaycan dövlətini qoruyub saxlaya bilmiş, azadlığımızı, istiqlalımızı möhkəmləndirərək, bugünkü və gələcək nəsillərinə ərməğan qoyub getmişdir. Azərbaycan xalqı bu qiymətli mirası göz bəbəyi kimi qorumağa borcludur və buna hazırdır.

**– Tələbə olarkən sizə Ulu öndəri həyatda yaxından görmək və müdrik tövsiyələrini dinləmək kimi xoşbəxtlik nəsib olub.**

– 1970-ci illərin əvvəllərində mən Azərbaycan Dövlət Universitetinin (hazırkı BDU) jurnalistika fakültəsində təhsil alırdım. Universitet bir qrup tələbəni öz hesabına Azərbaycan Dövlət Filarmoniyasının simfonik konsertini dinləməyə göndərmişdi. Həmin tələbələrin arasında mən də vardım.

Etiraf etmək lazımdır ki, həyatımda ilk dəfə simfonik orkestrin çıxışını dinləyirdim. Zalda kimsə dedi ki, respublikanın rəhbəri Heydər Əliyev də tamaşaçıların arasındadır. Bunu eşidib özümüzü tamam yığışdırdıq və diqqətlə konserti dinləməyə başladıq.

Fasilə zamanı Ulu öndər biz gənclərə yaxınlaşdı, harada və necə oxumağımızla maraqlandı. Dinlədiyimiz əsər haqqında soruşdu, bəzi bilgilər verdi, biz də öz fikirlərimizi söylədik. Hiss etdim ki, cavablarımızdan razı qaldı, gülümsəyərək əlimizi sıxdı.

O vaxt dahi rəhbərin nə üçün gülümsədiyini dərindən anlamamışdım. Sonradan bildim ki, filormoniyada bu qəbildən olan simfonik konsertlər məhz Heydər Əliyevin təşəbbüsü ilə təşkil olunur. O illərdə ziyalı və tələbələr də bu konsertlərə cəlb olunurdular.

**– Keçmiş jurnalist olaraq, siz də şahidsiniz ki, Ulu öndər Azərbaycanın hər bir bölgəsi kimi, Qubanın da iqtisadi, sosial, mədəni inkişafına böyük diqqət və qayğı göstərib.**

– Heydər Əliyevin Azərbaycana rəhbərlik etdiyi 1970-ci illərdə ölkənin hər yerində böyük yüksəliş mərhələsi başlanmışdı. Təkcə paytaxtda deyil, o vaxta qədər ictimai-siyasi, iqtisadi və mədəni həyatını süstlük və ətalət bürüyən bölgələrin həyatında da ciddi, müsbət dəyişikliklər baş verirdi. Bu, Qubada da açıq-aşkar hiss olunurdu.

Heydər Əliyev hər dəfə Quba rayonuna səfər edərkən, rayon ictimaiyyətinin nümayəndələri, qabaqcıl əmək kollektivləri ilə görüşərdi. Bu görüşlər zamanı Ümummilli lider Qubanın tarixi, əsrarəngiz təbiəti, fədakar zəhmət adamları barədə dəyərli fikirlər söyləyib. Bütün bunlar yerli sakinlərdə sonsuz iftixar və qürur hissi yaradırdı, onları daha yaxşı işləməyə həvəsləndirərdi.

Xatırlatmaq istərdim ki, 1970-ci illərdə Heydər Əliyevin təşəbbüsü ilə respublikamızda bağçılığın inkişaf etdirilməsi ilə bağlı 3 qərar qəbul edilmişdir. Məhz həmin mühüm sənədlərə uyğun olaraq Quba rayonunda 15 min hektar intensiv meyvə bağı salınmışdır. Meyvəçilik bu gün rayon iqtisadiyyatının əsasını təşkil edir. Heydər Əliyevin göstərişi ilə salınmış meyvə bağları qubalıların çörək ağacı sayılır.

Heydər Əliyevin tapşırığı ilə Qubaya təbii qaz xətti çəkilmişdi. Qırızdəhnə kəndindən rayon mərkəzinə bulaq suyunun çəkilişi də uğurla həyata keçirilmişdi. Rayonda bir sıra ümumtəhsil məktəbləri, konserv zavodları, digər emal müəssisələri, doğum evi, mədəniyyət evləri tikilərək istifadəyə verilmişdi. Bunların hamısını bir-bir sadalasaq, böyük bir siyahı alınar.

**– Belə bir fikir var ki, 1980-ci illərin sonlarında Heydər Əliyev Azərbaycana rəhbərlik etsəydi, Qarabağımız əldən getməz, xalqımız 30 illik ümummilli faciəyə düçar olmazdı.**

– Əlbəttə, elədir. Əgər Azərbaycanın məkrli düşmənləri Kremldə xain Qorbaçovun əli ilə Heydər Əliyevi siyasi hakimiyyətdən uzaqlaşdırmağa nail olmasaydılar, Azərbaycan xalqı sonrakı illərdə bu ağır fəlakət və məhrumiyyətlərlə üzləşməzdi. Amma qeyd etmək lazımdır ki, xalqımızın dahi oğlu o dövrdə böyük siyasətdən kənarlaşdırılsa belə, həyatından çox sevdiyi xalqının daim yanında olmuşdur. 1990-cı ilin 20 Yanvarında, eləcə də də sonrakı çətin dönəmlərdə Heydər Əliyev hər zaman xalqı ilə bir yerdə olmuşdur.

Azərbaycan xalqı müdrik xalqdır. Xalq 1993-cü ilin iyununda yenidən hakimiyyət sükanını öz dahi oğluna etibar etdi. Heydər Əliyevin qətiyyəti və zəngin təcrübəsi sayəsində xaos burulğanında boğulan ölkədə sabitlik bərpa olundu. Milli dövlətçilik quruculuğu başlandı. Bütün bunlar titanik səylər tələb edirdi. Bu şərəfli missiyanın öhdəsindən yalnız Heydər Əliyev kimi cahanşümul siyasətçi gələ bilərdi!

Ulu öndər 1998-ci ilin sentyabrında ölkədə keçirilən prezident seçkiləri ərəfəsində növbəti dəfə Qubaya gəldi və əhali ilə geniş görüşlər keçirdi. Mən Yeni Azərbaycan Partiyasının fəalı kimi həmin görüşlərdə, onların təşkil olunmasında fəal iştirak etmişəm. Yadımdadır, hamının simasında bir bəxtəvər ifadə vardı. Qubalıların Ulu öndərə sevgisi, həqiqətən, sonsuzdur.

**– Yeri gəlmişkən, elə həmin ilin sentyabrında Bakıda Azərbaycan qadınlarının I qurultayı keçirilib. Siz qurultay iştirakçısı olubsunuz. Təəssüratlarını bilmək istərdik.**

– Azərbaycan qadınlarının birinci qurultayında Ulu öndər proqram xarakterli tarixi nitq söylədi. Qadınlarımızın həyatın bütün sahələrindəki yüksək fədakar əməyini yüksək qiymətləndirdi, onları daha fəal iştirak etməyə səslədi.

Heydər Əliyev təkcə böyük siyasətçi deyildi, həm də son dərəcə xeyirxah ürək sahibi idi. Hər bir Azərbaycan vətəndaşına, eləcə də xanımına xüsusi diqqət və qayğı göstərməyi özünə borc bilirdi. Qurultayda hər bir rayonun nümayəndə heyəti, eləcə də Quba rayonundan olan xanımlarla yadigar şəkil çəkdirdi. O xoşbəxt anlar qəlbimizdə əbədi həkk olunub.

**– Elza xanım, siz son illər pedaqoji sahədə çalışırsınız. Demək olar ki, hər gün tələbələrlə universitet auditoriyalarında ünsiyyətdə olursunuz. Rayonda gənclərin Ulu öndərin siyasi və ideya irsini dərindən öyrənmələri üçün hansı işlər görülür?**

– Heydər Əliyev zəngin irsinin uşaq, yeniyetmə və gənclər arasında geniş təbliği son dərəcə vacibdir. Mən ADPU-nun Quba filialında “Heydər Əliyev və Azərbaycan təhsilinin inkişafı” fənnindən dərs deyirəm. Mühazirə və seminarlarda belə bir fikri xüsusi vurğulayıram ki, Ulu öndərin zəngin ideya irsi Azərbaycan gəncləri üçün mayak rolunu oynayır.

Gənclərimiz Ulu öndərin parlaq şəxsiyyətinə, mənalı həyat yoluna dərin maraq göstərirlər. Onlar həyat və fəaliyyətlərində bu böyük şəxsiyyətdən nümunə götürməyə çalışırlar. Başa düşürlər ki, Vətəni sevmək hələ azdır, xalqa və dövlətə sədaqətlə xidmət etmək, hər yerdə başını uca etmək lazımdır. Bunun üçün də Heydər Əliyev örnəyi var!

Nə qədər Azərbaycan var, bir o qədər də Heydər Əliyevin ölməz ideyaları yaşayacaq. Bizim borcumuz bu görkəmli tarixi şəxsiyyətin yüksək idarəçilik və təşkilatçılıq ənənələrini əbədi yaşatmaqdır. Bunun üçün Ulu öndərin ən layiqli davamçısı, Müzəffər Ali Baş Komandan, Prezident İlham Əliyevin ətrafında bundan sonra da sıx birləşməliyik. Bunu Azərbaycan naminə, xalqımızın parlaq gələcəyi naminə etməliyik!

***Söhbəti qələmə aldı:***
***Məsaim ABDULLAYEV***
***XQ***

# Rumıniya–Azərbaycan strateji münasibətləri yeni mərhələdə

**(əvvəli 1-ci səhifədə)**



Rumıniya xarici siyasət sahəsində beynəlxalq qurumlar qarşısında üzərinə götürdüyü öhdəlikləri həmişə hörmətlə yerinə yetirir. Bu ölkə, eyni zamanda nəinki mənsub olduğu regionun, həm də ondan kənarda yerləşən ölkələrin də iqtisad inteqrasiya prosesinin gücləndirilməsinə çalışır və bu sahədə öz töhfələrini də verir. Rəsmi Buxarest Gürcüstan, Ukrayna və Türkiyənin Avropa Birliyinə qoşulmaq istəklərini dəstəkləyir. Rumın hökuməti ortaq tarixi keçmişə malik olduğu qonşu Moldova ilə münasibətlərin inkişafına böyük diqqət yetirir. Rəy sorğusuna görə, Rumıniyanın “ən yaxşı dostu” Moldova Respublikasıdır, ardınca digər ölkələr, xüsusilə Azərbaycan gəlir.

Çoxtərəfliliyə, kollektiv təhlükəsizliyə və demokratik dəyərlərə üstünlük verən Rumıniya hökuməti Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatı kimi təşəbbüslər vasitəsilə regional əməkdaşlığı təşviq edərkən, Ukrayna, Moldova, Macarıstan və Bolqarıstan da daxil olmaqla qonşu dövlətlərlə aktiv diplomatik münasibətlər saxlayır və onu dönmədən inkişaf etdirir. Rumıniyanın Avropa İttifaqı və NATO daxilində rolunun və nüfuzunun gücləndirilməsi, eləcə də ABŞ ilə strateji tərəfdaşlığın gücləndirilməsi və genişləndirilməsi bu ölkənin xarici siyasətinin “strateji konseptual üçlüyünü” təşkil edən beynəlxalq fəaliyyətinin əsas sütunları olaraq qalır.

Azərbaycan ilə Rumıniya arasındakı münasibətlərin əsrlərcə yaşı var, tarixin dərinliklərinə gedib çıxır. İki ölkə arasında əməkdaşlığın tarixi kökləri XV əsrə gedib çıxır, o vaxt Ağqoyunlu hökmdarı Uzun Həsən ilə Moldova knyazı Böyük Ştefan arasında müttəfiqlik haqqında müqavilə bağlanmışdı. Ötən əsrin əvvəllərində əfsanəvi azərbaycanlı general S.Mehmandarov Rumıniya ordeni ilə təltif edilmişdi.

Rumıniya Azərbaycanın dövlət müstəqilliyini 11 dekabr 1991-ci ildə rəsmi şəkildə tanıyan ikinci ölkə (Türkiyədən sonra), Avropa İttifaqına üzv dövlətlərin arasında isə ilk ölkə oldu. İki ölkə arasında diplomatik əlaqələr 19 iyun 1992-ci il tarixində yaradıldı. Rumıniyanın Azərbaycan Respublikasındakı Səfirliyi 3 noyabr 1998-ci il tarixində açılmışdır. Azərbaycanın Rumıniyadakı səfirliyi isə 21 may 2001-ci ildə açılmışdır. İki ölkə arasında 2009-cu ilin sentyabrından etibarən inkişaf edən strateji tərəfdaşlıq münasibətləri qurulub. O dövrdən bəri Avropa İttifaqı və NATO-nun üzvü kimi Rumıniya Azərbaycanın Avroatlantik strukturlarına daha da inteqrasiyası üçün ciddi səylər göstərməkdə davam edir. Bu Balkan ölkəsi beynəlxalq təşkilatlarda Azərbaycanı ardıcıl olaraq dəstəkləyib və onun ərazi bütövlüyünü daima müdafiə edib.

Rumıniya və Azərbaycan arasında münasibətlərin hüquqi bazasını iki dövlət arasında imzalanmış 60-dan çox sənəd, o cümlədən dostluq münasibətləri və əməkdaşlıq haqqında, eləcə də müdafiə sahəsində və informasiya mübadiləsi haqqında müqavilə və sazişlər təşkil edir.

Azərbaycan ilə Rumıniya arasındakı münasibətlər enerji, nəqliyyat və siyasi sahələrdə inkişaf edən strateji tərəfdaşlıq kimi xarakterizə olunur. Rumıniya Azərbaycana Xəzər dənizinə açılan qapı, Azərbaycan isə Rumıniyaya Qara dənizdə Avropaya yol açan mühüm tərəfdaş kimi baxır. Bu əməkdaşlıq iqtisadi, mədəni və parlamentlərarası əlaqələri, eləcə də Azərbaycan qazının Avropa bazarına tədarükü və Qara dəniz sualtı yaşıl enerji elektrik kabeli layihəsində iştirak kimi birgə layihələri əhatə edir.

Hazırda Azərbaycan ilə Rumıniya dost və tərəfdaş ölkələrdir. Ölkələrimiz arasında yüksək səviyyəli siyasi dialoq fəal şəkildə davam edir. Həmçinin Strateji Tərəfdaşlığa dair iki mühüm sənəd imzalanmışdır.

2024-cü il dekabrın 9-da Prezident İlham Əliyev Azərbaycan, Gürcüstan, Rumıniya və Macarıstan arasında strateji tərəfdaşlıq müqaviləsində dəyişiklik edilməsi barədə protokolu təsdiqlədi. Qeyd edək ki, Azərbaycan Respublikası, Gürcüstan, Rumıniya və Macarıstan hökumətləri arasında Yaşıl Enerjinin İnkişafı və Transferi Sahəsində Strateji Tərəfdaşlıq haqqında Saziş 17 dekabr 2022-ci ildə Buxarestdə imzalanmışdı.

Xüsusilə parlamentlərarası əlaqələr də daxil olmaqla, müxtəlif sahələrdə əməkdaşlıq inkişaf edir. Əlbəttə ki, keçirilən görüşlərdə qarşılıqlı münasibətlərin inkişaf etdirilməsi ilə yanaşı, regional əməkdaşlıq və dinc–yanaşı yaşamaq məsələləri müzakirə olunur. Belə ki, ikitərəfli münasibətlərin inkişafında parlamentlərarası əlaqələrin, həmçinin beynəlxalq parlament təsisatlarında əməkdaşlığın əhəmiyyəti böyükdür.

Bu il oktyabrın 28-də Milli Məclisin sədri Sahibə Qafarova Azərbaycan Respublikası Konstitusiyasının 30-cu ildönümünə həsr olunmuş Beynəlxalq Parlament Konfransında iştirak etmək üçün ölkəmizdə səfərdə olan Rumıniya Parlamenti Senatının sədri Mirça Abrudean ilə görüşüb. Görüşdə Azərbaycan ilə Rumıniya arasında strateji tərəfdaşlığın uğurla inkişaf etdiyi vurğulandı.

Hüquq–mühafizə orqanları arasında əlaqələr də inkişaf edir. Cari il noyabrın 23-də Azərbaycan Respublikasının Baş prokuroru K.Əliyevin başçılıq etdiyi nümayəndə heyəti rumıniyalı həmkarı A.Florentsanın dəvəti ilə Buxarestdə işgüzar səfərdə oldu. Onların arasında müvafiq razılaşmalar əldə edildi.

İki ölkə arasında əməkdaşlığın daha da inkişaf etdirilməsi üçün geniş imkanlar mövcuddur. İkitərəfli və çoxtərəfli layihələrdə iştirak sahəsində hər iki ölkənin uğurlu addımlarını qeyd etmək olar. Azərbaycan, Rumıniya, Gürcüstan və Macarıstanın iştirakı ilə Qara dənizin dibi ilə elektrik kabel xəttinin çəkilməsi layihəsi miqyaslı əməkdaşlıqdan xəbər verir. Bu layihə yuxarıda adları çəkilən ölkələrin hökumətləri arasında imzalanmış, “yaşıl enerji”nin inkişafı və ötürülməsi sahəsində strateji tərəfdaşlığa dair saziş çərçivəsində həyata keçirilir.

Neft və qaz sənayesində zəngin ənənələri və bu sahədə yüksək elmi potensialı olan Rumıniya enerji sektorunda Azərbaycanla əlaqələri inkişaf etdirmək və bununla da Xəzər və Qara dəniz regionlarının daha da yaxınlaşmasına kömək etmək niyyətindədir.

Energetika sahəsində əməkdaşlıq getdikcə daha aktual əhəmiyyət kəsb edir. Bunun həm Azərbaycanın, həm də Mərkəzi Asiya regionu dövlətlərinin bərpaolunan enerji resurslarının Avropa bazarlarına çıxarılması baxımından xüsusi əhəmiyyəti var. Həmçinin Rumıniya və Azərbaycan bir-birinin enerji sektorlarına investisiya qoyublar. İnvestisiyalar və bir sıra mühüm layihələrin həyata keçirilməsi sahəsində səmərəli əməkdaşlıq inkişaf etdirilir. Bunlardan bəziləri, məsələn, Bakı dəniz limanından Gürcüstan və Qara dəniz vasitəsilə Rumıniyaya enerji kabeli çəkilməsi kimi layihələr artıq Avropa İttifaqı və digər beynəlxalq maliyyə qurumları tərəfindən maliyyələşdirilmək üzrədir.

Rumıniya və Azərbaycanda Xəzər dənizinin sahil zonalarında, Qara dənizin sahilboyu zonalarında külək enerjisi kimi “yaşıl enerji” tutumunu artırmaqla və “yaşıl enerji” ilə bağlı bütün sahələrə investisiya qoymaqla əməkdaşlıq etməyi nəzərdə tutur. Belə bir şəraitdə 2025-ci il aprelin 3-də Azərbaycan Enerji Tənzimləmə Agentliyi və Rumıniya Milli Enerji Tənzimləmə Agentliyi enerji tənzimlənməsi sahəsində əməkdaşlıq haqqında niyyət memorandumu imzalayıblar. Memorandum iki qurum arasında elektrik enerjisi, bərpaolunan enerji mənbələri, təbii qaz, yaşıl hidrogen və enerji infrastrukturu sahələrində əməkdaşlığı inkişaf etdirməyi hədəfləyir.

Hazırda Dövlət Neft Şirkəti və Romqaz arasında Azərbaycandan Rumıniyaya qazın təchizatı barədə müqavilə imzalanmışdır. Azərbaycan qazının Rumıniyaya, o cümlədən Yunanıstan-Bolqarıstan birləşdirici kəməri vasitəsilə tədarükü başlayıb. Azərbaycan şirkəti SOCAR Rumıniyada 80 yanacaqdoldurma məntəqələri və bir neçə yanacaqsaxlama məntəqələri şəbəkəsi ilə təmsil olunur.

Ötən ilin aprelində Bakıda Azərbaycan və Rumıniya hökumətləri arasında ticarət, iqtisadi əlaqələr və elmi-texniki əməkdaşlıq üzrə birgə komissiyanın 8-ci iclasının yekunlarına dair protokol imzalandı. Həmçinin baytarlıq və qida təhlükəsizliyi sahəsində əməkdaşlıq haqqında anlaşma memorandumları da imzalandı.

Azərbaycan və Rumıniya bu il noyabrın 17-də informasiya və kommunikasiya texnologiyaları sahəsində Anlaşma Memorandumu imzalayıblar. Memorandum qarşılıqlı təcrübə mübadiləsinin genişləndirilməsini, eləcə də birgə layihələrin və təhsil proqramlarının həyata keçirilməsini nəzərdə tutur. Müzakirə olunan prioritet sahələr arasında xidmətlərin keyfiyyətinin artırılması, istehlakçıların hüquqlarının qorunması, rəqəmsal transformasiya və innovativ həllərin tənzimlənməsi məsələləri də yer alıb.

Hesablamalara görə, Rumıniyada Azərbaycan səfirliyinin açılmasından bu günədək ticarət dövriyyəsi 25 dəfə artıb. Bu ilin yanvar-oktyabr aylarında Azərbaycan Rumıniyaya 475,9 milyon dollar dəyərində 869,6 min ton xam neft və bitumlu süxurlardan əldə edilən neft məhsulları ixrac edib. 2024-cü ilin eyni dövrü ilə müqayisədə göstərici dəyər baxımından 125,1 milyon dollar və ya 35,7 faiz, həcm baxımından isə 283,9 min ton və ya 48,5 faiz artıb. Nəzərdən keçirilən dövrdə Rumıniya Azərbaycanın neft və neft məhsulları ixrac etdiyi ölkələr arasında 5-ci yerdə qərar tutub. Əlavə edək ki, 2025-ci ilin yanvar-oktyabr aylarında Azərbaycan 10,9 milyard dollardan çox dəyərində təxminən 20,8 milyon ton xam neft və neft məhsulları ixrac edib.

Tərəflər nəqliyyat və logistika sahəsində əlaqələri yüksək qiymətləndirirlər. Azərbaycan və Xəzər dənizi Rumıniya tərəfindən mühüm nəqliyyat və logistika qapıları hesab olunur. Bu gün Rumıniya Azərbaycan üçün Avropaya açılan qapıdır, desək, yanılmarıq.

Mədəni və humanitar əlaqələrin inkişafı üçün də əlverişli şərait mövcuddur. Münasibətlər, məsələn, media təşəbbüsləri vasitəsilə humanitar sahədə də möhkəmləndirilir. İki ölkə təhsil və elm ocaqları arasında əlaqələr mövcuddur. Azərbaycan Dillər Universiteti, Azərbaycan Milli Elmlər Akademiyasının ayrı-ayrı şöbələrinin Rumıniyanın müvafiq universitetləri ilə əməkdaşlığı mövcuddur. Həmçinin Yassı Universitetində Azərbaycan Multikulturalizm Mərkəzi fəaliyyət göstərir.

Buxarest şəhərinin mərkəzində Tey parkında ümummilli lider Heydər Əliyevin abidəsi ucalır. Eyni zamanda, Bakının Binəqədi rayonunda ucaldılmış dünya şöhrətli böyük rumın musiqiçisi, skripkaçı, bəstəkar və dirijoru Corc Eneskunun abidəsi şəhər sakinlərinin zövqünü oxşayır.

Müstəqillik illərində “Kitabi-Dədə Qorqud” dastanı, Azərbaycan poeziyasının klassiki Füzulinin əsərləri, “Leyli və Məcnun” poeması və s. kimi Azərbaycan ədəbiyyatının bir sıra tərcümələri rumın dilində nəşr olunması ilə yanaşı, 2022-ci ildən başlayaraq, Rumıniyanın Bakıdakı Səfirliyi ilə Azərbaycan Respublikası Yazıçılar Birliyi arasında əməkdaşlıq layihələri çərçivəsində Rumıniyanın səfiri, Azərbaycan xalqına və onun mədəniyyətinə böyük hörmət bəsləyən Vasile Soare və yorulmaq bilməyən şair Səlim Babullaoğlunun koordinasiyası ilə rumıniyalıların milli şairi Mihai Eminesku, hazırda yaşayan son böyük klassik şair Ana Blandiana və digər rumın şair və nasirlərinin əsərləri Azərbaycan dilinə tərcümə olunub.

Vurğulamaq olar ki, strateji tərəfdaşlıq çərçivəsində əməkdaşlıq üçün hər iki ölkənin hələ istifadə olunmamış potensial imkanları çoxdur. Qarşılıqlı inteqrasiya prosesinin gücləndirilməsi, ikitərəfli və çoxtərəfli iqtisadi və enerji layihələrinin həyata keçirilməsi nəticəsində bu imkanların tam reallaşdırılması üçün münbit zəmin yaranacaqdır. Tam əminliklə deyə bilərik ki, Cənubi Qafqazda və Cənub-Şərqi və Mərkəzi Avropada hərbi münaqişələrin tamamilə aradan qaldırılmasından sonra Azərbaycan-Rumıniya strateji tərəfdaşlığı yeni mərhələyə yüksələcəkdir!

***Atamoğlan MƏMMƏDLİ,***
***BDU-nun dosenti***

*I Türkoloji Qurultay – 100*

# 100 il əvvəldən gələn səslər

## *Ən maraqlı məruzələrin icmalı və şərhi*

**Akademik Bartoldun "Türk xalqlarının tarixinin öyrənilməsinin müasir vəziyyəti və yaxın vəzifələri" adlı məruzəsinin icmalının davamı.**

***(əvvəli qəzetimizin 9 dekabr 2025-ci il sayında)***



...İslam hazırda, sözün əsl mənasında, dünyəvi bir dindir. Yalnız islam müxtəlif mənşəli və mədəni keçmişi olan xalqları öz təsiri ilə birləşdirdi. Buddizm yalnız Şərqi Asiya dünyasının dini olaraq qalır, xristianlıq isə tədricən Avropanın (Avropa xalqlarının və nisbətən sayca, mədəni baxımdan əhəmiyyət daşımayan Avropadan köç etmiş digər etiqad sahiblərinin) dini olmuşdur. İslam əsasən Ön Asiya dünyasının dini olsa da, bu gün Şərqi Asiyada, Hindistanda və Zond adalarında davamçıları Qərbi Asiyadakından daha çoxdur. Çin islamı da möhkəm və müstəqil təsir gücünə malikdir, halbuki Çində milli xristian kilsəsi yaratmaq cəhdləri uğurla nəticələnməmişdir. Eyni möhkəm və qüdrətli təsir Afrika islamına da xasdır.

Müsəlman türklərin Ön Asiyanı fəthetmə hərəkatı hələ islamdan əvvəlki dövrdə başlanmış, islamı qəbul etdikdən sonra da uğurla davam etdirilmişdir. Xəlifəlik və ya İran hökmdarlarının dövründə xidməti rütbəsi ilə ucalmış türk mənşəli sülalələr olsa da, monqol dövrünə qədər islamı qəbul etmiş iki türk dövləti yaranmışdır: İranda və Kiçik Asiyada səlcuqların imperiyası və müsəlman tarixçilərinin Türküstandakı "Əfrasiyabın evi" adlandırdıqları Qaraxanilər dövləti. Yalnız "türkmən" adının mənşəyi aydın deyil: Şərq müəlliflərinin xalq etimologiyasının fantaziyalarına əsaslandırılmış uydurmalarına rast gəlirik. Amma Qaraxanilərin hansı türk tayfasından törədiyi indiyə kimi müəyyən edilməmişdir, bu barədə Mahmud Kaşğarinin məhz Qaraxanilər dövrünə aid olan əsərlərində də məlumat yoxdur. Onun dediklərindən, yalnız xanların mifik türk hökmdarı olan Əfrasiyabın nəslindən olduqlarını iddia etdikləri məlum olur; fars mədəniyyətinin təsiri o qədər güclü idi ki, onun təsiri ilə bir çox xan özləri ilə sülalələrindəki türklər arasında olan əlaqəni dərk etmirdilər.

Müsəlman dünyasının tarixində türklər əhəmiyyətli yer tuturdular, Məhəmməd Peyğəmbərə (s.) belə onların müsəlmanlarla gələcək münasibətlərinə dair kəlamlar aid edilmişdir. Bu ifadələrdə türklərin irqi xüsusiyyətləri: xırda gözlər, ensiz burunlar və s. qeyd olunur ki, bu da bir sıra müasir dövr aliminin türklərin monqollara qarışmazdan öncə ağ irqə mənsub olduqlarını sübutetmə cəhdlərini təkzib edir. Əlbəttə, türklərin tipi Qərbə doğru hərəkatları ilə əlaqədar bir qədər dəyişilməli idi.

Türkmənlərin ən spesifik antropoloji xüsusiyyətlərindən biri, uzunsov baş forması tipidir; bunu indi Orta Asiya səhralarında türklərin əvvəllər orada yaşayan İran köçəriləri ilə qarışması ilə izah etməyə çalışırlar. İslamın daha geniş yayılmasından əvvəl türklər müsəlman dünyasında ərəb və farslardan sonra üçüncü etnoqrafik element hesab olunurdular. İranın mədəni təsirinə baxmayaraq, türklər öz dillərini qoruyub saxlamışlar; digər dillər ilə qarşılaşsa da, canlı dil kimi üstün mövqe tutmuş və indiyə kimi Türküstan, İran və Qafqazda öz təsir gücünü genişləndirməkdədir.

Bir neçə türk xalqı öz dillərində ədəbiyyat yaratmışdır, baxmayaraq ki, tərkibində kifayət qədər ərəb və fars sözləri vardır. Zaman baxımından türk və müsəlman ədəbiyyatının ilk mərkəzi Kaşğar olmuşdur, ardınca, XII əsrdə, bu baxımdan, Xarəzm və ona qonşu olan Sır-Dəryanın aşağı – ön axarı boyunca olan ərazilər əhəmiyyət qazanmışdı. Burada yaranmış ədəbi hərəkat monqollar dövründə daha güclü davam etmişdi, bununla bağlı olaraq Çağatay ədəbi dili yaranmış və fars dilinə ilk rəqib dil olmuşdur.

Çağatay termini yaranmazdan əvvəl – XIV əsrin əvvəllərində Orta Asiya kökənli bir müəllif xarəzmli şairin şeirləri barədə danışarkən ərəb, fars və türk dillərini müsəlman dünyasının üç ədəbi dili olduğunu qeyd etmiş və türk dilinin dürüstlüyünü ərəb dilinin qüdrətini və fars dilinin məntiqini qarşılaşdırmışdır. Türk ədəbiyyatı təqlid xarakterli olsa da, onun dili, xüsusən Orta Asiyada fars poeziyası, hətta fars nəsrindən daha sadə və aydındır.

Türklər islamı qəbul etdikdən sonra müsəlman dininin sadiq müdafiəçiləri oldular. Qərbdəki barbarlar kimi, Şərqdəki türklər dini qanunların qoruyucusu, qadağanı pozanların qisasçısı rolunda çıxış etmişlər, bu ideya ilə türklər fateh kimi müsəlman ölkələrinə qarşı hərəkatlarına bəraət qazanmış olurdular.

Mahmud Kaşğari yazır: "Şərqdə mənim türk qoşunum var, hansı tayfaya qəzəbim tutsa, həmin qoşunu onların üstünə göndərirəm". Qərbdəki barbarlar kimi, türklər də sidq ilə islama bağlanmaları bəzən maddi və mənəvi mədəniyyətə qarşı silaha çevrilirdi.

Professor Keprülüzadənin əsərlərində Türküstan ilə Kiçik Asiyanın türk mistikləri arasında əlaqəni sübut etməyə cəhd etdiyini görürük. Müsəlman türkləri monqollardan əvvəlki dövrdə bütün türk dünyasını əhatə etmirdi. İran mədəniyyəti vasitəsilə, şimal qonşularının – İrtışdan gəlmiş qıpçaq və Yeniseydən üz tutan qırğızların hücumuna məruz qalmışdılar, demək olar ki, o vaxt hər ikisi islam və müsəlman mədəniyyətindən tamamilə uzaq idi.

XII əsrin sonlarında, hətta Sır-Dəryada qeyri-müsəlman türk hakimiyyəti vardı. Bu və ya digər hərəkat kifayət qədər tanınmır, mənbələrdə, xüsusən qırğız hərəkatı barədə məlumatlar olduqca az və ziddiyyətlidir.

Tuman əlyazmasında olan məlumatlar son dərəcə maraq doğurur: o dövrdə qırğız köçəri tayfaları artıq Kaşğar və Aksuya yaxınlaşmışdılar, indiki Semireçensk (və ya Cətyisu) vilayətində xalqlar sadalanarkən qırğızlar barədə nə Mahmud Kaşğari, nə Gərdizi, nə də Tuman əlyazmasında heç bir məlumat yoxdur.

Orta Asiya səhralarının qərb hissəsi və bütün Türküstanda islamın tam qələbəsi monqol hökmranlığı dövrünə təsadüf edir. Monqol hərəkatı və Monqol imperiyasının yaranması geniş ədəbi irs yaratmışdır; XIV əsrin əvvəllərində İranın qərbində yazılmış "Rəşidəddin" əsəri bu sırada xüsusilə seçilir. Bu əsərin giriş hissəsi türk və monqol tayfaları haqqında məlumatları əhatə edir, Orta Asiya köçərilərinin dini inancı, adət-ənənələri və dəyərləri barədə məlumat verən zəngin bir xəzinədir. Rəşidəddinin sözlərindən bəlli olur ki, ovçu üçün köçəri həyat tərzi, eynilə bir köçəriyə oturaq həyat yaşayan yerli sakinin dözülməz qul həyatı yaşaması kimi görünürdü. Şamanizm ilkin olaraq köçərilərin deyil, ovçuların dini idi və monqol imperiyası dövründə ən güclü və bacarıqlı şamanlar ovçuluğun qorunub saxlandığı ölkələrdə yaşayanlar hesab olunurdu. Rəşidəddin öz əsərini monqol xanları üçün yazmışdır, köçəri həyat tərzi və monqol hərbi uğurlarının təsiri altında köçəri ənənələrin canlandırılmasından monqolların özləri deyil, tədricən Qərbi və Orta Asiyaya köç etmiş azsaylı monqol elementləri ilə birləşən türklər olmuşdur.

Monqollar milliyyətlərini itirməzdən əvvəl əhəmiyyətli dərəcədə həyat tərzlərini dəyişməyə müvəffəq olmuşdular. Şərqin qədim türk kultu cənubun monqol kultu ilə əvəz olunmuşdu və bütün Orta Asiyada yurt qapıları, demək olar ki, əvvəlki kimi şərqə deyil, cənuba açılmışdır. Türkdilli dövlətlərdə isə monqol imperiyasının ənənələri davam etdirilirdi və yalnız Çingizxan nəslinin davamçılarının hakimiyyətə keçmək hüququ vardı.

Xalqların adları da dəyişmişdi; monqollardan əvvəlki dövrdə Orta Asiyanın cənubundakı səhralarının qərb hissəsinə və Rusiyanın cənubunda düzənlikləri əhatə edən əraziyə adı verilən qıpçaq xalqı artıq öz adını itirmişdi. Əvvəllər monqolların xalq dili olan "tatar" sözü ilə sonradan Volqaboyu və Krımda yaşayan, türk dilində danışan əhali adlandırılmışdır. "Türk-tatar" ifadəsi isə bir müddət rus elmində "türk" mənasında işlədilmişdir.

Bəzi yeni yaranmış xalqlar özlərinə Çingizxan sülaləsinin xanlarından birinin adını götürürdü; bu gün yaşayan özbək və noqaylar, həmçinin orta əsrlərdə mövcud olmuş çağataylar bura daxildir. "Çağatay" yalnız Orta Asiya türk ədəbi dilinin adı kimi qalmışdır. Özbəklər arasında XV əsrdə özbək xanı Abulqayrın hakimiyyətindən ayrılmış, dil və adət-ənənələr baxımından bu gün tam bir homogen xalq olan qazaxlar meydana çıxmışdır. "Qıpçaq" sözü isə indi özbəklər və qazaxlar arasında yalnız ayrı-ayrı tayfa adı kimi qalmaqdadır.

Köçəri ənənələrinin canlandırılması islam və müsəlman mədəniyyətinin müvəffəqiyyətlərinə mane ola bilmədi. Monqol imperiyasında karvan ticarətinin inkişafı ilə islamın türklər və türkləşmiş monqollar, hətta öz dillərini saxlamış monqollar arasında da geniş yayılmışdı.

Məlumatlara əsasən, XIII əsrə qədər müsəlmanların yaşamadığı Krımda və Volqa hövzəsində böyük müsəlman şəhərləri meydana gəlmişdi, islam Qafqazda əhəmiyyətli şəkildə yayılmış, əvvəlki qıpçaq səhrası müsəlman ölkəsinə çevrilmişdi. Tobolsk vilayətində müsəlman-türk knyazlığı yaranmışdı və indiyə kimi şimal-şərqdə dini baxımdan mövqeyini qorumaqdadır.

Volqa və İrtış çayları boyunca möhkəm mövqe tutan islam sonradan Orta Asiya düzənliklərindən nəinki cənuba, hətta şimala da yayılmağa başlamışdı. Baxmayaraq ki, monqollardan əvvəlki dönəmdə bu mümkün deyildi.

Çinlə həmsərhəd olan Çin Türküstanının bir hissəsi də islamın təsiri altında idi, bura, demək olar ki, buddizm və xristianlığın hökm sürdüyü, monqol dövründən əvvəl uyğurların yaşadığı ərazi idi. Bu halda, monqollardan əvvəlki dövrün öyrənildiyi zaman elmin qarşısında duran vəzifələrin indi əvvəlkilərdən daha mürəkkəb olduğunu etiraf etməliyik. Monqolların törətdikləri dağıntılara baxmayaraq, Monqol imperiyasının ilk dövrü iqtisadi və bütün sahələr üzrə mədəni çiçəklənmə dövrü olmuşdur. Bu, əsasən, monqollar dövründə geniş inkişaf etmiş karvan ticarəti, həmçinin Qərbi və Şərqi Asiya arasında sıx əlaqələrin qurulması ilə əlaqədar idi.

Təbii ki, elm bütün lazım olan materialları əldə edə bilməz – bütün müsəlman mənbələrində, eləcə də Avropa səyyahlarının yazılarında qeyd olunan XIII əsrdə parıldayan Buxaradan heç nə qalmayıb, Volqaboyu və Krım şəhərlərinin sistemli şəkildə tədqiqinə həmin xarabalıqlar artıq dərəcədə dağıdılmış vəziyyətdə olduğu zaman başlanılmışdı.

Bu ərazilərdə arxeoloji işlərin aparılması yenidən gündəmdədir və öz növbəsini gözləməkdədir. Çox güman ki, müsəlman mədəniyyətinin tarixinin tədqiqi baxımından müəyyən fayda verəcək, baxmayaraq ki, son dövr yaranmış fikirlərə əsasən türklərin, xüsusilə də tatarların ümumi mədəni həyatda iştirakı elə də əhəmiyyətli qəbul edilmir. XVI əsrin birinci yarısında bu mədəniyyətə ictimai-siyasi qarışıqlıqlar səbəbindən zərbə dəymişdi, nəticə etibarilə Mərkəzi Asiyada şimal sərhədi boyunca bütün müsəlman şəhərləri yox edilmişdi. Mərkəzi Asiyada Teymur və onun davamçılarının dövləti yaradılsa da, XIII əsrdə mövcud olmuş mədəni həyatı XIX əsrə qədər bərpa edə bilməmişdilər. Ümumiyyətlə, Teymurun hakimiyyətinin tarixi əhəmiyyətinə baxmayaraq, hələ də nə türk dilində, nə də Avropa dillərində bu barədə əhatəli bir monoqrafiya yoxdur.

Son dövrlərə kimi Osmanlı imperiyası istisna olmaqla, türk xalqlarının tarixinə az maraq göstərilmişdir. Sanki mədəni üstünlük Avropaya keçdiyi zaman Türküstan uzaq müsəlman dünyasının bir parçası kimi, ən geridə qalan dövrdə Orta Asiya tarixi diqqətdən kənar idi. Həqiqətən, Orta Asiyanın mədəni həyatı həmin dövrdə təsəvvür etdiyimizdən də mürəkkəb idi və hər bir tarixçidə maraq oyadırdı. Özbək xanlıqlarında geniş tarixi ədəbiyyat yaranmışdı – Orta Asiyada indiyə kimi belə bir hadisə olmamışdı.

Bir tərəfdən köçəri həyat və ənənələr, digər tərəfdən isə müsəlman mədəniyyətləri arasında bir-birilə apardıqları mübarizə özbək xanlıqlarının yaşadığı mürəkkəb həyat mənzərəsi yaranır. Mənbələrdə yetərincə məlumat olmasına baxmayaraq, bu prosesin gedişi hələ indiyədək tam aydınlaşdırılmamışdır, hətta tayfaların tədricən parçalanması da qeyd olunmamışdır: əvvəl özbək tayfalarının sayı 32, sonralar isə 92-yə çatmışdı. Biz bu dəyişikliyin baş verdiyi tarixləri də müəyyən edə bilərik: 1976-cı ildə manğıt əsilli ilk Buxara xanı Məhəmməd Rəhimin taxta çıxmasına dair yazıda 32 tayfadan bəhs edilir; 1781-ci ildə isə Buxara hakimi rus kəşfiyyatçı Bekçurinə 92 tayfanın olduğunu demişdi.

Monqolların dövründə formalaşmış özbək və qazax tayfaları ilə yanaşı, əvvəlki tayfalar, xüsusilə türkmənlər və ilk dəfə müsəlmançılığı qəbul edən qırğızlar da vardı; müsəlman adətlərini yetərincə bilməsələr də, islamın fəal döyüşçü kimi Orta Asiyada son qüdrətli köçəri dövlətlərini qurmuş kalmıklara və Çingizxan dövründən qalmış, qısqanc buddistlər kimi islam təsirinə tabe olmaq istəməyən monqol-şamanlara qarşı mübarizə aparırdılar.

Noqaylardan başqa digər türk tayfalarında rast gəlmədiyimiz epik poeziya növünün yaranması, məhz bu mübarizə ənənələri ilə izah olunur. Kalmıklarla aparılan mübarizə qırğızlara elə təsir göstərmişdir ki, köç həyatları ilə bağlı onlar yalnız XVIII əsrdə kalmık hakimiyyətinin süqutundan sonra geri istiqamətdə – Fərqanədən Semireçye vilayətinə qayıtdıqlarından başqa heç nə xatırlamırdılar.

Həm Türkmənistanda qalanlar, həm də İrana və Kiçik Asiyaya köç etmiş türkmənlərin də həyat və poeziyasının özünəməxsus xüsusiyyətləri vardır. XIX əsrin II yarısına kimi türkmən poeziyası barədə, demək olar ki, heç bir məlumat yox idi, lakin gələcək tədqiqatlar nəticəsində türkmən deyimlərinin, rəvayətlərinin xalq kütlələri arasında yayılması üçün materiallar əldə ediləcək.

Siyasi birliyin olmadığına və ayrı-ayrı türkmən tayfaları arasında baş verən çəkişmələrə baxmayaraq, bütün türk xalqları arasında yalnız türkmənlərin öz milli şairi var – Məhtimqulu!

Mən öz icmalımla dünya tarixinin ayrılmaz hissəsi olan türk xalqlarının tarixinə dair tədqiqatçılar qarşısında növbələşən elmi sualların olduğunu göstərməyə çalışdım. Ümid etmək lazımdır ki, bu işin həyata keçirilməsində iştirak edəcək Kiçik Asiyadan tutmuş Tabolsk və Turfanadək olan ərazilərdə yaşayan bu xalqların nümayəndələri qarşısında öz milli irsini qoruyub saxlamaqla Qərb mədəniyyətini mənimsəmək kimi mürəkkəb bir tapşırıq durur.

# *Bartold nə qədər haqlı idi?*



***Nadir MƏMMƏDLİ,***
***AMEA Nəsimi adına***
***Dilçilik İnstitutunun direktoru,***
***filologiya elmləri doktoru, professor***

Bartoldun məruzəsinin giriş hissəsində qeyd etdiyi türklərin tarixi yazı ənənəsinin bir qədər zəif olması fikri klassik tezislərə əsaslanır: a) köçəri həyat tərzi – yazı ənənəsinin olmaması; b) fəth edilən ölkələrdə yerli ədəbi dillərin üstünlüyü; c) tarixi yazı mətnlərinin türkdilli deyil, Çin, ərəb, fars dillərində yaranması.

Bu arqumentlər XIX–XX əsr türkoloji tədqiqatların fundamental problemidir: türk xalqlarının böyük tarixi öz dillərində deyil, qeyri-türklərin, onların rəqiblərinin, qonşularının dilində qələmə alınmışdır. Bartold burada iki məsələni vurğulayır: mənbə asılılığı – türk tarixinin böyük hissəsi Çin və islam abidələri prizmasından təhlil edilir. Bu isə istər-istəməz etnosentrik yozum, türk toplumlarının pərakəndə şəkildə təqdim edilməsidir, yəni ədəbi dil, siyasi hakimiyyət dilemması – türk sülalələri hakim olsa belə, mədəni cəhətdən daha güclü olan fars, Çin ədəbi dilinə tabe olublar. Türk sülalələri (qəznəvilər, səlcuqlar, elxanilər, teymurilər) fars ədəbi dilini dövlət dili kimi saxlamış, tarix yazısını məhz ona həvalə etmişlər.

Bartold bildirir ki, Orta Asiyada XVI əsrə qədər türk dilində "əhəmiyyətli tarixi ədəbiyyat" demək olar ki, yoxdur, orta əsr türk dövlətlərinin tarixi əsasən İran ərazisində yazılmış mətnlərdən öyrənilir, Teymurilər dövrü də istisna deyil, Zəfərnamələr farscadır. Bu fikirlər elmi baxımdan doğru olsa da (məsələn, ən iri tarixi salnamələr – Rəşidəddin, Yəzdi, Hafizi Əbru və s.) fars dilindədir), bir qədər mübahisəlidir. Belə ki, türk xaqanlıqları və erkən köçəri toplumların tarixi yalnız xarici mənbələrdən ibarət deyil. Bartold Orta Asiyada, ümumiyyətlə, türk tarixi mətnlərinin olmadığını deyir. Sonrakı dövr araşdırmaları göstərir ki, "Oğuznamə"nin erkən variantları, qıpçaq mətnləri, Mahmud Kaşğarinin "Divan"ı, uyğur-buddist və manihey mətnləri faktik olaraq Bartoldun təsvirindən daha genişdir. Məsələ burasındadır ki, Bartoldun dövründə bu mənbələrin bir qismi ya məlum deyildi, ya da tam öyrənilməmişdi.

Məruzənin ən mühüm hissəsi Bartoldun, xüsusilə Orxon yazılarına verdiyi qiymətdir. Akademik qeyd edir ki, Orxon yazıları türklərin öz dillərində yazdıqları ilk böyük siyasi-tarixi şəhadətnamə, Çin mənbələrini tamamlayan və bir çox halda düzəldən yeganə abidədir. Tomsenin oxunuşundan sonra 30 il keçsə də, bu sahə hələ də tam həll olunmayıb. Dil bilmədən tərcümələrdən istifadə edən tədqiqatçılar yanlış nəticələrə gəliblər. Bartoldun elmi qənaətlərini XX əsr tədqiqatları təsdiqləyir: Orxon mətnləri yalnız dil abidəsi deyil, həm də ideoloji manifestdir – dövlətçilik düşüncəsi, türk kimliyi, köçəri-mütəşəkkil siyasət modelidir. Bartoldun "tərcümələrə güvənməyin" xəbərdarlığı bu gün də keçərlidir. Bir çox Avropa müəllifinin Orxon yazılarını mifoloji və ya romantik çərçivədə yanlış şərh etməsi faktlarının tarixi nəzəriyyələrə təsiri ilədir.

Türk dilləri ilə bağlı Bartoldun əsas arqumentləri yakut və çuvaş dillərinin digər türk dillərindən ciddi şəkildə fərqlənməsidir. Alimin qənaətinə görə, çuvaş dili "türk–monqol" dil qrupunun üçüncü qolu ola bilər, ya da türk dillərinin ilkin mərhələsinin qalıqlarıdır. Fərqlilik hunların dili ilə əlaqələndirilir – çuvaşlar hunların birbaşa varisləridirlər, bu Bartoldun dövrü üçün çox cəsarətli, elmi cəhətdən əsaslandırılan bir iddiadır. Müasir dilçilik elmi baxımından çuvaş dili oğur budağının yeganə nümayəndəsidir, hunların dili tam bilinmir, lakin Oğur türk dili ilə bağlılığı ehtimal edilir. Bartoldun ehtimalı bu gün də ciddi qəbul olunur, lakin nəzərə almalıyıq ki, etnogenez təkcə dilə əsaslana bilməz, antropologiya, arxeologiya və genetik göstəricilər də mütləq şəkildə nəzərə alınmalıdır. Bartold yalnız dil faktına əsaslanır.

Bartoldun digər fikrinə görə, qırğızlar dilcə türk olsalar da, antropoloji baxımdan türklərdən fərqlənirlər; açıq rəngli saç, slavyanlara yaxınlıq bildirən faktorları qeyd edir, bu xüsusiyyətlər zamanla yox olub. Bu fikir XIX – XX əsrin əvvəllərində yayılmış "fiziki antropologiya" metodologiyasına uyğundur, lakin müasir elmdə ciddi şəkildə tənqid olunur. Çünki insanların saç rəngi etnik kimliyini təsdiq etmək üçün etibarlı göstərici deyil. Qırğızların qədim mənşəyi çoxkomponentlidir: türk, İran, proto-Altay elementləri vardır; genetik araşdırmalar göstərir ki, qırğızlar erkən dövrdə müxtəlif etnosların qarışığı olublar.

Müəllif göstərir ki, Çin mənbələrində "qırğız" adına "türk"dən daha əvvəl rast gəlinməsi, habelə Pelyonun "qyan-qun" tanskripsiyasını monqol mənşəli "qırkun" kimi oxuması qırğızlara dair ilkin məlumatın monqol vasitəli olduğunu göstərir. Bartoldun nəticələri erkən Çin etnoqrafiyasının ümumi xüsusiyyətinə uyğundur. Çin tarixçiləri əksər hallarda məlumatı "Şərq tayfalarından eşitdiklərinə əsasən" yazırdılar; yəni ikinci mənbə problemi var.

Müəllif, həmçinin "xakas" etnoniminin yanlış transkripsiyadan yarandığını qeyd edir, bu, Çin fonetik sisteminin türk etnonimlərini dəqiq verə bilməməsi ilə bağlı mumi metodoloji problemdir. Müəllif Çin etnonimlərinin etibarlılığını deyil, mənbə kontekstini analiz edir. Bartold qeyd edir ki, qırğızların şimala doğru deyil, qərbdən şərqə doğru hərəkəti türk tayfaları üçün qeyri-adi istiqamət idi. Bu hadisənin "türklərin siyasi tarixində yeganə rol" kimi qiymətləndirilməsi bir qədər sərtdir, lakin müəllifin məqsədi qırğızların strateji olaraq yalnız bir böyük dövlət süqutunda iştirak etdiyini göstərməkdir. O, izah edir ki, ərəb mənbələrində uyğurların yaşadığı ərazilərdə uzun müddət "toquzquzlar" (tokuz-Oğuz) adı işlənirdi. Bunun səbəbi ərəblərin bölgəni IX əsrdən əvvəl tanıması, tokuz-oğuzların uyğurlardan əvvəl həmin əraziyə gəlməsi, ərəb müəlliflərinin ənənəvi adı saxlamasıdır. Bu, mənbəşünaslıq baxımından son dərəcə düzgün izahdır. Müəllif həm fonetik izahları, həm də linqvistik "oğuz-uyğur eynimənşəliliyi" nəzəriyyələrini tənqid edir.

***(ardı 19-cu səhifədə)***

# Azərbaycan–Misir mədəni əməkdaşlığı xalqlarımızı yaxınlaşdırır



**Azərbaycan Respublikasının mədəniyyət naziri Adil Kərimli ölkəmizin ev sahibliyi etdiyi "İƏT Mədəniyyət Festivalı: Bakı Yaradıcı Həftə – 2025" çərçivəsində Bakıda səfərdə olan Misir Ərəb Respublikasının mədəniyyət naziri Əhməd Fuad Hanno ilə görüşüb.**

Görüş zamanı nazir Adil Kərimli qonağı Azərbaycanda salamlamaqdan məmnunluğunu ifadə edərək, Misir tərəfinin bu mötəbər beynəlxalq tədbirə göstərdiyi diqqətə görə təşəkkürünü bildirib. Qeyd olunub ki, Azərbaycan və Misir arasında mədəni əməkdaşlıq həm ikitərəfli formatda, həm də beynəlxalq təşkilatlar çərçivəsində uğurla inkişaf edir. Mədəniyyətin müxtəlif sahələri üzrə təcrübə mübadiləsi, birgə layihələrin həyata keçirilməsi və qarşılıqlı iştirak üçün geniş imkanların mövcud olduğu vurğulanıb.

Misirin mədəniyyət naziri Əhməd Fuad Hanno da, öz növbəsində, Azərbaycan-Misir münasibətlərinin yüksək səviyyədə inkişaf etdiyini qeyd edib, mədəniyyət sahəsində əməkdaşlığın daha da genişləndirilməsi üçün böyük potensialın olduğunu bildirib. O, Azərbaycanın festivala yüksək səviyyədə ev sahibliyi etdiyini xüsusi vurğulayaraq, tədbirin İslam dünyası ölkələri arasında mədəni inteqrasiyanın möhkəmləndirilməsinə mühüm töhfə verəcəyinə əminliyini ifadə edib.

Görüşdə qarşılıqlı maraq doğuran məsələlər ətrafında fikir mübadiləsi aparılıb, sonda Misirin mədəniyyət nazirinə xatirə hədiyyəsi təqdim olunub.

***XQ***

*Tofiq Bakıxanov – 95*

# Görkəmli nəslin bəstəkar oğlu



**Dekabrın 9-da Nizami Gəncəvi adına Milli Azərbaycan Ədəbiyyatı Muzeyində görkəmli bəstəkar, "Şöhrət" və "Şərəf" ordenləri laureatı, Xalq artisti, professor Tofiq Bakıxanovun 95 illik yubileyinə həsr edilən "Azərbaycanın ictimai-siyasi və elmi-mədəni gerçəkliyində Bakıxanovlar sülaləsi" mövzusunda elmi-praktik konfrans keçirilib.**

Muzeyin direktoru, akademik Rafael Hüseynov mərasimi açaraq Azərbaycan tarixində silinməz iz qoymuş Bakıxanovlar sülaləsinin Azərbaycan dövlətçiliyi, hərb sənəti, ədəbiyyatı və mədəniyyəti sahələrində xidmətlərindən bəhs edib. O bildirib ki, Bakıxanovlar nəsli Xəzərin sahilində yaşayıb, Bakının yanında "xan" adlarını qoruyublar. Milli tariximizə onlarla ali rütbəli hərbçi, ictimai və mədəniyyət xadimləri bəxş etmiş Bakıxanovlar həmişə əməllərinin soyadlarına daha artıq başucalığı gətirməsi üçün çalışıblar.

Görkəmli nəslin nümayəndəsi professor Tofiq Bakıxanov da bu şəcərənin ənənələrini ləyaqətlə davam etdirərək Azərbaycan incəsənətinə əvəzsiz töhfələr verib.

Akademik "Bakıxanovlar sülaləsinin davam edən dərsləri" mövzusunda məruzəsində professor Tofiq Bakıxanovun zəngin yaradıcılığı, bəstəkarlıq irsi haqqında ətraflı məlumat verib. O bildirib ki, Tofiq Bakıxanov görkəmli tarzən-pedaqoq və muğam bilicisi Əhmədxan Bakıxanovun ailəsində dünyaya gəlib. Böyük sənətə aparan yolunu dahi Üzeyir Hacıbəylinin bələdçiliyi ilə skripkaçı kimi başlayan Tofiq Bakıxanov ömrü boyu ustadının və soyadının ona həvalə etdiyi vəzifələrə və meyarlara sadiq qalıb. Tofiq Bakıxanovun çoxşaxəli yaradıcılığını dövlətimiz daim yüksək qiymətləndirib. O bu günlərdə 1-ci dərəcəli "Əmək" ordeni ilə təltif edilib.

Akademik Rafael Hüseynov bəstəkarın ümummilli lider Heydər Əliyevə həsr olunmuş "Həmişə bizimləsən" yeni simfonik poemasında Ulu öndərin həyat yolunu musiqi dili ilə əks etdirdiyini qeyd edib, kitaba "Şəxsiyyətin cazibəsi" sərlövhəli "Ön söz" yazdığını bildirib.

Akademik Rafael Hüseynov ustad sənətkarı anadan olmasının 95 illiyi, yaradıcılıq fəaliyyətinin isə 75 illiyi münasibətilə təbrik edib, Tofiq Bakıxanova cansağlığı və yaradıcılıq uğurları arzulayıb.

Sonra muzeyin direktor müavini, fəlsəfə üzrə fəlsəfə doktoru Kəmalə Nuriyeva, filologiya üzrə fəlsəfə doktoru Gülnar Əqiq və sənətşünaslıq üzrə fəlsəfə doktoru Gülsəba Həsənova Bakıxanovlar nəslinin Azərbaycanın ədəbi, ictimai-siyasi həyatında xidmətlərindən bəhs ediblər.

Mərasimdə Xalq artisti Tofiq Bakıxanovun atası Əhməd Bakıxanovun xatirəsinə həsr olunan kompozisiya səsləndirilib, bəstəkarın əsərlərindən musiqi nümunələri tar, kamança və fortepianonun ifasında təqdim olunub.



***Qabil ƏLİYEV***
***XQ***

*Liu Hui–1800*

# Qədim Çin riyaziyyatçısı ehtiramla anılıb

**Dünən AMEA-nın Rəyasət Heyətində dünya şöhrətli görkəmli Çin alimi Liu Huinin 1800 illik yubileyinə həsr olunmuş "Minilliklərin riyaziyyat ahəngi. Kainatla dialoq" mövzusunda beynəlxalq elmi konfrans keçirilib.**



Əvvəlcə Liu Huinin həyat və fəaliyyətini əks etdirən sərgiyə baxış olub.

Konfransı giriş sözü ilə açan AMEA-nın prezidenti, akademik İsa Həbibbəyli Azərbaycan və Çin arasındakı ədəbi əlaqələrə toxunaraq son illərdə iki ölkə arasında elmi, ədəbi münasibətlərin də yüksək səviyyədə olduğunu söyləyib. O, AMEA-nın Çin Sosial Elmlər Akademiyası, Hebey Sosial Elmlər Akademiyası, Honkonq Kore Akademiyası, Pekin Xarici Dillər Universiteti və Hebey Pedaqoji Universiteti ilə sıx əməkdaşlıq etdiyini, həmin müəssisələrlə əməkdaşlıq memorandumlarının imzalandığını diqqətə çatdırıb.

Konfransın dünya şöhrətli Çin alimi Liu Huinin 1800 illik yubileyinə həsr olunduğunu deyən AMEA rəhbəri vurğulayıb ki, onun riyaziyyata və həndəsəyə dair tədqiqatları dünya riyaziyyat elminin əsaslarını təşkil edib, maraqlı və ciddi elmi əsərlər ortaya qoyub: "Liu Pifaqor teoreminə bənzər bir teoremin sübutunu təqdim edib. Liu Hui həm Çində riyaziyyat elminin əsaslarını qoyanlardan biri olmuşdur, həm də dünya riyaziyyat elminə misilsiz töhfələr vermişdir".

Çin Elm və Texnologiya Assosiasiyasının direktoru Ruan Cao çıxışında ölkəmizdə və Azərbaycan Milli Elmlər Akademiyasında olmaqdan məmnunluğunu dilə gətirib, konfransın təşkilinə göstərdiyi dəstəyə görə akademik İsa Həbibbəyliyə minnətdarlığını bildirib. Azərbaycanın zəngin tarixə və mədəniyyətə malik olduğunu deyən Ruan Cao ölkəmizin Avropa ilə Asiya arasında körpü rolunu oynadığını söyləyib.

Liu Huinin 1800 il öncə yazıb-yaratdığını deyən direktor həmin dövrün Çin tarixində elmin, mədəniyyətin intellektual çiçəklənmə dövrü kimi qəbul edildiyini vurğulayıb. Diqqətə çatdırıb ki, Liu Huinin tədqiqatları nəzəriyyə ilə təcrübənin vəhdətini təşkil edib, xüsusilə "Riyazi sənətin doqquz fəsli" əsərində mühüm yeniliyə imza atıb, pi (π)-nin dəyərini təxmini olaraq tapmaq üçün çoxbucaqlını dairəyə yazmaq metodundan istifadə edib.

Konfransda çıxış edən UNESCO üzrə Azərbaycan Respublikası Milli Komissiyasının nümayəndəsi Mustafa Şabanov Komissiya adından tədbir iştirakçılarını salamlayıb. Qeyd edib ki, Liu Huinin 1800 illik yubileyinin qeyd olunması UNESCO-nun 2024–2025-ci illər üzrə tədbirlər planında əksini tapıb və bu, elmin, düşüncənin bəşəri dəyərinin ifadəsidir.

Çıxışlardan sonra "Minilliklərin riyaziyyat ahəngi. Kainatla dialoq – Liu Hui silsilə yubiley tədbirləri" adlı tanıtım videosu nümayiş etdirilib.

Mərasim "Sivilizasiyalararası dialoq və akademik mübadilələr üzrə çıxışlar" mövzusunda sessiya ilə davam edib.

***Qabil YUSİFOĞLU***
***XQ***

# 100 il əvvəldən gələn səslər

*(əvvəli 18-ci səhifədə)*

Mahmud Kaşğarinin birbaşa müşahidəyə əsaslanan məlumatlarının üstünlüyünü vurğulayır – bu, qədim türkoloji tədqiqatın qızıl qaydasıdır. X əsr müəlliflərinin çoxu özündən əvvəlki mətnləri təhlilsiz təkrar edirdi, buna görə də məlumatlar zamanla statikləşirdi. Burada müəllif islam coğrafiya məktəbinin ən mühüm problemlərindən birini göstərir: xronoloji qeyri-dəqiqlik və təkrarçılıq. Bu fakt müasir akademik türkoloji mənbəşünaslıqda da qəbul edilmiş bir problemdir.

O, türklərin ilk mədəni təsirlərinin suriyalı xristianlardan deyil, məhz soqdilərdən gəldiyini qeyd edir; uyğur əlifbasının rolu və türklərin islamdan əvvəlki zəngin poeziya ənənəsi vurğulanır. Bu fikir türklərin mədəni inkişaf xəttində İran-soqdi mədəniyyətinin mərkəzi rolunu sübut edir. Burada həm yazı sistemi, həm ədəbi ənənə, həm də dini mətnlərin dilini bir-biri ilə əlaqələndirməklə kompleks şəkildə tarixi izah verir. Bu yanaşma elmi cəhətdən tamamilə doğru və müasir sintez metodologiyasına uyğundur.

Bartold diqqətə çatdırır ki, islam türklər tərəfindən "zorla deyil, könüllü" qəbul edilib və bu, dinin mədəni səciyyəsini göstərir. Bu tezis hər nə qədər ümumiləşdirilmiş olsa da, siyasi kontekstə uyğundur: X əsrdən XI əsrə qədər islamın yayılması daha çox ticarət yolları, hakim elit əlaqələri və sosial nüfuz vasitəsilə baş vermişdi. Xristian və buddist xalqların islamı qəbul etməsi ilə bağlı müqayisəsi isə tarixi sosiologiya baxımından doğru müşahidədir.

Müəllif səlcuqların oğuz mənşəyini çox aydın göstərir, qaraxanilərlə bağlı isə qeyd edir ki, tarixi mənbələrdə mənşə açıq deyil, Mahmud Kaşğari belə bunu dəqiqləşdirməmişdir. Bu, qaraxanilərin etnogenez problemi ilə bağlı klassik elmi diskussiyaya uyğundur, ehtiyatlı və mənbəşünaslıq baxımından tənqidi yanaşma elmi cəhətdən güclü görünür.

Məruzədə mənbəşünaslıq, mətnşünaslıq, Çin mənbələrinin fonetik problemi, ərəb və fars coğrafiya məktəbinin təkrarçılığı, ilk arxeoloji tarixləndirmələrin qeyri-etibarlılığı tənqid olunur. Etnogenez və miqrasiya xəttində qırğızların vəziyyəti, uyğur-oğuz ad ziddiyyəti, Monqolustana və Orta Asiyanın digər bölgələrinə köçlər haqqında bəhs olunur, mədəni inkişaf modeli: soqdi təsiri, uyğur əlifbasının rolu, islamlaşma prosesinin könüllü və mədəni xarakteri göstərilir. Bartold türklərin erkən dövr tarixini yalnız siyasi faktlarla deyil, elmi baxımdan mədəniyyət, dil, mənbələr və arxeologiyanın inteqrasiyası yolu ilə yüksək səviyyədə izah edir.

Məruzəçinin məqsədi mətnini iki əsas xətt üzrə: islamın qlobal miqyasda yayılması və təsir coğrafiyasının müqayisəli təhlili; türklərin islam dünyasındakı tarixi-sosioloji rolunu göstərməkdir. O, məruzəsində dünyəvi dinlərin coğrafi-struktural yayılmasını müqayisə edir və islamın türklər arasında yayılmasını tarixi dinamika kontekstində izah edir. Burada islamın genişlənməsi və türklərin tarixdə oynadığı rol vahid bir proses kimi təqdim edilir.

Mətnin əvvəlində belə bir tezis verilir: buddizm – Şərqi Asiyanın lokal dini olaraq qalır, xristianlıq – Avropanın dini xarakterini alır, islam – həqiqi mənada dünyəvi dinə çevrilmiş yeganə dindir. Bu tezis, əslində, XX əsrin əvvəllərinə xas olan "sosioloji-dünya dinləri xəritəsi" anlayışının təsirini əks etdirir. Lakin müasir elmi kontekstdə buddizmin Cənub-Şərqi Asiya, Nepal, Butan, Tibet, Monqolustan və Şri-Lankadakı dominantlığı nəzərə alındıqda onun "Şərqi Asiya ilə məhdudlaşmış din" kimi təqdim olunması reduksionistdir, xristianlığın Afrika, Latın Amerikası və Asiyada sürətlə yayılması isə həmin tarixi dövr (XX əsrin əvvəlləri) kontekstinə bağlıdır, ümumi mənzərəni tam əks etdirmir. Bu hissə tarixi dövrün intellektual stereotiplərini əks etdirir və müəllif bunu universal qanun kimi təqdim edir.

Məruzəçi səlcuqlar və qaraxanilər üzərindən belə bir ideya qurur ki, türklərin Ön Asiyada yayılması islamdan əvvəl başlamışdı; islamı qəbul etdikdən sonra bu ekspansiya daha sistemli xarakter almışdı; səlcuqlar və qaraxanilər türklərin islam mədəniyyətinə keçidinin əsas siyasi strukturları idi. Bu tezis elmi baxımdan tamamilə əsaslıdır və türk-islam sintezi tədqiqatlarının da qəbul etdiyi bir xətdir. Qaraxanilərin oğuz, karluq, ya da qıpçaq mənşəli olub-olmadığı barədə akademik mübahisələr bu gün də mövcuddur. Türklərin "ensiz burunlu, xırda gözlü" təsviri, türkmənlərin "uzunsov baş forması", bunların "İran köçəriləri ilə qarışma"sı ilə izahı açıq şəkildə antropoloji tipologiyanın XIX–XX əsr üslubunu daşıyır, yəni irqlərin morfoloji xüsusiyyətlərlə müəyyənləşdirilməsini etnosun bioloji xüsusiyyətlərilə izah edir. Xatırladım ki, belə yanaşma bu gün tamamilə elmi dəyərini itirib.

Məruzənin ən inandırıcı və məntiqli hissələrindən biri budur ki, türklər islamı qəbul etdikdən sonra müsəlmanlıq dünyanın hərbi-siyasi dayağına çevrilmiş, səhranın köçəri gücü islamı geniş coğrafiyalara daşımış, türk ədəbi-mədəni mərkəzləri formalaşmışdı: Kaşğar – Xarəzm – Çağatay ədəbi dili. Burada müəllif ədəbi və mədəni yayılmanı çox düzgün şəkildə mərhələləndirir: Kaşğar – ilk mərkəz, XII–XIII əsrlər – Xarəzm, Monqol dövrü – çağatay dilinin formalaşması. Bu, türk ədəbiyyatının genezisi haqqında klassik, qəbul olunmuş elmi ardıcıllıqdır. O, monqol istilasını belə təqdim edir: bir tərəfdən dağıdıcı idi, digər tərəfdən Orta Asiyanın karvan yollarını canlandırdığı üçün mədəni inteqrasiyanı artırmışdı. Bu, müasir tarixşünaslıqla tam uyğun gələn bir təsbitdir.

Monqolların ticarət şəbəkəsi islamın türkləşmiş və ya türkləşən monqol tayfaları arasında yayılmasına real şəkildə təsir etmişdi. Məruzədə çox mühüm və doğru bir məqam vurğulanır ki, Orta Asiyada etnonimlər çox tez dəyişir, qıpçaq əvəzinə qazax, noqay kimi adlar meydana gəlir, "tatar" sözü monqol terminindən rus coğrafiyasındakı "türk"lərə keçir. Bu etnogenez tədqiqatlarında fundamental həqiqətdir. Bartold tarixi prosesləri geniş coğrafi miqyasda müqayisə edir, siyasi tarixlə mədəni tarixi inteqrasiya edir, monqol–türk sintezini düzgün izah edir. Təəssüf ki, dinlərin yayılmasına dair hissələr XX əsrin əvvəli ortaq stereotiplərini əks etdirir, bəzi faktlar sadələşdirilir (məs: xristianlıq və buddizm coğrafiyası), türk xalqları arasındakı "mifik nəsil" iddiaları (məsələn, Əfrasiyab) tənqid edilmədən təqdim olunur.

Bu məruzədən aydın olur ki, türkologiya XX əsrin əvvəllərindən bütöv prosesləri izah etməyə çalışır, türklərin islam dünyasındakı rolu həm siyasi, həm də sosio-mədəni konsepsiya kimi təqdim edilir. Monqol istilası türklərin etnogenezində, islamın yayılmasında və ədəbi dilin formalaşmasında əsas mərkəzi hadisə kimi qəbul edilir. Bu baxımdan, məruzə dövrünün intellektual məhsulu və türkologiyanın klassik mərhələsinin nümunəsidir.

Bartold türk xalqlarının mədəniyyət tarixinin araşdırılmasında mövcud metodoloji və mənbə çatışmazlığını, siyasi hadisələrin yaratdığı boşluqları göstərir. Müəllif həm Orta Asiya, həm də Volqaboyu – Krım regionu üçün arxeoloji, tarixi və etnoqrafik tədqiqatların ləngiməsini tənqid edir və bunun türk tarixşünaslığında ciddi problemlər yaratdığını vurğulayır. Məqsəd: türk xalqlarının tarixinin dünya tarixindən ayrı təsəvvür edilə bilməyəcəyini və fundamental sualların hələ cavabsız olduğunu göstərməkdir. Məsələn, o, xüsusi olaraq qeyd edir ki, Avropa mədəni üstünlük əldə etdikdən sonra Türküstan uzaq müsəlman periferiyası kimi qəbul edilib. Bu səbəbdən Orta Asiyanın kompleks mədəni həyatı uzun müddət diqqətdən kənarda qalıb. Müəllif sübut edir ki, özbək xanlıqlarında geniş tarixi ədəbiyyat yaranıb, bu, Orta Asiya tarixinin intellektual baxımdan zəngin və aktiv olduğunu göstərir. Özbək xanlıqlarının mənzərəsi iki mədəni sistemin toqquşması üzərində qurulub: 1) köçəri türklər (qırğızlar, türkmənlər, qazaxlar, manğıtlar); 2) oturaq mədəniyyətə malik müsəlman şəhərləri. Bu qarşıdurma Orta Asiyanın sosial strukturunu izah edən əsas açarlardan biridir.

Bartold, eyni zamanda, özbək tayfa sayının 32-dən 92-yə qədər artması haqqında tarixi mənbələrdən maraqlı müqayisə faktını ortaya qoyur ki, bu da tayfa sisteminin sosial fraqmentləşmə prosesini göstərir. Qırğızların epik poeziyasının (Manas ənənəsi) yaranmasını kalmık və buddist-monqol təzyiqi ilə əlaqələndirir, köçəri xalqların yaddaşının mübarizə əsasında formalaşması fikrini irəli sürür. Bu fikirlər mədəniyyət antropologiyası üçün dəyərli tezislərdir. Daha sonra müəllif iki əsas məsələ irəli sürür: türkmən poeziyası XIX əsrə qədər Avropa üçün, demək olar ki, bilinmirdi. Türkmənlərin milli şairi Məhtimqulu bütün türk xalqları arasında unikal fenomendir.

Bartold yekunda ifadə edir ki, türk xalqları böyük bir mədəni toplumdur, bu xalqlar Qərb mədəniyyətini mənimsəmək və öz milli irsini qorumaq kimi ikiqat çətin bir missiya qarşısındadırlar. Türk dünyası üçün ortaq elmi tədqiqat çağırışları var – Turfan, Tobolsk, Kiçik Asiya arasındakı çox böyük coğrafi vahid birlikdə öyrənilməlidir. Türk tarixi inteqrasiyası ideyası elmi şəkildə əsaslandırılmalıdır. Türk xalqlarının vahid mədəni missiyası ideyası müəyyən ideoloji çalar daşımalıdır. Bu məruzə türkoloji tədqiqat tarixində çox vacib bir dönüş nöqtəsidir, türk xalqlarının arxaik və periferik deyil, dünya tarixinin mərkəzi proseslərində iştirak edən faktorlar olduğunu göstərmək cəhdidir.

***(ardı var)***

# Leyla Əliyeva Türkmənistanda keçirilən beynəlxalq konfransda













**Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyeva dekabrın 10-da Türkmənistanın Türkmənbaşı şəhərindəki "Avaza" Milli Turizm Zonasında keçirilən "Müasir cəmiyyətdə qadınların rolu: Dayanıqlı İnkişaf Məqsədlərinə nail olmaq üçün beynəlxalq əməkdaşlığın inkişafı" mövzusunda beynəlxalq konfransda iştirak edib.**

Açılış mərasimində çıxış edən Qurbanqulu Berdiməhəmmədov adına Qayğıya ehtiyacı olan uşaqlara yardım üzrə xeyriyyə Fondunun tibb sahəsi üzrə vitse-prezidenti Oğulcahan Atabayeva konfransın humanizmə sadiqlik ideyasına əsaslanan təşəbbüslərin təşviqi baxımından səmərəli platforma olacağını bildirib, qadınların sosial, siyasi və iqtisadi proseslərdə fəal iştirakının əhəmiyyətindən danışıb.

Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyeva çıxışında qeyd edib ki, qadınların liderliyi, biliyi və təcrübəsi cəmiyyətin davamlı inkişafı üçün həlledici əhəmiyyətə malikdir. O, Heydər Əliyev Fondunun fəaliyyətinin elm, təhsil, səhiyyə, mədəniyyət və ekologiya kimi vacib sahələri əhatə etdiyini, ötən dövr ərzində bu istiqamətlərdə yerli və beynəlxalq layihələrin həyata keçirildiyini söyləyib, regionun ortaq dəyəri olan Xəzər dənizinin səviyyəsinin əhəmiyyətli dərəcədə azalması probleminə də toxunub.

BMT-nin Cenevrə ofisinin baş direktoru Tatyana Valovaya qeyd edib ki, Türkmənistan qadınları ölkəni BMT-də və digər beynəlxalq təşkilatlarda təmsil edir, çoxtərəfli dialoqun genişlənməsinə töhfə verirlər. Özbəkistan Respublikası Prezidenti Administrasiyasının rəhbəri Saida Mirziyoyeva ölkələrində qadın hüquqlarının fəal müdafiə edildiyini, bu sahədə ciddi uğurlar əldə edildiyini diqqətə çatdırıb.

Digər çıxışlarda qadınların cəmiyyətdəki rolunun artmasının vacibliyindən, onların mədəni dəyərlərin, adət-ənənələrin və əxlaq qaydalarının əsas daşıyıcısı və qoruyucusu olduqlarından söhbət açılıb. Qadınların potensialının tam reallaşmasına mane olan problemlərin aradan qaldırılması üçün dövlət qurumları, vətəndaş cəmiyyəti və beynəlxalq təşkilatlar arasında tərəfdaşlığın möhkəmləndirilməsi zəruriliyi qeyd olunub.

Konfrans işini panel iclaslarla davam etdirib.

*







**Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyeva konfrans çərçivəsində Özbəkistan Respublikası Prezidenti Administrasiyasının rəhbəri Saida Mirziyoyeva ilə görüşüb.**

Söhbət zamanı Azərbaycanla Özbəkistan arasında qarşılıqlı münasibətlər, o cümlədən Heydər Əliyev Fondu ilə Özbəkistanın "Zamin" Beynəlxalq İctimai Fondunun birgə əməkdaşlığının dövlətlərimizin yüksəksəviyyəli əlaqələrinə verdiyi töhfə vurğulanıb.

Türkmənistanda keçirilən beynəlxalq konfransın qadınların siyasi və iqtisadi həyata fəal cəlb olunmaları, çoxtərəfli dialoqun və tərəfdaşlığın genişləndirilməsi baxımından əhəmiyyəti diqqətə çatdırılıb.

***XQ***

# Humanizmin mənəvi dəstək missiyası

## *Heydər Əliyev Fondu və Türkmənistan Xeyriyyə Fondunun ortaq hədəfləri*

**Oxşar mədəni dəyərlər və vahid mənəvi coğrafiya Xəzərin iki sahilində qərar tutmuş Azərbaycan və Türkmənistan xalqlarını bir-birinə bağlayan sarsılmaz tellərdir. Müasir dövlətçilik ənənələri və qlobal çağırışlar fonunda sözügedən tarixi bağların institusional müstəviyə keçirilməsi humanitar diplomatiya vasitəsilə strateji tərəfdaşlığın dərinləşdirilməsi zərurətini meydana çıxırır. Bu zərurətdən doğan və gələcəyə hesablanmış möhtəşəm addımlardan biri kimi Heydər Əliyev Fondu ilə Türkmənistanın Qurbanqulu Berdiməhəmmədov adına Qayğıya ehtiyacı olan uşaqlara yardım üzrə xeyriyyə Fondu arasında imzalanan Anlaşma Memorandumu mənəvi birlik rəmzi kimi dəyərləndirilməlidir.**

Memorandumun imzalanması mərasimi mahiyyət etibarilə diplomatik protokoldan daha yüksək, rəmzi məna daşıyan hadisədir. Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyeva və Qurbanqulu Berdiməhəmmədov adına Qayğıya ehtiyacı olan uşaqlara yardım üzrə xeyriyyə Fondunun tibb sahəsi üzrə vitse-prezidenti Oğulcahan Atabayeva tərəfindən imzalanan sənəd gələcək onilliklər üçün yol xəritəsi müəyyənləşdirir. Leyla Əliyevanın çoxşaxəli fəaliyyəti, xüsusilə ətraf mühitin qorunması, gənclərin inkişafı və mədəniyyətlərarası dialoq sahəsindəki təşəbbüsləri onun regionda və dünyada nüfuzlu ictimai xadim kimi tanınmasını təmin etmişdir.

Bəli, xanım Əliyevanın türkmən həmkarı ilə görüşü tərəflərin niyyətlərinin ciddiliyini və ortaq hədəflərə çatmaq üçün siyasi iradənin mövcudluğunu təsdiqləyir. Hər iki fondun fəaliyyətində uşaqların sağlamlığı, təhsili və rifahı prioritet istiqamət təşkil edir. Azərbaycan və Türkmənistan arasında sözügedən sahələrdə təcrübə mübadiləsinin aparılması, tibbi heyətin ixtisasartırma kurslarına cəlb olunması, müasir müalicə metodlarının tətbiqi və birgə sosial reabilitasiya proqramlarının həyata keçirilməsi, insan amilinə verilən dəyərin bariz nümunəsidir.

Görüşün və imzalanan sənədin ən diqqətçəkən məqamlarından biri mədəniyyət və incəsənət üzrə layihələrin əhəmiyyətinin vurğulanmasıdır. Mədəniyyət xalqın ruhu və mənəvi pasportudur. Qloballaşma dövründə milli mədəniyyətin qorunması və təbliği strateji təhlükəsizlik məsələsi qədər vacibdir. Heydər Əliyev Fondu Azərbaycan muğamının, xalçaçılıq sənətinin, tarixi abidələrinin dünyada tanıdılması istiqamətində mühüm işlər görür. Eyni zamanda, Türkmənistan da öz zəngin mədəni irsi, xalçaçılıq ənənələri və Ahalteke atları ilə tanınır. İki fondun əməkdaşlığı çərçivəsində həyata keçiriləcək mədəni mübadilə proqramları, sərgilər, konsertlər və festivallar xalqlarımızın mənəvi yaxınlaşmasına, ortaq türk irsinin təbliğinə güclü təkan verəcək. Müzakirələrin mərkəzində dayanan xüsusi mövzu isə ekologiya və ətraf mühitin mühafizəsi olmuşdur. Görüşdə Heydər Əliyev Fondunun və IDEA (Ətraf Mühitin Mühafizəsi Naminə Beynəlxalq Dialoq) İctimai Birliyinin təşkilatçılığı ilə reallaşan



MAMA – "Ana təbiət" beynəlxalq incəsənət sərgisinin əhəmiyyəti xüsusi qeyd edilmişdir. Nəzərə alaq ki, Leyla Əliyevanın təsisçisi və rəhbəri olduğu IDEA İctimai Birliyi regionda ekoloji şüurun formalaşmasında, nəsli kəsilməkdə olan fauna növlərinin qorunmasında və yaşıllaşdırma aksiyalarının keçirilməsində liderlik edir. MAMA sərgisi isə sənətin dili ilə bəşəriyyətə ünvanlanan həyəcan siqnalıdır. O da qeyd edilməlidir ki, iqlim dəyişmələri, qlobal istiləşmə, su ehtiyatlarının azalması və biomüxtəlifliyin itirilməsi kimi planetar problemlər sərhəd tanımır. Məhz buna görə də, sözügedən mesajın dünyaya yayılması həyati əhəmiyyət daşıyır. MAMA sərgisinin artıq bir sıra ölkələrdə uğurla nümayiş etdirilməsi layihənin qlobal miqyasda rezonans doğurduğunu sübuta yetirir.

Tam əminliklə deyə bilərik ki, adıçəkilən beynəlxalq layihə mədəni mübadilə və ətraf mühitin qorunması mövzusuna diqqət çəkmək üçün vacib platforma rolunu oynayacaq. Bunun düşünmək üçün əsas var. Çünki Leyla Əliyevanın təşəbbüsü ilə həyata keçirilən layihələr, adətən, dərin fəlsəfi məzmunu və humanist qayəsi ilə seçilir. MAMA sərgisi də istisna deyil. Təbiəti "Ana" kimi qəbul etmək ona övlad məhəbbəti ilə yanaşmaq, əcdadlarımızın bizə miras qoyduğu müqəddəs torpağı qorumaq fəlsəfəsi türk dünyagörüşünün təməl daşlarından biridir.

Dövlətlərarası münasibətlərin ən yüksək zirvəsini fəth edən strateji tərəfdaşlıq, liderlərin şəxsi dostluğu və qarşılıqlı etimadı üzərində qərar tutur. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Türkmənistan Prezidenti Sərdar Berdiməhəmmədovun işğaldan azad olunmuş ərazilərə birgə səfəri qardaşlıq salnaməsinin şanlı səhifəsi kimi tarixə düşmüşdür. Sərdar Berdiməhəmmədovun Qarabağ torpağına qədəm qoyması Füzuli və Şuşa şəhərlərində həyata keçirilən nəhəng infrastruktur layihələri ilə əyani tanışlığı, türkmən dövlətinin Azərbaycanın haqq işinə verdiyi mənəvi dəstəyin bariz göstəricisidir. Ali qonaq Prezident İlham Əliyevin rəhbərliyi ilə qısa müddətdə gerçəkləşən dirçəliş prosesini, inşa edilən beynəlxalq hava limanlarını, salınan Zəfər yollarını və bərpa olunan tarixi-mədəni abidələri müşahidə edərkən, Azərbaycan dövlətinin quruculuq qüdrətinə heyranlığını ifadə etmişdir.

Qarabağda və Şərqi Zəngəzurda tətbiq olunan "ağıllı şəhər" və "ağıllı kənd" konsepsiyaları, yaşıl enerji zonalarının yaradılması və ekoloji tarazlığın bərpası istiqamətində atılan qlobal əhəmiyyətli addımlar, regionun simasını köklü şəkildə dəyişir. Görülən işlərin miqyası və keyfiyyəti torpağın əsl sahibinin kim olduğunu, burada əbədi yaşamaq və yaratmaq əzmini bütün dünyaya sübut edir. Məhz dövlət başçılarının nümayiş etdirdiləri siyasi iradə Heydər Əliyev Fondu və Türkmənistan Xeyriyyə Fondu kimi qurumların humanitar sahədə daha cəsarətli layihələr həyata keçirməsinə münbit zəmin yaradır.

Sənəddə əksini tapan birgə səmərəli fəaliyyət imkanları gələcəkdə tibb işçilərinin mübadiləsini, ortaq elmi konfransların təşkilini, mürəkkəb cərrahi əməliyyatların birgə icrasını və təcrübə mübadiləsini nəzərdə tutur. Tibb elmi sərhəd tanımır və həkimlərin əməkdaşlığı minlərlə insanın həyatının xilas olunması deməkdir. Oğulcahan Atabayevanın tibb sahəsi üzrə vitse-prezident kimi sənədə imza atması səhiyyə sahəsindəki əməkdaşlığın prioritet olacağından xəbər verir. Xüsusilə uşaq cərrahiyyəsi, onkologiya və irsi qan xəstəlikləri ilə mübarizədə qüvvələrin birləşdirilməsi hər iki ölkənin səhiyyə sistemi üçün faydalı olacaq. Təhsil sahəsindəki əməkdaşlıq isə gənclərin dünyagörüşünün formalaşmasında, onların müasir elmi biliklərə yiyələnmələrində və milli dəyərlərə sadiq vətəndaş kimi yetişmələrində mühüm rol oynayacaq.

COP29 kimi mötəbər tədbirlərə ev sahibliyi edən ölkəmiz qlobal iqlim gündəliyində fəal dövlətə çevrilmişdir. Leyla Əliyevanın rəhbərliyi ilə IDEA İctimai Birliyinin fəaliyyəti rəsmi Bakının yaşıl dünya naminə atdığı addımları ictimai sektorda tamamlayır. MAMA sərgisinin mesajı da aydındır: Təbiət bizim evimizdir, onu qorumaq hamımızın borcudur.

Bu gün Azərbaycan tarixi ədaləti bərpa, ərazi bütövlüyünü təmin etmiş və regionun lider dövlətinə çevrilmişdir. Qalib xalqın quruculuq əzmi, təkcə işğaldan azad olunmuş ərazilərlə məhdudlaşmır. Bu əzm bütün sahələrdə inkişafı və tərəqqini hədəfləyir. Humanitar sahədəki beynəlxalq əməkdaşlıq, həmin inkişafın mühüm vektorlarından biridir.

Eyni zamanda, o da vurğulanmalıdır ki, Türkmənistanla əlaqələrin genişləndirilməsi Türk Dövlətləri Təşkilatı çərçivəsində inteqrasiyanın dərinləşməsi prosesinə də töhfə verir. Ortaq dil, din və tarixə malik xalqların humanitar sahədə birgə fəaliyyəti, siyasi və iqtisadi birliyin təməlini möhkəmləndirir.



Heydər Əliyev Fondu və Türkmənistan Xeyriyyə Fondu xalqlarımızın qəlbindən keçən yolu işıqlandırır, onu daha geniş və hamar edir. Gələcəkdə Aşqabadda nümayiş olunacaq MAMA sərgisi həmin işıqlı yolun üzərində yandırılan növbəti məşəl olacaq. Bu məşəl, Xəzərin sularında əks olunaraq, hər iki sahilə sülh, mərhəmət və tərəqqi mesajı yayacaq.

Bəli, Leyla Əliyeva və Oğulcahan Atabayevanın imzaları ilə təsdiqlənən sənəd gələcəyə ünvanlanmış humanizm manifestidir. Bu manifestdə uşaq gülüşləri, təbiətin səsi, musiqinin ahəngi və dostluğun istiliyi var. Dünyanın qarmaqarışıq vaxtında, müharibələrin və münaqişələrin tüğyan etdiyi dövrdə, xeyirxahlıq naminə birləşmək, qurub-yaratmaq eşqi ilə yaşamaq, ən böyük qəhrəmanlıqdır.

Əminliklə söyləmək olar ki, tərəflərin birgə səyləri nəticəsində ərsəyə gələcək layihələr bütün regionun sosial-mədəni həyatına müsbət təsir göstərəcək. Təhsil sahəsindəki yeniliklərin tətbiqi, tibbi xidmətlərin keyfiyyətinin yüksəldilməsi və ekoloji problemlərin həllinə innovativ yanaşma, cəmiyyətin inkişaf tempini sürətləndirəcəkdir.

Heydər Əliyev Fondu və Türkmənistan Xeyriyyə Fondu ali məqsəd ətrafında birləşərək güclü tandem formalaşdırıblar. Bu tandem bütövlükdə Xəzər regionunda humanitar əməkdaşlığın lokomotivi rolunu oynayacaq və digər ölkələr üçün də örnəyə çevriləcək. Bu tarixi hadisənin fonunda, hər iki ölkənin ictimaiyyəti böyük ümidlərlə gələcəyə baxır. Çünki əmindirlər ki, Leyla Əliyeva və Oğulcahan Atabayevanın rəhbərliyi ilə həyata keçiriləcək layihələr, keyfiyyətli dəyişikliklərə yol açacaqdır. Sərhədlərin ayırdığı, amma qəlblərin birləşdirdiyi iki xalq, humanitar körpülər vasitəsilə daha da yaxınlaşacaq.

Sonda vurğulamaq lazımdır ki, Heydər Əliyev Fondu ilə Türkmənistan Xeyriyyə Fondu arasındakı tarixi anlaşma zamanın tələbi və tarixin hökmüdür. Qardaş xalqların birliyi, regionun inkişafının açarıdır. Bu açar, həm də gələcəyin qapılarını üzümüzə açır. O qapıdan keçərək, biz daha firavan, daha təhlükəsiz və daha mədəni dünyaya qədəm qoyuruq. Yolumuz açıq, birliyimiz əbədi olsun! Torpağın əsl sahiblərinin quruculuq əzmi heç vaxt sönməsin!

***Yusif ŞƏRİFZADƏ***
***XQ***

# Milli musiqimiz xalqın könül dünyasının nəğmələşmiş səsidir

## *Bu ahəngə yad notlar qarışmamalıdır*

**Əsrlər boyu zəngin inkişaf yolu keçən milli musiqimiz xalqımızın mənəvi dünyasını zənginləşdirmişdir. Muğamın fəlsəfi mahiyyəti, aşıq sənətinin sözlə musiqini birləşdirən ahəngi, bəstəkarlarımızın peşəkar əsərləri böyük məktəb yaratmışdır. Çağdaş dövrümüzdə bu məktəbin ənənələrini yaşatmaq, müasir formada inkişaf etdirmək, gələcək nəsillərə ötürmək zəngin musiqi irsimizin davamlılığını təmin edən zəruri amildir.**

**Milli Məclisin deputatı, Azərbaycan Qızıl Aypara Cəmiyyətinin prezidenti Novruz Aslanla** söhbətimiz minilliklərin dərinliyindən gələn musiqi yaddaşımızın qorunması, təbliği, mədəniyyət, incəsənət, ədəbiyyat sahəsində yeniliklərlə bağlı oldu. Sevilən mahnıların müəllifi ilə müsahibəni oxuculara təqdim edirik.

sənəti, milli kimliyi və əsrlərdən süzülüb gələn mədəniyyəti nəzərdə tutulur. Mədəniyyət sahəsində əldə etdiyimiz inkişaf da bu həqiqətin bariz göstəricisidir.

Azərbaycan mədəniyyəti, xüsusilə XX əsrin əvvəllərindən bu günə qədər keçdiyi yol baxımından həm dərin, həm zəngin, həm də güclü yaradıcılıq enerjisi daşıyır. Bizim



*Arzum odur ki, bizim musiqimizdən, mədəni dəyərlərimizdən digər xalqlar ilham alsın, nəinki biz başqalarını kor-koranə təqlid edək.*

***– Novruz müəllim, bu gün azad, müstəqil dövlətdə yaşayırıq. Ali Baş Komandanımızın rəhbərliyi ilə torpaqlarımız işğaldan azad olunub. Qarabağ Zəfəri mədəniyyətimizə və musiqimizə nə verdi – qələbə ruhlu sanballı, layiqli musiqi əsərləri yarandımı?***

– Biz bu gün müstəqil, suveren və qalib dövlətdə yaşayırıq. Bu müstəqilliyin əbədi olması üçün canlarını fəda edən şəhidlərimizə, sağlamlığını itirən qazilərimizə, qüdrətli ordumuza və Müzəffər Ali Baş Komandanımıza borcluyuq. Məhz onların fədakarlığı, dövlətimizin gücü və xalqımızın sarsılmaz birliyi nəticəsində Azərbaycan öz ərazi bütövlüyünü və suverenliyini bərpa etdi. Bu qələbə tariximizin qızıl hərflərlə yazılan ən şərəfli və ən qürurlu səhifəsidir.

Ulu öndər Heydər Əliyevin uzaqgörən dövlətçilik siyasəti və milli ideologiyası əsasında Prezident İlham Əliyevin həyata keçirdiyi ardıcıl, məqsədyönlü və xalqımızın maraqlarına söykənən siyasət Azərbaycanı güclü dövlətə çevirdi. Bu siyasət nəticəsində ordu quruculuğu ən yüksək səviyyəyə çatdırıldı, iqtisadi inkişaf dayanıqlı oldu. Dövlətlərarası əlaqələr genişləndirildi, beynəlxalq hüquq və ədalət prinsipləri ölkəmizin xeyrinə işləməyə başladı. Və nəticədə xalq–dövlət–ordu birliyi bizi Zəfərə apardı.

Bu gün dünyanın hər yerində başımız uca, sözümüz keçərlidir. Azərbaycan yeni inkişaf mərhələsinə qədəm qoyub. Belə bir tarixi dövrdə yaşamaq, yaratmaq və xidmət göstərmək həm böyük məsuliyyət, həm də böyük şərəfdir. Artıq qəlbimizi ağrıdan boşluqlar, içimizdə nisgil yoxdur.

Bu Qələbə təkcə siyasi deyil, həm də mənəvi yüksəliş idi və bütün yaradıcı insanlara ilham verdi. Qarabağ Zəfərindən sonra "Qələbənamə" kimi musiqi əsərlərinin yaranması, Xalq artisti Lalə Məmmədovanın ifasında təqdim olunan yüksək səviyyəli klip, eləcə də "Ali Baş Komandan" adlı musiqi layihəsi xalqımızın sevincinin, qürurunun və ruh yüksəkliyinin bariz ifadəsidir.

Hər bir yaradıcı insan – şair, bəstəkar, rəssam, aktyor bu Zəfəri öz sənətində yaşadır. Mən də bu prosesə öz töhfəmi verməyə çalışdım. "Ali Baş Komandan" layihəsinin sözlərini deputat Eldar Allahyaroğlu yazıb, musiqisi isə mənə məxsusdur. Rejissor Fuad Alışovun çəkdiyi klip yüksək peşəkarlıqla ərsəyə gətirilib. "Mehriban Azərbaycan" layihəsi də dövlətimizə və xalqımıza olan səmimi sevgimdən doğan bir işdir. Son illər yaradıcılığımda vətənpərvərlik, sosial mövzular, mərhəmət və insanlıq anlayışları xüsusi yer tutur. Çünki dövrün ruhu bunu tələb edir. Biz Zəfər çalmış xalqıq və bu qüruru, bu tarixi həqiqəti gələcək nəsillərə çatdırmaq hər birimizin mənəvi borcudur.

***– Dünyaya inteqrasiya dövründə musiqiçilər, qəlbən bu sahəyə bağlı olan istedadlı insanlar milli musiqimizin daha geniş tanıdılmasında hansı addımları atmalıdırlar?***

– Zaman sürətlidir, musiqi də onunla ayaqlaşır, obrazlı şəkildə desək, qaçır. Amma mən düşünürəm ki, sənət qaçanda yox, dayananda yaranır. Kökü olan musiqi zamandan qorxmur. Çünki kök torpaqla danışır, torpaq isə tarixlə.

Yaradıcılığa münasibət hər zaman dövrün ruhundan, intibahdan və insanın mənəvi inkişaf səviyyəsindən qaynaqlanır. İnsanlıq hər mərhələdə yenidən formalaşır, hər əsr öz səsini, öz nəfəsini tapır.

Məhz bu dəyişmə və inkişaf prosesində yeni sənət nümunələri yaranır. Kimisi bu fikirləri musiqidə ifadə edir, kimisi ədəbiyyatda, kimisi də tarix və mədəniyyətin müxtəlif sahələrində öz sözünü deyir. Hər əsər yarandığı dövrün yaddaşını, ağrısını, sevincini, ümidlərini və gələcəyə baxışını özündə daşıyır. Sənət təkcə estetik hadisə deyil, həm də zamanın ruhunun aynasıdır.

Keçmişə nəzər saldıqda açıq-aydın görürük ki, Azərbaycan musiqisi və ədəbiyyatı yalnız bir sənət nümunəsi olmayıb, eyni zamanda, xalqımızın mənəvi dayağı, ruhunun sığınacağı rolunu oynayıb. Böyük bəstəkarlarımız, klassiklərimiz, sənətkarlarımız ömürlərini bu müqəddəs işə həsr edərək elə möhtəşəm əsərlər yaradıblar ki, bu gün onlar milli mədəniyyətimizin qızıl fondunda saxlanılır. Azərbaycan deyəndə təkcə bir coğrafiya deyil, həm də xalqımızın zəngin ruhu, dərin klassik sənət irsimiz bu gün də yaşayır, inkişaf edir və cəmiyyətimizin mənəvi dirəyinə çevrilməkdə davam edir. Hər bir yaradıcı insan həyatda baş verənləri öz sənətində əks etdirməyə çalışır. Çünki sənət həm yaddaş, həm də gələcəyə ünvanlanan mesajdır. Əgər bir əsər – istər musiqi, istər söz, istərsə də rəsm xalqın mədəniyyətini zənginləşdirmirsə, onun ruhunu ucaltmırsa, gələcək nəsillərə bir dəyər ötürmürsə, o əsər "əsər" adlanmağa layiq deyil. Həqiqi sənət insanı yüksəldir, mədəniyyəti gücləndirir, düşüncəni saflaşdırır və cəmiyyəti daha sağlam edir.

Bizim məqsədimiz də məhz bundan ibarət olmalıdır: klassik irsimizə zərər verməyən, əksinə, onu daha da dəyərli edən, milli mədəniyyətimizi gücləndirən, cəmiyyətə fayda verən əsərlər yaratmaq.

***– Bəzi gənc bəstəkarlar öz üzərində işləmək əvəzinə, daha tez populyarlaşmaq, qazanc əldə etmək üçün "coşqu" yaradan, "hitə" çevrilən cılız musiqilərin arxasınca qaçırlar. Nəticədə, zövqümüzü korlayan, musiqisi, sözləri heç bir məna kəsb etməyən bayağı mahnılar yaranır. Bayağı musiqilər cəmiyyətə nə verir, nə aparır?***

– Xalq mahnılarımız nəsildən-nəslə ötürülüb, milli kimliyimizin formalaşmasında mühüm rol oynayıb. Bu mahnıların hər biri xalqın yaddaşı, ruhu, tarixidir. Əslinə baxsaq, "xalq mahnısı" adlandırdığımız əsərlərin müəllifi olub, sadəcə, zamanla həmin adlar itib, musiqi xalqın yaddaşına qarışıb. Allah o insanlara rəhmət etsin, onların yaratdığı əsərlər bu gün bütöv bir xalqın mənəvi sərvətinə çevrilib. Keçmişdə bəzi müəlliflərin mahnılarını "xalq mahnısı" adı ilə təqdim etməsi müəyyən tarixi səbəblərlə bağlı idi.

O zaman bədii şuralar mövcud idi, savadsız, hazırlıqsız insanlar efirə buraxılmırdılar, ciddi nəzarət mexanizmləri var idi. Buna görə də bəzi sənətkarlar öz əsərlərini anonim şəkildə xalqa çatdırmağa çalışırdılar.

Eyni zamanda, böyük sənətkarlarımızın – Zeynəb Xanlarovanın, Niyaməddin Musayevin, mərhum Qulu Əsgərovun və başqalarının ifa etdikləri və ya yaratdıqları mahnılar da zamanla "xalq mahnısı" kimi qəbul olunub. Bu əsərlər o qədər güclüdür ki, xalqın yaddaşına hopub, xalqın səsinə çevrilib.

Müasir dövrdə də istedadlı, yaradıcı, peşəkar və yenilikçi gənc bəstəkarlarımız var. Onlar dövrün ritmini, gəncliyin enerjisini, müasir estetik tələbləri hiss edir və buna uyğun əsərlər yaradırlar. Amma son zamanlar bəzi bəstəkarlarımız daha rahat və asan yollara üz tuturlar, bəzən süni intellektdən də istifadə olunur. Bu cür yanaşma yaradıcılığı zahirən "asanlaşdırır", amma bədii dəyərini zəiflədir.

İnsanı düşündürməyən, ruhlandırmayan, mənəvi cəhətdən zənginləşdirməyən, əksinə, onun ruhunu cılızlaşdıran bayağı mahnılar xalqın estetik zövqünə, həyat tərzinə və mənəvi halına mənfi təsir göstərir. Əslində, bayağı musiqi hər dövrdə olub, bu, yeni hadisə deyil. Amma biz "bayağı mahnı" anlayışını işlədiriksə, mütləq onun meyarlarını düzgün müəyyən etməliyik. Mədəniyyətimizə, xalqımızın zövqünə və gələcək nəsillərin düşüncə tərzinə mənfi təsir edən hər bir element diqqətlə təhlil olunmalı və qarşısı alınmalıdır. Bayağılığın musiqi mühitində üstün mövqe tutması qətiyyən qəbul edilə bilməz. Hər şeyin öz yeri var: zarafatın da, ciddiyyətin də, fəlsəfənin də, elmin də. Sənət də eyni qaydanı tələb edir – ölçüsündə, səviyyəsində, keyfiyyətində və mənəvi zənginliyində olmalıdır.

***– Sənətdə təhsil və istedad məsələsinə necə baxırsınız?***

– Təhsil sənətin işığıdır, istedad isə alovu. İşıq yolu göstərir, alov isə qızdırır. İdeal sənətkar hər ikisinə sahib olmalıdır. Amma tarix göstərir ki, təkcə alovla da işıq saçmaq mümkündür. Əsas məsələ sənətə qarşı vicdanlı olmaqdır. Musiqi özünü aldadanı bağışlamır.

***– Bu gün musiqimizin millilikdən uzaqlaşması, ona fərqli çalarlar qatılması ciddi narahatlıq doğurur. Buna nə ad vermək olar?***

– Dəniz çayları udmur, əksinə, zənginləşdirir. Amma çay öz adını itirməsə. Milli musiqi də belədir. Əgər sən öz adını, öz səsini qoruyursansa, dünya səni dinləyir. Dünya təkrarı yox, fərqli olanı sevir. Bizim fərqliliyimiz muğamın nəfəsində, xalq ifaçılığının yaddaşındadır.

Qloballaşma təkcə iqtisadiyyat və siyasətlə məhdudlaşmır, birbaşa mədəniyyətə, xüsusilə də musiqiyə təsir göstərir. Bu gün dünya mədəniyyətinin sərhədləri demək olar ki, bir-birinə qarışıb və qloballaşmanın nəfəsi artıq musiqi mühitimizdə də açıq şəkildə hiss olunur. Bu prosesin iki tərəfi var. Bir tərəfdən, dünya musiqi mədəniyyətinin zəngin elementləri ilə tanış olmaq imkanı yaradır, müxtəlif janrlar, ritmlər və üslublar təqdim olunur. Digər tərəfdən isə milli musiqimizin özünəməxsusluğunun zəifləməsi riski meydana çıxır.

Bu gün dünya musiqisində Latın Amerikası və Afrika ritmləri, Asiya musiqi elementləri çox geniş yayılıb. Bu meyil Azərbaycan musiqisinə də daxil olur və bəstəkarlarımızın yaradıcılığında yad element kimi öz əksini tapır. Qlobal miqyasda baxdıqda bu, tamamilə təbiidir. Axı musiqi ümumbəşəri dildir.

Amma söhbət milli musiqidən gedirsə, burada ölçü və məsuliyyət tamam başqadır. Bizim klassiklərimiz Üzeyir bəy Hacıbəyli, Qara Qarayev, Fikrət Əmirov və digərləri dünya musiqisindən bəhrələnsələr də, heç vaxt milli musiqimizin sərhədlərini aşmayıblar. Onların əsərlərinin mərkəzində hər zaman Azərbaycan melodiyası, muğamın fəlsəfəsi, xalqımızın ruhu dayanıb.

Arzum odur ki, bizim musiqimizdən, mədəni dəyərlərimizdən digər xalqlar ilham alsın , nəinki biz başqalarını kor-koranə təqlid edək. Əlbəttə, dünya ritmlərindən istifadə etmək mümkündür və mən də öz yaradıcılığımda bəzən bu elementlərdən yararlanıram.

Nəticə olaraq demək istərdim ki, dünya dəyərlərindən bəhrələnmək mümkündür və lazımdır. Amma əsas məqsəd milli musiqimizi qorumaq, zənginləşdirmək və inkişaf etdirmək olmalıdır. Bu, hər bir sənətkarın həm peşəkar, həm də mənəvi borcudur. Mən bu suala qısa şəkildə belə cavab verərdim: qloballaşmanın yaratdığı imkanlardan istifadə etməliyik, lakin milli musiqimizin özünəməxsusluğunu və ruhunu mütləq şəkildə qorumalıyıq.

***– Yaradıcı insan diqqət istəyir – tamaşaçı, izləyici məhəbbətinə ehtiyac duyur. Sözsüz ki, sənətkarı sevdirən, ilk növbədə, onun əsərləri, yaradıcılığıdır.***

– Tamaşaçı sənətkarın güzgüsüdür. Orada özünü görürsən, səmimisənsə, işığın görünür; saxtasansa, kölgən böyüyür. Sevgi sifarişlə gəlmir. O, səssizcə gəlir və qalır. İllərlə qalırsa, deməli, sən doğrudan da tamaşaçı sevgisini qazanmısan.

***– Həzin musiqi dili və ifadə gücünün vəhdətindən yaranan mükəmməl əsər zaman keçsə də, mahiyyətini itirmir, əksinə, ölməzlik qazanır, dürrə, inciyə çevrilir. Bəs süni intellektlə yazılan mahnılar insanları təsirləndirirmi?***

– Bu sualın, ümumiyyətlə, gündəmə gəlməsi məni ciddi şəkildə narahat edir. Çünki bu gün biz artıq süni intellektlə yaradılmış musiqiləri eşidir, mətnləri oxuyuruq və onların süni intellekt tərəfindən yazıldığını dərhal hiss edirik. Necə ki, bir ana öz balasına laylay oxuyanda o səsdəki sevgini, istiliyi, şəfqəti uşaq da hiss edir, böyüklər də. Amma eyni laylayı robot oxuyanda insan dərhal həmin süni soyuqluğu, ruhsuzluğu duyur. Çünki onu yaradan duyğu, sevgi deyil, alqoritmdir.

Mən süni intellektin əleyhinə deyiləm. Əksinə, o, həyatımızın bir çox sahəsində böyük imkanlar açır, bizə məlumat verir, axtarışlarımızı sürətləndirir, təhlillər aparır, hətta bəzən insan zehninin çata bilmədiyi nöqtələrə qədər gedib çıxır. Buna hörmətlə yanaşmaq lazımdır. Ancaq burada çox ciddi və təhlükəli bir xətt var.

Süni intellekt tərəfindən yaradılmış musiqi və ya mətn insan əsəri kimi təqdim edilə bilməz. Bu, həm mənəvi, həm etik, həm də hüquqi baxımdan yolverilməzdir. Əgər bir əsəri süni intellekt yaradırsa, sən onu öz adına çıxarıb təqdim edirsənsə, bu artıq açıq-aydın plagiatdır. Müəllifin fiziki adı olmadığı üçün cəmiyyət bunu bəzən görməzlikdən gəlir. Amma bu yanaşma gələcəkdə çox ciddi problemlərə yol açar.

Süni intellektin həddindən artıq və nəzarətsiz istifadəsi milli musiqi ənənələrimizi də real təhlükə qarşısında qoya bilər. Təəssüf ki, bu gün gənc nəsil klassik muğama, milli musiqimizə bir o qədər də diqqət ayırmır. Onların zövqü çox vaxt sosial şəbəkələrdə yayılan sürətli, süni, kütləvi musiqi axınları ilə formalaşır. Bu isə uzunmüddətli perspektivdə mənəvi aşınmaya gətirib çıxarar.

Bu baxımdan Heydər Əliyev Fondunun illərdir həyata keçirdiyi layihələri xüsusi qeyd etmək lazımdır. Mehriban xanım Əliyevanın rəhbərliyi ilə muğamın qorunması, təbliği, beynəlxalq festivalların təşkili, geniş proqramların icrası milli musiqimizin yaşadılması baxımından misilsiz əhəmiyyət daşıyır. Bu, sadəcə mədəni tədbir deyil, dövlətin düşünülmüş mədəniyyət siyasətidir və gələcək nəsillərin estetik zövqünün formalaşmasına xidmət edir. Azərbaycan xalqı yaşadıqca milli musiqi də yaşayacaq, bəlkə də bir gün dünya musiqisinin ayrılmaz bir parçasına çevriləcək.

***– "Yaşın nə fərqi var ki", "Qaragilə", "Bu şəhərdən gedə bilərsən", "Səni sevmək üçün gəldim dünyaya", "Qayıdan deyiləm" mahnılarınız illərdir ifa olunsa da, hələ də dinləyicilərin ürəyinə yatır, zövqünü oxşayır. Bunun səbəbini necə izah edirsiniz?***

– Çünki mən musiqini zaman üçün yox, yaddaş üçün yazıram. Dəb keçər, xatirə isə qalar. Əgər bir mahnı bir insanın həyatında bir anın səsinə çevrilirsə, o artıq yaşayır və yaddaşlarda yer alır. Ümid edirəm ki, bu mahnılar musiqi tariximizdə özünə, kiçik də olsa, yer tapa biləcək. Əgər bu böyük sənət aləmində zərrə qədər payım olubsa, bu mənim üçün sonsuz qürurdur. Mən çox böyük sevinc hissi keçirirəm ki, klassiklərimizin qoyduğu müqəddəs ənənəni qoruyub saxlaya, əsərlərimdə onların hissini, ruhunu, melodik təfəkkürünü yaşada bilmişəm.

Bu ruhu cəmiyyətimizə, musiqisevərlərə çatdırmaq mənim üçün həm böyük məsuliyyət, həm də böyük şərəfdir. Hər zaman çalışmışam ki, əsərlərimdə milli musiqi ənənələrinə söykənim, köklərdən qopmadan yenilik axtarım. Milli musiqimizi qorumaq, onu zənginləşdirmək və gələcək nəsillərə ötürmək mənim üçün əsas yaradıcılıq prinsipidir. Əgər mən bunu bacarmışamsa, bu mənim üçün ən böyük mükafat, həm də sənət yolumun həqiqi dəyər ölçüsüdür.

***– Xalq yaradıcılığı elementlərini müasir musiqi ilə birləşdirərkən nəyi qoruyub saxlamağa çalışırsınız?***

– Ən çox tarazlığa diqqət edirəm. Mənim üçün xalq musiqisi sadəcə melodiyalar toplusu deyil, min illərin yaddaşı, xalqın taleyinin səsə çevrilmiş formasıdır. Müasir üsluba keçid edərkən bu yaddaşa toxunmamaq, onu sındırmamaq əsas şərtdir. Keçmişlə gələcək arasında qurulan körpü möhkəm olmalıdır ki, hər iki tərəf bir-birini daşıya bilsin. Xalq musiqisini həmişə toxuma bənzədirəm: onu torpağa düzgün basdıranda zaman keçdikcə ağaca çevrilir, budaqlanır, meyvə verir. Amma kökü torpaqdan qoparılanda, mahiyyəti dəyişdiriləndə məhv olur. Ona görə də müasirlik adına kökdən imtina etməyin yox, kökü yaşadaraq yeniliyə nəfəs verməyin tərəfdarıyam. Musiqi ancaq bu halda həm bu günə, həm də sabaha xidmət edə bilir.

Əslində xalq musiqisi elə bir mənbədir ki, bütün yaradıcı insanlar – istər bəstəkarlar, istər ifaçılar, istər-istəməz ondan bəhrələnir. Xalq musiqisi bizim bazamız, kökümüz, bünövrəmizdir. Bunu məktəbdə öyrəndiyimiz ilkin biliklərə bənzətmək olar: insan sonradan bütün həyatını həmin biliklərin üzərində qurur, onları praktikada tətbiq edir. Xalq musiqisi də eyni şəkildə bizim varlığımızın, milli yaddaşımızın, mənəvi irsimizin əsasını təşkil edir. Hər bir yaradıcı insan fərqində olsa da, olmasa da bu böyük xəzinədən istifadə edir. Çünki xalq mahnıları, muğamlar, ritmlər, ladlar bizə nəsildən-nəslə ötürülən əvəzsiz sərvətdir. Bu, təkcə musiqi deyil, xalqın ruhu, düşüncəsi, keçmişdən gələcəyə uzanan canlı bir körpüdür.

Bu xəzinədən bəhrələnmək həm tamamilə təbii, həm də zəruridir. Mən xalq musiqisi elementlərinin müasir musiqidə istifadəsini çox müsbət və uğurlu proses hesab edirəm. Bu sintez bizi yenidən öz kökümüzə qaytarır, haradan gəldiyimizi xatırladır, milli ənənələrə sadiqliyimizi nümayiş etdirir.

Bəstəkar üçün xalq musiqisinə müraciət etmək, sadəcə yaradıcı seçim deyil, bu, hörmətin, minnətdarlığın və mənəvi borcun ifadəsidir. Bu yanaşma ilə biz musiqimizi həm qoruyur, həm də inkişaf etdiririk. Çünki xalq musiqisi elə bir xəzinədir ki, ona hər dəfə toxunduqda yeni bir yanaşma, yeni bir nəfəs, yeni bir ruh üzə çıxır.

Bu gün bu istiqamətdə çox uğurlu nümunələr mövcuddur. Xalq artisti Siyavuş Kəriminin fəaliyyəti buna bariz misaldır. O, həm professor, həm də bəstəkar kimi Azərbaycan musiqisinə böyük yeniliklər gətirib. Onun Norveç xorları ilə reallaşdırdığı layihələrdə Azərbaycan xalq musiqisi ilə Skandinaviya musiqisinin sintezi, eləcə də Latın Amerikası ritmləri ilə milli musiqimizin birləşdirilməsi son dərəcə uğurlu nəticələr verib. Bu layihələr artıq bizim inkişaf yolumuzun açıq göstəricisidir.

Bu istiqamətdə nə qədər çox addım atılsa, bir o qədər möhkəm, sanballı və əzəmətli nəticələr ortaya çıxacaq. Bu, bir tərəfdən xalq musiqimizin dünyada tanınmasına xidmət edir, digər tərəfdən isə milli musiqimizin ifadə imkanlarını genişləndirir.

***– İnsan–sevgi–zaman... Bir-birinə bağlanmış bu halqada yaranan duyğu yükü yaradıcılığınızda öz əksini necə tapır?***

– Ümumiyyətlə, hər bir sənət əsəri duyğudan doğur. Yaradıcılıqda iki əsas istiqamət var: sifarişli və qəlbdən gələn əsərlər. Sifarişli işlərdə sənətkar müəyyən mövzu və çərçivə daxilində işləyir, bu zaman duyğu bəzən arxa planda qala bilir. Amma qəlbdən gələn əsərlər insanın yaşadıqlarından, sevincindən, kədərindən, şəxsi taleyindən və ya bütöv bir xalqın ruhundan qaynaqlanır. Məhz belə əsərlər daha səmimi və təsirli olur. Qələbəmiz, torpaqlarımızın azadlığı, qəhrəmanlarımızın igidliyi təkcə tarixi faktlar deyil, xalqın ruh halıdır və bu hadisələr yaradıcı insanlara güclü ilham verir. Kimisi bunu sözlə, kimisi musiqi ilə ifadə edir.

Mənim əzizlərimizə həsr etdiyim əsərlər də bu hisslərdən doğub. "Əzizlərim" layihəsi isə şəxsi itkilərimin, xatirələrin musiqidə təcəssümüdür. Mən sevdiyim bütün insanları bir melodiya altında birləşdirmək istədim. Bu layihədə Nadir Qafarzadənin ifası, Baba Vəziroğlunun sözləri ilə yaranan birlik həm dostluğumuzun, həm də sənətə olan hörmətimizin ifadəsidir. Əgər bu cür əsərlər mədəniyyətimizə xidmət edirsə, bu, mənim üçün ən böyük xoşbəxtlikdir.

***– Yaradıcılıqla ictimai fəaliyyəti necə birləşdirirsiniz?***

– Mənə belə gəlir ki, siyasətçi, yaradıcı insan və ictimaiyyət tərəfindən tanınan şəxs kimi bu üç istiqaməti uzlaşdıra bilirəm. Əslində bu, çətin deyil. Çünki bu sahələr bir-birinə mane olmur, əksinə, bir-birini tamamlayır. Yaradıcılıq məni insanlara yaxınlaşdırır, siyasət isə bu yaxınlığı real xidmətə çevirir. Məni görüşlərdə həm deputat, həm bəstəkar, həm də yazıçı kimi qəbul edirlərsə, deməli, xalqla aramızda bir etimad körpüsü formalaşıb. Bunu taleyin mənə verdiyi bir nemət kimi qəbul edir və buna görə Yaradanıma daim şükür edirəm.

Ən böyük qürurum isə bu torpaqda doğulmağım, bu dövlətin və bu millətin nümayəndəsi olmağımdır. Biz elə bir tarixi dövrdə yaşayırıq ki, Azərbaycanın suverenliyi və ərazi bütövlüyü bərpa olunub və biz bu tarixə canlı şahidlik etmişik. Bu qələbə şəhidlərimizin qanı, qazilərimizin canı bahasına əldə olunub və bu dövrü yaşamaq hər bir Azərbaycan vətəndaşı üçün böyük şərəfdir.

Uşaqlıqda Babəkdən, Cavanşirdən oxuyur, qəhrəmanları xəyal edirdik. Bu gün isə bizim nəsil qəhrəmanları kitablardan deyil, həyatda canlı olaraq görür. Onların bir qismi şəhidlik zirvəsinə ucalıb, bir qismi qazilər kimi aramızdadır. Bugünkü gəncliyimizin vətənpərvərliyi ilə fəxr edirik. Bu, müasir tariximizin ən böyük nemətidir.

Əlbəttə, bu böyük Zəfərin memarı Müzəffər Ali Baş Komandan, müdrik və qətiyyətli lider İlham Əliyevdir. Onun siyasi iradəsi, uzaqgörənliyi və xalqına sədaqəti Azərbaycan tarixinə qızıl hərflərlə yazılıb. Mən bunu xüsusi vurğulamağı özümə borc bilirəm. Gələcək nəsillər bu hadisələri oxuyacaq, izləyəcək, öyrənəcək. Biz isə onları gözümüzlə gördük, ürəyimizlə yaşadıq. Bu gün başımız dik, alnımız açıq yaşayırıqsa, bu, liderimizin, şəhidlərimizin, qazilərimizin, əsgər və zabitlərimizin, xalqımızın sayəsindədir. Mən hamısına sonsuz minnətdarlığımı bildirirəm.

***– Qızıl Aypara Cəmiyyətindəki fəaliyyətiniz sizə nə qazandırıb?***

– Azərbaycan Qızıl Aypara Cəmiyyəti mənim üçün təkcə humanitar təşkilat deyil, eyni zamanda, mərhəmətin, xeyirxahlığın və insanpərvərliyin simvoludur. Bu Cəmiyyət hər zaman insan sevgisini, kömək əlini uzatmağı və dəstək olmağı öz missiyası bilir. Beynəlxalq Qızıl Xaç və Qızıl Aypara Hərəkatının ayrılmaz tərkib hissəsi olaraq, artıq 105 illik şərəfli tarix keçmiş, çətin anlarda xalqımızın yanında olmuşdur. Ayparanın bu gücü təkcə qurumun fəaliyyəti ilə deyil, həm də xalqımızın müdrik, vətənsevər övladlarının əməyi ilə bağlıdır. Qızıl Ayparanın təşəkkül tapmasında əvəzsiz xidmətləri olan general Əliağa Şıxlinski, Fətəli xan Xoyski kimi böyük dövlət xadimlərinin ruhu bu gün də Ayparanın üzərindədir. İlk tibb bacısı Əliağa Şıxlinskinin həyat yoldaşı Nigar Şıxlinski isə insanpərvərliyin, fədakarlığın parlaq nümunəsi kimi hər zaman bizimlədir.

Bu gün müstəqil Azərbaycan dövlətinin bir parçası olaraq, Qızıl Aypara Cəmiyyəti beynəlxalq humanitar ailədə nüfuzlu mövqeyə malikdir. 19 noyabr tarixində Bakıda keçirilən Türk Dövlətləri Qızıl Aypara Cəmiyyətlərinin Prezidentlər Şurasının toplantısında 2026-cı il üçün sədrlik funksiyasının Azərbaycan Qızıl Aypara Cəmiyyətinə keçməsi isə tarixi hadisə, böyük bir etimad və məsuliyyətdir. Bu etimad həm dövlətimizin gücünü, həm Cəmiyyətimizin nüfuzunu, həm də xalqımızın humanitar ənənələrə sadiqliyini göstərir.

İndi qarşımızda daha böyük hədəflər dayanır. Biz bu etimadı doğrultmaq üçün fəaliyyətimizi gücləndirməli, regional və beynəlxalq əməkdaşlıqda yeni səhifələr açmalı, Qızıl Aypara adını daha uca zirvələrə daşımalıyıq.

***– Millət vəkili kimi mədəniyyət sahəsinin inkişafı istiqamətində hansı konkret addımları atmısınız?***

– Son sualınıza cavab olaraq demək istəyirəm ki, mən Milli Məclisin deputatı kimi fəaliyyətimi Azərbaycan mədəniyyətinə xidmətin vacib bir hissəsi hesab edirəm. Hazırda parlamentdə Mədəniyyət Komitəsinin üzvü kimi çalışıram və bu sahədə qanunvericilik fəaliyyətinin əhəmiyyətini xüsusi vurğulayıram. Qanunlar təkcə cəmiyyəti tənzimləyən sənədlər deyil, həm də dövlətin gələcək inkişaf strategiyasını müəyyən edən əsas bazadır.

Mən yalnız musiqi və ədəbiyyatla yaradıcı insan kimi deyil, həm də vətəndaş kimi mədəniyyətin inkişafına töhfə verməyə çalışıram. Yaradıcı təcrübəm mənə cəmiyyətin mədəni nəbzini hiss etməyə imkan verir, parlament fəaliyyəti isə bu hissləri dövlət siyasətinə çevirmək imkanı yaradır. Əminəm ki, gələcəkdə qəbul olunacaq qanunlar milli mədəniyyətimizi daha da inkişaf etdirəcək, irsimizi zənginləşdirəcək, klassik ənənələrimizi qoruyub müasirləşdirəcək, Azərbaycan mədəniyyətini dünya miqyasında tanıdacaq və nüfuzlu edəcək.

Hər addımımız Azərbaycan mədəni diplomatiyasına, milli kimliyimizə və gələcək nəsillərin mənəvi dünyasına xidmət edir. Mənim üçün bu, həm böyük məsuliyyət, həm də ən böyük şərəfdir.

***– Maraqlı söhbətə görə təşəkkür edirik.***

***Müsahibəni apardı:***
***Mehparə ƏLİYEVA***
***XQ***

# Süni intellekt yaratdıqlarının müəllifi sayıla bilərmi?

## *Günün bu sualı hüquqi cavabını gözləyir*

**Süni intellekt (AI) texnologiyalarının sürətli inkişafı hüquq sistemlərini yeni və mürəkkəb suallarla üz-üzə qoyub. Xüsusilə, Aİ-nin yaratdığı mətn, vizual sənət əsərləri, ixtiralar və digər kreativ məhsulların kimə məxsus olması məsələsi artıq nəzəri müzakirə mövzusundan çıxaraq gündəlik hüquqi mübahisələr doğurub.**

Dekabrın 9-10-da "Əqli mülkiyyət və süni intellekt" mövzusunda keçirilən beynəlxalq konfransda müzakirə edilən əsas məsələlərdən biri də məhz bu idi. Yəni süni intellektin özü patent subyekti kimi tanına və AI tərəfindən yaradılan materiallar hüquqi baxımdan "ixtiraçı" anlayışına daxil edilə bilərmi? Bu, müəlliflik hüququnun və patent sisteminin gələcək sərhədlərini də müəyyənləşdirir.

**Əqli Mülkiyyət Agentliyi İdarə Heyətinin sədri Kamran İmanov konfransda açılış nitqi ilə çıxış edərək bildirdi ki, süni intellekt müasir dövrün ən mühüm texnoloji hadisələrindən biri kimi yalnız rəqəmsal aləmi deyil, hüquqi və fəlsəfi düşüncə tərzini də ciddi şəkildə dəyişir.** Bu texnologiyanın yaratdığı imkanlarla yanaşı, ortaya çıxan risklər də peşəkar



mühitdə və geniş ictimaiyyət arasında etik və hüquqi baxımdan ehtiyatlı yanaşmalar formalaşdırır.

Prezident İlham Əliyevin təsdiqlədiyi "Azərbaycan Respublikasının 2025–2028-ci illər üçün süni intellekt Strategiyası" iqtisadiyyatın müxtəlif sahələrinin, dövlət idarəçiliyinin, təhsil sisteminin və infrastrukturun texnoloji transformasiyasını hədəfləyir. Sənəd normativ-hüquqi mexanizmlərin yenilənməsini, məlumatların etik istifadəsi və məsuliyyət prinsiplərinin dəqiqləşdirilməsini, eləcə də "Süni intellekt haqqında" xüsusi qanunun qəbulunu gündəmə gətirir. Bununla yanaşı, strategiya əqli mülkiyyət sahəsində mövcud qanunvericiliyin də yeni reallıqlara uyğunlaşdırılmasını zəruri sayır.

**Professor Kamran İmanov onu da vurğuladı ki, süni intellekt sürətlə inkişaf etsə də, insan şüuru və emosional qavrama kimi sahələrə yaxın gələcəkdə tam cavab verə bilməyəcək.** Çünki AI hələlik insan düşüncəsinə deyil, əvvəlcədən qurulmuş məntiqi alqoritmlərə əsaslanır.

Əsas hüquqi problemlərdən biri generativ süni intellektin hazırladığı ərizələrin birbaşa süni intellektin adından qeydiyyata alınıb-alınmamasıdır. Nəzəri baxımdan mümkün sayılsa da, bu halda "hüquq sahibi kim olacaq?" sualı ortaya çıxır. "Elektron şəxslər" anlayışının "hüquqi şəxslər" modeli ilə oxşar şəkildə tanınması da müzakirə mövzusudur. Məsələ beynəlxalq xüsusi hüquqa birbaşa təsir göstərir. Məsələn, AI tərəfindən idarə olunan avtomobil və ya qatar qəzaya düşərsə, məsuliyyətin kimə məxsus olacağı sualı yaranır. Potensial məsul tərəflər sırasında süni intellektin yaradıcıları, sahibləri və istifadəçiləri göstərilsə də, real məsuliyyət mexanizmləri tətbiq olunarkən bu subyektlərin hüquq sahibliyindən yayınmağa çalışdığı müşahidə olunur.

**Avrasiya Patent İdarəsinin prezidenti Qriqori İvliyev isə qeyd etdi ki, əqli mülkiyyətin hüquqi tənzimlənməsi XIX əsrin sonlarına təsadüf etsə də, patent sisteminin əsas prinsipləri günümüzədək demək olar ki, dəyişməz qalıb.** Lakin




sürətlə inkişaf edən texnologiyalar fonunda bu sahəyə yeni yanaşmaların tətbiqi artıq zərurətə çevrilib. Müasir texnoloji həllərin patent mexanizmlərinə inteqrasiyası innovasiyaların hüquqi müdafiəsini daha da aktuallaşdırır.

Ümumdünya Əqli Mülkiyyət Təşkilatı texniki həllərin patentləşdirilməsi prosesində süni intellekt alqoritmlərindən istifadə etməklə yeni metodların tətbiqinə başlayıb. Bu yanaşma xüsusilə tibb sahəsində özünü göstərir: məsələn, Alzheimer xəstəliyinin erkən və sürətli diaqnostikasında istifadə olunan bəzi həllər artıq uğurlu nəticələr verir. Bu cür innovativ ixtiraların patentlə qorunması patent qurumlarının üzərinə mühüm məsuliyyət qoyur. Azərbaycan ərazisində isə İT sektoru üzrə Əqli Mülkiyyət Agentliyi ilə birgə bir sıra strateji əhəmiyyətli layihələr icra olunur. Bu təşəbbüslərin əsas məqsədi müasir texnologiyaların tətbiqini genişləndirmək və innovativ mühiti gücləndirməkdir. Eyni zamanda, Avrasiya Patent İdarəsi ilə Azərbaycanın əməkdaşlığı çərçivəsində müxtəlif birgə layihələr həyata keçirilir.

Q.İvliyev konfransda aparılacaq müzakirələrin konkret və praktik həll yolları ortaya qoyacağına, əldə ediləcək nəticələrin cəmiyyət üçün faydalı olacağına ümid etdiyini bildirdi.

**Ümumdünya Əqli Mülkiyyət Təşkilatının (ÜƏMT) Əqli mülkiyyət və qabaqcıl texnologiyalar departamentinin direktoru xanım Ulrike Till Azərbaycanda müasir texnologiyaların artıq dayanıqlı şəkildə cəmiyyətin həyatına inteqrasiya olunduğunu bildirdi:**




–Süni intellekt sadəcə gələcək hədəf kimi deyil, formalaşmış praktik reallıq kimi fəaliyyət göstərir və gündəlik iş proseslərinin ayrılmaz hissəsinə çevrilib. Bununla yanaşı, süni intellektin sürətli yayılması əqli mülkiyyət sahəsində ciddi hüquqi və konseptual suallar ortaya çıxarır. Xüsusilə, alqoritmlər tərəfindən yaradılan nəticələrin hüquqi mənsubiyyəti, yəni bu məhsulun real sahibinin kim olması məsələsi getdikcə daha aktual mövzuya çevrilir. Məhz bu baxımdan, konfrans çərçivəsində aparılacaq müzakirələr həm praktik, həm də elmi baxımdan mühüm nəticələr doğuracaq.

**Elm və təhsil nazirinin müavini Həsən Həsənli dedi ki, STEAM istiqaməti üzrə layihələr artıq uğurla icra olunur və təhsil sistemində real nəticələr verməkdədir.** Hazırda ölkədə 600 mindən



çox şagird ibtidai siniflərdən rəqəmsal bacarıqlara yiyələnir. Onlar baza biliklərini möhkəmləndirməklə yanaşı, müasir süni intellekt alətləri ilə işləmək imkanları da əldə edirlər.

Yaradıcı düşüncəyə malik nəslin formalaşdırılması birbaşa müəllimlərin rolu ilə bağlıdır. Məhz bu məqsədlə cari ilin sentyabr ayından etibarən Bakıda fəaliyyət göstərən bütün məktəblərdə "Rəqəmsal məktəb" platformasının tətbiqinə başlanılıb. Növbəti ildən etibarən bu platformanın funksionallığının həm şagirdlər, həm də pedaqoji heyət üçün daha da genişləndirilməsi nəzərdə tutulur.

***Ləman TƏHMƏZ***
***XQ***

---

**Xaçmazda fəaliyyət göstərən "Ulduzlar" Ədəbi Məclisinin növbəti toplantısı pedaqoq, şairə Mehparə Sadıqovanın "Ömür nəğmələri" adlı yeni şeirlər kitabının təqdimatına həsr edilib.**

# Xaçmazın ədəbi "Ulduzlar"ı



Məclisin rəhbəri şair Aqşin Dadaşoğlu şair-pedaqoqun bədii yaradıcılığı və ictimai fəaliyyəti ilə seçildiyini vurğulayıb, onun yeni kitabı barədə məlumat verib.

Məclis üzvlərindən Məmməd Qədir, Mövlan Şahid, Cümşüd Aydəmir, Rübabə Mustafazadə, Nəzakət Əliyeva, Gülçəmən Həbibova, Gözəl Azayeva, Kənan Rahi və Səməd Asifoğlu Mehparə xanımın yeni şeirlərini ifa ediblər. Onların ifalarını şair İbrahim Ağçaylı tarda müşayiət edib.

Jurnalist İmran Bədirxanlı son illər Xaçmazda ədəbi mühitin zənginləşdiyini, istedadlı qələm sahiblərinin toplaşdığı "Ulduzlar"ın bu işə gözəl töhfələr verdiyini diqqətə çatdırıb. Türk dünyasında tanınan şair Ramiz Qusarçaylı qeyd edib ki, "Ulduzlar" Quzey bölgəsində yaradıcı ədəbi məclis kimi fərqlənir.

Əməkdar jurnalist Azər Həsrət də Mehparə Sadıqova haqqında ürək sözlərini deyib, yenicə çapdan çıxmış "1996: Moskva göz yaşlarına inandırır…" adlı kitabını iştirakçılara hədiyyə edib.

***XQ***

---

# "Qarabağ" – ilin ən yaxşı kitabı

**Qazaxıstanın yeni nəsil şairlərindən olan, Dünya Gənc Türk Yazarları Birliyinin (DGTYB) üzvü Sayat Kamşigerin "Qarabağ" poeması "İlin ən yaxşı kitabı" seçilib.**

Sayat Kamşigerin poeması Beynəlxalq PEN Klubunda (Poets, Essayists, Novelists) International Club) fərqləndirilib. Mükafat müəllifə Avstraliyanın Sidney Opera Evində keçirilən möhtəşəm mərasimdə təqdim edilib.



Qeyd edək ki, "Qarabağ" poeması bu ilin martında Azərbaycanda işıq üzü görüb və Qazaxıstanda geniş ədəbi ictimaiyyət tərəfindən rəğbətlə qarşılanıb. DGTYB ilə "Regional Hüquqi və İqtisadi Maarifləndirmə" İctimai Birliyinin (RHİMİB) ortaq layihəsi olaraq ərsəyə gələn kitab Xəzərin o tayından gələn poetik səda, Qazax-Azərbaycan ədəbi-mədəni bağlarının daha bir möhkəm halqasına çevrilib.

Poemanın Azərbaycan dilinə uyğunlaşdırılmasını tanınmış şair-publisist Elşən Əzim, redaktəsini professor Rəsmiyyə Sabir həyata keçirib. Layihənin rəhbəri – Uluslararası "Alaş" Ədəbi Mükafatının laureatı Əkbər Qoşalı, ön söz müəllifi Arzu Bağırova, rəyçilər İntiqam Yaşar və Tariyel Əhmədov, koordinatorlar Nilufər Lətif və Etibar Muradxanlı, dizayner isə Cəsarət Qasımovdur.

Əsər Azərbaycanın milli tarixini, Qarabağın qurtuluş yolunu, şəhidləri və Türk dünyasının birliyinə çağıran mənəvi düşüncələri poetik dillə ifadə edir. Sayat Kamşigerin Azərbaycana səfərindən sonra verdiyi vədə sadiq qalaraq qələmə aldığı "Qarabağ" bu gün həm Azərbaycan, həm də qazax oxucuları üçün dəyərli ədəbi hadisəyə çevrilib.

***XQ***

---

*Qədir Rüstəmov – 90*

# Ağdamda yubiley mərasimi





**Milli musiqi tariximizə çoxsaylı töhfələr vermiş Ağdam növbəti dəfə səsin sehrinə yığışanlara ev sahibliyi etdi. Rayonun Quzanlı qəsəbəsində yerləşən Muğam Mərkəzində millət vəkillərinin, ziyalıların və rayon ictimaiyyəti nümayəndələrinin iştirakı ilə görkəmli xanəndə, Xalq artisti Qədir Rüstəmovun anadan olmasının 90 illiyi münasibətilə yubiley mərasimi keçirildi.**

Ağdam Rayon İcra Hakimiyyətinin (RİH) təşkilatçılığı, Qarabağ Regional Mədəniyyət İdarəsinin dəstəyi ilə təşkil edilən məclisdə əvvəlcə Qədir Rüstəmovun həyat və yaradıcılığından bəhs edən filmin nümayişi oldu.

Ağdam RİH-in başçısı Vaqif Həsənov, Milli Məclisin deputatları Aqil Abbas, Bəxtiyar Əliyev, Mətbuat Şurasının sədri Rəşad Məcid, şair Vaqif Bəhmənli və başqaları musiqi mədəniyyətimizin inkişafında Qarabağ muğam məktəbinin nümayəndələrinin rolundan, Qədir Rüstəmovun həyatından, bənzərsiz ifaçılıq məharətindən bəhs ediblər. Görkəmli sənətkarın muğamlarımızın təbliği, tanıdılması və inkişafı naminə fədakar əməyi, istedadı, məlahətli səsi və özünəməxsus ifa tərzi sayəsində xalqın sevgisini qazanması, ulu öndər Heydər Əliyevin onun ifaçılığını yüksək dəyərləndirməsi xatırlandı.

Qeyd edildi ki, unudulmuş xalq mahnılarımızdan bir çoxu məhz Qədir Rüstəmovun ifası ilə yenidən həyat qazanıb. Onun son dərəcə məharətlə oxuduğu "Sona bülbüllər", "Apardı sellər Saranı", "Laçın", "Ay dili-dili", "Sarı gəlin" və neçə-neçə digər mahnılar hər kəsin qəlbində kövrək duyğular və səmimi hisslər oyadıb. Qədir Rüstəmovun ifasında "Rast", "Çahargah" kimi bir sıra muğam dəsgahları lentə alınaraq radionun qızıl fondunda saxlanılır. Görkəmli xanəndənin milli musiqi mədəniyyəti sahəsində nailiyyətləri daim dövlətimiz tərəfindən yüksək qiymətləndirilib, o, Azərbaycan Respublikasının ali mükafatı olan "Şöhrət" ordeni ilə təltif edilib.

Bildirildi ki, Prezident İlham Əliyevin müdrik siyasəti nəticəsində Qədir Rüstəmovun bütün varlığı ilə bağlı olduğu Ağdam da digər torpaqlarımız kimi, azadlığına qovuşub, indi yenidən qurulur, dirçəlir, inkişaf edir.

Ağdam Musiqi Kollecinin "Qarabağ" instrumental ansamblının müşayiəti ilə tanınmış muğam ifaçılarının təqdimatında mərhum xanəndənin repertuarına aid xalq və bəstəkar mahnılarından ibarət musiqi nömrələri mərasimə xoş ovqat gətirdi.

Sonda sənətkarın oğlu Mehdi Rüstəmov tədbirin təşkilatçılarına və bütün iştirakçılara minnətdarlığını bildirdi.

***Mahir RƏSULOĞLU,***
***XQ-nin Qarabağ müxbiri***

---

# "Günəşli" sanatoriyası yenidən qurulub

**Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyası (AHİK) çoxsaylı üzvlərinin əmək hüquqlarının müdafiəsi, layiqli iş şəraiti yaradılması, istehsalat təhlükəsizliyi, asudə vaxtın mənalı keçirilməsi tədbirləri ilə yanaşı, onların sağlamlığının qorunması və istirahətinin təşkili ilə bağlı da ardıcıl tədbirlər həyata keçirir. Bu məqsədlə müalicə və istirahət mərkəzlərində xidmət yenidən qurulur.**



Bakının Mərdəkan qəsəbəsində yerləşən AHİK-in "Günəşli" sağlamlıq mərkəzində də son dövrlər müalicə-bərpa prosedurları müasirləşdirilib. Burada infrastruktur yeniləşdirilib, mərkəz müasir tibbi avadanlıqlarla təchiz edilib.

AHİK-in, dövlət qurumlarının nümayəndələri və Milli Məclisin deputatları mərkəzdə olarkən onlara bildirilib ki, "Günəşli" sağlamlıq mərkəzi inzibati bina, 243 çarpayılıq 133 otaqdan ibarət 2 yataq və 1 müalicə korpusu, diaqnostika mərkəzi, klub, rəqs və idman meydançalarından ibarətdir. Sinir sistemi xəstəliklərinin müalicəsi üzrə ixtisaslaşan mərkəz fizioterapiya xidmətləri, müalicəvi naftalan, paranaft və mineral su vannaları təqdim edir. Burada kedr çəlləyi, akupunktura, biopunktura, limfodrenaj, neyroson, ozonoterapiya, inhalyasiya və digər müalicə-profilaktik prosedurları da həyata keçirilir.

Qeyd edilib ki, sağlamlıq mərkəzinin yararsız halda olan yataq korpuslarının biri əsaslı yenidən qurulub, müasir standartlara uyğun şərait yaradılıb. Korpusda zəruri avadanlıqlarla təchiz edilmiş 80 çarpayılıq 50 otaq var. Burada yeni tibbi avadanlıqlarla təchiz olunmuş həkim, masaj və vanna otaqları, fizioterapiya kabinetləri müalicə alanların xidmətindədir.

Bununla yanaşı, ərazinin infrastrukturu yenilənib, daxili yollara yeni asfalt örtüyü çəkilib. Yaşıllıqda yeni ağac və bəzək kolları əkilib. Həyətin işıqlandırma sistemi yenilənib, su təchizatı yaxşılaşdırılıb. Mərkəzdə internet şəbəkəsi, IP telefoniya və təhlükəsizlik kameraları qurulub.

Qonaqlar "Günəşli" sağlamlıq mərkəzində yaradılan şəraiti, müalicə və istirahət imkanlarını yüksək qiymətləndiriblər.

***Q.YUSİFOĞLU***
***XQ***

# “Odlar yurdu”nun cənnət məkanları dünyaya gəl-gəl deyir

## *Ölkənin misilsiz turizm potensialının imkanları və hədəfləri*



**Azərbaycan iqtisadiyyatının mühüm istiqamətlərindən birinə çevrilən turizm sahəsi son illər regional və qlobal proseslərin təsirinə baxmayaraq, inkişaf dinamikasını qorumağa çalışır. XXI əsrin qlobal iqtisadiyyatında turizm həm iqtisadi fəallıq, həm də sosial rifah baxımından strateji önəm daşıyır.**

Ölkəmizin coğrafi mövqeyi, zəngin təbii ehtiyatları, mədəni irsi və təhlükəsizlik mühiti bu sahənin genişlənməsi üçün əlverişli zəmin yaradır. Lakin turizm sektorunun real potensialının tam reallaşması üçün kompleks yanaşmaya, institusional islahatlara, rəqabət qabiliyyətli xidmətlərə və dünya təcrübəsinin sistemli tətbiqinə ciddi ehtiyac var.

Qeyd edək ki, respublikamızın turizm siyasəti son onillikdə dövlət səviyyəsində prioritet istiqamət kimi müəyyənləşdirilib. Qəbul olunan inkişaf strategiyaları, dövlət proqramları, regional turizm layihələri, beynəlxalq tədbirlər, vizual imic kampaniyaları və təhlükəsizliyin yüksək səviyyəsi ölkənin turizm məkanında yeni mərhələyə keçidini gerçəkləşdirib. Bu dövrdə infrastrukturun yenilənməsi, yolların modernləşdirilməsi, beynəlxalq hava nəqliyyatı əlaqələrinin genişlənməsi, mehmanxana sektorunun böyüməsi və xidmət standartlarının təkmilləşməsi kimi mühüm tədbirlər həyata keçirilib.

Bu prosesdə regionların turizm potensialının üzə çıxarılması xüsusi əhəmiyyət daşıyır. Azərbaycanın şimal-qərb bölgəsi dağ-xizək, cənubu subtropik iqlim, qərbi mədəni və tarixi, Abşeron yarımadası isə dəniz və biznes turizmi baxımından fərqlənir. Bu diversifikasiya milli turizm konsepsiyasının əsas sütunlarından biri kimi dəyərləndirilir. Şübhəsiz ki, bu məsələdə turizmin real inkişafı üçün ölkədaxili və beynəlxalq əlçatanlıq əsas şərt sayılır. Son illərdə bölgələrə çəkilən yeni magistral yollar, hava limanlarının istifadəyə verilməsi, dəmir yolu şəbəkəsinin yenilənməsi və ictimai nəqliyyatın təkmilləşdirilməsi turizm axınını artıran amillər olaraq yüksək qiymətləndirilir.

Bununla belə, bir çox dağlıq və ucqar ərazilərə çıxış hələ də məhduddur. Xüsusilə ekoturizm və kənd turizmi üçün cəlbediciliyi ilə diqqət çəkən və səfər siyahısında nəzərdə tutulan bir sıra istiqamətlərə gedən yollar hələ də işləksiz vəziyyətdədir. Bu baxımdan infrastrukturun dayanıqlı şəkildə yenilənməsi üçün planlaşdırma və investisiya modellərinin çevik olması da son dərəcə vacibdir.

Turizmin inkişafında ən həssas məqam göstərilən xidmətlərin keyfiyyəti ilə bağlıdır. Ölkədə aparılan təkmilləşdirici layihələrə baxmayaraq, xidmət mədəniyyəti sahəsində çatışmazlıqlar hələ də ciddi narahatlıq doğurur. Bu, xüsusilə mehmanxanalarda xidmət səviyyəsinin, restoran və ictimai iaşə sektorunda peşəkarlığın aşağı olması, bələdçi xidmətlərinin bir sıra hallarda narazılıq doğurması, dil biliklərinin, eləcə də rəqəmsal savadlığın zəif inkişaf etməsi kimi problemlərdə özünü qabarıq göstərir. Bütün bunlarla yanaşı, turizm sahəsində ixtisaslaşmış kadrların hazırlanması istiqamətində son illərdə önəmli addımlar atılmasına baxmayaraq, əmək bazarı da tələblərə tam cavab vermir. Gənclər üçün praktik təlimlərin genişləndirilməsi, beynəlxalq sertifikatlaşdırma mexanizmlərinin tətbiqi və dövlət-özəl əməkdaşlığının gücləndirilməsi prioritet istiqamətlərdən olmalıdır.

Azərbaycan dövlətinin turizm siyasətində regionların inkişafı xüsusi yer tutur. Bu gün şimal bölgəsi dağ turizmi, şimal-şərq sahil zolağı dəniz turizmi, Qarabağ və Şərqi Zəngəzur isə yeni iqtisadi zonalar kimi böyük potensiala malikdir. Xüsusilə münaqişə sonrası bərpaolunan Qarabağ bölgəsi mədəni, ekoloji, tarixi və dini turizm üçün unikal imkanlar açır. Lakin regionların çoxunda turizm yönümlü biznes təşəbbüslərinin dəstəklənməsi, kiçik sahibkarların fəaliyyətinin stimullaşdırılması, kənd qonaq evlərinin yaradılması, marşrutların rəqəmsallaşdırılması və ekoloji balansın qorunması kimi məsələlər daha sistemli tədbirlər tələb edir.

Turizmin inkişafından bəhs edərkən, bir məqamı xüsusi diqqətə çatdırmaq yerinə düşər. Belə ki, pandemiya sonrası dövrdə qlobal turizm bərpa prosesinə



başlayarkən, Azərbaycan həm daxili turizmin genişlənməsi, həm də xarici turistlərin cəlb olunması baxımından önəmli layihələr gerçəkləşdirir. Görülən işlər ekoturizm, qış turizmi, qastronomiya və Qarabağ kimi yeni seqmentlərin inkişafını da şərtləndirir.

Yeri gəlmişkən, respublikamızın iqlim müxtəlifliyi ekoturizm üçün geniş perspektiv yaradır. Dağ-meşə zolaqları, milli parklar, qoruqlar və kənd yaşamı ekoturizmin təbii dayaqlarını təşkil edir. Ölkədə hazırda 10-dan çox milli park və qoruq fəaliyyət göstərir ki, bunlar həm biomüxtəlifliyin qorunması, həm də ekoturizmin inkişafı baxımından əhəmiyyətlidir. Lakin bu sahədə mövcud infrastruktur tam başa çatdırılmadığından, bir çox marşrutlarda nişanlama sistemi qurulmadığından, ekoturizm mərkəzlərinin sayı məhdud olduğundan və təcrübəli bələdçilər çatışmadığından yüksək nəticə əldə etmək də çətindir. Dünyada ekoturizmin inkişaf etdiyi Kanada, Yeni Zelandiya və Finlandiya kimi ölkələrin təcrübəsi göstərir ki, təbiətə zərər vermədən idarə olunan turizm modelinin qurulması əsas şərtdir.

Yaxın perspektivdə vacib vəzifələr isə milli parkların rəqəmsal xəritələrinin hazırlanması, ekoturizmin inkişafı məqsədilə xüsusi təlim proqramlarının genişləndirilməsi, kənd turizmi üçün maliyyə təşviqlərinin artırılması, “yaşıl turizm sertifikatı” sisteminin tətbiqi və ekoloji monitorinq mexanizmlərinin gücləndirilməsidir. Ekoturizmin genişləndirilməsi həm də regional inkişaf baxımından vacibdir. Çünki kənd yerlərində yeni turizm obyektlərinin fəaliyyətə başlaması xidmət sektorunun genişləndirilməsini, məşğulluğun və yerli iqtisadiyyatın canlanmasını şərtləndirir.

Azərbaycanın qış turizm sektoru son 10 ildə ən sürətli inkişaf edən istiqamətlərdən biridir. Qusar rayonundakı Şahdağ Turizm Mərkəzi və Qəbələdəki Tufandağ Qış-Yay Kompleksi Cənubi Qafqazın ən modern xizək infrastrukturlarından sayılır. Lakin regional rəqabətdə üstün mövqe əldə etmək üçün qış turizmi üzrə əlavə investisiyalar və xidmət keyfiyyətinin yüksəldilməsi vacibdir. Sektorun əsas çətinlikləri isə qış mövsümünün qısa olması, süni qar sistemlərinin məhdudluğu, yüksək qiymətlər, nəqliyyat əlçatanlığının bəzən yetərsizliyi, xizək müəllimlərinin çatışmazlığı və mövsümdənkənar dövrdə turizm axınının kəskin azalmasıdır.

Dünya təcrübəsinə diqqət yetirdikdə Avstriya, İsveçrə və Gürcüstanın dağ turizmi modelləri göstərir ki, süni qar texnologiyalarının geniş tətbiqi, xidmət paketlərinin optimallaşdırılması, yay mövsümündə dağ idmanları və mədəni tədbirlərin təşkili qış turizminin davamlılığını təmin edir. Bu sahədə prioritet hədəflər yeni xizək marşrutlarının açılması, xidmət və təhlükəsizlik standartlarının beynəlxalq səviyyədə tətbiqi, yay mövsümünün aktivləşdirilməsi, qış idman məktəblərinin genişləndirilməsi və beynəlxalq qış idman yarışlarının ölkəyə cəlb olunmasıdır.

### Mətbəxin iqtisadi dəyərə çevrilməsi

Bu gün dünya turizmində qastronomiya ən güclü trend istiqamətlərindən birinə çevrilib. Azərbaycan mətbəxi isə bu sahədə böyük üstünlüklərə malikdir. Dad müxtəlifliyi, qədim kulinariya ənənələri, bölgələr üzrə fərqli yemək mədəniyyəti, zəngin şirniyyat irsi milli brend yaratmaq üçün ciddi baza hesab olunur. Son illərdə ölkənin milli mətbəx potensialının turizm potensialına çevrilməsi istiqamətində çoxşaxəli fəaliyyətin icra edilməsi məhz həmin amilə əsaslanır.

Xatırladaq ki, respublikamızda bu sahəni təmsil edən milli komanda yaradılaraq onun beynəlxalq kulinariya olimpiadalarında iştirakı təmin olunub. Olimpiadalarda Azərbaycanı uğurla təmsil edən komanda gümüş və bürünc medallara layiq görülüb. Bununla bərabər, işğaldan azad olunmuş ərazilərdə, o cümlədən Şuşa şəhərində qastronomiya tədbirləri və dəyirmi masalar keçirilib. Azərbaycanın şərab turizminin inkişafı ilə bağlı reallaşdırılan layihələr çərçivəsində isə regionlarda bir neçə dəfə üzüm və şərab festivalları təşkil olunub.

Bu gün Azərbaycan qastronomiyasının qlobal miqyasda brendləşməsi, ölkəmizin regionun qastronomiya mərkəzinə çevrilməsi əsas hədəflərdən biridir. Bunun üçün, ilk növbədə, respublikamızda keçirilən yarışların regional səviyyəyə qaldırılması və bu istiqamətdə beynəlxalq təşkilatlarla əməkdaşlıq nəzərdə tutulur. Həmçinin qastronomiya sahəsi liderlərinin regionlara səfərləri, beynəlxalq tədbirlərdə milli mətbəxin konseptual tanıtımının təşkil olunması, beynəlxalq əmtəə nişanlı turizm məhsullarının yaradılması da diqqət mərkəzində saxlanılır.

Bununla belə, qastronomiya turizminin sistemli şəkildə qurulmasına zəruri ehtiyac duyulur. Çünki ölkəmizin restoran sektorunda xidmət mədəniyyəti aşağı səviyyədədir, bölgələr üzrə kulinariya marşrutlarının formalaşdırılmasında ləngli̇k nəzərə çarpır, kənd təsərrüfatı məhsullarının brendləşdirilməsi zəifdir, qida təhlükəsizliyi standartlarının tətbiqi isə bəzi hallarda qeyri-bərabərdir.

Mütəxəssislərin fikrincə, Azərbaycan bu sahədə dünyada qastronomiya turizminin uğurlu modellərindən, məsələn, İtaliya, Fransa və Yaponiya kimi ölkələrin təcrübəsindən yararlanmalı, regionlar üzrə ixtisaslaşmış mətbəx marşrutlarının yaradılmasına təşəbbüs göstərməli, milli yeməklərin resept standartlarının qorunmasını, məhsulların mənşə sertifikatlaşdırılmasını daim diqqətdə saxlamalıdır.

“Azərbaycan Qastronomiya Mərkəzi”nin yaradılması, vahid qastronomiya təqviminin hazırlanması, regionların qida xəritəsinin tərtib edilməsi, kulinariya məktəblərinin fəaliyyətə başlaması və turizm paketlərinə qastronomiya komponentinin əlavə olunması da strateji önəm daşıyan məsələlərdir.

### Qarabağ turizminin yeni iqtisadi platforması

Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonları ölkəmizin turizm sənayesində yeni mərhələnin əsas istiqamətlərindən birinə çevrilir. Şuşa şəhəri mədəniyyət turizminin simvolu kimi formalaşır. Burada tarixi abidələrin bərpa olunması, “Xarıbülbül” və Vaqif Poeziya Günləri kimi tədbirlərin keçirilməsi şəhərin beynəlxalq imicini gücləndirir. Kəlbəcər və Laçın bölgələri dağ turizmi, sağlamlıq turizmi və qış idmanı üçün geniş imkanlara malikdir. Füzuli, Hadrut və Cəbrayıl əraziləri kənd turizmi və ekoturizm üçün əlverişlidir. Qarabağ gölləri isə trekking və kamp turizmi üçün mühüm önəm daşıyır.

Lakin qarşıda duran vəzifələr də az deyil. Mina təmizlənməsi prosesinin tam başa çatdırılması, bələdçi və informasiya mərkəzlərinin yaradılması, marşrutların rəqəmsallaşdırılması, beynəlxalq marketinqin gücləndirilməsi əsas çağırışlardandır. Dünya təcrübəsi, xüsusilə Xorvatiya, Bosniya və Gürcüstan nümunəsi də göstərir ki, post-münaqişə turizminin uğurunu təhlükəsizlik, şəffaf bərpa və beynəlxalq imicin düzgün idarə olunması şərtləndirir. Azərbaycan üçün Qarabağ turizmi təkcə iqtisadi deyil, həm də siyasi və mədəni əhəmiyyət daşıyır. Bu bölgənin inkişafı ölkənin beynəlxalq turizm xəritəsində yeni mərhələyə keçidi təmin edə bilər.

Beləliklə, Azərbaycan turizminin perspektivi bu sektorun diversifikasiyasından keçir. Ekoturizm, qış turizmi, qastronomiya turizmi və Qarabağ turizmi həm iqtisadi şaxələndirməni, həm də regional inkişafı reallaşdıra biləcək strateji istiqamətlərdir. İnfrastrukturun genişləndirilməsi, rəqəmsal xidmətlər, insan kapitalının gücləndirilməsi, beynəlxalq təcrübənin tətbiqi və uzunmüddətli marketinq siyasəti ilə respublikamız yaxın illərdə regionun aparıcı turizm mərkəzlərindən birinə çevrilə bilər.

***Vaqif BAYRAMOV***
***XQ***



### *Ekspert rəyi*



**Eyyub KƏRİMLİ,**
**İqtisadi və Sosial Araşdırmalara Yardım İctimai Birliyinin sədri, iqtisadçı-ekspert**

Turizm Azərbaycanın qeyri-neft iqtisadiyyatının inkişafında aparıcı sahələrdən birinə çevrilmək imkanına malikdir. Son illər görülən işlər bu istiqamətdə mühüm irəliləyişlərin əldə olunduğunu göstərir. Lakin qarşıda duran vəzifələr daha genişmiqyaslı yanaşma tələb edir. Mövcud problemlərin həlli, xidmət sahəsində keyfiyyətin yüksəldilməsi, insan kapitalının gücləndirilməsi və dünya təcrübəsinin tətbiqi yaxın illərdə Azərbaycanın turizm sektorunu regional mərkəzə çevirə bilər.

Turizm yalnız iqtisadi artım deyil, həm də mədəni tanıtım, ölkənin beynəlxalq imicinin güclənməsi və regionların sosial inkişafı üçün mühüm vasitədir. Bu sahədə davamlı siyasət və çevik idarəetmə Azərbaycanın qlobal turizm xəritəsində yerini daha da möhkəmləndirə bilər.

Sözügedən sektorda indiki durumu qiymətləndirmək üçün statistik göstəricilərə də nəzər salmaq yerinə düşər. Belə ki, bu ilin yanvar-oktyabr aylarında respublikamıza dünyanın 183 ölkəsindən 2 milyon 171 min (2024-cü ilin eyni dövrü ilə müqaisədə 1,7 faiz az) turist gəlib. Gələnlərin 24,4 faizi Rusiya Federasiyası, 17,4 faizi Türkiyə, 8 faizi İran, 6,6 faizi Hindistan, 4,3 faizi Səudiyyə Ərəbistanı, 4,2 faizi Gürcüstan, 4 faizi Qazaxıstan, 3,4 faizi Pakistan, 2,6 faizi Çin, 2,4 faizi İsrail, 2,3 faizi Özbəkistan, 1,6 faizi Birləşmiş Ərəb Əmirlikləri, 1,4 faizi Ukrayna, 1,2 faizi Türkmənistan, hər birindən 1,1 faiz olmaqla Belarus, Böyük Britaniya və Küveyt, 12,9 faizi digər ölkələrin vətəndaşları olub.

Bəs statistik azalma nə ilə əlaqəlidir? Fikrimcə, bu, ilk növbədə, quru sərhədlərimizin bağlı olması, digər tərəfdən regionda, əsasən də Gürcüstan və Türkiyədə bu sahədə güclü rəqabətin yaşanması ilə bağlıdır. Bunlar, əlbəttə, obyektiv təsirlərdir. Lakin subyektiv amillər də var. Belə ki, sözügedən sistemdə əsas problemlərdən biri xidmət sektorunda çox vaxtlar turistlərə olan xidmətin nisbətən daha baha olmasıdır.

Müşahidələrimə əsasən, deyə bilərəm ki, respublikamızın əksər yaşayış sahələrində muzeylər, tarixi məkanlar və restoranların xarici qonaqlar üçün xidmət haqqı, o cümlədən təyyarə biletləri çox bahadır. Restoranlarda bəzi hallarda şişirdilmiş qiymətlər, əsaslandırılmamış servis haqları və s. turist axınına mənfi təsir edir. Başqa sözlə, bütün bunlar turistlərin gözündən yayınmır və səfər təəssüratlarına mənfi təsir göstərir.

Bu cür hallara qarşı ciddi mübarizə aparılmalı, neqativ məsələlər aradan qaldırılmalı, turistlərə yönələn mənfi yanaşmaların qarşısı alınmalıdır. Restoranlarda əsaslandırılmayan servis haqları, ümumiyyətlə, ləğv edilməli, turistlər üçün xidmət tarifləri yerli qiymətlərə uyğunlaşdırılmalıdır. Şübhəsiz ki, sadalanan çətinliklər aradan qaldırılarsa, turistlərin ölkəmizə marağı güclənər, respublikamızın bu sahə ilə bağlı dövriyyəsi artar.

Xalq qəzeti
XQ
xalqqazeti.az
№ 261 (30955) 11 dekabr 2025-ci il, cümə axşamı

## İDMAN

### XIV turun yekunu



**Misli Premyer Liqasında XIV tura yekun vurulub. Ötən çərşənbə axşamı son 2 qarşılaşma keçirilib. "Liv Bona Dea Arena"da "Araz-Naxçıvan" "Kəpəz"i qəbul edib. Oyun meydan sahiblərinin xeyrinə başa çatıb – 2:0.**

Digər qarşılaşmada "Sumqayıt" "İmişli" ilə üz-üzə gəlib. Mehdi Hüseynzadə adına Sumqayıt şəhər stadionunda keçirilən görüşün 82-ci dəqiqəsində Rüstəm Əhmədzadənin vurduğu yeganə qol oyunun taleyini həll edib – 1:0.

Xatırladaq ki, turun əvvəlki görüşlərində "Şamaxı" "Karvan-Yevlax"ı (3:0), "Sabah" "Neftçi"ni (2:0) məğlub edib. "Zirə" – "Qarabağ" qarşılaşmasında isə heç-heçə qeydə alınıb – 1:1. "Qəbələ" – "Turan Tovuz" oyunu isə əlverişsiz hava şəraitinə görə təxirə salınıb.

On dördüncü turdan sonra turnir cədvəlinə 30 xalla "Qarabağ" başçılıq edir. "Sabah" 28 xalla 2-ci, "Zirə" isə 27 xalla 3-cü pillədədir. Sonuncu – 11-12-ci yerləri isə 6 xalla "Kəpəz" və 5 xalla "Karvan-Yevlax" tamamlayır.

### 8 boksçumuz 1/4 finalda



**Birləşmiş Ərəb Əmirliklərinin Dubay şəhərində kişi boksçular arasında dünya çempionatında 1/8 final mərhələsinə yekun vurulub. Bu mərhələdə Azərbaycan millisinin daha 2 idmançısı qələbə qazanıb.**

Maqsud Xasmetov (63,5 kq) Ruslan Qafurovdan (Tacikistan) güclü olub. O, rəqibini 5:0 (30:26, 30:27, 30:27, 30:27, 30:27) hesabı ilə məğlub edib. Xasmetov 1/4 finalda Omar Livaza (Qırğızıstan) ilə döyüşəcək.

Sərxan Əliyev (71 kq) də növbəti qələbəsini qazanıb. Dünya çempionatının mükafatçısı bu dəfə Arturs Vaisə (Latviya) 5:0 (30:27, 29:28, 29:28, 30:27, 29:28) hesabı ilə qalib gəlib. O, 1/4 finalda Ablayxan Jussupovu (Qazaxıstan) sınağa çəkəcək.

Qeyd edək ki, Xasmetov və Əliyevdən öncə daha 6 boksçumuz 1/4 finalda iştirakını rəsmiləşdirib.

### Çempionlar Liqasının növbəti oyunları



**UEFA Çempionlar Liqasının əsas mərhələsində VI turun oyunları keçirilib. İlk oyun günündə 9 qarşılaşma baş tutub.**

Türkiyənin "Qalatasaray" klubu Fransada "Monako"nun qonağı olub. Qarşılaşma meydan sahiblərinin minimal hesablı qələbəsi ilə başa çatıb – 1:0.

Günün maraqla gözlənilən qarşılaşmalarından biri də İtaliyada baş tutub. İtaliyanın "İnter" komandası İngiltərənin "Liverpul" klubunu qəbul edib. Bu qarşılaşmada isə qonaqlar üstün olublar – 1:0.

Digər görüşlərdə "Kayrat" (Qazaxıstan) – "Olimpiakos" (Yunanıstan) 0:1, "Bavariya" (Almaniya) – "Sportinq" (Portuqaliya) 3:1, "Atalanta" (İtaliya) – "Çelsi" (İngiltərə) 2:1, "Barselona" (İspaniya) – "Ayntraxt" (Frankfurt, Almaniya) 2:1, PSV (Niderland) – "Atletiko" (İspaniya) 2:3, "Yunion" (Belçika) – "Marsel" (Fransa) 2:3, "Tottenhem" (İngiltərə) – "Slaviya" (Çexiya) 3:0 hesabı qeydə alınıb.

Turun qalan oyunları dünən axşam keçirilib. Tofiq Bəhramov adına Respublika Stadionunda keçirilən "Qarabağ" – "Ayaks" qarşılaşması 2:4 hesabı ilə başa çatıb.

*Qabil YUSİFOĞLU*
*XQ*

✓ *1993-cü ildə Azərbaycan Texniki Universiteti tərəfindən Hacıyev Azər Hacıağa oğlunun adına verilmiş AB-I seriyalı, 028348 nömrəli mühəndis-mexanik diplomu itdiyi üçün etibarsız sayılır.*

✓ *Xaçmaz rayon sakini Seyidəliyev Rəvan Famil oğluna məxsus S150 model Tufan markalı motosikletin 99D 872 dövlət nömrə nişanı itdiyi üçün etibarsız sayılır.*

# Zamanın coğrafiyası

**(əvvəli qəzetin 5, 6 və 9 dekabr tarixli saylarında)**

**Boş zamana yaponların münasibəti də fərqlidir. R.Levin yazır ki, yapon dilində boş zaman mənasını verən "yoka"nın tam qarşılığı "qalan zaman"dır. Yaponlar deyirlər ki, "Sərbəst zaman çalışmağa bərabər dəyərdə qəbul edilmir".**

Sürət ənənəvi yapon mədəniyyətində əxlaqi normadır. Yavaş hərəkət edən insanın "axmaq" olduğu deyilir. Əsas bioloji ehtiyaclar üçün belə zamanı boşa vermək yaxşı qarşılanmır. "Hayameşi, hayaquso, geinoçi" deyə bir deyiliş var. Kobud tərcümədə belə səslənir: "Sürətli yemək, sürətli təbii ehtiyacını ödəmək bir sənətdir". Buna görə də, təəccüblü deyil ki, hər hansı bir əməkdaş vəzifəsi istər sürət tələb etsin, istərsə tələb etməsin, yapon iş yerində son günahı işləmiş olur: yəni ondan gözlənilən fədakarlığı verə bilmir. Yaponiyada "Sumitomo Electric" şirkətində çalışmış amerikalı Qarr Reynoldsın müşahidələrinə görə, yaponlar "iş yerlərində məşğul olmasalar belə, məşğul olduqlarının göstərilməsinin əhəmiyyətinə inanırlar. Məşğul görünmənin bir yolu da işləri sürətlə görməkdir.

Nümunə kimi, fotonüsxə makinasına qədər beş metrlik yolu qaçmağı, rutin bir məktub yazdığı halda kompüterin klaviaturasına vurmağı, şöbə rəhbərinin adını deyər-deməz stuldan bir anda atılmağı ("Bəli, müdir") göstərmək olar. Məşğul olmaq və ya məşğul kimi görünmək yapon cəmiyyəti üçün əxlaq normasıdır və işləri sürətli və əndişə içində yerinə yetirən kimi görünmək digərlərində belə təəssürat yaradır ki, həmin şəxs gerçəkdən məşğuldur və dolayısı ilə yaxşı çalışan əməkdaşdır.

Yaponların maraqlı yanaşmalarından biri də budur ki, onların fikrincə, əgər insanlar nəsə istehsal etmirlərsə, bu onların cəhd göstərmədikləri anlamına gəlir. Bu, halda nə etmək lazımdır? Yaponlara görə, bunun həll yolu daha sürətli və daha çox çalışmaqdan ibarətdir. Yəni öncə işinə, sonra özünə vaxt ayırmaq tələb olunur. Buna görə də ənənəvi yapon iş əxlaqı– "senyu koraku" (öncə mücadilə, sonra əyləncə)– Yaponiyaya xas kollektivçi dəyərlər sistemi daxilində tənzimlənir.

Bundan başqa, R.Levin yazır ki, Yaponiyaya xas kollektivçilik topluma fokuslanır. Bir çox əməkdaş üçün bu toplumlardan ən önəmlisi, əlbəttə ki, çalışdıqları şirkətlərdir. İndividuallıq fərdi uğuru tamamilə şirkətin rifahı ilə ölçülən yapon işçisi üçün yad anlayışdır. Topluma sədaqət və bağlılıq Yaponiyada seçim deyil, məcburiyyətdir. Roman yazarı Yukio Mişima "Günəş və Polad" adlı əsərində bu kollektivist şəxslərin kim olduğunu izah etməyə çalışmışdı: Toplum kəlmələrin əsla ortaya çıxara bilməyəcəyi şeylərlə– tər, gözyaşı, sevinc və ağrı qışqırıqları ilə əlaqəlidir. Əgər daha da dərinə getsəniz, kəlmələrin əsla axıtmayacağı qanla əlaqəlidir... bunun fərqinə vardım ki, yalnız toplum şəklində toplumun acısını paylaşmaqla vücut insanın təkbaşına çata bilməyəcəyi bir yüksəkliyə çıxar.

İnsanın şirkətlə qaynayıb–qarışması hər yerdə görülür. Yaponlar şirkətlərinin uğurları üçün çalışır və sonra şirkətlərinin uğurunu şəxsi uğuru kimi qəbul edir. "Gündoğar" ölkədə geniş yayılmış sloqan da var: "Siz qazanmasanız da, kollektiviniz qazana bilər". Yəni Yaponiyada hər hansı bir fərd ailəsinə bəslədiyi hissləri kollektivinə bəsləyir. Yaponlar bunun metafora olmadığını deyirlər.

Araşdırmalar da bunu təsdiqləyir. Bu bağlılıq qarşılığında işçilər xidmət etdikləri toplumun daimi olaraq şərtsiz dəstəyini və etibarını qazanırlar. Yaponiyanın sabiq nəqliyyat naziri Yoşia Ariyoşi bununla bağlı belə deyir: "Həyatın əvvəli amerikalı və yaponlar üçün fərqlidir. Amerikada, anladığm qədəri ilə, uşaq kimliyinin müstəqilliyini haqq etmələri üçün cəsarətləndirilir. Yaponiyada isə öyrəndiyiniz ilk şey topluma uyğunlaşmaqdan ibarətdir. Bu uyğunlaşma qarşılığında isə insanlar sizə qarşı nəzakətli davranırlar. Heç bir şey üçün rica etməyinizə lüzum yoxdur. İstəkləriniz siz onları istəmədən yerinə yetiriləcək. Uşaq vaxtlarında yaxşı olmusunuzsa və narahatlıq doğuran istəkləriniz yoxdursa, insanlar sizi əzizləyəcəklər.



Əksər yapon üçün, xüsusilə də kişilər üçün ən önəmli dəstək qrupu çalışdıqları şirkətlərdir. Universitet məzunları gələcək iş yerlərini–şirkətləri həyat yoldaşları kimi diqqətlə seçirlər. Evlilik kimi şirkətlə əlaqənin də ömür boyu olması məqsəd kimi qarşıya qoyulur. Yapon çalışanlarının ənənəvi olaraq ömür boyu faydalandıqları maliyyə və iş güvənliyi haqqında çox yazılır. Amma yaponlar üçün önəmli olan mənəvi, duyğusal dəstəkdir. Məsələn, işçilərdən biri xəstələndiyində şirkət evə həkim göndərməklə kifayətlənmir, rəhbərin kədərini bildirmək üçün xəstəni ziyarət də edir. Bu məsələdə, hətta ifrata da varılır. Məsələn, "Kyoto Ceramic" şirkətinin işçiləri və ailələri üçün toplu məzar satın aldığı deyilir. Çalışanlarının ölümdən sonra da "yalnız hiss etməyəcəklərindən" əmin olmaq istəmişdilər.

Xüsusilə kişi əməkdaşları üçün iş yoldaşları iş gününün bir parçasını formalaşdıran insanlar deyil, onlar həm də tənhalığı nadir bir problem halına gətirəcək şəkildə, insanın sosial dünyasının hardasa tamamını təşkil edirlər. Bundan başqa, hər hansı bir yapon iş yoldaşlarının iş yükündən payına düşəni daşıdığını bilməkdən xoşbəxtlik duyar. Qrupla və qrup üçün çalışmaqla şirkətdəki təzyiq iş yoldaşları arasında bölüşülür. Yekunda yapon işçilər, ümumilikdə, Qərbdə çox çalışmağı müşayiət edən stresin böyük hissəsindən uzaq durmaq imkanı qazanırlar. Qərbdən fərqli olaraq, sosial uyğunlaşmanın ən hörmətli sosial dəyər kimi qəbul edilən Yaponiyada rəqabətin və təcavüzkarlığın çox az yeri var.

Qərbdə rəqabətə inkişafa təkan verən faktor kimi baxırlar. Ancaq Yaponiyada rəqabət sözünün belə, dəqiq tərcüməsi yoxdur.

R.Levin yazır ki, araşdırmaçılardan biri yaponların rəqabətə münasibətlərini öyrənmək istəyən zaman xeyli təəccüblənmişdi. Ona görə ki, yaponlara verilən "İşdə rəqabəti bəyənirsinizmi? sualının tərcüməsinin "İşdə nəzakətsizliyi bəyənirsinizmi? kimi olduğunu öyrənmişdi. Yaponiyada "təcavüzkarlıq", "rəqabət" və "inadkarlıq" kimi sözlərin tərcüməsi çətindir. Yaponlar bununla bağlı deyirlər: "Yapon dilində "təcavüzkarlıq" kəlməsi "hücum" anlamına gələn "kiugeki sei" şəklində tərcümə edilir. Hər hansı bir şəxs "kougeki sei" olaraq tərif edildiyində o şəxsin ya düşmən, ya da pis xasiyyətli olduğu düşünülür. Çox mənfi eyhamı var. Qərbdə isə aqressivliyin "inadkarlıq"da olduğu kimi, pozitiv ehyamı da var. Amma inadkarlıq yaponcaya tərcümə edilməsi çətin kəlmədir. Qərbli uşaqlara öyrədilir ki, "Diləyin, sizə veriləcək". Uyğun şəkildə sosiallaşan yapon inanır ki, səssiz olduğunda istəkləri də gələcək.

Göründüyü kimi, rəqabətçi düşmənçilik və əsəb çox çalışmaqda və Yaponiyanın yüksək yaşam sürətində çox az rol oynayır. Ancaq Qərbdə bununla bağlı mənzərə tam başqadır. Qərb mədəniyyətində sürət və zaman, eynilə rəqabət və düşmənçilik arasında incə bir cizgi var.

*Səbuhi MƏMMƏDOV*
*XQ*

*Sağlamlıq*

# Limon – çox işlətməyə son!

**Limon əsrlərdir həm mətbəximizdə, həm də təbabətdə geniş istifadə olunan təbii məhsullardan biridir. C vitamini ilə zəngin olması, təravətləndirici dadı və çoxşaxəli tətbiqi onu həm qida rasionunda, həm də xalq təbabəti ənənəsində xüsusi yerə malik edib.**

Mütəxəssislərin fikrincə, limon orqanizmin immun müdafiəsini gücləndirən C vitamini ilə zəngindir. Soyuqdəymə mövsümündə limonlu içkilər immun sistemini dəstəkləməyə kömək edir. Tərkibindəki bioflavonoidlər və antioksidantlar hüceyrələrin yaşlanmasının qarşısını almağa, sərbəst radikalların təsirini azaltmağa kömək edir. Səhər içilən isti limonlu su bəzi insanlarda həzm sisteminin fəaliyyətini yaxşılaşdırır, qaraciyərin daha aktiv işləməsinə dəstək verir. Limon tərkibindəki kalium və antioksidantlar sayəsində qan təzyiqi və xolesterin səviyyəsinin tənzimlənməsinə müsbət təsir göstərə bilər. C vitamini kollagen sintezində mühüm rol oynayır. Buna görə limon dəri tonunu bərabərləşdirmək və iltihabi prosesləri azaltmaqda faydalı ola bilər.

Bununla yanaşı, limonun düzgün istifadə edilmədikdə bəzi mənfi təsirlərə səbəb ola biləcəyi də unudulmamalıdır. Faydalı olduğunu düşünüb gündəlik qida rasionuna əlavə etdiyimiz bu meyvə sağlamlıqla bağlı bir çox problemlərə yol aça bilər. Belə ki, mütəxəssislər limonun mədə turşusunu artırdığını, yanma və ya həzmsizlik kimi şikayətlərə səbəb olduğunu bildirirlər. Məhz bu səbəbdən mədəsində problemi olanların limondan uzaq durması tövsiyə edilir. Tez-tez istehlak edildikdə zamanla diş minasının incəlməsi ilə də nəticələnir. Ona görə də limon qəbul etdikdən sonra ağız mütləq su ilə yaxalanmalıdır. Onun tərkibində olan bəzi komponentlər xüsusilə böyrəyində daş olan insanlar üçün risk yarada bilər. Belə şəxslərə limon istehlakını məhdudlaşdırmaq məsləhət görülür. Onun həddindən artıq istehlakı böyrəklərdə kristallaşmanı sürətləndirir. Bundan əlavə, limon müəyyən dərmanlarla birgə qəbul edildikdə onların təsirini artıra və ya azalda bilər. Xüsusilə qandurulducu dərmanlardan istifadə edənlər diqqətli olmalıdırlar.



Bəli, limon gündəlik rasionda həm faydalı, həm də ehtiyatla yanaşılmalı məhsullardan biridir. Onun sağlamlığa olan müsbət təsirləri elmi araşdırmalarla geniş şəkildə təsdiqlənsə də, düzgün istifadə edilmədikdə müəyyən narahatlıqlara səbəb ola bilər. Hər bir qida məhsulunda olduğu kimi, limondan da ölçülü və məqsədəuyğun istifadə etmək tövsiyə olunur.

*N.ADİLQIZI*
*XQ*

## HAVA

# Düzən bölgələrdə yağış, dağlıq ərazilərdə qar yağacaq

**Ekologiya və Təbii Sərvətlər Nazirliyinin Milli Hidrometeorologiya Xidmətindən verilən məlumata görə, bu gün Bakıda və Abşeron yarımadasında bəzi yerlərdə fasilələrlə yağış yağacağı gözlənilir. Gecə yarımadanın ayrı-ayrı yerlərində yağışın leysan xarakterli olacağı ehtimalı var. Şimal-qərb küləyi əsəcək.**

Havanın temperaturu gecə 6-9, gündüz 10-12 dərəcə isti olacaq. Atmosfer təzyiqi 761 millimetr civə sütunundan 765 millimetr civə sütununa yüksələcək. Nisbi rütubət gecə 80-90, gündüz 70-75 faiz təşkil edəcək.

Azərbaycanın rayonlarında bəzi yerlərdə arabir yağıntılı olacağı, dağlıq ərazilərdə qar yağacağı gözlənilir. Ayrı-ayrı yerlərdə yağıntının leysan xarakterli olacağı ehtimalı var. Səhər yağıntılar tədricən kəsiləcək. Gündüz hava



şəraiti əksər rayonlarda əsasən yağmursuz keçəcək, bəzi yerlərdə arabir duman olacaq. Qərb küləyi əsəcək.

Havanın temperaturu gecə 3-7, gündüz 9-14 dərəcə isti, dağlarda gecə 0-5 dərəcə şaxta, gündüz 4-8 dərəcə isti olacaq.

*Q.ƏLİYEV*
*XQ*

DİREKTOR – BAŞ REDAKTOR
ƏFLATUN AMAŞOV

TELEFONLAR:
Reklam və elanlar: 493-82-21
Qəbul şöbəsi: 493-24-75
Məsul katib: 493-61-02
Texniki şöbə: 493-59-64
Mühasibatlıq: 498-85-29
Email: xalqqazeti@gmail.com
info@xalqqazeti.az
+994 (51) 280-16-44

"Xalq" qəzeti redaksiyası" MMC-nin kompüter mərkəzində yığılıb və səhifələnib, "Azərbaycan" nəşriyyatında çap olunub.

ÜNVANIMIZ:
AZ-1000, Bakı şəhəri, Bülbül prospekti, 30.
Şəhadətnamə 022273

İNDEKS 0282
TİRAJ 3589
SİFARİŞ 2329
QİYMƏTİ 60 qəpik

Növbətçi redaktor
Paşa ƏMİRCANOV
Çapa imzalanmışdır 00:00